NİZAMİ XUDİYEV ✻ SEÇİLMİŞ ƏSƏRLƏRİ

X

NİZAMİ XUDİYEV

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

X CİLD

ELM VƏ TƏHSİL

Nizami Xudiyev

# HEYDƏR ƏLİYEV
# VƏ
# AZƏRBAYCAN DİLİ

# HAYDAR ALİYEV:
# DEVLET KURUCULUĞU
# VE DİL POLİTİKASI

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVƏ HƏSR OLUNMUŞ YUBİLEY MƏQALƏLƏRİ

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

X cild

**"Elm və təhsil"**
**Bakı – 2014**

# HEYDƏR ƏLİYEV
# VƏ
# AZƏRBAYCAN DİLİ

Elmi redaktoru: **Ağamusa Axundov**
*AMEA-nın həqiqi üzvü,*
*filologiya elmləri doktoru, professor*

**X 90 Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili.**
**Bakı, "Elm və təhsil", 2014.**

Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan dilinin inkişafındakı böyük xidmətlərindən, 70- ci illərin əvvəllərindən başlayaraq onun yürütdüyü milli dil siyasətindən, dilimizin dövlət dili statusu alması və beynəlxalq səviyyəyə yüksəlməsi uğrunda mübarizəsindən bəhs edilir. İlk dəfə olaraq burada böyük ictimai-siyasi xadim və dövlət başçısının ana dili barədə sistemli mülahizələri, nitq mədəniyyəti və natiqlik məharəti zəngin faktlar əsasında təhlil və tədqiq olunur.

Kitab elmi ictimaiyyət və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$\frac{4602000000}{N098-2014}$ *qrifli nəşr*

**© «Təhsil», 1997**
**© «Elm və təhsil», 2014**

*«Dilimiz çox zəngin və ahəngdar dildir,*
*dərin tarixi köklərə malikdir.*
*Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə*
*danışmağımla fəxr edirəm»*

*HEYDƏR ƏLİYEV*

## BİR NEÇƏ SÖZ

Hər bir dili yaşadan və inkişaf etdirən onun mənsub olduğu xalqdır. Dilin hərtərəfli inkişafı, zənginləşməsi, yüksək zirvələrə qalxaraq beynəlxalq nüfuz qazanması xalqın böyük övladlarının adı ilə bağlıdır.

Tarixi təcrübə göstərir ki, dilin inkişafında milli müstəqillik ideyaları və dövlətçilik ənənələrinin, həmin ideya və ənənələri öz fəaliyyətində gerçəkləşdirən və həyata keçirən qüdrətli dövlət başçılarının, xalqının tarixində şərəfli yer tutan böyük siyasi xadimlərin müstəsna rolu olur. Belə qüdrətli dövlət başçısı və siyasi xadimlər cərgəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin adı öz yüksək və layiqli yerini tutur. Mübaliğəsiz deyə bilərik ki, yaşadığımız yüzilliyin son otuz ili ərzində Azərbaycan dilinin hərtərəfli inkişafı, onun təkcə sözdə deyil, gündəlik təcrübədə də ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə - diplomatiya aləminə yol alması, zənginləşə-zənginləşə nüfuz qazanması və dünyanın mötəbər kürsülərindən eşidilməsi görkəmli dövlət başçısı Heydər Əliyevin yorulmaq bilməyən fəaliyyəti və yürütdüyü müdrik, uzaqgörən dil siyasəti ilə bağlıdır. O, 60-cı illərin sonundan öz zəngin təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələd olması sayəsində ardıcıl milli dil siyasəti işləyib hazırlamış və bütün çətinliklərə sinə gərərək onu dönmədən həyata keçirmişdir.

H.Əliyevin 60-cı illərin sonu və 70-ci illərin əvvəllərindən başlayaraq bu günə kimi Azərbaycan dilinin dövlət dili olması, xalqımızm mənəvi mövcudluğunun əsas amillərindən olan dilimizin inkişafı və yüksəlişi uğrunda apardığı mübarizə, gördüyü böyük işlər, onun ana dili, ümumən dil quruculuğu haqqındakı elmi-nəzəri fikirləri, təəssüf ki, hələ indiyə qədər araşdırılmamış, dünyanın ən böyük mütəfəkkir natiqlərindən birinin zəngin nitq təcrübəsi, natiqlik məharəti barədə əsaslı bir söz deyilməmişdir.

Tanınmış dilçi-alim, filologiya elmləri doktoru, professor Nizami Xudiyevin oxuculara təqdim olunan «Heydər Əliyev və Azərbaycan dili» kitabı bu sahədə ilk təşəbbüs olub, ölkə Prezidentinin Azərbaycan dilinin inkişafı, onun dövlət dili statusu alması uğrundakı çoxillik gərgin fəaliyyətinin ayrı-ayrı mərhələlərini əks etdirir.

Azərbaycan dilçiliyinin, ümumən türk dillərinin aktual məsələlərinə həsr edilmiş bir sıra dəyərli monoqrafiya, dərslik və dərs vəsaitlərinin, ölkəmizdə, yaxın və uzaq xaricdə çap olunmuş 25 kitab, 200-dən yuxarı elmi məqalənin müəllifi Nizami Manaf oğlu Xudiyevin adı oxuculara yaxşı tanışdır. Azərbaycan ədəbi dilinin tarixi sahəsindəki araşdırmaları, xüsusilə ədəbi dilimizin tarixini ilk dəfə bütövlükdə əhatə edən «Azərbaycan ədəbi dilinin tarixi» dərsliyi sanballı monoqrafik tədqiqat əsəri kimi alimə böyük nüflız qazandırmışdır. «Heydər Əliyev və Azərbaycan dili» kitabı Nizami Xudiyevin növbəti uğurlu əsəridir.

Elmi ictimaiyyət - filoloqlar, sosioloqlar, tarixçilər, mədəniyyətşünaslar, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitab N.Xudiyevin böyük rəhbər Heydər Əliyevə sonsuz ehtiramının ifadəsi olmaqla bərabər, orijinal elmi- tədqiqat əsəridir.

Təzə-təzə öyrənilməyə başlanan bu mövzunun daha dərindən və ətraflı tədqiqi hələ qabaqdadır. Onun gələcəkdə öz elmi şərhini yeni-yeni əsərlərdə tapacağına şübhə yoxdur. Bu mövzu, həqiqətən, böyük tədqiqatlara layiqdir.

***Ağamusa Axundov***
***AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor***

## AZƏRBAYCAN DİLİ MƏSƏLƏLƏRİ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan elmi, mədəniyyəti, ədəbiyyatı, bütövlükdə mənəvi həyatı barədə müxtəlif mülahizələri yalnız dünən, bu gün üçün deyil, sabah üçün də həmin sahələr üzrə mütəxəssislərin müraciət edəcəyi, faydalanacağı metodoloji-ideoloji əhəmiyyətə malik fikirlərdir. Buna görə həmin mülahizələrin sistemə salınıb öyrənilməsinə, elmi-professional baxımdan şərh edilib dəyərləndirilməsinə, Azərbaycanın dövlət dil siyasəti kimi təhlilinə böyük ehtiyac vardır.

Müasir dünyanın siyasi xadimləri, dövlət qurucuları, yaxud ölkə başçıları arasında çox az şəxsiyyətlər tapmaq mümkündür ki, mənsub olduğu xalqın elmi, mədəniyyəti, ədəbiyyatı ilə bu qədər ardıcıl, məhsuldar və səriştəli bir şəkildə məşğul olsun. H.Əliyev aktiv siyasi fəaliyyətdə olduğu, əsas hissəsini Azərbaycana rəhbərliyə sərf etdiyi otuz ilə yaxın bir dövrdə Azərbaycan mədəniyyətinin inkişafında, elm və incəsənət xadimlərinin yaradıcılığının çiçəklənməsində əvəzsiz rol oynamaqla yanaşı, bir nəzəriyyəçi-mütəfəkkir kimi də çıxış etmiş, heç zaman elmi dəyərini, fəlsəfi məzmununu itirməyəcək fikirlər söyləmişdir. Həmin fikirlərin müəyyən hissəsi H.Əliyevin mənsub olduğu xalqın və uzun zaman rəhbərlik etdiyi, bu gün də çox böyük peşəkarlıqla idarə edib möhkəmləndirdiyi dövlətin dili - Azərbaycan dili haqqındadır.

H.Əliyevin Azərbaycan dili haqqındakı fikirlərini, mülahizə və qeydlərini, heç şübhəsiz, bu sahədə dövlət səviyyəli əməli fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyil - böyük mütəfəkkir-dövlət xadimi Azərbaycan dilinin bir dövlət dili kimi mövqeyinin yüksəldilməsinə çalışmaqla yanaşı, həmin məsələnin həllinin elmi-nəzəri prinsipləri, yolları barədə də düşünmüşdür. O, ana dilinin mənşəyinin, tarixi inkişafının, bugünkü funksional xüsusiyyətlərinin araşdırılması işinə həmişə diqqət vermiş,

Azərbaycan dilçilərinin bu sahələrdə intensiv çalışması üçün dövlət rəhbəri kimi əlindən gələni əsirgəməmişdir.

Müşahidələr, araşdırmalar göstərir ki, H.Əliyevin Azərbaycan dili üzərində çalışmalarını həm bir neçə mərhələdə (70-ci illər, 80-ci illər və 90-cı illər), həm də müxtəlif sahələr (dil siyasəti, dil quruculuğu, dil mədəniyyəti və s.) üzrə nəzərdən keçirib ümumiləşdirmək mümkündür.

Əlbəttə, H.Əliyev dilçi-filoloq deyil, lakin siyasi-ictimai fəaliyyətinin tərkib hissəsi kimi dil məsələlərinə, cəsarətlə demək olar ki, yalnız siyasət xadimi, ictimai xadim olaraq deyil, həm də bir dilçi-filoloq professionallığı ilə yanaşmışdır.

H.Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk illərdən etibarən Azərbaycanın iqtisadi-təsərrüfat problemləri ilə yanaşı, mənəvi-mədəni həyatını da diqqətdən kənarda qoymamış, bu sahədə də böyük işlər görmüşdür. Onun zəngin təcrübəsi, fitri təşkilatçılıq istedadı, həm Şərq, həm də Qərb dünyasını yaxşı tanıması, mənsub olduğu xalqın mentalitetinə bələd olması imkan verirdi ki, respublikanın mənəvi-mədəni iqlimini proqnozlaşdıra, inkişaf perspektivlərini müəyyən edə bilsin. Təsadüfi deyildir ki, 60-cı illərin sonu - 70-ci illərin əvvəllərində H.Əliyevin rəhbərliyi ilə keçirilmiş bir sıra müşavirələrdə iqtisadi-təsərrüfat məsələlərindən daha çox mənəvi-mədəni qayğılardan söhbət getmişdir.

Azərbaycan elminin, mədəniyyətinin yüksəlişi üçün ən müxtəlif yollar arayıb-axtaran, ədəbiyyat, incəsənət xadimləri ilə müxtəlif münasibətlərlə tez- tez görüşən respublika rəhbəri elə ilk illərdən sübut etdi ki, Azərbaycana öz iş üslubuna görə əvvəlkilərdən əsaslı şəkildə fərqlənən birinci katib gəlmişdir. Nəinki yaşlı, hətta orta nəslin də yadındadır ki, H.Əliyevin fəaliyyəti ilk illərdə zahirən heç bir müqavimət doğurmasa da, köhnə iş üsuluna öyrənmiş bir sıra pedant, yuxarıdan əmr gözləyən rəhbər işçilərdə, o cümlədən sxolast elm- mədəniyyət «xadim»lərində müəyyən etiraz doğururdu. Lakin respublikanın yeni rəhbəri işə özünəməxsus novatorluqla yanaşı, elə bir yüksək peşəkarlıq, səriştə və inamla başlamışdı ki, ona müqavimət göstərmək tamamilə səmərəsiz idi.

70-ci illərdə respublikanın iqtisadi, ictimai-siyasi və mədəni-ideoloji həyatında böyük bir dirçəliş yaradan H.Əliyev heç şübhəsiz, dil məsələsinə laqeyd qala bilməzdi. Azərbaycan dilinə münasibət məsələsində H.Əliyevin mövqeyi Moskvanın mövqeyindən kəskin şəkildə fərqlənirdi (bunun o zaman üçün nə demək olduğunu təsəvvürə gətirmək o qədər də çətin deyil), lakin onu da qeyd etmək lazımdır ki, həmin mövqe eyni zamanda ardıcıl analitik məzmuna malik idi: yəni bir sıra elm-mədəniyyət xadimlərinin kəskin millətçi kimi çıxış etməsi, respublikamızda Azərbaycan dilindən başqa hər hansı bir dilin işlədilməsinin qadağan olunması barədəki gizli arzular və s. müttəfiq respublikalardan birinin birinci katibi tərəfindən açıq şəkildə müdafiə oluna bilməzdi və xüsusilə o dövrdə bu cür müdafiə heç əməli nəticə də verməzdi. H.Əliyev Azərbaycan əhalisinin etnik-genetik tərkibini, respublikanın milli-ictimai marağını nəzərə alıb Moskva ilə ən uğurlu kompromis şəraitində özünəməxsus «dil siyasəti» yürüdürdü ki, həmin siyasətin başlıca məqsədi ana dilini daha da inkişaf etdirmək, cilalamaq, müstəqil dövlət dilinə çevirmək, bunun üçün tələb olunan funksional-üslubi imkanlara yiyələndirmək, müəyyən təcrübə qazandırmaq idi.

Respublikanın rəhbəri ana dilinin inkişafı ilə əlaqədar fəaliyyətini bir neçə istiqamətdə qururdu: bunlardan birincisi, heç şübhəsiz, şəxsi nümunə olmuşdur - bunun isə həmişə nə qədər təsirli olduğunu sübut etməyə, yəqin ki, ehtiyac yoxdur.

1970-ci ildə Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin 50 illiyi münasibətilə keçirilən təntənəli yığıncağa gəlmiş H.Əliyev burada ana dilində çıxış etdi. Təbii ki, bundan məqsəd Azərbaycan dilinin yüksək elmi-pedaqoji səviyyədə təbliği idi. Nəriman Nərimanov ənənələrini davam və inkişaf etdirən respublika rəhbəri ana dilinin təbliği işini məhz məktəbdən, bu iş üçün xüsusilə əlverişli olan elmi-pedaqoji sahədən başlayırdı. Eyni zamanda məhz həmin illərdə (söhbət 70-ci illərdən gedir) respublikanın rayonlarını, təsərrüfatlarını gəzib, kənd əməkçiləri ilə görüşən H.Əliyev xalqla öz dilində (Azərbaycan dilində, həm də xalqa anlaşıqh olan bir üslubda) danışır, nəticə etibarilə,

dövlətlə xalq arasında o zamana qədər mövcud olmuş maneələri aradan qaldırmağa çalışır, buna tez bir zamanda nail olurdu.

Lakin rus dilinin mövqeyi respublikada hələ çox güclü idi - nəinki dövlət-idarəçilik sahəsində, cari təsərrüfat, xüsusilə sənaye sahələrində də rus dilindən geniş istifadə olunur, kənddən şəhərə, xüsusilə respublikanın paytaxtına gələn gənclər bu baxımdan müəyyən çətinliklərlə rastlaşırdılar. Azərbaycan KP-nin qurultayları, MK-nın plenumları, bir qayda olaraq, rus dilində aparılırdı ki, 20-ci illərdən formalaşmış bu «ənənə»ni sındırmaq hələ mümkün deyildi...

Müşahidələr göstərir ki, H.Əliyevin Azərbaycan dili ilə əlaqədar düşüncələri 70-ci illərdə onun respublikaya rəhbərliyinin ilk on illiyi dövründə aşağıdakı amillərin təsiri ilə təşəkkül tapıb formalaşmışdır:

a) 50-ci illərdən bəri Azərbaycanı həm daxildən, həm də xaricdən ən müxtəlif mövqelərdən müşahidə etmiş, ölkənin Sovetlər birliyində ictimai-siyasi yerinin nədən ibarət olduğunu, Moskvanın müxtəlif müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda yürütdüyü siyasətin mahiyyətini, nəticələrini, o cümlədən həmin siyasətə qarşı ən zəif etirazları belə çox yaxşı görür, hiss edirdi. Və sadəcə görmək, hiss etməklə kifayətlənmir, çevik ağlı, zəngin analitik təfəkkürü ilə təhlil edib belə bir nəticəyə gəlirdi ki, Azərbaycan dilinin və bu dildə danışan xalqın böyük potensialı, mövcudolma, yaşayıb-inkişafetmə, dünya mədəniyyətinə müəyyən töhfələr vermə imkanı vardır, nə bu dili, nə də bu xalqı məhv etmək, başqa bir dil, başqa bir xalq içərisində əritmək mümkün deyil. H.Əliyev bütün mürəkkəbliyi ilə dərk edirdi ki, Moskva ruslaşdırma siyasəti yürüdür, lakin bu qeyri-humanist, antibəşəri, bayağı siyasət müxtəlif yollarla pərdələnir, bir sıra SSRİ dilləri kimi Azərbaycan dili də dövlətçilikdən, inzibati-idarə sistemindən, elmdən, mədəniyyətdən, maarifdən sıxışdırılır, yalnız məişət dili səviyyəsinə endirilir... Və bu mənfur siyasət xalqını sevən rəhbərdə daxili etiraz doğurmaya bilməzdi;

b) H.Əliyev dünyaya gəldiyi torpağa, ana dilinə, xalq danışıq dilinin incəliklərinə, özünəməxsus mülayimliyinə, səmimiyyətinə, eyni zamanda sərt məntiqinə məhəbbətlə böyümüş bir azərbaycanlı kimi həmin dilin daşıdığı psixoloji gücü, mənəvi enerjini mənimsəmişdi. Rus dilini nə qədər gözəl öyrənib, həmin dildə ölkənin tanınmış ictimai- siyasi xadimlərinin belə qibtə etdikləri bir səviyyədə danışsa, nitqlər söyləsə, məruzələr etsə də, doğma Azərbaycan dilinin cazibəsindən heç zaman qopmamışdı... Respublikaya rəhbərlik etdiyi illərdə müxtəlif müəssisələrdə, xüsusilə kənd zəhmətkeşləri ilə görüşlərində Azərbaycanın müxtəlif regionlardakı danışıq-dialekt təzahürləri ilə yaxından tanış olduqca H.Əliyev xalq dilinin zənginliyini daha dərindən hiss edir, onun ilıq nəfəsini, hərarətini duyurdu.

... O, xalqla ancaq qurultay saraylarında, müşavirələrdə, müxtəlif yığıncaqlarda əlaqə saxlamırdı, Azərbaycana yalnız Bakıdan baxmaq ona respublikaya rəhbərlik etdiyi ilk illərdən yad idi - Azərbaycanı qarış-qarış gəzir, sadə adamlarla görüşür, sadə xalq dilini eşidir, onun gözəlliyini, təravətini hətta öz nitqinə də gətirirdi. Və məhz xalqdan təcrid olunmamağın, xalqla bir nəfəs almağın nəticəsi idi ki, respublika rəhbəri psixologiyası, ictimai-ideoloji mövqeyi və təbii ki, dili etibarilə Moskvanın deyil, nə qədər böyük çətinliklər bahasına başa gəlsə də, övladı olduğu xalqın adamı kimi çıxış edirdi;

c) Bir sıra Moskva xəyallı, rus təfəkkürlü, «inzibatçı» rəhbərlərdən fərqli olaraq, H.Əliyev müasir Azərbaycan elmi-mədəni mühitinə nəinki yüksək qiymət verdi, həm də həmin mühitin sağlam əsaslar üzərində daha da inkişafına qayğı göstərdi. Görkəmli Azərbaycan yazıçılarının, şairlərinin aylarla davam edən yubileyləri keçirildi, respublika rəhbərinin özü Azərbaycan yazıçılarının qurultaylarında iştirak etdi, onlarla yaddaqalan görüşlər, fikir mübadilələri keçirildi... və H.Əliyev əsl Azərbaycan ziyalısının, xüsusilə dillə işləyən ziyalıların - yazıçıların, jurnalistlərin, alimlərin, ümumən qələm sahiblərinin ana dili ilə bağlı sabit mənəvi-ideoloji mövqeyinin nədən ibarət olduğunu bir daha hiss etdi və bu hiss, biz belə güman edirik ki,

ona Azərbaycan dili barədə daha fəal dövlət siyasəti yürütmək imkanı verdi.

Əlbəttə, Azərbaycan ziyalılarının heç də hamısı ana dilini eyni fəallıqla müdafiə etmirdi. Hətta irəlidə daha geniş bəhs edəcəyimiz kimi, 70- ci illərin ikinci yarısında Azərbaycan SSR-in Konstitusiyası (Əsas Qanunu) hazırlanarkən respublika rəhbəri özü yaradıcı ittifaqlara xəbər göndərməli olmuşdu ki, Konstitusiyaya Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması barədə xüsusi maddə salınmasını tələb etsinlər. Yalnız bu xəbər-işarədən sonra yaradıcılıq ittifaqları hərəkətə gəlmiş və Moskvanın müqavimətini qırmaq mümkün olmuşdu... Bununla belə, əsl Azərbaycan ziyalısının mövqeyi (dolayısı ilə, Azərbaycan xalqının iradəsi) H.Əliyevə məlum idi...

H.Əliyev Azərbaycan dili barədə yalnız adi ünsiyyət vasitəsi kimi deyil, qədim tarixi, zəngin mədəniyyəti, müasir dünyada müəyyən ictimai- mədəni mövqeyi olan bir xalqın milli sərvəti kimi düşünürdü ki, o zamankı Azərbaycan ziyalılarının (qeyd edək ki, onların müəyyən hissəsi müxtəlif sahələrdə kifayət qədər böyük vəzifələr tuturdular) çoxu məhz bunu başa düşmürdü. Ona görə də övladlarını rusdilli məktəblərə verməklə, bir növ, milli dilə biganəlik göstərirdilər ki. bu da nəticə etibarilə, ana dilini bilməyən, yaxud zəif bilən, milli məzmununu itirmiş ziyalıların meydana çıxmasına şərait yaradırdı.

Azərbaycan cəmiyyətinin mənəvi-əxlaqi sağlamlığına xüsusi diqqət yetirən H.Əliyev üçün dil məsələsi həmişə əhəmiyyətli bir məsələ olmuşdur - respublika rəhbəri Azərbaycan yazıçıları ilə müxtəlif görüşlərində həmin məsələyə məhz bu cür geniş mənə-vi-əxlaqi problemlər kontekstində qiymət verir, maarif-məktəb, elmi- pedaqoji sahələrdə ana dilinin inkişaf etdirilməsinə ayrıca qayğı göstərirdi. Qeyd etmək lazımdır ki, məhz 70-ci illərdən etibarən Azərbaycanın müxtəlif ali məktəblərində «Ana dili və ədəbiyyat» ixtisası üzrə tələbə qəbulunun həcmi xüsusilə artırıldı, qəbulda ana dilindən yazılı imtahan ən müxtəlif ixtisaslar üzrə məcburi hesab edildi və s.

Eyni zamanda həm rus dilinin, həm Qərb, həm də Şərq dillərinin öyrənilməsi üçün müəyyən tədbirlər həyata keçirilirdi.

Əlbəttə, dövrün ictimai-siyasi, xüsusən ideoloji reallığı belə idi ki, Azərbaycan ziyalısından rus dilini yaxşı bilməyi tələb edirdi (əslində, bu ehtiyac XIX əsrin ortalarından meydana çıxmışdı), lakin bu, o demək deyildi ki, öz ana dilini lazımsız bir şey kimi unudasan... Manqurtlaşasan.... H.Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə məsələni məhz aşağıdakı şəkildə qoymuşdu: hər şeydən əvvəl, ana dilinin ən müxtəlif funksional-üslubi sferalarda inkişafına şərait yaradılmalı, onun tədrisi yaxşılaşdırılmalı, elmi qrammatikasının yaradılması sahəsində tədqiqatlar genişləndirilməlidir, çünki ana dili hər bir xalqın milli varlığının əsas şərtidir;

İkincisi, rus dilinin öyrənilməsi işi təkmilləşdirilməli, xalq, xüsusilə ziyalılar bu dili bilməlidir, çünki rus dili Azərbaycanın da daxil olduğu böyük bir ölkənin, zəngin elmin, nəhəng mədəniyyətin dilidir və dünya elminin, mədəniyyətinin əsas nailiyyətləri barədə də rus dilində məlumat əldə etmək mümkündür;

Üçüncüsü, Qərbin və Şərqin müxtəlif dillərini, xüsusilə dünyada geniş yayılmış ingilis dilini bilmək elm-mədəniyyət xadimlərinin, ziyalıların peşə borcudur.

Göründüyü kimi, böyük siyasətçinin, dövlət (və millət) xadiminin mövqeyi hələ olduqca mürəkkəb münasibətlər dövründə, SSRİ-nin, Moskvanın güclü vaxtı, heç nəyə baxmayaraq, tamamilə aydın idi.

H.Əliyevin siyasi müdrikliyi 70-ci illərin ikinci yarısında Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) hazırlanması və qəbulu zamam özünü bir daha göstərdi - bu zaman Moskvanın, eləcə də Moskvaya xidmət edən qüvvələrin müqavimətinə baxmayaraq, respublikanın rəhbəri böyük iradə nümayiş etdirib Konstitusiyaya dövlət dili ilə əlaqədar xüsusi maddə (73-cü maddə) salınmasma nail oldu.

...Qeyd etmək lazımdır ki, Azərbaycan SSR Konstitusiyasına (Əsas Qanununa) Azərbaycan dilinin dövlət dili olması barədə maddə hələ 1956- cı ildə əlavə edilmişdir (Həmin Konstitusiya-

nın özü isə 1937-ci ildə qəbul olunmuşdu). Bunun səbəbi 50-ci illərin ortalarından başlayaraq Azərbaycanda, ümumiyyətlə Sovetlər İttifaqında xüsusilə mənəvi-mədəni sahələrdə müəyyən demokratizmin getdikcə daha ardıcıl şəkildə bərqərar olması idi. Stalin dövrünün sərt qanunlarından, despotizmdən azad olmuş xalqlar, onların ziyalıları milli məsələyə daha cəsarətlə diqqət verməyə, rus dilinin hakimiyyətinə qarşı çıxmağa başladılar. O dövrün ziyalıları, dilçi-filoloqları çox zaman Sovet dövlətinin qurucusu, Rusiyada sosializmin banisi V.İ.Lenindən müxtəlif sitatlar gətirərək, sosializmdə hər bir millətin «öz müqəddəratını təyin etmək hüququ»nu dil sahəsinə də tətbiq etməyə çalışırdılar. Azərbaycanda da həmin hərəkat getməkdə idi. Xüsusilə B.Vahabzadənin şeirlərində, M.İbrahimovun siyasi-ideoloji fəaliyyətində bu meyil özünü qabarıq göstərirdi.

Lakin H.Əliyevin mövqeyi bir sıra cəhətləri ilə yuxarıda adlarını çəkdiyimiz görkəmli Azərbaycan ziyalılarının mövqeyindən fərqlənirdi. Əvvəla, H.Əliyev təcrübəli və uzaqgörən siyasət adamı kimi ən emosional məsələləri də ancaq ağlın gücü ilə həll etməyə çalışırdı - Azərbaycan cəmiyyətinin o dövrdəki vəziyyəti elə idi ki, dərhal qərar verib bütünlüklə Azərbaycan dilinə keçmək rusdilli əhaliyə, deməli, Moskvaya meydan oxumaq olardı (M.İbrahimovun «təcrübəsi» həmin yolun uğursuzluğunu artıq göstərmişdi); nəhayət, Azərbaycan dili dövlət-idarəçilik sisteminə tədricən, təkmilləşə-təkmilləşə daxil olmalı, milli məmurlar, dəftərxana işçiləri yetişməli idi...

Və bizim fıkrimizcə, H.Əliyevin Azərbaycan dilinin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi təsbitindən dərhal sonra bütün idarələrdə rus dilinin fəaliyyətini dərhal qadağan etməməsi yalnız ehtiyatlı addım deyildi, həm də olduqca müdrik, əsaslı bir mövqe idi. Konstitusiyaya dövlət dili barədə 73-cü maddənin daxil edilməsinə qarşı Moskvanın güclü müqaviməti, eləcə də əvvəllər Azərbaycandakı millətçilik hallarının xüsusi müzakirə və mərkəzin bundan irəli gələn inamsızlığı Azərbaycan Respublikasının rəhbərini, heç şübhəsiz, ehtiyatlı siyasətə məcbur edirdi. Sonrakı dövrün hadisələri də

göstərdi ki, Moskva milli hərəkatın, milli dirçəlişə səbəb ola biləcək hər hansı tədbirin qarşısını almaq üçün hər cür təxribata, «qurşaqdan aşağı zərbələrə» hazır idi.

...50-ci illərin ortalarından gələ-gələ aktivləşən milli, bir sıra hallarda hətta millətçi hərəkat 60-cı illərdə Azərbaycan ictimai-mədəni, xüsusilə ədəbi fikrini çulğamış, böyük sosial-siyasi qüvvəyə çevrilmişdi. Həmin hərəkat müəyyən liberal əlamətlər kəsb etməklə, əslində, 70-ci illərdə də gedirdi. Lakin 70-ci illərdə Moskva yenidən «özünə gələrək» müxtəlif milli respublikalarda millətçiliyə, yaxud yarımmillətçiliyə güclü müqavimət göstərməyə başladı. Məhz bu illərdə həm Moskvada, həm də Azərbaycanın özündə millətçiliyi pisləyən müzakirələr, müşavirələr keçirildi, müsavatçılar əleyhinə kitablar, məqalələr yazıldı. Azərbaycan rəhbərliyinin millətçi mövqe tutduğu barədə Moskvaya hətta «donos» yazanlar (onların içərisində tanınmış ziyalılara da rast gəlmək mümkün idi!) tapıldı...

Lakin respublika rəhbərliyinin milli məsələdə, xüsusən də dil məsələsində siyasət xətti dəyişilmədi - Azərbaycan dilinin Azərbaycan SSR-də dövlət dili kimi işlədilməsi barədə Konstitusiyada ayrıca maddənin olması üzərində israr edildi... Əlbəttə, H.Əliyev çox gözəl bilirdi ki, həmin maddənin qəbul edilməsi ilə dərhal müxtəlif sahələrdə, xüsusilə dövlət idarəçiliyi sistemində Azərbaycan dilinin tam hökmranlığına nail olmaq mümkün deyil, bunun üçün müəyyən vaxt və milli iradə lazımdır. Haqqında söhbət gedən maddədən imtina etmək isə ana dilinin rəsmi olaraq nüfuzdan salınması, rus dilinin meydan sulamasına şərait yaradılması demək idi.

Moskvanın ciddi müqavimətinə baxmayaraq, Azərbaycanın rəhbəri Azərbaycan SSR Konstitusiyasına dövlət dili barədə ayrıca maddənin daxil edilməsi uğrunda mübarizədə qalib gəldi. Respublika ictimaiyyəti o zamankı şəraitdə həmin mübarizənin bütün mürəkkəbliyi və dramatizmini, əlbəttə, müşahidə edə bilməzdi, çünki proseslər «pərdə arxası»nda gedirdi... Rusiya rəhbərliyi dəfələrlə H.Əliyevə müraciət edib, mövqeyindən çəkindirməyə cəhd etsə də, o, müxtəlif yollarla Rusiya

rəhbərliyini başa salmağa çalışmışdı ki, Azərbaycan SSR Konstitusiyasında (Əsas Qanununda) Azərbaycan dili barədə ayrıca maddə olmalıdır.

Qeyd etmək lazımdır ki, SSRİ respublikaları içərisində yalnız üçünün - Azərbaycanın, Gürcüstanın və Ermənistanın Konstitusiyasında dövlət dili barədə maddə var idi. Hətta o zaman millətçi respublikalar kimi tanınan Baltikyanı respublikaların konstitusiyalarına da belə bir maddə daxil edilməmişdi.

H.Əliyevin 1995-ci il oktyabrın 31-də Azərbaycan Elmlər Akademiyasında keçirilən Azərbaycan Respublikasının dövlət dili haqqında Konstitusiya maddəsinin müzakirəsindəki nitqində dediyi kimi, Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili olması barədə ayrıca maddənin mövcudluğu «o zaman şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində çox böyük hadisə idi» («Azərbaycan» qəzeti, 2 noyabr 1995-ci il).

Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında Azərbaycan SSR Konstitusiyası layihəsini hazırlayan komissiyanın sədri H.Əliyevin məruzəsindəki aşağıdakı sözlər tarixi əhəmiyyətə malik idi:

«Azərbaycan SSR-in milli-dövlət və inzibati- ərazi quruluşu» fəslinə dil haqqında xüsusi maddə əlavə etmək məqsədəuyğun sayılır. 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunur:

«Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir».

«Azərbaycan SSR dövlət orqanlarında və ictimai orqanlarda, mədəniyyət, maarif idarələrində və başqa idarələrdə Azərbaycan dilinin işlədilməsini təmin edir və onun hərtərəfli inkişafına dövlət qayğısı göstərir»... («Kommunist» qəzeti, 21 aprel 1978-ci il).

73-cü maddənin qəbulundan sonra H.Əliyev, tam məsuliyyəti ilə deyə bilərik ki, bütün qüvvəsini həmin maddənin həyata keçirilməsinə sərf etmişdir - bunun üçün özünəməxsus bir təşkilatçılıq qabiliyyəti ilə respublikanın milli potensialını, imkanlarını

hərəkətə gətirmiş, anadilli kadrların müxtəlif sahələrdə, o cümlədən dövlət idarəçiliyi sahəsində mühüm yer tutmalarına hər cür şərait yaratmışdır.

Respublika rəhbəri xüsusi əzmkarlıqla qəbul etdirdiyi Konstitusiya maddəsinin həyata keçirilməsi, Azərbaycan dilinin ictimai-siyasi nüfuzunu yüksəltmək üçün aşağıdakı çox mühüm işləri görmüşdür:

I. Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanununun) qəbulundan sonra Azərbaycanda keçirilən qurultay, konfrans, sessiya, müşavirə və s. yığıncaqlarda get-gedə daha ardıcıl şəkildə Azərbaycan dilində danışılmağa başlandı. Əlbəttə, bundan əvvəl də həmin yığıncaqlar tamamilə rus dilində aparılmırdı, lakin hər halda rusca danışanların sayı azərbaycanca danışanlardan çox idi. Eyni zamanda bir faktı da qeyd etmək lazımdır ki, görkəmli siyasi-ictimai xadimlər, dövlət xadimləri, əsas mütəxəssislər rusca, kənddən gəlmiş zəhmətkeşlər, fəhlələr isə, adətən, azərbaycanca danışırdılar və bu da Azərbaycan dilinin ictimai-siyasi nüfuzuna xələl gətirirdi. Ardıcıl şəkildə azərbaycanca danışmağa meyil isə çox keçmədən bu dilin ictimai-siyasi üslubunun sürətlə inkişafına, həmin sahədə itirilməkdə olan nüfuzunun tezliklə bərpasına gətirib çıxardı.

Respublikanın yüksək səviyyəli məclislərindən ana dilinin eşidilməsi Moskvanm xoşuna gəlməsə də, görünür, təsirli əks tədbir görmək mümkün deyildi, çünki Azərbaycan SSR Konstitusiyasında (Əsas Qanununda) dövlət dilinin məhz Azərbaycan dili olması artıq təsbit edilmişdi. H.Əliyevin uzaqgörən siyasəti, əsaslandırılmış hərəkətlərinə qarşı çıxmaq, görülən işlərə hətta Moskva səviyyəsindən mane olmaq daha mümkün deyildi. Azərbaycan dili isə yüksək tribunalardan səslənə-səslənə buna layiq leksik, qrammatik və stilistik keyfıyyətlərə yiyələnir, təkmilləşirdi.

II. Yüksək məclislərdə Azərbaycan dilinə böyük səlahiyyət verilməsi istər-istəməz dövlət idarələrində də ana dilinin tədricən yayılmasına, sənədlərin azərbaycanca hazırlanmasına təkan verirdi-respublika rəhbərinin müxtəlif qurultay, konfrans, müşa-

virə və s. tədbirlərdə ana dilində danışdığını görən nazirlər, komitə, idarə, müəssisə rəhbərləri də, lazımi sürətlə olmasa da, hər halda bu dilin yayılmasına cəhd göstərirdilər.

Azərbaycan rayonlarından ana dilini yaxşı bilən istedadlı gənc mütəxəssislərin Bakıda yerləşdirilməsi, yalnız fiziki güc tələb olunan yerlərdə (fabriklərdə, zavodlarda, mədənlərdə və s.) deyil, dövlət-idarə sisteminin müxtəlif strukturlarında işləmək üçün onlara şərait yaradılması dövlət dilinin, Konstitusiyaya (Əsas Qanununa) görə, işlədilməsi sərbəst olan (yəni qanunla qadağan edilməyən, lakin Azərbaycanda dövlət dili kimi də rəsmən etiraf olunmayan) rus dilini sıxışdırmasına imkan verdi.

Məhz bu dövrdə sıravi azərbaycanlı işçilər Bakıda - Azərbaycan Respublikasının paytaxtında işə girmək, işdən çıxmaq və s. barədə ərizələri daha çox azərbaycanca yazmağa başladılar. Müxtəlif işgüzar sənəd formalarının iki dildə hazırlanması geniş yayıldı və s. Beləliklə, dövlət-idarəçilik dilinin tədricən azərbaycanlaşması qarşısıalınmaz prosesə çevrildi.

III. Respublika rəhbərinin müxtəlif yaradıcılıq ittifaqları, xüsusilə Yazıçılar İttifaqı ilə sıx əlaqə saxlaması, Yazıçılar İttifaqının qurultaylarında iştirakı, tez-tez yazıçılarla görüşməsi və onlarla böyük söz ustasının məhz H.Əliyevin respublikaya rəhbərliyi dövründə yüksək fəxri adlara, mükafatlara layiq görülməsi, maarif-mədəniyyətə, elmə xüsusi diqqət verilməsi (elə buradaca qeyd edək ki, görkəmli dilçilər Ə.Dəmirçizadə, S.Cəfərov, M.Hüseynzadə, Ə.Abdullayev, Y.Seyidov və A.Həsənovun yazdıqları ali məktəblər üçün «Müasir Azərbaycan dili» dərsliyi respublika rəhbərinin bilavasitə köməyi ilə Azərbaycanın dövlət mükafatına layiq görülmüşdü) maarif, mədəniyyət, elm xadimləri ilə H.Əliyevin şəxsi tanışlığı, onlara bilavasitə qayğısı və s. ana dilinin respublikada siyasi nüfuzunun artmasına olduqca əhəmiyyətli təsir göstərirdi. Məsələn, Azərbaycan yazıçısı bilirdi ki, onun ana dilində yazdığı əsər yuxarılarda oxunur, qiymətləndirilir, şəxsən respublikanın rəhbəri imkan tapıb əsərlə tanış ola bilər, teatra gəlib müəllifi ilə birlikdə tamaşaya baxa bilər və s. Ona görə də yazıçı həm həvəslənir, həm də məsuliyyəti artırdı.

Nəticədə Azərbaycan dili yalnız ədəbi-bədii baxımdan inkişaf etməklə qalmır, eyni zamanda həmin dilin nüfuzu güclənir, milli ictimai-siyasi mühitdə mövqeyi möhkəmlənirdi.

H.Əliyevin Azərbaycan yazıçısına, onun dilinə - Azərbaycan dilinə qazandırdığı nüfuzu, müasir dövrdə heç bir ictimai-siyasi xadim qazandırmamışdır. Buna bir daha əmin olmaq üçün Azərbaycan SSR-in dövlət himninin yazıldığı illəri xatırlamaq kifayətdir: Respublika rəhbəri o zaman Azərbaycan poeziyasının, demək olar ki, bütün görkəmli nümayəndələrini yığıb himnin mətninin yazılmasına, redaktəsinə, müzakirəsinə cəlb etmişdi - kimliyindən, mövqeyindən asılı olmayaraq böyük şairlərin hamısı bu işdə iştirak edirdilər... Və beləliklə, dövlət himninin yazılması Azərbaycan poeziyasının (eləcə də həmin poeziyanın dilinin) sözün geniş mənasında, təntənəsinə çevrildi.

IV. H.Əliyev rəhbərliyə gəldiyi ilk illərdən etibarən əsasını qoyduğu ənənəni - Azərbaycanın müxtəlif rayonlarında kənd zəhmətkeşləri ilə görüşlərini 70-ci illərin ortalarından sonra daha da artırmışdı ki, bu görüşlər də xalqın dövlətlə əlaqəsinin genişlənməsinə, milli dövlətçilik şüurunun inkişafına və onun təbii nəticəsi kimi milli dil təfəkkürünün yüksəlişinə təkan verirdi. Yalnız respublikanın paytaxtında — müxtəlif millətlərin yığıldığı «beynəlmiləlçi» adı ilə illər boyu «fəxr eləmiş» Bakıda Azərbaycan dilini ən müxtəlif sahələrdə müdafıə etməklə məqsədə nail olmaq çətin idi, bunun üçün Azərbaycan rayonlarından gələn milli dövlətçilik təfəkkürünə malik gənclərə böyük ehtiyac vardı. Ona görə də mərkəzlə yerlər arasındakı ictimai-siyasi, mədəni- mənəvi əlaqələri intensivləşdirməyə çalışan respublika rəhbəri eyni zamanda ana dilinin dövlət dili kimi nüfuzunu yüksəldəcək milli sosial baza hazırlanmasına xüsusi əhəmiyyət verirdi. Respublikanın rayonlarında nəhəng mədəniyyət saraylarının, məktəblərin, kitabxanaların inşası buna maddi baza yaradırdı. Və 70-ci illərdə artıq elə bir sosial-psixoloji ovqat yaranmışdı ki, Bakıya oxumağa, yaxud işləməyə gəlmiş gənclər rus dilini bilmədikləri üçün daha utanmır, məişətlə yanaşı rəsmi yerlərdə də ana dilində danışdıqlarına görə xəcalət

çəkmirdilər. Bu isə o demək idi ki, milli ictimai təfəkkür Azərbaycan dilinin felən dövlət dili olduğunu qəbul etmişdi.

V. Respublika rəhbərinin özü də müxtəlif yüksək səviyyəli məclislərdə Azərbaycan dilində danışmaqla, bir tərəfdən, ana dilinə siyasi-ictimai mövqe qazandırırdısa, digər tərəfdən zəngin, səlis, məntiqli və təsirli nitqi ilə Azərbaycanca danışmağın gözəl nümunəsini verirdi.

...Bütün bunlar ümumiləşmiş bir şəkildə 70-ci illərin sonlarına doğru Azərbaycanda milli dil təfəkkürünün yüksəlməsinə o qədər böyük təsir göstərdi ki, bunu ancaq XVI əsrin əvvəllərindəki (Ş.İ.Xətainin hakimiyyəti dövründəki) yaxud XX əsrin əvvəllərindəki vəziyyətlə müqayisə etmək mümkün idi. Yenə də məhz bu illərdə Azərbaycan dilinin tarixinə, qrammatik quruluşuna, lazımi elmi səviyyədə olmasa da, nitq mədəniyyətinə dair araşdırmalar aparılırdı.

H.Əliyev Azərbaycan rəhbərliyindən Moskvaya gedəndən sonra onun başladığı işlərə müəyyən qüvvələr bu və ya digər tərəfdən mane oldular - xüsusilə 80-ci illərin ortalarında respublikada rus dilinin fəaliyyət sahələrini genişləndirmək barədə müəyyən göstərişlər verildi; hətta məktəblərdə ana dilinin sıxışdırılması başlandı. Lakin H.Əliyevin səpdiyi toxumlar artıq cücərmişdi və ona görə də respublikada Moskvanın ruslaşdırma siyasətinə qarşı ciddi etiraz meydana çıxdı. Əlbəttə, bu mübarizənin önündə ziyalılar, xüsusilə, dilçi alimlər gedirdilər. Bir qrup dilçi 1989-cu ildə mətbuatda çıxan «1989-1990-cı dərs ili üçün tədris planları»nda rus dilinin tədrisinə ana dilinin tədrisindən daha çox yer verilməsinə etiraz edərək MK-ya xüsusi məktubla müraciət etdi ki, həmin məktubda bu cür suallar qoyulurdu: nə üçün təlimi rus dilində olan orta məktəblərdə Azərbaycan dilinin tədrisi 3-cü sinifdən, Azərbaycan dilində olan orta məktəblərdə isə rus dilinin tədrisi 1-ci sinifdən başlayır? Nə üçün rus dilinin tədrisinə Azərbaycan dilinin tədrisindən daha çox saat ayrılır? Nəyə görə təlimi rus dilində olan məktəblərdə (istər orta, istərsə də ali) Azərbaycan dili fənni fakültativ fənn səviyyəsinə endirilmişdir? və s.

Məktubun təsiri ilə (bu işdə şair B.Vahabzadənin nüfuzu da az rol oynamamışdı) Təhsil Nazirliyi dillərin tədrisinə ayrılmış saatlar arasındakı fərqi aradan qaldırmağa məcbur oldu...

H.Əliyevin ana dilinə verdiyi qiymət, bu dilin inkişafı, yayılması, böyük siyasi-ictimai mövqeyə malik olması üçün gördüyü işlər o, respublikada olmadığı illərdə də cəmiyyətdə, milli ictimai şüurda öz təsir gücünü tamamilə saxlayırdı. Eyni zamanda H.Əliyev Azərbaycanla heç vaxt əlaqəsini kəsmir, respublikada baş verən bütün mühüm ictimai-siyasi prosesləri dərindən izləyir, heç bir sahədə öz köməyini əsirgəmirdi. O cümlədən də elm, mədəniyyət və təbii ki, Azərbaycan dili sahəsində... Böyük ictimai-siyasi xadim, dövlət xadimi 90-cı illərin əvvəllərində - Bakıya qayıtdıqdan sonra yaradıcı ziyalılarla söhbətlərindən birində bizim üçün çox maraqlı olan aşağıdakı sözləri demişdi: «Mən Moskvada işlərkən Azərbaycanda çıxan bütün qəzetləri alırdım. Onların hamısını oxumağa, şübhəsiz, vaxtım olmurdu. Ancaq «Ədəbiyyat qəzeti»ni əvvəldən axıra oxuyurdum...» («Ədəbiyyat qəzeti», 19 iyul 1996-cı il).

Bunlar adi sözlər deyil - Azərbaycan yazıçılarının, millətin söz ustalarının qəzetini «əvvəldən-axıra» oxumaqla H.Əliyev Azərbaycan xalqının inkişaf edən dilini, mənəviyyatını, təfəkkürünü görür, duyurdu ki, vaxtilə bu işə bilavasitə təkan vermiş bir rəhbər üçün həmin müşahidələrin nə qədər əhəmiyyətli olduğunu sübut etməyə, görünür, o qədər də ehtiyac yoxdur.

80-ci illərin ortalarından etibarən Moskvada baş verən mürəkkəb dövlət hadisələri, bunun ardınca respublikada özünü göstərən müəyyən reaksiyalar, nəhayət, 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində gedən inqilabi hərəkat dil məsələsi ilə bağlı bir sıra tarixi problemlərin yenidən aktuallaşmasına, gərgin müzakirələr obyektinə çevrilməsinə səbəb oldu. Azərbaycan xalqının öz müstəqilliyi uğrunda mübarizəsinə həmin mübarizənin üzvi tərkib hissəsi kimi dillə əlaqədar məsələlər də, heç şübhəsiz, daxil idi. Çünki dil etnik-mədəni, idraki-ictimai hadisə olaraq

xalqın, millətin siyasi taleyi həll olunan dövrlərdə qarşıya həmişə birinci dərəcəli problemlərdən biri kimi çıxır.

Azərbaycanın müstəqillik qazanması ilə ana dili məsələsi siyasi-ideoloji müzakirələr obyektinə çevrildi ki, bu da tamamilə təbii idi. Həmin müzakirələr, əsasən aşağıdakı məsələləri əhatə edirdi:

1) ana dilinin sosial-siyasi mövqeyi məsələsi;
2) ana dilinin adı məsələsi;
3) əlifba məsələsi.

Bu məsələlərin həllində H.Əliyevin hansı mövqeyi tutduğu barədə bəhs etməzdən əvvəl məsələlərin özünün qoyuluşu, Azərbaycan cəmiyyətində doğurduğu əhvali-ruhiyyə və s. barədə bir qədər ətraflı danışmağa, elə bilirik ki, ehtiyac vardır.

Birinci məsələ zahirən o qədər də böyük mübahisə doğurmadı: aydın idi ki, Azərbaycan müstəqil bir dövlətə çevrilirsə, deməli, Azərbaycan dili də həmin dövlətin alternativsiz, şəriksiz dilidir. Lakin iş burasında idi ki, dövlət-idarə sistemində, xüsusilə maliyyə sahəsində, hərbi işdə rus dilinin nüfuzu hələ qalırdı, bunu tezliklə aradan qaldırmaq, demək olar qeyri-mümkün idi (Hindistan müstəqillik əldə etdikdən sonra da ingilis dilinin burada dövlət dili olaraq qalması faktı ilə müqayisə edək).

Müxtəlif xarici ölkələrin Azərbaycana müdaxiləsi Azərbaycan dilinin dövlət dili kimi mövqeyinin möhkəmlənməsinə bütün tarix boyu öz mənfi təsirini göstərmişdir. Bütün bunlar azmış kimi, Azərbaycanda bu günə qədər qardaşlıq- dostluq şəraitində yaşamış, vahid Azərbaycan xalqını təşkil etmiş müxtəlif etnosların separatçı ziyalıları - «millət xadimləri» ayrı-ayrı dərnəklər halında birləşərək, ən azı mədəni muxtariyyət tələb edirdilər ki, bunun da mərkəzində dil muxtariyyəti dururdu. Talış, ləzgi, kürd və s. dillərdə məktəb açmaq, mətbuat nəşr etdirmək, hətta bu dilləri dövlət idarəçiliyinə gətirmək cəhdləri ümummilli dilin ictimai-siyasi mövqeyinə qarşı çıxmaq idi.

Məsələnin mahiyyətini ya yaxşı bilməyən, ya da düzgün qiymətləndirməyi bacarmayan Ə.Elçibəy hakimiyyəti etnik azlıqlara müstəqillik verməklə, əslində, nəinki ümumiyyətlə

Azərbaycan xalqının birliyinə və Azərbaycan dilinin on illər boyu qazandığı mövqeyə, hətta həmin etnik azlıqların özlərinə də böyük zərbə vurdu və belə bir təsəvvür yaratdı ki, Azərbaycan xalqı, yaxud milləti «sovet xalqı» kimi əsassız bir anlayışdır, bu ərazidə (Azərbaycanda) müxtəlif xalqlar, etnoslar yaşayırlar, onların məcburi «konsentrasiyası» ilə guya etnik-milli hüquqları pozulmuşdur... Ermənistanın Azərbaycana ərazi iddialarının kulminasiya nöqtəsinə çatdığı bir dövrdə dövlət tərəfindən separatçılığa yol açan xüsusi qərar qəbul edilməsi böyük siyasi səhv idi.

80-ci illərin sonu - 90-cı illərin əvvəllərində Azərbaycan dilinin ictimai-siyasi, ideoloji mövqeyinə təsir edən amillərdən biri də türklük təfəkkürünün aktivləşməsi idi. Azərbaycan xalqı, milli ictimai şüur türklük təfəkkürünün məntiqindən çox emosiyanın təsirini öz üzərində hiss edir, lazımi dərinliyə varmadan bundan ya çox böyük məmnunluq duyur, ya da içdən buna qarşı çıxırdı. Beləliklə, Azərbaycanda iki bir-birinə əks potensial güc-istək mövcud idi.

Məhz bu, ana dilinin adı problemini ortaya çıxardı...

Mütəxəssislərə məlumdur ki, «Azərbaycan dili» anlayışı əsrimizin 30-cu illərində rəsmiləşmiş, buna qədər isə dövlət əhəmiyyətli sənədlərdə «türk dili» işlənmişdir. Əlavə olaraq, müxtəlif rəsmi və qeyri-rəsmi mənbələrdə (bunların əksəriyyəti Rusiya imperiyası dövrünə aiddir) «türk-tatar dili», «Zaqafqaziya tatarlarının (yaxud türklərinin) dili», «Azərbaycan türk dili (yaxud ləhcəsi)» və s. anlayışlardan da istifadə edilmişdir.

«Ana dilinin adı necə olmalıdır?» sualı ortaya çıxanda məsələyə aşağıdakı yanaşma formaları təzahür etdi:

1) Moskva (Stalin) dilimizin adını zorla, xalqın iradəsini nəzərə almadan dəyişdirmiş, «türk» adı repressiyaya uğramışdır;

2) «Azərbaycan» adı bizim üçün çox daima bir addır - bu bizim ölkəmizin, xalqımızın adıdır, dilimizin adına çevrilməsi də tamamilə təbiidir.

Birinci yanaşma forması birmənalı olduğu halda, ikincisi ikimənalı idi; «Azərbaycan dili» adını artıq müəyyən işlənmə təcrübəsi, mövqeyi olduğuna görə qəbul edənlərlə yanaşı bu

anlayışdan antitürk məzmunu çıxaranlar, onu türklüyə qarşı qoyanlar da vardı. Bəziləri (onların içərisində görkəmli elm-mədəniyyət xadimləri də az deyildi) belə bir spekulyativ məqsəd güdürdülər ki, guya ana dilinin «türk dili» adlandırılması ilə xalq «Türkiyə türkcəsi»ndə danışmalı olacaq və i.a.

80-ci illərin sonu - 90-cı illərin əvvəllərində Azərbaycanda ana dilinin adı ilə bağlı üç mövqe formalaşmışdı:

1) «Azərbaycan dili» adını müdafiə edənlər;

2) «Türk dili»nin bərpası tərəfdarları;

3) «Azərbaycan türk dili», yaxud «Azərbaycan türkcəsi» tərəfdarları.

Ana dilinin sosial-siyasi mövqeyi və adı ilə bağlı müzakirə-münaqişələrlə yanaşı, onlardan daha çox əməli və siyasi-ideoloji əhəmiyyəti olan başlıca problem əlifba məsələsi idi: müstəqilliyin qazanılması gedişində respublika ictimaiyyəti arasında kiril əlifbasına qarşı mənfi münasibət meydana çıxıb formalaşırdı, «rus əlifbası» olduğuna görə kirildən imtina edilməsi ilə yanaşı latın əlifbasını qəbul etmək meyili güclənirdi. Eyni zamanda bir sıra qüvvələr, yenə də daha çox siyasi- ideoloji mövqedən çıxış edərək, ərəb əlifbasının Azərbaycanda yayılmasına çalışırdılar.

Beləliklə, müstəqil Azərbaycan dövlətinin qarşısında dil quruculuğu ilə əlaqədar bir sıra çətin məsələlərin həlli dayanırdı ki, bunları ciddi müzakirələrə, dövlətçilik baxımından təhlil edib nəticələr çıxarmağa həqiqətən böyük ehtiyac var idi - həm də bu məsələlər belə müzakirə olunmalı idi ki, nəinki mütəxəssislər, həmin məsələlərlə bilavasitə məşğul olanlar, həmçinin geniş xalq kütlələri, respublikanın ictimaiyyəti də bir qərara gələ bilsin, aydın və obyektiv nəticə hasil olsun. Lakin 90-cı illərin əvvəllərində dillə bağlı problemlərin dərhal həll olunması mümkün deyildi, çünki ölkə öz tarixinin gərgin, münaqişəli, hər tərəfdən təhlükəli illərini yaşayırdı, obyektiv müzakirələr üçün, demək olar, imkan yox idi. Hakimiyyət davaları hər şeyə üstün gəlməkdə, respublikanın mənəvi-siyasi iqliminə öz mənfi təsirini göstərməkdə idi...

80-ci illərin sonu - 90-cı illərin əvvəllərində Azərbaycan dili ilə bağlı gedən müzakirələrin ilkin nəticəsi ondan ibarət oldu ki, 1992-ci ilin sonuna yaxın Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycanda dövlət dilinin türk dili olması barədə qərar qəbul etdi, lakin bu, problemi aradan qaldırmadı.

Sonralar həmin məsələ ilə əlaqədar H.Əliyev demişdi: «1992-ci ilin dekabrında Azərbaycanın Milli Məclisində dövlət dili haqqında məsələ müzakirə edilmişdir. Bu müzakirə nəticəsində qərar qəbul olunub ki, Azərbaycanın dövlət dili türk dilidir. O vaxt mən Bakıda yaşamırdım, Naxçıvanda idim. Eşitdiklərimdən, bildiklərimdən belə hiss etdim ki, bu qərar respublikada birmənalı qarşılanmayıbdır. Bu qərardan çox narazı olanlar da var idi, onu çox bəyənənlər də var idi» («Azərbaycan» qəzeti, 2 noyabr 1995-ci il) və daha sonra əlavə etmişdi: «Mən bunu (Milli Məclis tərəfindən qəbul edilmiş qərarı - N.X.) şəxsən özüm üçün araşdırdım və məlum oldu ki, bildiyiniz kimi, burada özbaşınalığa, volyuntarizmə yol verilibdir».

1992-ci ilin dekabrında Milli Məclisin dövlət dili barədə qəbul etdiyi qərar, həqiqətən bir neçə baxımdan özünü doğrultmurdu:

birincisi, konstitusiya qanunu hüququnda olan yüksək normativ akt bir neçə günlük parlament müzakirələrindən sonra, geniş elmi-ictimai müzakirələr keçirilmədən təcili qərarla «həll edilmişdi»;

ikincisi, Milli Məclisin 50 nəfər üzvündən, ancaq 39-u səsvermədə iştirak etmiş, onlardan 26- sı «türk dili»nə səs vermiş, qalanları ya əleyhinə, ya da bitərəf olmuşdur, beləliklə, ciddi bir məsələyə qeyri-ciddi münasibət göstərilmişdi;

üçüncüsü, «türk dili» adının qəbul edilməsi ilə müəyyən çətinlik, dolaşıqlıq yaranmışdı - «türk dili» deyəndə bunun Azərbaycan türk dili (Azərbaycan türkcəsi), yaxud Türkiyə dili (türk türkcəsi) olduğunu dərhal müəyyənləşdirmək olmurdu...

1992-ci ilin dekabrında qəbul olunmuş qərardan sonra da dil məsələləri ilə bağlı mübahisələr dayanmadı. 1993-cü ilin iyununda Milli Məclisin sədri vəzifəsinə H.Əliyev seçildi,

prezident seçkilərinədək həmin vəzifədə çalışdı. «O vaxt Milli Məclisin bəzi üzvləri bir neçə dəfə məsələ qaldırılır ki, həmin qanun düzgün qəbul edilməmişdir. Yəni o, konstitusiya qanunu kimi qəbul olunmayıbdır - imzalanmasına baxmayaraq bu qanun saxta qanundur» deyən H.Əliyev sonra əlavə edir: «Dedilər ki, gəlin buna yenidən baxaq. Mən buna imkan vermədim. Çünki əgər bir səhv buraxılıbsa, o vaxt buna cürbəcür münasibət olubdur və müəyyən gərginlik yaranıbdır. İndi bu səhvi biz tələsik düzəltməyə başlasaq və ya hesab etsək ki, bunu düzəltmək lazımdır, bu, yeni çətinlik yaradacaq» («Azərbaycan» qəzeti, 2 noyabr 1995- ci il).

Lakin aradan bir neçə il keçəndən, dilin adı ilə bağlı məsələ ətrafındakı ehtiraslar soyuyandan və başlıcası isə, müstəqil dövlətin konstitusiyasını yaratmaq ehtiyacı meydana çıxandan sonra bu məsələyə bir daha qayıtmaq artıq zərurət idi - onun həllindən qaçmaq, sadəcə olaraq, mümkün deyildi. Ona görə də 1995-ci ilin oktyabr-noyabrında, yəni məsələ Milli Məclisdə müzakirə olunub qərar qəbul ediləndən təxminən üç il sonra yenidən müzakirələr başladı.

H.Əliyevin siyasi uzaqgörənliyi, demokratizmi özünü ən yüksək səviyyədə dövlət dilinin (ümumən milli dilin) adı ilə bağlı, demək olar ki, şəxsi təşəbbüsü ilə keçirdiyi müzakirələrdə bir daha göstərdi. Həmin müzakirələrin fikir müxtəlifliyi, demokratizm, peşəkar mütəxəssislərin iştirakı əsasında keçirilməsi təmin olunmaqla yanaşı, mətbuatda, televiziyada obyektiv əksi də təmin edildi.

1995-ci il oktyabrın 31-də Azərbaycan EA Rəyasət Heyətinin binasında keçirilən yığıncaqda Azərbaycan Prezidenti H.Əliyevin nitqi dil məsələsinin yalnız dövlətçilik-qanunçuluq baxımından deyil, elmi-filoloji baxımdan şərhinə görə də mütəxəssislərin diqqətini cəlb etdi. Respublika Prezidenti həmin nitqində aşağıdakı çox əhəmiyyətli (həm ümumiyyətlə, həm də bu müzakirə üçün) məsələlərə toxundu:

- Azərbaycan Konstitusiyalarında dövlət dili məsələsinə münasibət;

- 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbiti məsələsi;

- müstəqil Azərbaycan Respublikası Milli Məclisində dil məsələsinin müzakirəsi, həmin müzakirədən sonra qəbul edilmiş qərarın qeyri- qanuniliyi;

- dilimizin adının yenidən müzakirəsinə, həm də səriştəli auditoriyada müzakirəsinə ehtiyac olması...

Respublika Prezidentinin söylədiyi aşağıdakı sözlər isə yığıncaq iştirakçılarının müzakirədə tam sərbəst olması, ürəklərdən keçənləri açıq bildirmələri üçün, bir növ işarə idi: «Dünən göstəriş verdim ki, bütün dediyim sahələrin nümayəndələri və ümumiyyətlə kim istəyirsə bura dəvət olunsunlar. Mən dedim ki, Yazıçılar Birliyi üzvlərinin hamısını çağırın. Dünən axşam dedilər ki, orada 500 nəfər adam var. Mən dedim ki, onların 500-nü də çağırın. Biri dedi ki, orada bəzi adamlar belə deyə bilərlər, elə də deyə bilərlər. Mən dedim ki, onları da çağırın. Qoy onlar nə deyirlərsə, gəlib burada desinlər. Hər deyilən sözdən bir məna çıxır. Biz bundan niyə qaçmalıyıq ki?...» H.Əliyev qətiyyətli və prinsipial müzakirələrə dəvət etdi: «Bu bizim elə bir işimizdir ki, bunu gərək aşkar, açıq, heç kəsdən qorxmadan, heç kəsdən çəkinmədən müzakirə edək. Ona görə ki, ən düzgün, ən optimal fikrə gəlməliyik».

Azərbaycan Respublikası Prezidenti elmi əsasları qədər də cəsarətli çıxışını belə bir məntiqi nəticə ilə yekunlaşdırdı: «Nəhayət, XX əsrin axırında biz bu məsələləri tam aydınlaşdırmalıyıq və bu məsələyə nöqtə qoymalıyıq ki, bütün söz- söhbətə son qoyulsun.

... Mən bununla öz sözümü qurtarıram. Ancaq iki kəlmə onu demək istəyirəm ki, mən bu danışdığımız dili - buna hansı dil deyirsiniz deyin - çox gözəl dil hesab edirəm. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Qrammatika sahəsində həddindən artıq böyük nailiyyətlərimiz var. Şəxsən mən bu dili sevirəm». H.Əliyevin diqqətlə dinlənilən, alqışlanan bu nitqindən sonra görkəmli elm adamları, tanınmış dilçilər, yazıçılar çıxış etdilər. Onların arasında akad. Fərəməz

Maqsudov, Azərb. EA-nın müxbir üzvləri Məsumə Məlikova və Fuad Qasımzadə, şair və yazıçılar Nəbi Xəzri, Anar, Əkrəm Əylisli, Qabil, Sabir Rüstəmxanlı, professorlar Vaqif Aslanov, Ağamusa Axundov, Tofiq Hacıyev, Musa Adilov, Nizami Xudiyev, Kamil Vəliyev, Yusif Seyidov, Nizami Cəfərov, Qəzənfər Kazımov, Həsən Mirzəyev, Əlisa Şükürov və başqaları var idi.

Müzakirələr nəticəsində Konstitusiyanın müvafiq maddəsinin aşağıdakı variantlarda yazılması təklifləri meydana çıxdı:

1.Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir.

2.Azərbaycan Respublikasının dövlət dili Azərbaycan (türk) dilidir (Azərbaycan türkcəsidir).

3.Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir (Azərbaycan türkcəsidir).

4.Azərbaycan Respublikasının dövlət dili türk dilidir.

Müzakirələrin əhəmiyyətini nəzərə alan respublikanın dövlət başçısı bir gün sonra müzakirələrin Prezident Aparatında davam etdirilməsini qərara aldı. Çox səmərəli keçən bu yığıncaqda H.Əliyevin çıxışlararası söylədiyi mülahizələr, habelə mükəmməl yekun sözü diqqəti cəlb etməyə bilməzdi, çünki burada müzakirə olunan məsələ və müzakirənin özü ilə bağlı çox ciddi mətləblərə toxunulurdu.

Ümumiyyətlə, haqqında söhbət gedən müzakirələr prosesində H.Əliyevin, məsələni dərindən bilən bir şəxs kimi, tamamilə obyektiv mövqe tutduğunu bəri başdan demək lazım gəlir. Və elə bu obyektivliyin nəticəsi olaraq, müxtəlif cür düşünən tədqiqatçılar, yazıçılar, siyasət adamları öz sözlərini, həqiqətən, gizlətmədən dedilər, müəyyən zidd mövqelər ortaya çıxsa da, səmərəli fikir mübadiləsi aparmaq mümkün oldu.

H.Əliyevin sədrliyi ilə keçən yığıncaqda diqqəti cəlb edən məsələlərdən biri o idi ki, sədr çıxış edənləri mətləbdən yayınmağa qoymur, məsələdən tamamilə hali olduğuna görə, tez-tez söhbətə müdaxilə edib heç bir qaranlıq, mübahisəli yer qalmağa imkan vermirdi. Məsələn, xalq yazıçısı Hüseyn Abbaszadənin çıxışında nədənsə fikir bir qədər dolaşıq ifadə

edildi, daha doğrusu, bir məsələ başqa bir məsələyə qarışdı. O dedi: «...1978-ci ildə yeni konstitusiyanı qəbul eləyəndə Azərbaycan Yazıçılar İttifaqında iclas oldu. Həmin iclasın sədri mən idim. İclasda bir məsələdən söhbət getdi. Azərbaycan yazıçıları, Sabir Rüstəmxanlı durub orada təklif elədi ki, Konstitusiyada Azərbaycanın dövlət dili Azərbaycan dili yazılsın. O vaxt belə bir şeyi demək özü çox hünər tələb eləyirdi. Biz, başqa yazıçılar da bunu dəstəklədik, həmin protokolu göndərdik sonra yuxarılara... Sonra bizdən xahiş elədilər, mənə dedilər ki, Hüseyn Abbaszadə, sən iclasın sədri kimi iclasın qərarını yaz göndər. Mən də iclasın qərarını yazıb göndərdim, qol çəkdim altında. Yəni indi Mərkəzi Komitənin arxivində həmin qərar qalır. Azərbaycan yazıçıları həmişə Azərbaycanın dövlət dilinin türk dili olmasını dəstəkləyiblər. Amma Azərbaycan dili...»

Hüseyn Abbaszadənin həmin sözündən sonra H.Əliyevlə onun arasında belə bir polemika getdi:

H.Ə.ƏLİYEV: - Hüseyn müəllim, o vaxt sən yazdın ki, türk dili olsun?

H.ABBASZADƏ: - Yox, Azərbaycan dili.

H.Ə.ƏLİYEV: - Bəs niyə yazmadın?

H.ABBASZADƏ: - O vaxt «türk dili» deyənin dilini boğazından çıxarırdılar (gülüş).

H.Ə.ƏLİYEV: - Çıxaraydılar da, nə olar, yazaydın da...

Və sonra həmin polemika aşağıdakı şəkildə davam etdi:

H.Ə.ƏLİYEV: - Amma bilirsən nə var?... O vaxtlar biz əməkdaşlıq eləyirdik və keçən dəfə də mən dedim, «Azərbaycan dili» yazmaq üçün mən nə qədər arada mübarizə apardım. Amma mən açıq üzünüzə deyirəm, hamınıza, sənə də deyirəm, Bəxtiyar müəllimə də deyirəm, biriniz də o vaxt mənə gəlib deməmişdiniz ki, «türk dili» yazmaq lazımdır.

H.ABBASZADƏ: - Düzdür.

H.Ə.ƏLİYEV: - Heç biriniz deməmişdiniz.

H.ABBASZADƏ: - O vaxt qorxurduq deməyə.

H.Ə.ƏLİYEV: - «Azərbaycan dili» demişdilər, onu demişdilər, amma «türk dili» deməmişdilər... («Azərbaycan» qəzeti, 10 noyabr 1995-ci il).

Xalq yazıçısı Hüseyn Abbaszadənin verdiyi tarixi məlumatlardan, həqiqətən, əvvəl belə çıxır ki, guya 70-ci illərin ikinci yarısında - Azərbaycan SSR-in sonuncu Konstitusiyası hazırlanarkən Azərbaycan Yazıçılar İttifaqı, yaxud ayrı-ayrı yazıçılar Konstitusiyada «Azərbaycan dili» deyil, «türk dili» yazılmasının tərəfdarı olmuşlar, lakin Azərbaycan Prezidentinin suallarına verilən cavabdan məlum olur ki, natiq, əslində, bu gün yazıçıların daha çox «türk dili», yaxud «Azərbaycan türkçəsi»ni müdafiə etdiklərini demək istəyir... O zaman isə yazıçılar, sən demə, «türk dili»ni müdafiə etməkdən qorxurlarmış...

Əlbəttə, burada məqsəd qocaman yazıçının tarixi fakta münasibətindəki, yaxud məntiqindəki dolaşıqlığa diqqət yetirmək deyil, həmin dolaşıqlıq nəticəsində müzakirə prosesində keçmiş günlərdə baş vermiş hadisələr barəsində səhv təsəvvür yaranmasının qarşısını almaqdır. Ümumiyyətlə, H.Əliyevin keçirdiyi bütün müşavirə-müzakirələrin bir əlamətdar cəhəti də ondan ibarətdir ki, qoyulan məsələ hərtərəfli araşdırılır, həm tarixi, həm də müasir baxımdan ətraflı şərh edilir, çıxarılan qərar müzakirələrin məntiqi nəticəsi kimi təzahür edir, göydəndüşmə olmur.

Azərbaycanın müasir ictimai-siyasi və elmi həyatında çox böyük hadisə olan bu müzakirələr H.Əliyevin yalnız yüksək intellektual səviyyəsini, ümumiləşdirmə-mücərrədləşdirmə qabiliyyətini deyil, zəngin təcrübəsini, baş vermiş tarixi hadisələrə bələdliyini, hətta çox mühüm bir hadisənin bilavasitə iştirakçısı olduğunu göstərdi.

Məlumdur ki, H.Əliyev 50-ci illərin ortalarından bəri respublikada gedən prosesləri bir ideoloq-analitik kimi araşdırmış, müəyyən nəticələr çıxarmış, sonralar respublikaya rəhbərlik etdiyi dövrlərdə iqtisadi-təsərrüfat problemləri ilə nə qədər dərindən məşğul olsa da, Azərbaycanın ictimai, mənəvi-ideoloji həyatı ilə daha çox maraqlanmış, cəmiyyətin sosial psixologiyasında baş verən dəyişiklikləri vaxtında görüb dəyərləndirmiş,

müxtəlif məruzə, nitq və adi söhbətlərində bu məsələlərlə bağlı heç zaman köhnəlməyən, milli ictimai təfəkkürün analizini verən qiymətli fikirlər, mülahizələr söyləmişdir. Elə ona görə də ana dilinin - dövlət dilinin adı ilə əlaqədar müzakirələrdə bəzilərinin az qala kəşf kimi söylədikləri faktlara H.Əliyevin çoxdan bələdliyi tamamilə təbii idi...

«...Mən 1969-cu ildən Azərbaycana rəhbərlik eləmişəm, ondan əvvəlki dövrdə də əgər bilavasitə Azərbaycana rəhbərlik eləməmişəmsə, tutduğum vəzifələrə görə Azərbaycanda gedən bu prosesləri həmişə izləmişəm, xüsusən tarix sahəsində, ədəbiyyat sahəsində, elm sahəsində, o cümlədən dil sahəsində. Ona görə də, keçən dəfə də dedim, mən çox şeylərin şahidiyəm. İndi burada oturanların əksəriyyəti gəncdir, onlar bu şeyləri kitablardan deyirlər, amma mən bunların çoxunun şahidiyəm. Mənim özüm də orta məktəbdə oxuyanda, həmin 1937-ci ilə qədər — mən məktəbi 1939-cu ildə bitirmişəm, - əlbəttə ki, orada «türk dili» yazılırdı. Bunun hamısı məlumdur mənə» («Azərbaycan» qəzeti, 10 noyabr 1995-ci il) deyən Respublika Prezidenti müzakirə iştirakçıları»ı məlum tarixi faktların dönə-dönə təkrarından əl çəkib, bugünkü problemin həlli üzərində düşünməyə çağırırdı. Ümumiyyətlə, ictimai elmlər, o cümlədən də dilçilik sahəsində çalışan mütəxəssislərin bəzən əsas məsələni, mətləbi bir tərəfə qoyub şəxsi mövqelərin müxtəlifliyindən irəli gələn intriqalarla məşğul olması, həmin iştirakçıların dövlət dilinin (əslində isə bütöv bir millətin ana dilinin!) adı ilə bağlı müzakirələrə bu cür nüfuz etməsi H.Əliyevin əsaslı tənqidinə məruz qaldı. Və istər müzakirələrin başlanğıcındakı nitqində, istər müzakirə gedişindən replika-şərhlərində, istərsə də yekun sözündə Azərbaycan Prezidenti aşağıdakı prinsiplərə riayət etmək lazım gəldiyini göstərdi:

1. Müzakirədə hər bir kəs tam obyektiv şəkildə, heç bir qüvvənin, o cümlədən respublika rəhbərliyinin təsirinə məruz qalmadan, çəkinmədən məsələ ilə bağlı öz mövqeyini bildirməlidir.

2. Müzakirə olunan məsələnin ciddiliyini, xalq üçün, dövlət üçün əhəmiyyətini nəzərə almaq, ona görə də heç bir emosiyaya qapılmadan mühakimə yürütmək, fikir söyləmək lazımdır.

Polemikalara meydan açmaq, mövqeləri tutuşdurmaq, mübahisələrə imkan vermək lazımdır, ancaq bu şərtlə ki, həmin mübahisələr mətləbdən yayınma hesabına olmasın.

Çıxışlar tarixi həqiqətləri, yaxud yalanları sadalamaq, faktları təkrar-təkrar bu və ya digər şəkildə sıralamaq istiqamətində getməməli, tarixi təcrübə ilə bugünkü reallığın üzvi vəhdətinə əsaslanmalıdır.

Müzakirələr ona yönəlməlidir ki, nəhayət, XX əsrin (buna II minillik də demək olardı!) sonlarında dilimizin adını az-çox yekdil şəkildə müəyyənləşdirə bilək.

H.Əliyev eyni zamanda qeyd etdi: «...Heç kəs hesab eləməsin ki, onun bildiyi elə, ruslar demişkən, «obsolyutnaya istina», yəni mütləq həqiqətdir. Elə deyil. Kim nə qədər bilirsə, bir o qədər də bilmir. Bunu yəqin ki, dərk etmək lazımdır. Ona görə mən istəmirəm ki, məsələni kəskinləşdirəsiniz və o cür kəskin çıxışların da mən tərəfdarı deyiləm, yəni ifrat çıxışlar, ifrat qiymətlər yaramaz. Biz həqiqəti axtarmahyıq» «Azərbaycan» qəzeti, 11 noyabr 1995-ci il).

Böyük mütəfəkkir «həqiqəti axtarmalıyıq» deyəndə özünəməxsus müdrikliklə təsəvvür edirdi ki:

a) ana dilinin adı müasir ictimai təfəkkür üçün tamamilə aydın olmalı, arxaik səciyyə daşımamalıdır;

b) ölkənin, xalqın və dilin adı biri digərini təsdiq etməlidir;

c) milli müstəqillik, milli mənlik qüruru zədələnməməlidir və s.

Buna baxmayaraq, həmin tamamilə aydın təsəvvür əsasında gəlinə biləcək nəticəsini də H.Əliyev «mütləq həqiqət» kimi müdafiə edib müzakirələrin obyektiv getməsinə mane olmaqdan tamamilə uzaq idi.

Son zamanlar «Azərbaycan dili», yaxud «Azərbaycan türkcəsi» ilə «türk dili» yaxud «Türkiyə türkcəsi»nin demək olar ki, eyni dil olduğu fikrini söyləyənlər, Azərbaycan dilində çoxlu türk sözləri işlədənlər mövcuddur. Halbuki ən geci XVII-XVIII

əsrlərdən bu dillər arasında əsaslı fərqlər əmələ gəlmişdir (bu barədə bax: N.Cəfərov. Azərbaycan türkcəsinin milliləşməsi tarixi. Bakı, 1995-ci il, səh. 27-30) və XX əsrin əvvəllərində həmin fərqləri aradan qaldırmağa çox böyük cəhdlər olsa da (bax: N.Xudiyev. Azərbaycan ədəbi dili tarixi. Bakı, 1995-ci il), bu bir nəticə verməmişdir. Ona görə də hətta «Türk dili»nin («Azərbaycan dili»nə, əvvəllər olduğu kimi «türk dili» deyilməsinin) tərəfdarları belə etiraf etməlidirlər ki:

a) əgər hər iki dil («Azərbaycan türkcəsi» və «Türkiyə türkcəsi») sadəcə «türk dili» adlandırılırsa, hər halda bu dillərin əsasən eyni dil olması, yaxud gələcəkdə eyni dil olacaqları arzusu ifadə edilir;

b) əgər belə bir arzu ifadə edilmirsə, deməli, iki müxtəlif dil, faktik olaraq, bir adla - «türk dili» adı ilə adlana bilməz (burada ən azı sadəcə fərqləndirmə xatirinə ölkələrin, yaxud ərazilərin adları atribut şəklində işlədilməlidir: «Azərbaycan türkcəsi», «Türkiyə türkcəsi» - başqa bir yol yoxdur).

Azərbaycan Prezidenti «Azərbaycan dili», yaxud «Azərbaycan türkcəsi» ilə «türk dili», yaxud «Türkiyə türkcəsi» arasında fərq olduğunu, Türkiyədə azərilərin etnik-mədəni bir cəmiyyət kimi fərqləndiklərini qeyd etməkdə tamamilə haqlı idi: «...Gənc vaxtımda türk dilini öyrənmişdim, hətta mənim lüğətim də olubdur - «Azərbaycan- türk lüğəti», sonra «Türk-rus lüğəti». Mən bununla gənclik vaxtımda çox məşğul olmuşam... Mən türkcə danışılan sözlərin, ola bilər, bir faizini-iki faizini başa düşmürəm. Amma bu o demək deyil ki, hamı başa düşə bilər. Hesab eləyirəm ki, mənimlə başqalarının fərqi var. Çünki mən xüsusi öyrənmişəm, dərsliklərlə, lüğətlə işləmişəm, öyrənmişəm. Ona görə də bilirəm...» («Azərbaycan» qəzeti, 11 noyabr 1995-ci il).

H.Əliyev daha sonra dedi: «Türkiyədə eşitmişəm, deyirlər ki, Türkiyədə bir milyona qədər azəri var. Yəni azərbaycanlıdır. Bilirsiniz ki, baxmayaraq orada hamı türkdür, amma yenə seçilir ki, bunlar azəridirlər» («Azərbaycan» qəzeti, 11 noyabr 1995-ci il).

Doğrudan da Türkiyənin Anadolu hissəsində, xüsusilə Şərqi Anadoluda tarixən Azərbaycan türkləri yaşamışlar, onların

folkloru, dialekt-şivə xüsusiyyətləri də Azərbaycan folklorunun, dialekt- şivə xüsusiyyətlərinin eynidir, daha doğrusu, üzvi tərkib hissəsidir. Bu isə iki türk xalqının, biri digərinə nə qədər yaxın olsa da, hər halda fərqli xalqlar olduğunu, müxtəlif dillərdə danışdıqlarını göstərir... Ona görə də «Azərbaycan dili», yaxud «Azərbaycan türkcəsi» ilə türk dili, yaxud «Türkiyə türkcəsi»nin eyniləşdirilməsi, bunların eyni bir dilin müxtəlif ləhcələri olması üzərində israr edilməsi nə elmi-tarixi, nə də müasir siyasi-ideoloji baxımdan özünü doğruldur. Türkiyə türklərinin özlərinin də azəriləri (Azərbaycan türklərini) ölkə daxilində fərqləndirmələri, H.Əliyevin qeyd etdiyi kimi, bu xalqlar arasında milli-mənəvi fərqlərin olmasının nəticəsidir.

Ümumiyyətlə, müasir türkologiya türk xalqları arasındakı etnik-mədəni münasibətləri, fərqləri kifayət qədər dəqiq, aydın metodoloji mövqedən müəyyənləşdirməmişdir ki, bu da məsələyə baxışda bir sıra qeyri-dəqiq mülahizələrin meydana çıxmasına səbəb olur (həmin tipli mülahizələr haqqında söhbət gedən müzakirələrdə də söylənildi). Sovet türkologiyası uzun zaman müsbət cəhətləri ilə yanaşı, belə bir qeyri-elmi müddəanı da təlqin etməyə çalışmışdır ki, guya türk xalqlarının etnogenezi heç də həmişə onların qlottogenezi ilə uyğun gəlmir. Bu isə o deməkdir ki, məsələn, türk (Türkiyə) xalqının mənşəyi Azərbaycan xalqının mənşəyindən fərqlidir, hətta o dərəcədə fərqlidir ki, bu xalqlar etnik baxımdan qohum olmaya da bilər (deyək ki, türklərin etnik mənşəyində yunanlar-bizanslılar, qədim kiçik Asiya etnosları və s, azərbaycanlıların etnik mənşəyində - İran, İber-Qafqaz etnosları və s. ümumi etnos olan türklərə nisbətən çoxluq təşkil edə bilər!?), ancaq bunların dilləri bir kökdəndir... Bu qəbildən olan mülahizələr digər türk xalqları - türkmənlər, özbəklər, qazaxlar, qırğızlar, tatarlar, başqırdlar, Sibir türkləri və b. barədə də söylənmişdir.

İndi ona görə də türk xalqlarının bir-birindən fərqləndiyini söyləyəndə məsələdən o qədər də dərindən hali olmayan bəzi tarixçilər, yaxud filoloqlar psevdovətənpərvərlik, yaxud psevdomillətçilik edərək türk xalqlarının bu və ya digər dərəcədə

eyni xalq olduğunu, faktik olaraq, müdafiə edirlər. Halbuki bir vaxtlar «türk xalqları» ifadəsini işlətmək belə səhv sayılırdı, təxminən həmin anlayışı bildirmək üçün «türkdilli xalqlar» ifadəsi işlədilirdi.

H.Əliyev müzakirəni yekunlaşdıraraq dedi: «Çox mürəkkəb bir məsələni müzakirə edirik və burada deyilən hər bir sözdə həm oktyabr ayının 31-dəki yığıncaqda, toplantıda, həm də bu gün - hər birində həqiqət var. Ona görə mən heç bir kəsin fıkrini, yaxud təklifini, yaxud sözünü rədd etmək istəmirəm və etiraz bildirmək istəmirəm.

Məsələnin nə qədər mürəkkəb olduğunu dərk edərək mən bu cür müzakirənin aparılmasını lazım bilmişəm və buna xeyli vaxt sərf olunmasını tamamilə əsaslı hesab edirəm» («Azərbaycan» qəzeti, 11 noyabr 1995-ci il).

Şübhəsiz, Azərbaycan Prezidenti dövlət dilinin (və ana dilinin!) adı ilə bağlı müzakirələrə bu qədər diqqət verməkdə, onların müxtəlif mütəxəssisin, ictimai, dövlət və siyasi xadiminin məsələyə münasibətini öyrənməkdə, nə düşündüyünü mətbuat və televiziya vasitəsilə xalqa çatdırmaqda haqlı idi. Həmin müzakirə H.Əliyevin ictimai-elmi fikrə nə qədər yüksək qiymət verdiyini sübut etməklə yanaşı, ana dilinin ictimai-siyasi nüfuzunu görünməmiş bir şəkildə qaldırdı. Xalq bir daha əmin oldu ki, Azərbaycan Prezidenti Azərbaycan xalqının təkcə maddi sərvətlərinin deyil, mənəvi- mədəni sərvətlərinin də böyük müdafiəçisidir.

Və başlıcası isə müzakirələr tam demokratik, professional axarda gedərək konkret nəticələrə gəlməyə imkan verdi ki, həmin nəticələri H.Əliyev aşağıdakı (əlavə edək ki, tamamilə dəqiq!) şəkildə ümumiləşdirdi:

«Həm 31-də (1995-ci il oktyabrın 31 nəzərdə tutulur. - N.X) olan çıxışlardan, həm bugünkü çıxışlardan mən belə başa düşdüm ki, 1992-ci ilin dekabr ayında Milli Məclis tərəfindən qəbul olunmuş qanun bəyənilmir. Çünki həm o gün, həm də bu gün çıxış edənlərin tam əksəriyyəti Azərbaycan dili əvəzinə türk dilinin dövlət dili olmasını qəbul etmir. Belədir də... mən belə

başa düşürəm...» («Azərbaycarı» qəzeti, 11 noyabr 1995-ci il). Və H.Əliyev bunu da əlavə etdi ki: «Hətta bizim Konstitusiya komissiyasında bu məsələnin bu cür müzakirəsinə səbəbkar olanlar - Bəxtiyar Vahabzadə, Anar, Elçin Əfəndiyev - onlar da təklif qaldırılarkən demədilər ki, «Azərbaycan dili» əvəzinə Konstitusiyada dövlət dili «türk dili» yazılsın. Onların özü də eyni fıkirdə oldular ki, - indi Elçin deyir ki, «Azərbaycan dili», mötərizədə «türk» - ancaq o dəfə mən belə başa düşdüm ki, «Azərbaycan türk dili», ya «Azərbaycan türkcəsi» - bax belə. Yəni təmiz «türk dili» tərəfdarı olmadılar. Yəni bu məsələnin səbəbkarları və bizim Konstitusiya komissiyasında əsas ideoloqlar həmin o qərara, 1992-ci ildə qəbul olunmuş qərara öz münasibətlərini belə bildirirlər» («Azərbaycan» qəzeti, 11 noyabr 1995-ci il).

Azərbaycan Prezidentinin yalnız və yalnız müzakirə zamanı söylənmiş fıkirlərə əsaslanaraq verdiyi ümumiləşdirməni xüsusi maddələrlə sxematik olaraq belə göstərmək mümkündür:

1. Milli Məclisin 1992-ci ilin dekabrında bir növ «gizli» şəkildə, ciddi bir müzakirə aparmadan, mütəxəssislərlə hesablaşmadan qəbul etdiyi qanun müzakirənin gedişində faktik olaraq bəyənilmir.

2. Mütləq əksəriyyət bu və ya digər səbəbdən «türk dili»nin tərəfdarı kimi çıxış etmir.

3. Müzakirə müəyyən fıkrə, əksəriyyət tərəfındən qəbul olunan qərara gəlməyə imkan verir (yəni «Azərbaycan dili» tərəfdarları üstünlük təşkil edir, «türk dili» deyənlər isə «Azərbaycan dili»ndən qəti imtina etmirlər, daha çox «Azərbaycan türk dili», yaxud «Azərbaycan türkcəsi»ni müdafıə edirlər).

O vaxt qeyri-qanuni şəkildə, ciddi prosedura pozğunluğu ilə qəbul olunmuş qanunun dərhal «həyata keçirilməsi»nə cəhd olunması da Prezident tərəfındən haqlı tənqidə məruz qaldı: «Mən keçən dəfə (1995-ci il oktyabrın 31-də keçirilən yığıncaq nəzərdə tutulur - N.X.) dedim, bizim məktəblərdə, dərsliklərdə, məktəbə təzə gələn uşaqların dərsliklərində ana dili «türk dili» yazılıb, «Azərbaycan dili» yazılmayıb, belə buraxıblar. Ancaq

buna baxmayaraq, mən hiss etmirəm ki, əhali, camaat haradasa deyir ki, bizim ana dilimiz, dövlət dilimiz «türk dili»dir. Demək, o həm qanunvericilik nöqteyi-nəzərindən, konstitusiya nöqteyi-nəzərindən qüvvəsiz bir qanundur, həm də ki, bunu xalq qəbul etməyib» («Azərbaycan» qəzeti, 11 noyabr 1995-ci il).

...Azərbaycan cəmiyyətinin «türk dili»ni müdafiə etməməsi, üstündən 3 ilə qədər vaxt keçməyinə baxmayaraq, milli ictimai şüurun buna müəyyən müqavimət göstərməsi fakt idi ki, fikrimizcə, bu aşağıdakı səbəblərdən irəli gəlirdi:

1. Milli Məclis (xüsusilə onun rəhbərliyi) çox böyük iddia ilə çıxış edərək, xalqın, cəmiyyətin mövqeyini, ovqatını mütəxəssislərin, ümumən ziyalıların münasibətini öyrənmədən, təmsil etdikləri millətlə hesablaşmadan (xalqı saya salmadan) və dövlətçiliyə, qanunçuluğa hörmət etmədən qanun qəbul etmişdi.

2. Qanunun qəbulundan sonra lazımi izahat, təbliğat işləri aparılmamış, Milli Məclis elə qanun qəbul etməklə öz işini başa vurmuşdu - heç qanunun qəbulundan dərhal sonra cəmiyyətdə onun tərəfdarları ilə əleyhdarları arasında gedən, mətbuatda müəyyən yer tutan, milli ictimai təfəkkürdə anormal vəziyyət yaradan mübahisələr, demaqogiya da həmin qanunu qəbul edənləri narahat etməmişdi.

3. Məsələdən («türk dili» adının «ana dili» məzmununda haradan çıxdığından) xəbərdar olanlarla yanaşı, külli miqdarda adam da vardı ki, məsələdən xəbəri yox idi və onlara elə gəlirdi ki, bir halda ki, biz Rusiyadan ayrıldıq, deməli, Türkiyəyə yaxınlaşırıq, ona görə də öz dilimizi atıb türk dilində (Türkiyə türkcəsində) danışacağıq.

4. Əsasən ziyalıların müəyyən hissəsi belə düşünür ki, «Azərbaycan dili» adı 50 ildir xalq tərəfindən mənimsənilib, ərazinin, xalqın adı ilə səsləşir, belə olan halda nə üçün dəyişdirilməli, ortaya əlavə problemlər çıxmalıdır? Odur ki, Milli Məclisin qərarına tərəfdar çıxmadılar.

5. Azərbaycanda yaşayan müxtəlif etnosların nümayəndələri, xüsusilə onların siyasi və mədəni liderləri,

ideoloqları qəti şəkildə «türk dili»nin əleyhinə çıxış etdilər və hətta ifrata varacaq qədər sərt mövqe tutdular və s.

Nəhayət, zahirən sırf daxili problem kimi görünən bu məsələ müstəqil dövlətimizin siyasi imici, xalqımız, millətimiz, onun mədəniyyəti və dilinin beynəlxalq aləmdə dərki və qəbulu baxımından da dərhal öz təsirini göstərdi. N.Tusi adına ADPU-nun Xarici dillər kafedrasının müdiri, prof. Balaxan Hüseynovun «Azərbaycan» qəzetində (14 iyun 1995-ci il) dərc edilmiş «Dilimiz, soy adımız» yazısı (redaksiyaya məktubu) acı bir faktı aşkara çıxarır. AXDİ-nin dosenti Zədulla Ağayevlə birlikdə 1993-94-cü tədris ilində ABŞ-ın bir sıra Universitetlərində olan dilçi alim ürək ağrısı ilə yazır: «olduğumuz bütün yerlərdə respublikamızı təbliğ edir, orada dilimizin tədrisi məsələsi ilə maraqlanırdıq. Əvvəlcədən qeyd edim ki, Amerika Birləşmiş Ştatlarının əksər universitetlərində şərq dilləri öyrənilir. Bəzi universitetlərdə isə Yaxın Şərq İnstitutu, yaxud mərkəzi vardır. Bu universitetlərdə rus, belorus, Ukrayna, polyak, rumın, qazax, türk, özbək, fars, tacik, qırğız, türkmən, uyğur və s. dillər (diqqət yetirin, Azərbaycan dilindən başqa) öyrənilir, tədqiq olunur, hətta vaxtaşırı ayrı-ayrı dillərə həsr olunmuş konfranslar keçirilir. Lakin bizim başıbəlalı dilimiz tədris olunmur. Bunlarla bağlı biz Vaşinqton Universitetinin müvafiq şöbələrində Azərbaycan dilinin tədrisinin vacibliyi barədə məsələ qaldırdıq.

Əvvəlcə onlar bizimlə razılaşdılar və mənə Azərbaycan dilini tədris etmək üçün türk dillərinin proqram və dərsliklərinə uyğun vəsait hazırlamağı tapşırdılar. İki ay müddətində mən həm Azərbaycan dili proqramı, həm də dialoqlardan ibarət vəsait hazırladım. Dərhal Şərq dilləri fakültəsində tələbə və müəllimlərin iştirakı ilə yığıncaq keçirildi və mən «Azərbaycan dili və onun tarixi inkişafı» mövzusunda məruzə etdim. Dosent Z.Ağayev də çıxış etdi. Biz Azərbaycan dilinin tarixi, görkəmli maarifçilərimiz, dilçilərimiz və Azərbaycan dili barədə geniş məlumat verdik. Fakültənin aparıcı professorları bizim çıxışımızdan məmnun qaldılar və bu dilin tədris olunması üçün universitet rəhbərliyi qarşısında məsələ qaldıracaqlarını bildirdilər. Lakin bir neçə

gündən sonra bizi dekanlığa dəvət edib təəssüflə bildirdilər: «Sizə verdiyimiz vədə əməl edə bilməyəcəyik. Çünki sizin dövlət diliniz Azərbaycan dili yox, türk dilidir, respublikanızın Milli Məclisi də dövlət dilinizin türk dili olduğunu təsdiq edib. Fakültədə isə, bildiyiniz kimi, türk dili tədris olunur və iki türk professorumuz var.»

Belə hadisəyə mən Los-Anceles şəhərindəki Kaliforniya Universitetində də rast gəldim.»

Bütün bunları - bu qədər ciddi amilləri nəzərə almayan, məsələnin mürəkkəbliyini nəinki lazımi qədər, demək olar ki, ümumiyyətlə qiymətləndirməyən Milli Məclisin qəbul etdiyi qanunun «ölü doğulması» tamamilə təbii idi. Və Azərbaycan Prezidentinin həmin qanunla əlaqədar söylədiyi əsaslı fikirləri müzakirə iştirakçıları, hətta «türk dili» tərəfdarları da qəbul etməli oldular.

Görünür, Milli Məclis nəzərə almalı idi ki:

a) əsrimizin 30-cu illərinə qədər «türk dili»nin ana dilimiz mənasında işlədildiyini heç də hamı bilmir, bu ad milli ictimai təfəkkürdən, təəssüf etsək də, etməsək də, faktik olaraq silinmişdir;

b) əksinə, «Azərbaycan dili» adı geniş yayılmış, çox möhkəm (və kütləvi) mövqe tutmuş, stabilləşmişdir (eyni zamanda bu ad yad deyil - necə yad ola bilər ki, xalqımızın, ərazimizin, dövlətimizin adıdır);

c) dilin adını, siyasi-ideoloji akt olaraq, dəyişdirmək kimi ciddi məsələ hazırlıqsız, 30 ya 40 (lap olsun 50) adamın məsuliyyət daşıması ilə (onların da müəyyən qismi etiraz edirsə) həll edilə bilməz.

... Azərbaycan Prezidentinin müzakirə zamanı toxunduğu məsələlərdən biri, fikrimizcə, çox böyük elmi-metodoloji, hətta ideoloji məzmun daşıyırdı - Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin, ümumən cəmiyyətinin tarixi ilə məşğul olanlar həmin məsələdə, adətən, iki cəbhəyə ayrılırlar. Bu cəbhələşmə xeyli vaxtdır ki, başlamışdır və bu günə qədər davam edir (əslində

son müzakirələrdə də bir qədər implissit - «gizli» şəkildə özünü büruzə verdi). Söhbət xalqın etnik mənşəyi məsələsindən gedir...

H.Əliyev dedi: «Bizim tariximiz haqqında burada çox fikirlər söylənildi. hətta bu gün «Millət» qəzetində yazıblar ki, Nizami deyibdir ki, mən türkəm, Xaqani belə deyibdir, nə bilim, Füzuli bunu deyibdir, ondan sonra gələnlər də bunu deyiblər. Bunlar hamısı doğrudur. Mən hesab edirəm ki, bütün müzakirələrimiz və gedən bu mübahisələr heç vaxt o qərara gətirib çıxara bilməz ki, biz mənşəyimizi düzgün bilmirik. Biz bilirik mənşəyimizi. Biz türk mənşəli millətik və türkdilli xalqların dilinə mənsub olan dilimiz var. Elədirmi?

YERDƏN SƏSLƏR: -Elədir!

H.Ə.ƏLİYEV: - Bunu inkar edən yoxdur ki?

YERDƏN SƏSLƏR: - Yoxdur.

H.Ə.ƏLİYEV: - Güman edirəm ki, bunu heç kəs şübhə altına almamalıdır. Kimsə əgər başqa fıkirdədirsə, o fıkirdən çəkinməlidir. Yəni bizim mənşəyimiz məlumdur, bizim əcdadlarımız məlumdur» («Azərbaycan» qəzeti, 11 noyabr 1995- ci il).

Azərbaycan Prezidenti tərəfındən həmin fıkrin söylənilməsinə, özü də bu cür inam, qətiyyət və qürurla söylənilməsinə çox böyük ehtiyac var idi və bizə elə gəlir ki, həmin fıkrin söylənməsi müzakirələrdən sonra gəlinən nəticə (dilimizin adının müəyyənləşdirilməsi) qədər əhəmiyyətli oldu. Burada əslində biri digəri ilə bağlı olan üç fıkir ifadə edilirdi:

I. Azərbaycan xalqının mənşəyi məlumdur, yəni xalqımızı genezisi məlum olmayan xalq hesab edənlər səhv edirlər.

2. Azərbaycan xalqı türk mənşəli xalqlardan biridir (əlavə edək ki, burada söhbət qlottogenezdən — dilin mənşəyindən deyil, etnogenezdən - xalqın mənşəyindən gedir).

3. Azərbaycan xalqının türk mənşəli bir xalq olduğunu heç kim (bilərək, yaxud bilməyərək) şübhə altına almamalıdır, yəni müəyyən siyasi-ideoloji məqsədlərlə türklüyümüzü danmamalıdır.

Göründüyü kimi, Azərbaycan Prezidentinin müzakirələrdə tutduğu mövqeyinin dəmir məntiqi etiraf olunmalıdır. Həmin

məntiqin nədən ibarət olduğunu gücümüz daxilində şərh etməyə çalışaq:

Birincisi, H.Əliyev tarixilik prinsipinə əsaslanır - həm də bu, müzakirə iştirakçılarının əksəriyyətinin müraciət etdiyi ayrı-ayrı sistemsiz, yaxud azsistemli faktlara istinad deyil, tarixə əqli nəticə səviyyəsində əsaslanmadır: xalqımızın mənşəyi, dilimizin mənşəyi, dilimizin tarixi təkamülü, müzakirə olunan məsələnin tarixçəsi, problemin 50-70-ci illərdəki vəziyyəti və s.

İkincisi, müasirlik mövqeyindən çıxış edilir - Azərbaycan müstəqil dövlətdir, müxtəlif dövlətlərlə, xalqlarla, tarixən müəyyənləşmiş ən sıx əlaqələrimiz ola bilər, lakin bu bizim müstəqilliyimizi (özümüzü) inkar etməməlidir, günümüzün reallığı nəzərə alınmalıdır, biz həm dünənki xalqıq, həm də dünənki xalq deyilik.

Üçüncüsü, xalqın, cəmiyyətin marağı, mövqeyi, əhval-ruhiyyəsi gözlənilir - müstəqil dövlət qurmaq missiyası ilə çıxış edən bir xalqın, həmin xalqın idealı olan dövlətin ictimai-siyasi marağı nəzərə alınmaya bilməz, bu marağa qarşı durula bilməz, əks halda qəbul edilən qanun, qərar havadan asılı qalacaqdır (Milli Məclisin dövlət dili barəsindəki məlum qərarı kimi).

H.Əliyev öz yığcam yekun sözündə müxtəlif mülahizələrlə zəngin olan müzakirəni həm çox uğurla yekunlaşdırdı, həm də mövzu ilə bağlı daha bir sıra məsələlərə toxundu:

a) Azərbaycan dili, yaxud Azərbaycan türkcəsi son dövrdə - sovet dövründə indiyə qədər görünməmiş bir inkişaf yolu keçmiş, təkmilləşmiş, zənginləşmişdir, ona görə də sovet dövrünün Azərbaycan xalqının, onun mədəniyyətinin, dilinin tarixində guya geriləmə, tənəzzül dövrü olduğu fıkrində olanlar tamamilə səhv edirlər;

b) biz müstəqil dövlətə, müstəqil dövlət isə hər necə olursa-olsun müstəqil, özünəməxsus atributlara meyil edir; günümüzün reallığı belədir və bu reallıq dövlət dili məsələsində də nəzərdən qaçırılmamalıdır;

c) hər bir xalqın öz milli mənliyi vardır. Biz dilimizin adı məsələsinə baxarkən milli mənliyimizi itirməməliyik, ona laqeyd qalmamalıyıq.

Həmin məsələlər üzərində Azərbaycan Prezidenti o qədər də geniş dayanmadı (görünür, ona görə ki, müzakirə gedişində bu məsələlər barədə arabir müəyyən fikir bildirmişdi), lakin onların daha geniş şərhinə ehtiyac vardır.

Məsələn, dilimizin sovet dövründə intensiv inkişafı, hətta, demək olar ki, yenidən formalaşması bir həqiqətdir və bunu konkret faktlar hər addımda təsdiq edir (bu barədə geniş məlumat üçün bax: N.Xudiyev. Azərbaycan ədəbi dilinin sovet dövrü. «Maarif» nəşriyyatı, Bakı, 1989-cu il).

30-cu illərdən etibarən Azərbaycanın bir sıra görkəmli söz ustalarının - yazıçıların, elm adamlarının və s. (onların içərisində S.Vurğun xüsusilə seçilirdi) xidməti nəticəsində XX əsrin əvvəllərindəkindən xeyli fərqlənən bir ədəbi dil - müasir Azərbaycan dili formalaşdı. Doğrudur, müasir Azərbaycan dilinin formalaşmasına (əslində, dilin keyfiyyətinə, normasına, funksional üslub xüsusiyyətlərinə və s.) müəyyən mənfi təsirlər də olmuşdu:

a) Azərbaycan dili əsrlər boyu türk dillərinin əhatəsində, həmin dillərdən biri kimi onlarla qarşılıqlı əlaqədə inkişaf etdiyi halda, sovet dövründə türk dilləri ilə əlaqədən məhrum olunmuşdu. Həm də burada söhbət yalnız Türkiyə türkcəsi ilə deyil, SSRİ tərkibində olan Türküstan, Şimali Qafqaz, Volqaboyu, Krım və s. türklərinin dilləri ilə əlaqədən gedir (onu da əlavə edək ki, SSRİ-də nəinki türk dilləri, hətta slavyan dilləri arasındakı təbii-tarixi əlaqələr də məhdudlaşdırılmışdı). Bu isə ölkəni məhdud cəmiyyətlərin məcmusu halına gətirmək, etnik-tarixi münasibətlərdən məhrum olan həmin cəmiyyətləri sonradan «sovet xalqı»nda birləşdirmək iddialarından irəli gəlirdi və beləliklə, millət etnik yaddaşdan məhrum edilir, dil üçün mühüm şərt olan etnik müəyyənlik tədricən itirilirdi;

b) rus dilinin Azərbaycan dilinə təsiri həddini aşmışdı - bir vaxtlar hətta müvafiq sözlər ola-ola, Azərbaycan dilinə rus dili

vasitəsilə kultura, revolyusiya, soldat və s. sözlər, Azərbaycan əlifbasına я, ю, з və s. spesifik rus dili sözlərini əks etdirən hərflər daxil edilmişdi. Azərbaycan dilinin həm türk dilləri, həm də ümumiyyətlə, dünya dilləri ilə bilavasitə əlaqəyə girmək, qarşılıqlı zənginləşmək imkanı yox idi - bütün əlaqələr ancaq rus dili vasitəsilə gedirdi;

c) Azərbaycan dili formal olaraq Azərbaycan SSR-in dövlət dili idi, lakin nəinki beynəlxalq münasibətlər sahəsinə çıxa bilir, hətta respublika daxilində də rəsmi-işgüzar sahələrdə tam hakim ola bilmirdi...

Lakin bütün bunlara baxmayaraq, Azərbaycan ədəbi dilinin sovet dövründə inkişaf edib zənginləşməsi elə bir sürətlə getmişdir ki, dilimizin tarixində heç zaman bu cür intensiv inkişaf dövrü olmamışdır. Sovet dövründə:

1) müxtəlif funksional üslub sahələrini (bədii, elmi, publisistik, rəsmi-işgüzar və məişət üslubu sahələrini) əhatə edən, normaca sabit müasir Azərbaycan dili formalaşmışdır;

2) fonetik, fonoqrafik, orfoepik normalar müəyyənləşmiş, qısa bir zamanda ərəb əlifbası latın, latın əlifbası isə kirillə əvəz olunsa da, normal əlifba yaradılmış, Azərbaycan xalqı savadlı xalqa çevrilmişdir;

3) lüğət tərkibi zənginləşmiş, terminologiya problemləri qaydaya salınmış, müxtəlif xarakterli lüğətlər hazırlanıb nəşr edilmişdir;

4) qrammatik quruluş demokratik əsaslar (xalq danışıq dili) üzərində, XVII-XVIII əsrlərdən gələn ənənə ilə yenidən təşkil olunmuş, ağır ərəb, fars izafətləri, cümlə strukturları daha elastik milli sintaktik modellərlə əvəz edilmişdir;

5) Azərbaycan dili hər halda rəsmi dövlət dili olmuş, böyük ictimai siyasi nüfuz qazanmışdır;

6) məktəb-maarif sisteminə daxil olmuş, əsas təlim dili kimi fəaliyyət göstərmişdir;

7) mətbuat, radio, televiziya dili kimi inkişaf etmişdir;

8) Azərbaycan dilində yazan onlarla, hətta yüzlərlə böyük şair, nasir, dramaturq, jurnalist yetişmiş, ana dilinin bədii, bə-

dii-publisistik və publisistik üslublarının zənginləşməsi baxımından dəyərli işlər görülmüşdür;

9) Azərbaycan elminin çiçəklənməsi nəticəsində Azərbaycan dilinin elmi üslubu, demək olar ki, yenidən formalaşmış, müxtəlif elm sahələrinə aid ən mürəkkəb fikirləri ifadə etməyə qadir olmuşdur;

10) Azərbaycan dilçiliyi qarşısıalınmaz bir sürətlə inkişaf edib, ayrıca məktəbə - Azərbaycan dilçiliyi məktəbinə çevrilmişdir, akad. M.Şirəliyev, Azərb. EA-nın müxbir üzvü, prof. Ə.Dəmirçizadə, prof. M.Hüseynzadə və b.-nın yaratdığı dilçilik elmimiz bu gün onlarla böyük dilçi ilə təmsil olunur və s. və i.a.

Halbuki bir sıra «ideoloqlar», məsələdən o qədər də hali olmayan bəzi mətbuat işçiləri - publisistlər yeri gəldi-gəlmədi «sovet dövrünü» qırmanclayır, onu yalnız «imperiya dövrü», «hər cəhətdən asılılıq dövrü» adlandırır, bu dövrdəki böyük inkişafı görmək, qəbul etmək istəmirlər.

...Son dövrdə, xüsusilə milli azadlıq hərəkatı gedişində Azərbaycan tarixinin, o cümlədən Azərbaycan dili tarixinin sovet dövrünə münasibət birmənalı olmadığına görə həmin məsələyə toxunan Respublika Prezidenti belə bir fikir söylədi: «Bu gün, əlbəttə, ötən dövrün repressiyaları haqqında demək olar, insanlara edilmiş zülm haqqında demək olar, ədalətsizlik haqqında demək olar. Bunları demək olar. Bu bizim tariximizdir. Tarixi həqiqəti həmişə demək lazımdır. Ancaq bununla yanaşı, əldə olan nailiyyətlərimizi niyə unudursunuz? Bu nailiyyətlərin içərisində - burada deyildi və mən də bunu təsdiq edirəm; bu, şəxsən mənim də fikrimdir, - Azərbaycan dili, indi bunu nə adlandırırsınız adlandırın, Azərbaycan dili bütün tarixi ərzində bu qədər zənginləşməyibdir, nəinki bu 6 ilin içərisində; bu qədər zənginləşməyib, bu qədər inkişaf etməyib, Azərbaycan dilində bu qədər kitablar, bu qədər romanlar, bu qədər şeirlər, bu qədər hekayələr yazılmayıbdır» («Azərbaycan» qəzeti, 11 noyabr 1995-ci il). H.Əliyev tamamilə məntiqi olaraq, bunu da əlavə etdi: «Müstəqil Azərbaycan Respublikası deyəndə biz Azərbaycan Respublikası deyirik. Buna başqa ad vermək olmaz.

Əgər buna kimsə başqa ad versə, bu bizim xalqımıza, millətimizə xəyanət ola bilər. Bu, Azərbaycan Respublikasıdır və bizi Azərbaycan Respublikası kimi tanıyırlar» («Azərbaycan» qəzeti, 11 noyabr 1995-ci il).

Azərbaycan xalqının, mədəniyyətinin, dilinin tarixində bütöv bir dövrün - sovet dövrünün inkar edilməsi, nəticə etibarilə bir sıra çox mühüm problemlərin düzgün həllinə mane olmaya bilməz. Dövlət dili məsələsinin müzakirəsində çıxış edənlərin XI əsrdən, XIII-XIV əsrlərdən, XVI əsrdən misallar gətirdikləri halda, sovet dövründən yalnız mənfi hallara (məsələn, Stalin dilimizin adını dəyişdirdi, imperiya bizə göz açmağa imkan vermədi... və s. kimi az qala spekulyativ səciyyə daşıyan mülahizələrə) müraciət edilməsi, bu dövrdən ümumiyyətlə imtina edilməsi tamamilə qeyri-məntiqi idi və hətta məsələnin obyektiv müzakirəsinə qarşı yönəlmişdi. Belə ki, sovet dövründə ana dilimiz əgər bir tərəfdən həm norma, həm də funksional üslub baxımından inkişaf edib zənginləşmiş, demokratik əsaslar üzərində yenidən təşkil olunub sabitləşmişsə, digər tərəfdən mənsub olduğu xalqın, ölkənin və dövlətin adına uyğun ad da almışdır.

Əlbəttə, Azərbaycan Prezidentinin müzakirə iştirakçılarını çox tez-tez tarixilik prinsipini və reallığı nəzərə almağa dəvət etməsinə ehtiyac var idi, çünki XI əsrdən, yaxud XVI əsrdən, yaxud da XX əsrin əvvəllərindən birbaşa bu günə gəlmək olmaz, yarım əsrdən artıq intensiv inkişaf tarixini inkar edərək, həmin tarixin davamı barədə mühakimə yürütmək olmaz və təbii, o da olmaz ki, tarixi maraqlı və maraqsız, gərəkli və gərəksiz, lazımlı və lazımsız dövrlərə böləsən, yaxud yaşanılmış bir dövrdən imtina edib, tarixi yenidən başlayasan... Eyni zamanda tarixə əsaslanıb bu günün reallıqlarına etinasız yanaşmaqla düzgün qərar qəbul etmək də məntiqdən kənardır. Odur ki, Respublika Prezidenti tamamilə doğru olaraq dedi: «... Biz müstəqil dövlət kimi dünyada artıq öz yerimizi tutmuşuq. Ona görə də hansı qərar qəbul eləyəcəyiksə, gərək bu, milli mənliyimizə, milli məğrurluğumuza toxunmasın... Nizaminin sözləri də bizim üçün

əzizdir, Cəlil Məmmədquluzadənin, Mirzə Fətəli Axundovun sözləri də, Sabirin sözləri də bizim üçün əzizdir, hamısı bizim üçün əzizdir. Amma bugünkü reallıq var...» («Azərbaycarı» qəzeti, 11 noyabr 1995-ci il).

H.Əliyevin həmin sözləri onun yekun nitqində deyilsə də, dövlət dili barədəki müzakirələr üçün çox gözəl bir epiqraf ola bilərdi - əvvəla ona görə ki, burada müstəqil dövlət qurmuş bir xalqın iradəsi, əhvali-ruhiyyəsi, hətta belə demək mümkünsə, siyasi əxlaqı ifadə olunur: ikincisi, dil (dövlət dili, yaxud ana dili) məsələsi milli mənlik məsələsi hesab edilərək, ona Azərbaycana rəhbərlik etmiş adamların indiyə qədər heç birinin vermədiyi bir qiymət, dəyər verilir; üçüncüsü isə, müzakirə edilən həmin məsələyə bir aydınlıq gətirilir, düzgün mövqe tutmağın, demək olar ki, metodologiyası verilir.

Azərbaycan Prezidentinin yuxarıdakı sözləri deyərkən keçirdiyi həyəcanı hiss etməmək, övladı olduğu millətin və onun dilinin müstəqilliyini hər şeydən yüksək tutduğunu, onunla qürurlandığını duymamaq mümkün deyildi - öz taleyini xalqının taleyindən kənarda təsəvvür etməyən H.Əliyev əlavə etdi: «...Biz gərək milli mənliyimizi həmişə yüksək saxlayaq. Bilirsiniz, mən uzun həyat yolu keçmişəm, bu gün də yaşayıram, sizinlə birlikdə işləyirəm. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə mən istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək...» («Azərbaycan» qəzeti, 11 noyabr 1995-ci il).

Dillə bağlı müzakirələrin etnik münaqişə, ictimai-siyasi ziddiyyət, elmi ixtilaf deyil, milli mənlik şüurunun yüksəlişinə yönəldilməsi, nəticə etibarilə buna gətirib çıxarması həmin müzakirələrin keçirilməsinə, gedişinə, nəticələrinin konstitusiyada təsbit olunmasına rəhbərlik etmiş H.Əliyevin xalq qarşısında göstərdiyi çoxlu sayda tarixi xidmətlərdən biri idi və heç şübhəsiz, gələcəkdə Azərbaycan dili və xalqının tarixindən bəhs edən tədqiqatçılar bu məsələ üzərində daha çox duracaq, daha

ətraflı şərh verəcəklər... Bu gün ancaq onu demək lazımdır ki, milli mənlik şüuru bizə yalnız çox böyük məsələ olan dil məsələsində deyil, iqtisadi, ictimai-siyasi, mənəvi-ideoloji həyatımızın ən müxtəlif sahələrində lazımdır - həm də sözdə, demaqogik bir şəkildə deyil, işdə, fəaliyyətdə, cəmiyyətimizin mənafeyi naminə konkret hərəkətlərdə lazımdır. H.Əliyevin dediyi kimi, milli mənliyi olmayan millət, eləcə də həmin millətin rəhbəri çətin vəziyyətlərdən baş çıxara bilməz...

Müzakirələrdən artıq yarım ildən də çox vaxt keçmiş, Azərbaycan Respublikasının ilk müstəqil Konstitusiyası qəbul olunmuşdur - elə bilirik ki, bu gün həmin müzakirələrin tarixi əhəmiyyəti, başlıcası isə konkret nəticələri barədə bəhs etmək, bir sıra məsələlərə emosiyasız münasibət bildirmək mümkündür. Azərbaycan Prezidentinin bilavasitə rəhbərliyi ilə keçirilmiş müzakirələrin aşağıdakı əhəmiyyəti oldu:

1. Milli Məclisin 1992-ci ilin dekabrında qəbul etdiyi qanunun doğurduğu ictimai narazılıq, anlaşılmazlıq və narahatlıq, demək olar ki, qısa bir zamanda aradan qalxdı - iki müxtəlif dilin eyni bir adla adlandırılmasına son qoyuldu, bu baxımdan ortaya çıxan problemlərin həlli üçün şərait yarandı.

2. Yalnız ana dilinin adlandırılması ilə bağlı məsələ həll edilmədi, eyni zamanda müzakirələrdə Azərbaycan dilinin tarixi, müasir vəziyyəti, ictimai-siyasi problemləri ilə bağlı bir sıra çox ciddi məsələlərə toxunuldu, milli-mənəvi problemlər qaldırıldı ki, bütün bunlara da ehtiyac var idi.

3. Müzakirələr ana dilinin nüfuzunu artırdı, məlum oldu ki, dövlət nə qədər mühüm məsələlərlə məşğul olsa da, vaxt tapıb dil məsələsini tələsmədən müzakirə edir, onun cəmiyyətdəki, dövlətdəki mövqeyini lazımınca qiymətləndirir və milli müstəqilliyin əsas əlamətlərindən, göstəricilərindən biri sayır.

4. Dil barəsindəki müxtəlif mülahizələr, mütəxəssislərin fikirləri, xüsusilə H.Əliyevin həm müzakirədən əvvəl, həm də müzakirənin gedişi və yekununda söylədiyi fikirlər Azərbaycan cəmiyyətində milli mənlik şüurunun, müstəqillik duyğusunun güclənməsinə təsir göstərdi və belə bir meyil aşıladı ki, biz hər

hansı məsələ olursa-olsun, ona öz tariximizin, bu günümüzün və gələcəyimizin mənafeyi baxımından yanaşmalı, heç bir kənar qüvvənin təzyiq-təklifi ilə hərəkət etməməliyik.

5. Müzakirələr göstərdi ki, H.Əliyevin rəhbərlik etdiyi dövlət xalqın iradəsini sözdə deyil, işdə ifadə edir; tarixi əhəmiyyəti olan məsələləri bağlı qapılar arxasında deyil, onlarla tanınmış mütəxəssisin, məsələni dərindən bilən adamların açıq müzakirəsi ilə həll edir, müzakirələr geniş xalq kütləsinin gözləri qarşısında gedir.

6. Nəhayət, bir məsələ bir daha aydın oldu ki, Azərbaycan Prezidenti dərin ağlına, zəkasına, müdrikliyinə, çoxillik təcrübəsinə əsaslanaraq, ən müxtəlif problemlərlə bağlı ən uğurlu həll yolları göstərmək, ən düzgün qanunlar, qərarlar qəbul etmək, Azərbaycan xalqının mədəni-mənəvi inkişafına istiqamət vermək iqtidarındadır.

Müzakirələr bu tədbir iştirakçılarının - dilçilərin,yazıçıların, tarixçilərin, ədəbiyyatşünasların, filosofların, ictimai-siyasi xadimlərin və eləcə də geniş ictimaiyyətin ürəyincə oldu, onlar bir daha hiss etdilər ki, mənsub olduqları dilin həqiqi sahibidirlər, onların mövqeyi ilə hesablaşan, fikirlərini dinləyən, sözlərini eşidən dövlət var, çox mürəkkəb elmi, ideoloji məsələləri özünəməxsus zərgər dəqiqliyi ilə araşdıran, dəqiq nəticələr çıxaran Prezident var və bu onlarda Azərbaycanın, Azərbaycan dilinin gələcəyinə böyük ümidlər doğurdu və doğurmaya bilməzdi!

* * *

Azərbaycan dili barədəki tarixi müzakirələrdən sonra dil məsələsi Azərbaycan Prezidentinin müxtəlif çıxışlarında daha tez-tez öz əksini tapmaqdadır. 1996-cı ilin fevralında müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumundakı nitqində H.Əliyev demişdir: «...Məni bu gün bu forumda sevindirən cəhətlərdən biri də o oldu ki, çıxış edən bütün gənclər Azərbaycan dilində çox sərbəst, səlis danışırdılar. Bilirsiniz, bir il bundan öncə bunu görmək mümkün deyildi. Keçmiş illərin müəyyən xüsusiyyətlərinə görə Azərbaycan dili Azərbaycanda

lazımi qədər inkişaf edə bilməmişdi. Doğrudur, biz buna çox çalışmışdıq, 60-cı, 70-ci, 80-ci illərdə bu barədə çox səylər göstərilmişdi. Ancaq Azərbaycan dili hakim dil ola bilməmişdi...

... Açıq demək lazımdır ki, biz müstəqil dövlət deyildik, ümumi bir dövlətin tərkibində idik, ümumi bir dövlətin dili ilə çoxları danışırdı. Ona görə də bəzi adamlarda, təəssüf ki, öz dilinə düzgün münasibət yox idi. Mənim xatirimdədir, keçmiş komsomol qurultaylarında gənclərin çoxu Azərbaycan dilində danışmırdı. Azərbaycan dilində danışmaq istəyən də səlis, cazibədar danışmırdı. Amma bu gün burada çıxış edənlər məni nə qədər heyran etdilər, bizim dilimizin zənginliyini, bu gün Azərbaycanda hakim dil olmasını nümayiş etdirdilər...» («Azərbaycan» qəzeti, 6 fevral 1996-cı il).

Azərbaycan Prezidentinin gəncliyə üz tutması, onların nitqində səslənən Azərbaycan dilinin səlisliyindən, gözəlliyindən danışması, ümumiyyətlə, Azərbaycan gəncləri ilə görüşündə bu məsələyə xüsusi diqqət verməsi böyük siyasi-ideoloji əhəmiyyətə malikdir. Həqiqətən, 80-ci illərin sonlarına qədər böyük rəsmi məclislərdə Azərbaycan dilində düzgün, ifadəli, səlis danışığa çox nadir hallarda rast gəlinirdi. Bunun bir sıra səbəbləri vardı:

1) rəsmi məclislər, adətən, rus dilində keçirilir, həmin məclislərdə Moskvadan gəlmiş qonaqlar iştirak edirdilər (görünür, məclislərin rusca keçirilməsi həm də onlara anlaşıqlı olması üçün idi);

2) əsasən, 50-ci illərdən başlayaraq ziyalı ailələri öz uşaqlarını rusca orta məktəblərə qoymuşdular ki, gələcəkdə ali təhsil almaq, yüksək vəzifələrdə işləmək imkanları olsun (rus dilini sərbəst bilməyən şəxsləri respublikada yüksək dövlət vəzifələrinə, faktik olaraq, qoymurdular);

3) partiya, dövlət, hökumət, hətta komsomol orqanlarında çalışan azərbaycanlıların əksəriyyəti orta, yaxud ali məktəbləri rusca bitirmiş şəxslər olduqlarına, ana dillərini ya heç, ya da yaxşı bilmədiklərinə görə iclaslarda rusca danışırdılar;

4) qurultaylarda, konfranslarda, sessiyalarda, görüşlərdə və tədbirlərdə Azərbaycan dilində, bir qayda olaraq, azsavadlı adamlar, kənd zəhmətkeşləri, bir növ «həyatın dibi»ndən gələnlər danışırdılar ki, onların da nitqi, demək olar, heç zaman qaydasında olmurdu;

5) Azərbaycan ədəbi dilinin şifahi forması orta məktəblərdə yaxşı öyrədilmir, orta məktəb məzunları yüksək kürsülərdən danışmağa psixoloji baxımdan da hazır olmurdular, məktəbdən çoxdan ayrılan şəxslərin yazılı nitqindən fərqli olaraq şifahi nitqində yerli dialekt, şivə xüsusiyyətlərinin təsiri özünü sıx-sıx göstərirdi və s.

Bütün bunlar imkan vermirdi ki, Azərbaycan dili yüksək kürsülərdən, televiziyadan, radiodan və s. özünəlayiq səviyyədə səslənsin... Müstəqillik əldə ediləndən bir neçə il sonra Azərbaycan dilinin həmin sahələrdə müəyyən yer tutduğu diqqəti cəlb etdi, dilimiz rəsmi məclislərdən daha inamla, daha səlis şəkildə eşidildi, lakin möhtərəm Prezidentin Azərbaycan gənclərinin birinci forumunda dillə bağlı dediklərinin tamamilə doğru olduğunu qəbul etməklə yanaşı, onu da qeyd etməliyik ki, bu sahədə hələ də bir sıra problemlər axıracan öz həllini tapmamışdır:

a) məktəbəqədər tərbiyə müəssisələrində, ümumtəhsil məktəblərində, eləcə də ali məktəblərdə yazılı nitqin inkişafına fikir verildiyi qədər şifahi nitqin inkişafına diqqət yetirilmir, zəruri dərsliklər, dərs vəsaitləri çatışmır;

b) Azərbaycan ədəbi dilinin şifahi forması üzərində dilçi-mütəxəssislərin apardıqları iş yarıtmaz dərəcədədir - indiyə qədər az-çox mükəmməl orfoqrafiya lüğəti tərtib edilib buraxıldığı halda orfoepiya lüğətləri, demək olar ki, buraxılmamışdır (yalnız kiçik həcmli bir orfoepiya lüğəti çap olunmuşdur ki, o da mövcud tələblərə cavab vermir). Yalnız bir-iki faktı xatırlatmaq kifayətdir: sonu «q» ilə bitən ikihecalı sözlər bu günə qədər dörd cür tələffüz edilməkdədir: uşaq-uşak-uşax-uşağ, ayaq-ayak-ayax-ayağ, bayraq-bayrak-bayrax-bayrağ, torpaq- torpak-torpax-torpağ və s, sonu «k» ilə bitən ikihecalı sözlərdə həmçinin:

ürək-ürəy-ürək-ürəh; çörək-çörəy; çörək-çörəh, dirək-dirəy-dirəg-dirəh və s;

c) radio, televiziya Azərbaycan ədəbi dilinin şifahi formasını hələ də, lazımınca təbliğ edə, sərbəst danışığa, çıxış edənlərin öz fikirlərini səlis ifadə etməsinə nail ola bilmir...

Milli televiziyanın 40 illik yubileyinə həsr olunmuş təntənəli gecədəki çıxışında H.Əliyev dil məsələsinə toxunaraq demişdir: «...Müstəqil Azərbaycan Respublikasının gələcəyi üçün ən əsas vasitələrdən biri ana dilimizin, dövlət dilimizin inkişaf etdirilməsidir... Azərbaycan dilinin təbliği sahəsində televiziya çox iş görə bilər... Bu, televiziya işçilərinin qarşısında duran çox böyük vəzifədir və mən bunu xüsusi qeyd edirəm.

Elm, mədəniyyət xadimlərimiz televiziya vasitəsi ilə çıxış edərkən, söhbətlər, mübahisələr apararkən Azərbaycan dilində nə qədər səlis danışsalar, o qədər çox seviləcəklər və xalqımızın ana dilini, dövlət dilini mənimsəməsi, öyrənməsi üçün o qədər də kömək edəcəklər...» («Azərbaycan» qəzeti, 18 fevral 1996-cı il).

Azərbaycan Prezidentinin müxtəlif vaxtlardakı çıxışlarına əsaslanaraq deyə bilərik ki, o, ana dilinin inkişafı, xalqın öz dilini yaxşı mənimsəməsi üçün aşağıdakı şərtlərin lazım gəldiyini göstərir:

1) dil üzərində dilçi-mütəxəssislərin, elmi- dilçilik müəssisələrinin ciddi çalışması, müxtəlif lüğətlərin, elmi qrammatikaların, elmi-praktik vəsaitlərin hazırlanması;

2) yazıçıların, eləcə də müxtəlif sahələr üzrə alimlərin, dillə işləyənlərin dili zənginləşdirmələri, xalq danışıq dili ilə ədəbi dil arasındakı əlaqəni daha da genişləndirmələri, ədəbi dili ən müasir fikirləri ifadə etməyə hazır hala gətirmələri;

3) məktəb-maarif sisteminin, ali təhsilin daha da inkişaf edib təkmilləşməsi ilə Azərbaycanda əsas təlim dili olan Azərbaycan dilinin yüksəlişi;

4) radionun, televiziyanın, mətbuatın daha işgüzar, daha səviyyəli, daha professional fəaliyyət göstərməsi nəticəsində ana dilinin canlılığının, ifadəliliyinin və təsirliliyinin artırılması;

5) ana dilinə dövlət qayğısı və s. Azərbaycan Prezidenti müxtəlif çıxışlarında dillə məşğul olan mütəxəssislərin - dilçilərin əməyinə həmişə yüksək qiymət vermişdir. Dövlət dili ilə bağlı müzakirələrə, demək olar ki, respublikanın bütün görkəmli dilçilərini dəvət etməsi, onların bir- birindən bəzən əsaslı şəkildə fərqlənən mülahizələrini diqqətlə dinləməsi də həmin yüksək qiymətin, münasibətin bilavasitə təzahürü idi. Və yalnız bu gün yox, 70-ci illərin sonlarında dördcildlik «Müasir Azərbaycan dili» dərsliyinə dövlət mükafatı verilməsini məsləhət görərkən də H.Əliyev dilçilərin böyük əməyini, müqəddəs işini dəyərləndirmişdi.

Azərbaycan dilçiləri xüsusilə 70-80-ci illərdə Azərbaycan dili tarixinə, Azərbaycan ədəbi dilinin Şimal və Cənub təzahürlərinə, Azərbaycan dilinin türk dilləri içərisində yerinə, fonetika, leksika və qrammatika problemlərinə, üslubiyyat məsələlərinə, müxtəlif sistemli dillərin qarşılıqlı əlaqələrinə, tipoloji müqayisəsinə dair maraqlı tədqiqat işləri aparmış, kitablar, dissertasiyalar, məqalələr yazmışlar - Azərbaycan dilinin, Azərbaycan elminin, mədəniyyətinin inkişafında onların da böyük xidmətləri olmuşdur. Odur ki, Azərbaycan Prezidenti dillə bağlı müzakirədə dedi: «...Dilimizin böyük qrammatikası yaranıbdır. Böyük dərsliklər, əsərlər var. Respublikamızda böyük dilçilik institutu mövcuddur. Bizim böyük dilçilərimiz var, - yadımdadır, akademik Şirəliyev, Dəmirçizadə, - mən o vaxtkı adamları deyirəm, indi yaşayan alimlər adlarını demədiyimə görə məndən inciməsinlər. Bəli, bizim böyük alimlərimiz vardır» («Azarbaycan» qəzeti, 2 noyabr 1995-ci il).

Azərbaycan dilinin inkişaf edib bugünkü səviyyəyə çatmasında həmin dilçi alimlərin xidmətini inkar etmək mümkün deyil. Və onu da inkar etmək mümkün deyil ki, Azərbaycan dilçiliyinin yüksəlişində H.Əliyevin özünün bilavasitə xidməti olmuşdur - respublikaya rəhbərlik etdiyi 70-ci illərdə H.Əliyev dövlət dilinin tədqiqi məsələsi ilə həmişə maraqlanmış, Azərb. EA Dilçilik İnstitutunun, ali məktəblərin müvafiq fakültə və kafedralarının işinə yüksək qiymət vermiş, görkəmli dilçilərin

(M.Şirəliyev, Ə.Dəmirçizadə, M.Hüseynzadə və b.) yubileyləri keçirilmişdir.

30-cu illərdə Azərbaycanda, demək olar ki, tamamilə qadağan olunmuş türkologiya elminin çiçəklənməsi, bu sahədə ilk dəyərli əsərlərin meydana çıxması da H.Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə düşür. 30-cu illərdən 60-cı illərə qədər isə həmin elm sahəsi, faktik olaraq, nəinki inkişaf etməmiş, hətta 30-cu illərə qədər qazanılmış nailiyyətləri 70-ci illərdə elmi şüurda yenidən bərpa etmək lazım gəlmişdi. Lakin 70-ci illərin əvvəllərindən etibarən türkologiya Azərbaycanda, həqiqətən, görünməmiş bir sürətlə irəlilədi. Və H.Əliyevin sonralar söylədiyi aşağıdakı sözlər həmin həqiqəti əks etdirir: «Azərbaycanda türkologiya da çox inkişaf edibdir. Keçmiş Sovetlər İttifaqının ərazisində türkologiyaya, demək olar ki, Azərbaycan qədər fikir verən olmayıbdır. Təsadüfi deyildir ki, Sovetlər İttifaqında buraxılan yeganə «Türkologiya» jurnalı Azərbaycanda nəşr edilirdi. İndi də nəşr olunur. Yəni bu sahədə bizim böyük nailiyyətlərimiz var...» («Azərbaycan» qəzeti, 2 noyabr 1995-ci il).

Həmin nailiyyətlər sırasına türk respublikaları universitetləri içərisində ilk hadisə olan xüsusi Türkologiya kafedrasını (o vaxtlar həmin kafedranın açılmasına icazə almaq üçün ona «Sovet türkologiyası» adı verilmişdi, ancaq bu, məsələnin mahiyyətini, demək olar ki, dəyişmirdi), kafedranın müdiri, mərhum prof. F.R.Zeynalovun yazdığı (yenə də, türk respublikaları içərisində ilk) «Türkologiyanın əsasları» dərsliyini, türkologiyaya aid onlarla kitabları, yüzlərlə məqalələri, nəhayət, müxtəlif türk dilləri ilə Azərbaycan türkcəsinin müqayisəli tədqiqinə həsr olunmuş dissertasiyaları və s. və i. a. daxil etmək mümkündür. 1970-ci ildən nəşrə başlayan «Советскоя Тюркология» (sonralar « Тюркология» adlandı) jurnalı isə Bakın, sözün həqiqi mənasında, türkologiya elminin mərkəzinə çevirdi. Jurnalda dünya türkologiya elminin görkəmli nümayəndələri (A.N.Kononov, N.A.Baskakov, K.Dorfer və b.) ilə yanaşı, azərbaycanlı türkoloqların (M.Ş.Şirəliyev, Ə.Z.Abdullayev, F.R.Zeynalov, T.İ.Hacıyev, A.A.Axundov, V.İ.Aslanov, A.M.Qurbanov, Z.İ.Bu-

daqova, K.Abdullayev və b.) məqalələri də nəşr olunurdu. Jurnala faktik olaraq, akad. M.Ş.Şirəliyev rəhbərlik edirdi.

Azərbaycan Prezidenti müxtəlif görüşlərdə dəfələrlə dil, ədəbiyyat, mədəniyyət məsələləri ilə məşğul olan elmi-tədqiqat müəssisələrinin inkişaf etdirilməsi üçün təkliflər vermiş, həmin müəssisələrə həmişə zəruri maddi, mənəvi kömək göstərilməsinə çalışmışdır.

Azərbaycan Prezidentinin ana dili ilə əlaqədar böyük ictimai-siyasi və ideoloji (strateji!) fikirlərinin müəyyən qismi gəncliyin, xüsusilə onun qabaqcıl hissəsi olan tələbələrin nümayəndələri ilə görüşlərindəki çıxışlarında irəli sürülmüşdür. Bu baxımdan 1997-ci il avqustun 29- da Prezident sarayında respublikamızın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrlə görüşdə Prezidentin dərin məzmunlu, bir sıra yeni məsələlər irəli sürən nitqi əlamətdardır. Həmin məsələlərdən biri Azərbaycanın müstəqil dövlət olaraq dünya proseslərinə qoşulması dövründə ana dilinin mövqeyi problemidir... Bu günə qədər heç bir dilçi, sosioloq bu məsələyə fikir verməmişdir - ilk dəfə məhz Azərbaycan Prezidenti həmin məsələni bir problem olaraq qaldırmış və gənclərə müdrik, əsaslı məsləhətlər verməklə yanaşı Azərbaycan dilçiliyi üçün elmi-nəzəri əhəmiyyəti olan maraqlı fikir söyləmişdir... Bu fikrin məzmunu ondan ibarətdir ki, hər bir azərbaycanlı mütəxəssis Azərbaycanın dünya üçün və dünyanın Azərbaycan üçün açıldığı bir dövrdə - dünya dillərinin beynəlxalq üstünlük, nüfuz üçün mübarizə apardığı mərhələdə ana dilini qorumalı, işlətməli, yaymağa çalışmalıdır.

Məsələ Azərbaycan Prezidenti tərəfindən məhz bu cür qoyulur:

«Mən keçmişdə də demişəm və bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini - dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə də biz bu dildə danışdığımıza görə öz dilimizin zənginliyini və gözəlliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu, həqiqətdir. Ona

görə də bunu heç bir şeyə dəyişmək olmaz» («Azərbaycan» qəzeti, 31 avqust 1997-ci il).

Prezident çox vacib, aktual olan məsələni bir qədər də konkretləşdirərək davam edir:

«Xarici dil bilmək, əlbəttə ki, lazımdır, vacibdir. Mən bir daha arzu edirəm ki, vətəndaşlarımız ingilis dilini də, rus dilini də, fransız dilini də, alman dilini də, türk dilini də, ərəb dilini də, fars dilini də, hətta Çin dilini də bilsinlər. Gənclərimiz nə qədər çox dil bilsələr bir o qədər zəngin dünyagörüşünə malik olacaqlar. Bu, müasir dünyanın tələbləridir. Amma ən əsası ondan ibarətdir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini - Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir. Gənclərə tövsiyə edirəm ki, əgər kiminsə bu barədə çatışmazlığı varsa, çalışın, bunu aradan qaldırın. Xarici ölkələrdə təhsil alarkən, həmin ölkənin dilini öyrənərkən, eyni zamanda başqa dilləri öyrənərkən öz dilinizi heç vaxt unutmayın və öz ana dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz» («Azərbaycan» qəzeti, 31 avqust 1997- ci il).

Azərbaycan Prezidenti Azərbaycan dilinə respublikanın dövlət rəmzlərindən biri kimi işdə, əməldə böyük qiymət verdiyi üçün bu dilin əcnəbilərə öyrədilməsini də əhəmiyyətli hadisə, ana dilinin - Azərbaycan Respublikasının dövlət dilinin beynəlxalq nüfuzu hesab edir. Üzünü gənclərə, xüsusilə müxtəlif xarici ölkələrə təhsil almağa gedən tələbələrə tutub deyir:

«Hətta öz dilimizdə danışmağı başqalarına da öyrədin. Ümumiyyətlə, mən fikir verirəm, - respublikamıza başqa ölkələrdən gəlib işləyənlər, dövlət nümayəndələri, səfirliklərdə çalışanlar Azərbaycan dilini öyrənməyə çalışırlar. Bu, çox sevindirici haldır. Bunun özü də yenilikdir» («Azərbaycan» qəzeti, 31 avqust 1997-ci il).

Respublikanın rəhbəri diqqəti haqqmda söhbət gedən məsələnin tarixinə yönəldir, Azərbaycan dilinin dünyanın böyük şəxsiyyətləri tərəfindən yüksək qiymətləndirildiyini xatırladaraq deyir:

«Mənim xatirimdədir, keçmiş zamanda ədəbiyyat tarixini öyrənərkən fəxr edirdik ki, vaxtilə Lermontov bir müddət Azərbaycanda olmuş, Quba zonasında yaşamışdır. O öz dostuna yazmışdı ki, mən burada Azərbaycan dilini öyrənirəm. Avropada fransız dili kimi, Qafqazda da Azərbaycan dili çox məşhur və mötəbər bir dildir. Hətta Lermontovun belə bir yazısı da var. Biz bunu böyük iftixar hissi ilə qeyd edirdik ki, görün, Lermontov burada yaşayıb, dilimizə belə böyük hörmət edib və bizim dilimizi öyrənməyə çalışıb. Bunun özü tarixdə nadir bir hadisədir. İndinin özündə də bizim dili öyrənməyə çalışırlar. Bəziləri artıq bizim dildə danışırlar. Bu, çox gözəldir. Çünki biz öz dilimizin hörmətini qaldırmalıyıq. Ona görə ki, bizim dilə hörmət edilsin, dilimizi öyrənsinlər, mənimsəsinlər. Mən əminəm ki, başqa ölkələrdə də bizim dilimiz nə qədər geniş yayılsa, öyrənilsə Azərbaycanın ədəbiyyatını, mədəniyyətini ana dilimizdə oxuyanlar, öyrənənlər respublikamızın neçə zəngin mənəviyyata, ədəbiyyata, mədəniyyətə malik olduğunu dərk edəcəklər. Mən bu məsələ ilə əlaqədar öz fikirlərimi sizə çatdırıram və güman edirəm ki, bu tövsiyələrimi unutmayacaqsınız» («Azərbaycan» qəzeti, 31 avqust 1997-ci il).

Göründüyü kimi, Azərbaycan Prezidentinin yuxarıda göstərilən nitqində Azərbaycan dilinin beynəlxalq taleyi, dəyişən, inkişaf edən, birləşən dünyada tutduğu yer Azərbaycan xalqının, dövlətinin dünyadakı mədəni-siyasi mövqeyi baxımından diqqət mərkəzinə çəkilir və olduqca dəqiq, aydın, heç bir alternativə yer qoymayan bir mükəmməlliklə şərh edilir. Həqiqətən, bu elə bir aktual mövzu, elə bir vacib sahədir ki, Azərbaycan dilçiləri, siyasətçiləri onunla ciddi maraqlanmalı - Azərbaycan dilinin müasir dünya dilləri içərisində mədəni-linqvistik və sosial-siyasi mövqeyi dərindən, hərtərəfli təhlil olunub müəyyənləşdirilməlidir. Bunu bizdən dilimizin taleyi, dövlətçiliyimizin beynəlxalq nüfuzu və müdrik Prezidentimiz tələb edir.

* * *

H.Əliyev gənc nəslin ana dilini düzgün, hərtərəfli, elmi əsaslar zəminində mənimsəməsi ilə bağlı bir sıra dəyərli məsləhətlər vermiş, özünün qiymətli fikir və mülahizələrini söyləmişdir.

Azərbaycan Prezidentinin bu məsələyə (gənc nəslin ana dilini mükəmməl mənimsəməsi məsələsinə) xüsusi diqqət yetirməsinin aşağıdakı səbəbləri var:

a) xalqımızın, dövlətimizin sabahı birinci növbədə bugünkü gəncliyin hansı ideallar əsasında tərbiyə olunacağından asılıdır - öz millətini yaxından tanımayan, onun dilini, tarixini, mədəniyyətini yaxşı bilməyən, ürəkdən sevməyən gənclik heç zaman milli dövlətini qiymətləndirə, onu müdafiə edib möhkəmləndirə bilməz;

b) ana dili hər bir şəxsin mənəvi inkişafında, sosial-psixoloji cəhətdən formalaşmasında, mükəmməl insan-şəxsiyyət kimi yetişməsində böyük rol oynayır. Ona görə də ana dilinə tələb olunan səviyyədə yiyələnməyən insanı mükəmməl insan-şəxsiyyət, cəmiyyət üçün dəyərli, normal adam saymaq olmaz;

c) ana dilini mükəmməl bilməyən - düzgün danışmağa, yazmağa, öz fikirlərini aydın ifadə etməyə qabil olmayan cəmiyyəti mədəni cəmiyyət, insanı isə mədəni insan hesab etmək olmaz...

Azərbaycanın yalnız bu günü üçün deyil, həm də sabahı üçün böyük məsuliyyət daşıyan, qeyri-adi dərəcədə möhtəşəm fəaliyyət göstərən Azərbaycan Prezidentinin elmə, maarifə, təhsilə xüsusi əhəmiyyət verməsi, vaxtaşırı orta, ali məktəblərdə olması, uşaq bağçalarına baş çəkməsi, gənclər, onların müəllimləri, valideynləri ilə görüşməsi yuxarıda haqqında bəhs etdiyimiz mühüm məsələlərin heç zaman arxa plana keçirilməməsi, daim diqqət mərkəzində olmasının nəticəsidir.

1997-1998-ci tədris ilinin başlanğıcında - sentyabrın 1-də Bakıdakı 18 №-li orta məktəbdə olan Azərbaycan Prezidenti yığıncaq iştirakçılarına müraciətini bu sözlərlə başladı:

«Əziz balalar, uşaqlar, şagirdlər, tələbələr!

Hörmətli müəllimlər, valideynlər!

Mən sizi bu ümumi xalq bayramı, ölkəmizdə bütün təhsil ocaqlarında tədris ilinin başlanması münasibətilə ürəkdən təbrik edirəm, sizə təhsilinizdə, dərsinizdə və bütün həyatınızda uğurlar arzulayıram» («Azərbaycan müəllimi» qəzeti, 4 sentyabr 1997-ci il). Natiq daha sonra dedi: «Mən bu gün Azərbaycanın müəllim ordusuna hörmət və ehtiramımı bir daha bildirirəm və bəyan edirəm ki, cəmiyyətimizdə, Azərbaycan ziyalılarının içərisində müəllimlər xüsusi yer tuturlar, hörmətə layiqdirlər və xüsusi qayğı ilə əhatə olunmalıdırlar. Mən ümidvaram ki, həm orta məktəblərdə, həm ali məktəblərdə müəllimlərimiz gələcəkdə öz peşələrinə sadiq olacaqlar, öz biliklərini daha da təkmilləşdirəcəklər. Müəllimlərimizin səyi nəticəsində bizim təhsil sistemi daha da təkmilləşəcək, bunların hamısı azad, müstəqil Azərbaycanın gələcəyinə xidmət edəcəkdir» («Azərbaycan müəllimi» qəzeti, 4 sentyabr 1997-ci il).

Azərbaycan dilinin tədrisi, onun metodikası məsələləri ilə məşğul olanlar yaxşı bilirlər ki, ana dilinin inkişafında, zənginləşməsində, nitq normalarının, üslublarının təkmilləşməsində məktəb xüsusi, bir sıra hallarda isə həlledici iş görür. Məsələn, Azərbaycanın Şimalı ilə Cənubunu bu baxımdan müqayisə etsək, məlum olar ki, Şimalda anadilli məktəblərin mövcudluğu, Azərbaycan dilinin tədris dili kimi işlənməsi, yayılması, geniş fəaliyyət göstərməsi həmin sahədə nə qədər böyük uğurlara gətirib çıxarmışdır. Əksinə, Cənubda anadilli məktəblərin olmaması ədəbi dil normalarının ictimai nüfuzunun itirilməsi, nəinki danışıqda - şifahi nitqdə, eyni zamanda yazıda da norma variantlaşması, dialekt təzahürlərinin fəallaşması, nitq hərcmərcliyinin meydana çıxması ilə nəticələnmişdir.

Azərbaycan xalqının böyük şəxsiyyətləri, elm, mədəniyyət fədailəri, ictimai-siyasi xadimlər məktəbə, maarifə bir də ona görə ayrıca diqqət yetirmiş və bu uğurda mübarizə aparmışlar ki, ana dilinin sosial mövqeyi möhkəm olsun, millətin övladları bu dilə ədəbi səviyyədə yiyələnə, ondan mənəvi qüvvət ala bilsinlər.

Azərbaycanın müstəqillik və demokratiya yoluna çıxdığı bugünkü dövrdə Azərbaycan məktəbi nə qədər geniş imkanlara

malik olsa belə, onun qarşısında hələ də böyük problemlər dayanır və Azərbaycan Prezidenti, yuxarıda göstərilən çıxışında həmin problemləri xatırlatmaqla yanaşı, onların həllindən bir addım belə kənara çəkilməməyi tövsiyə edərək, əslində, Azərbaycan məktəbinin hansı ideoloji prinsiplər əsasında işləməli olduğunu göstərmişdir:

«...Siz müstəqil Azərbaycanın məktəblərində təhsil alırsınız. Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq öz təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənəiərinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa bir müddətdə başa çata bilməyəcəkdir.

Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar. (kursiv bizimdir - N.X.) Burada dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaranması xüsusi əhəmiyyət kəsb edir» («Azərbaycan müəllimi» qəzeti, 4 sentyabr 1997-ci il).

Müxtəlif fənlərin yüksək keyfiyyətlə tədris olunmasında ana dilində, «Müstəqil Azərbaycanın prinsipləri əsasında» yazılmış milli dərsliklər, doğrudan da, böyük əhəmiyyət kəsb edir. Son illərdə bir sıra orijinal dərsliklər yazılmış, bəziləri isə müasir şəraitə uyğun yenidən redaktə edilərək təkmilləşdirilmişdir. Ana dili dərslikləri üzərində Azərbaycan dilçilərinin işi xüsusilə diqqətə layiqdir: qısa bir zamanda həm ibtidai siniflər, həm də V-VIII siniflər üçün dərsliklər yenidən tərtib olunmuş, IX-XI siniflər üçün isə xüsusi ana dili dərslikləri yaradılmışdır. Biz bu sahədə əmək sərf etmiş Y.Kərimov, T.Hacıyev, A.Axundov, Y.Seyidov, B.Əhmədov, Ə.Əfəndizadə, N.Xudiyev, Q.Kazımov, N.Cəfərov, İ.Əhmədov, Ə.Quliyev... kimi dilçilərin adlarını qeyd etmək istərdik. Lakin onu da əlavə edək ki, həmin dərsliklər təcili hazırlandığı üçün bu günümüzün tələblərinə heç də tam cavab vermir, onların təkmilləşməsinə, məktəb praktikasında dönə-dönə yoxlanıb sınaqdan keçirilməsinə, uzun zaman işləyəcək

bir hala gətirilməsinə ehtiyac vardır. Eyni zamanda məktəblər də yeni proqram və dərsliklərlə işləməyə hazır olmalıdır. Belə ki: a) köhnə tədris metodikasının uğurlu, sınaqdan çıxmış cəhətlərindən imtina etməmək şərti ilə o, yeni dövrün, yeni (milli) ideologiyanın prinsipləri baxımından təzədən nəzərdən keçirilməlidir;

b) köhnə proqram və dərsliklərlə işləmiş müəllim-pedaqoqlar yeni meyilləri ardıcıl mənimsəməlidirlər.

Bütün bunları nəzərə alan Azərbaycan Prezidenti demişdir:

«...Bilirəm, bu, asan iş deyil. Bu, bir çox böyük amillərlə bağlıdır, onlardan asıhdır. Ancaq mən bu gün həm Təhsil Nazirliyinə, həm də Nazirlər Kabinetinə qəti təklif edirəm ki, onlar dərsliklərin dəyişilməsi, müstəqil Azərbaycanın tarixinə, həyatına uyqun yazılması işi ilə daha da ciddi məşğul olsunlar. Çünki məktəblərdə tarix, ədəbiyyat dərsləri, humanitar sahəyə aid başqa dərslər köhnə dərsliklər əsasında aparılırsa, onlar bizə xeyir gətirmir. Onsuz da keçmiş zamanda həmin dərsliklərlə təhsil alan insanlar hələ var, onların zehnində, fıkrində dəyişilmə prosesi gedir və getməkdədir. Ancaq indi dərs alan uşaqlar, gənclər gərək mütləq və mütləq bizim yeni dərsliklər əsasında oxusunlar» (kursiv bizimdir — N.X.) («Azərbaycan müəllimi» qəzeti, 4 sentyabr 1997-ci il).

Gənc nəslin ana dilində mükəmməl təhsil alması ilə bilavasitə bağlı olan məsələlərdən biri də yeni əlifbaya keçiddir ki, Azərbaycan Prezidenti bu məsələyə özünün aydın mövqeyini öz tarixi çıxışında aşağıdakı şəkildə ifadə etmişdir:

«Biz yeni əlifbaya - latın əlifbasına keçmişik. Mən hiss edirəm ki, latın əlifbasının tətbiqi çox ləng gedir. Hesab edirəm ki, bu işləri də sürətləndirmək lazımdır. Yaşlı nəsil kiril əlifbası ilə oxuduğuna görə latın əlifbasını oxumaqda çətinlik çəkir. Bildirmək istəyirəm ki, burada heç bir çətin iş yoxdur. Latın əlifbası ilə kiril əlifbası arasında fərq o qədər də böyük deyildir. Sadəcə, mən yaşlı nəslə müraciət edib deyirəm ki, bir balaca özünüzü əziyyətə salın və tezliklə bu kiril əlifbasından xilas olun» («Azərbaycarı müəllimi» qəzeti, 4 sentyabr 1997-ci il).

Heç şübhəsiz, bir dilin tarixində əlifbanın, orfoqrafıyanın - yazı qaydalarının tez-tez dəyişməsi müsbət hal deyildir, bununla belə latın əlifbasına keçmək artıq tarixi ehtiyac və zərurətdir ki, bunun aşağıdakı səbəblərini xüsusilə qeyd etmək lazımdır:

1. Vaxtilə Azərbaycanda işlənmiş latın əlifbası (30-cu illərin sonuna qədər tədricən, müəyyən elmi əsaslarla qəbul edilmiş əlifba) heç bir milli, mədəni, yaxud linqvistik səbəb olmadan, tələsik bir şəkildə rus-kiril əlifbası ilə əvəz edilməklə Moskva tərəfindən Azərbaycan xalqına, onun dilinə, mədəniyyətinə qarşı, bir növ, təcavüz olunmuşdu. Ona görə də milli-demokratik hərəkat dövründə (80-ci illərin sonu, 90-cı illərin əvvəllərində) rus- kiril əlifbasma qarşı Azərbaycanda, tamamilə təbii olaraq, ictimai-siyasi etiraz baş qaldırdı və bu etiraz milli azadlıq ideologiyasının tərkib hissəsinə çevrildi.

2. Rus-kiril əlifbası, qeyd edildiyi kimi, heç bir xüsusi hazırlıq olmadan, Azərbaycan Respublikasının ziyalıları ilə məs-ləhətləşdirilmədən Moskvanın iradəsi ilə qəbul etdirilmişdi. Bu cür saymazlığın nəticəsi olaraq, a, k, z kimi rus dili üçün spesifik hərflər də süni şəkildə Azərbaycan əlifbasına daxil edilmiş, hətta dilimizin fonoqrafik normalarında gərəksiz «düzəlişlər» olmuşdu. 50-ci illərdən etibarən görkəmli Azərbaycan ziyalıları - dilçilər, ədəbiyyat adamları... böyük çətinliklə ana dilimizə bu cür zorakı müdaxiləyə qarşı çıxaraq, əlifbadan bir sıra lazımsız hərf-lərin çıxardmasına nail olsalar da, rus- kiril mənşəli Azərbaycan əlifbası tam təkmil bir əlifba keyfıyyəti qazana bilməmişdi.

3.Moskva dilləri bir-birinə az və ya çox dərəcədə yaxın olan türk xalqlarının hər biri üçün müstəqil əlifba «yaratmağa», uyğun səsləri fərqli işarələrlə göstərməyə çalışdığından «ayır, buyur» siyasəti yeridərək müxtəlif türk xalqlarını bu sahədə də bir-birindən təcrid etmək strategiyası işləyib hazırlamışdı.

4.İnkişaf etmiş texnologiya, kompüter, dünyanın müxtəlif xalqlarının ictimai-siyasi, mədəni-mənəvi inteqrasiyası dövründə latın əlifbasına keçmək olduqca vacib idi.

Yeni əlifbaya keçilməsi türk dillərinin yazı, orfoqrafiya baxımından təmərküzləşməsinə, türk xalqlarının bir-biri ilə daha yaxşı anlaşmasına perspektiv açır və s.

Lakin Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, latın əlifbasma keçid kifayət qədər sürətlə getmir, bununla belə geriyə yol yoxdur, biz latın əlifbasına keçməliyik - özü də sürətlə keçməliyik... Bunu bizdən dövr, mövcud şərait, xalqımızın, millətimizin əhval-ruhiyyəsi və müstəqil Azərbaycan Respublikasının Prezidenti tələb edir.

H.Əliyev qəti olaraq demişdir: «Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır. Nəşriyyatlara da bu gün müraciət edirəm ki, kitabların hamısı latın əlifbası ilə çap olunsun» («Azərbaycarı müəllimi» qəzeti, 4 sentyabr 1997-ci il).

Azərbaycan Prezidenti 30-cu illərin sonlarından bəri - yarım əsrdən artıq bir dövr ərzində Azərbaycanda kiril əlifbası ilə çap olunmuş ədəbiyyatı çox yüksək qiymətləndirərək deyir:

«1939-cu ildən indiyə qədər yazılan kitabların hamısı kiril əlifbası ilə buraxdıb. Bu illərdə bizim ədəbiyyatımızda, mədəniyyətimizdə, tariximizdə, elmimizdə çox böyük nailiyyətlər, ixtiralar əldə olunubdur. Bunların hamısı öz əksini kitablarda tapıbdır. Bizim kitabxanalar belə kitablarla doludur. Şübhəsiz ki, bunlardan bu gün də, on illər sonralar da istifadə etməli olacaqlar» («Azərbaycan müəllimi» qəzeti, 4 sentyabr 1997-ci il).

Bu sözlər 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində bəzi anarxistlərin belə bir fikrini tamamilə təkzib edir ki, guya sovet dövründə nə yazdıb çap olunmuşdursa hamısı cəfəngiyatdır, sovet ideologiyasının məhsuludur və müstəqil Azərbaycan üçün tamamilə yararsızdır. Halbuki, möhtərəm Prezidentin qeyd etdiyi kimi, Azərbaycanda kiril əlifbası ilə çap olunmuş kitablar Azərbaycan millətinin böyük tarixi əhəmiyyətə malik dil, ədəbiyyat, elm, mədəniyyət xəzinəsidir. Biz bu xəzinəni heç vaxt itirə, ondan imtina edə bilmərik.

Bununla belə, «əgər biz tezliklə bütün sahələrdə latın əlifbasına keçməsək, - Prezident sözünə davam edir, - gecikmiş olacağıq. Bu işlər məktəblərdə xüsusilə təşkil olunmalıdır. Mən

Təhsil Nazirliyindən, bütün məktəblərdən bunu tələb edirəm» («Azərbaycan müəllimi» qəzeti, 4 sentyabr 1997-ci il).

Göründüyü kimi, Azərbaycan Prezidenti Azərbaycan dilinin ictimai-siyasi nüfuzu, dövlət dili kimi tərəqqisi, dilimizin tarixi, adı ilə bağlı mükəmməl mülahizələr söyləməklə, mövcud fikirləri ümumiləşdirib əsaslandırdmış göstərişlər verməklə yanaşı, dil quruculuğu məsələləri ilə də bilavasitə məşğul olmuş, özünün bu sahədə bütün Azərbaycan cəmiyyəti üçün, sosial-mədəni inkişafımız, irəliləyişimiz üçün vacib olan yekun sözünü demişdir (və deməkdədir).

## NİTQ MƏDƏNİYYƏTİ VƏ NATİQLİK MƏHARƏTİ

Dünyada gözəl nitqi, yüksək natiqlik məharəti, möhkəm məntiqi ilə seçilən çox görkəmli şəxsiyyətlər olmuşdur - natiqlik sənəti, ritorika, üslubiyyat və s. kimi elmlər məhz bu cür şəxsiyyətlərin təcrübəsini öyrənmək, ümumiləşdirmək sayəsində təşəkkül tapıb formalaşmışdır. Dünyanın böyük natiqlərinin hər birinin özünəməxsus üslubu, manerası olsa da, onları tarixən iki böyük məktəbdə birləşdirmək mümkündür: Şərq məktəbi və Qərb məktəbi. Mütəxəssislər bu məktəblər arasında bir sıra fərqli xüsusiyyətlər görürlər ki, bunlar əsasən aşağıdakılardan ibarətdir:

Şərq məktəbi - fəlsəfi ümumiləşdirməyə, romantikaya meyil edilməsi, əqli nəticələrdə ümumidən (nümunədən) xüsusiyə (variantlara, variasiyalara) gedilməsi, müdriklik obrazının yaradılması, mimika və pantomimikadan az istifadə edilməsi, nadir hallarda edilən hərəkətlərin xüsusi məna daşıması, fikirlərin mübhəmliyi, yüksək simvolikası, mürəkkəb poetikası, səsin harmoniyası, bir sıra hallarda daxili ehtirasla zahiri təmkinin birləşməsi və s.

Qərb məktəbi - konkret vəziyyətin, situasiyanın nəzərə alınması, realizmə meyil, əqli nəticələrdə xüsusidən ümumiyə gedilməsi (induksiya), həqiqətpərəst obrazının yaradılması, mimika və pantomimikadan aktiv istifadə, deyilmiş fikrin ağıllı, yeganə düzgün fikir olduğuna dinləyiciləri inandırmaq cəhdi, hiss-həyəcanın hərəkətlərdə, səsin tonunda fəal büruzə verilməsi və s.

Azərbaycan natiqliyi XIX əsrə qədər Şərq məktəbinin üzvi tərkib hissəsi olsa da, xalqın mentalitetinin, xarakterinin, temperamentinin təsiri altında bir qədər də Qərbə meyil etmişdir. XIX əsrdə həmin meyil daha da güclənmişdir və XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanın böyük natiqlərinin nitq təcrübəsində Şərq və Qərb məktəbinin birləşdiyi müşahidə edilir.

Azərbaycan Prezidenti, dünya miqyaslı ictimai-siyasi xadim Heydər Əliyevin natiqliyi də öz tipologiyası etibarilə Şərq və

Qərb natiqlik məktəblərinin qarşılıqlı əlaqə və vəhdətinə əsaslanır. Lakin açıq demək lazımdır ki, indiyə qədər Azərbaycanda öz məntiqinin mükəmməlliyinə, nitqinin əzəmətinə, ümumən natiqlik məharətinə görə onunla müqayisə ediləcək ikinci bir şəxsiyyət olmamışdır.

H.Əliyevin natiqlik məharətini, gözəl danışıq qabiliyyətini, fikrimizcə, aşağıdakı səbəblər şərtləndirir:

1) bir insan kimi şəxsi, fərdi, təbii istedadı;

2) daim öz üzərində işləməsi, ətrafında, dünyada baş verən hadisələrə, onların səbəblərinə, nəticələrinə maraq göstərməsi, diqqətcilliyi;

3) dərindən yiyələndiyi ana dilinə məhəbbəti, bu dildən mənəvi zövq duyması, böyük ilham alması;

4) mənsub olduğu xalqı ürəkdən sevməsi, onun tarixini, mentalitetini, mədəniyyətini və s. dərindən bilməsi və bütün bunların ən mükəmməl səviyyədə daşıyıcısı olması;

5) mürəkkəb tarixi dövrdə, Azərbaycan xalqının müstəqil dövlət quruculuğu mərhələsində millət, xalq, milli dövlətçilik üçün hamıdan artıq məsuliyyət duyması və əsaslandırılmış, real, dünyəvi metodlarla böyük mücadiləyə girməsi və s.

H.Əliyevin natiqlik məharəti - Azərbaycan xalqının milli sərvətidir; onun bu sahədəki istedadı hərtərəfli araşdırılmalı, öyrənilməli, Azərbaycan, ümumtürk və dünya natiqlik sənəti tarixində layiqli yerini tutmalıdır. Bunun üçün dahi natiqin nitq, çıxış, bəyanat və müsahibələri incədən-incəyə təhlil olunub, onların sənətkarlığı, maneraları, poetikası analiz edilməlidir. Lakin bu, çox böyük, çətin bir işdir - təbii ki, biz bu böyük, çətin işin öhdəsindən gəlmək, görkəmli natiqin nitq mədəniyyətini, ritorika sənətkarlığını, dil ustalığını bütövlükdə təhlil etmək iddiasından uzağıq. Bununla belə, bəzi araşdırmalarımız, müşahidələrimiz və mülahizələrimiz barədə hörmətli oxuculara məlumat verməyi bir dil tarixçisi və üslubiyyatçı kimi özümüzə həm elmi baxımdan, həm də vətəndaş olaraq borc bildik.

Təvazökarlıqdan uzaq olsa da, bu mövzuda ilk araşdırmaları biz aparmışıq. Həmkarım, filologiya elmləri doktoru, professor

Mübariz Yusifov «Dahi şəxsiyyətin nitq fenomenliyi» kitabında bu barədə yazır: «İndi müvafiq elmi-tədqiqat idarələrində və tədris müəssisələrində Heydər Əliyevin nitqinin öyrənilməsi üzərində iş aparılır. Bu cəhətdən, Nizami Xudiyevin «Azərbaycan» qəzetində (22 avqust, 23 avqust, 24 avqust 1996) «Heydər Əliyev və Azərbaycan dili məsələləri» adlı məqaləsini nümunə göstərmək olar.

Məqalənin əsas fikir istiqaməti Azərbaycan dilinin inkişafı, zənginləşməsi, istifadə dairəsinin genişlənməsi, onun nüfuzunun ucaldılması, tarixi köklərinin bu günümüzlə əlaqələndirilməsi, natiqlik və praktik-üslubi imkanlarının genişləndirilməsi sahəsində möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının böyük fəaliyyətini canlandırmaq məqsədinə yönəldilmişdir.

Bu isə təkcə mütəxəssislər üçün deyil, həm də geniş ictimaiyyət üçün olduqca lazımlı və vacib bir addımdır. Məqalənin elmi-publisistik xarakteri də onun hamı üçün gərəkli olduğunu təsdiq edən mühüm cəhətlərdəndir. Şübhəsiz, bu istiqamətdə bundan sonra da tədqiqlər və təhlillər aparılacaqdır» (Mübariz Yusifov. Dahi şəxsiyyətin nitq fenomenliyi, Bakı, 1997, səh. 140).

M.Yusifova bizim məqaləmizi qiymətləndirdiyi üçün təşəkkür edir və onun bu fikri ilə tamamilə razılaşırıq ki, «Heydər Əliyevin fəaliyyət sahəsi o qədər genişdir ki, onu hər hansı məqalədə, kitabda, dərslikdə, dərs vəsaitində, monoqrafiyada əhatə etmək mümkün deyildir. Ona görə də bütün idarələrdə, müəssisələrdə, əmək kollektivlərində, xüsusən də gənc nəslin təlim- tərbiyə aldığı tədris müəssisələrində bu işə hamılıqla qoşulmaq lazımdır» (yenə orada, səh. 140-141). Bu düzgün qənaətə onu da əlavə edək ki, Azərbaycan Prezidentinin çoxcəhətli fəaliyyətinin, o cümlədən də natiqlik məharətinin öyrənilməsi, təbliği yüksək professional səviyyədə, yəni bu fəaliyyətə layiq bir səviyyədə aparılmalı, kütləvilik professionalizmi, peşəkarlığı üstələməməlidir.

* * *

Məlumdur ki, zəmanəmizin görkəmli ictimai, siyasi və dövlət xadimi Heydər Əliyevin 1993-cü ilin iyun ayında respublika

rəhbərliyinə qayıdışı Azərbaycanın tarixində yeni bir dövrün başlanğıcı oldu. Azərbaycan dövlətçiliyinin düşmənlərinə, səriştəsiz müxalifətçilərə, siyasi liberallara və s. qarşı onun apardığı gərgin mübarizə böyük şəxsiyyətin xarakterinin açılması üçün də geniş meydan verdi - onun xalqı birliyə, azadlıq, müstəqillik uğrunda mübarizəyə çağıran məzmunlu çıxışları, bəyanatları, müxtəlif kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr və s. dahi dövlət xadiminin natiqlik məharətini bir daha ortaya çıxartdı.

H.Əliyevin Azərbaycan Respublikasının Milli Məclisinin 15 iyun 1993-cü il tarixli iclasındakı tarixi çıxışı həm öz məzmun-mündəricəsinə, həm struktur-məntiqinə, həm də ifadə-üslubuna görə diqqəti cəlb edir. Bu çıxışda ağır vəziyyətdən çıxmaq üçün xalqına müraciət edən, millətini həqiqətə inandıran, ona düz yol göstərən bir sərkərdənin ağlı, iradəsi, emosiyası əks olunmuşdur. Bizim fıkrimizcə, haqqında söhbət gedən çıxış böyük M.K.Atatürkün məlum çıxışları qədər böyük tarixi əhəmiyyətə malikdir, daim öyrənilməyə, həm siyasi, həm də filoloji baxımdan hər bir yeni nəslin, dövrün marağına uyğun araşdırılmağa layiqdir.

Çıxış mövcud siyasi nitq normalarına uyğun bir formada başlayır:

«Hörmətli millət vəkilləri, hörmətli prezident!

Mənə bu gün böyük etimad göstərildiyinə görə Milli Məclisin üzvlərinə, Azərbaycan Ali Sovetinə minnətdarlığımı bildirirəm və sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz vəzifəmi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm» (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, I, Bakı, 1997, səh. 9). H.Əliyev sonra demişdi:

«Mən burada böyük bir nitq söyləmək niyyətində deyiləm. Yalnız bir neçə kəlmə mütləq deməliyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək» (yenə orada, səh. 9).

Yüksək əqidəlilik, böyük inam, öz gücünə əminlik ifadə edən bu çıxışın intonasiyasında bir bəyanat ruhu vardır. Görkəmli ictimai-siyasi xadim vəziyyəti düzgün qiymətləndirərək, qarşıda hansı mühüm vəzifələrin durduğunu və bu mürəkkəb vəzifələrin öhdəsindən gəlməyin mümkünlüyünü böyük məharətlə şərh edib Milli Məclisin üzvlərini (və ümumən Azərbaycan xalqını) inandırır ki, xalqı (və milli dövlətçiliyi) böhrandan ancaq o çıxara bilər. Beləliklə, həmin çıxışda natiqin qarşısında duran mühüm məsələlərdən birincisi, vəziyyətin nə yerdə olduğunu izah etmək, ikincisi, həmin vəziyyətdən çıxış yollarını göstərmək, üçüncüsü isə, səriştəli, qabil, hərtərəfli fəaliyyət göstərmək imkanlarına malik rəhbərə ehtiyac olduğunu anlatmaqdır...

H.Əliyev həmin məsələlərdən həm ayrı-ayrılıqda, həm də kompleks halında, üzvi vəhdətdə bəhs edir və mövqeyini daha aydın ifadə etmək üçün konkret vəzifələr, görüləsi işlər, hadisələr üzərində dayanır:

«Respublikanın qarşısında çox böyük və ağır vəzifələr durur. Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Res-

publikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır. Azərbaycan Respublikasının vətəndaşları sülh və əmin-amanlıq şəraitində yaşayıb öz dövlətini özü istədiyi kimi qurmalıdır. Ona görə də bu məsələ əsas məsələlərdən biridir. Bundan sonra da bu məsələlər Ali Məclisin diqqət mərkəzində olmalıdır. Dünən elan olunan, Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Türkiyənin təşəbbüsü nəticəsində imzalanmış sənəd bizim müharibə şəraitindən tədricən çıxmağımız üçün ilk addımdır. Yəqin ki, bu sahədə gələcəkdə daha da güclü tədbirlər görülməlidir ki, Azərbaycan Respublikası bütün ərazisinin sahibi olsun və bizim xalqımız müharibə şəraitindən çıxa bilsin» (yenə orada, səh. 9-10).

Göründüyü kimi, natiq «Respublikanın qarşısında çox böyük və ağır vəzifələr durur» hökmündən sonra yadda qalmaq, şüurlara aydın şəkildə çatmaq, emosiyalara təsir etmək üçün kiçik həcmli hökm-cümlələrə müraciət edir və hər bir cümlə felin vacib forması ilə ifadə olunmuş xəbərlə bitir: qaytarılmalıdır, təmin olunmalıdır, qurtarmalıdır, sülh yaranmalıdır, diqqət mərkəzində olmalıdır.

İkinci period-abzasda fikir dəyişsə də, «daha da güclü tədbirlər görülməlidir» ifadə-fikri həmin period-abzası da qrammatik semantikası etibarilə birinci period-abzasa yaxınlaşdırır, hətta ona tabe edir. Felin vacib forması ilə ifadə olunmuş xəbərlərin təkrarı sonrakı - sayca üçüncü period- abzasda daha güclü şəkildə davam etdirilir və beləliklə, ana dilinin ifadə-üslub imkanlarından yüksək sənətkarlıq, güclü məntiqlə istifadə edən natiq həm fikrini dəqiq bir şəkildə auditoriyaya - cəmiyyətə çatdıra bilir, həm də bu işlərin yalnız vacibliyinə deyil, eyni zamanda böyük şəxsiyyətin iradəsi ilə mütləq görüləcəyinə (özü də yaxın zamanda görüləcəyinə) qəti inam yaratmağa nail olur:

«...Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan

Respublikasında Konstitusiyanın pozulmasma, qanunun pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır. Yəni bizim respublikamız bir sənə bundan öncə başladığı yola davam etməlidir. Bu düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir. Əmin olmalısınız ki, mən bu yola həmişə sadiq olacağam» (yenə orada, səh. 10).

Siyasi-ictimai enerji ilə zəngin olan bu ehtiraslı dili (mətni) eyni zamanda sərbəst şeir kimi də oxumaq mümkündür. Əgər biz həmin dil-mətnin cümlə üzvlərinin təbii yerləşməsinə görə formalı sxemini versək, təxminən aşağıdakı şəkildə bir mənzərə alınar:

mübtəda-xəbər, zərflik-mübtəda-xəbər, təyin-tamamlıq-mübtəda-xəbər, mübtəda-mübtəda-zərflik-xəbər, tamamlıq-mübtəda-xəbər, mübtəda-xəbər, mübtəda-xəbər-xəbər, zərflik-mübtəda-zərflik-xəbər (mübtəda)-xəbər mübtəda-tamamlıq-zərflik-xəbər.

Buradan görünür ki, 31 cümlə üzvündən (həmcins üzvlər də saydır) 22-si baş üzvlər, yəni mübtəda (11) və xəbər (11)dir, cəmisi 9 ikinci dərəcəli üzv işlənmişdir. Bu isə o deməkdir ki, natiq əsas məntiqini subyekt və predikat üzərində qurur. Lakin həmin subyekt və predikat özündə əlamət və obyekt münasibətlərini də ehtiva edir;

məsələn: Azərbaycan Respublikasının dövlət müstəqilliyi, demokratik prinsiplər əsasında, ... insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri və s.

Dövlət quruculuğunun vacib məsələləri ümumiləşdirilmiş halda sadalandıqdan sonra böyük natiq diqqəti son günlərin qanlı hadisələrinə yönəldir:

«İndi bizim respublikanın gərgin vəziyyətdə olmasının əsas səbəblərindən biri iyul ayının 4-də Gəncədə baş vermiş hadisələrdir. Hadisələr dəhşətlidir, qan tökülüb, cinayət edilib.

Bunlar araşdırdmalıdır və bütün qanunu pozmuş adamlar, cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmişlər, hansı tərəfdən asdı olmasına baxmayaraq, qanun qarşısında məsuliyyət daşımalıdır. Bu məsələ ilə deputat-istintaq komissiyası məşğul olur. Biz isə gərək tezliklə yaranmış gərginliyi aradan qaldıraq. Dünən prezident Əbülfəz Elçibəylə danışıqlarımız olub, Gəncədə də mən danışıqlar aparmışam, mənimlə gedən şəxslərlə və təkbətək. Ona görə mən güman edirəm ki, bizim bütün səylərimiz bu gərginliyi aradan götürməyi, bu qarşıdurmanı aradan götürməyi təmin edə biləcəkdir. Ancaq demişəm, bir də deyirəm: heç vəchlə silah işlədilməsinin tərəfdarı ola bilmərəm. Bu gərginlik, qarşıdurma ancaq sülh yolu ilə, barışıq yolu ilə, qarşılıqlı anlaşma yolu ilə, danışıqlar yolu ilə həll olunmalıdır. Güman edirəm ki, xalqımızın müdrikliyi, nüfuzlu adamların, Azərbaycanın ziyalılarının, Azərbaycanın ağsaqqallarının hamısının bir yerdə səyi və bizim hamımızın bir yerdə çalışmamız, şübhəsiz ki, bunları təmin edə biləcək» (yenə orada, səh. 10).

Bu günün reallığından çıxış etməklə, konkret hadisələri xalqa, Milli Məclisə (və həmin hadisələri bilavasitə törədənlərə, yaxud onların törədilməsi üçün məsuliyyət daşıyanlara) bir daha xatırlatmaqla H.Əliyev dünyanın böyük natiqlərinin sınaqdan çıxmış təcrübəsindən faydalanmış olur. Belə ki, baş vermiş qanlı hadisə elə bir aydın fakt idi ki, əvvəla bu faktı bilməyən və onun gələcəkdə törədəcəyi nəticələri (bədbəxtlikləri) təsəvvür etməyən normal insan yox idi, ikincisi, o zamankı hakimiyyətin səriştəsizliyi, Azərbaycanı düşdüyü hər hansı fəlakətdən çıxara bilməyəcəyi həmin faktın işığında daha aydın görünürdü və Milli Məclisdə əyləşmiş səriştəsiz rəhbərlik nə qədər iddialı görünsə də, Gəncə hadisələrinin əsiri idilər, çıxış yolu axtarmaq, düşünmək imkanlarını da elə bil ki, itirmişdilər.

Natiq konkret hadisəni, yəni real vəziyyəti çox lakonik, dahiyanə bir aydınlıqla izah edəndən sonra yenidən xalqımızm müdrikliyi, çətin vəziyyətdən çıxmaq gücünün, təpərinin olmasından (yəni o şey barəsində ki, səriştəsiz rəhbərlərdə yox idi) bəhs edir:

«Biz Azərbaycanda demokratik müstəqil respublika quraraq, sivilizasiyalı cəmiyyət uğrunda mübarizə apararaq, ümumi dünyəvi bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm də müasir potensialı olduqca böyükdür. Bunların hamısından səmərəli istifadə olunarsa, Azərbaycan həm tam müstəqil, demokratik bir dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik hüquqi, ümumbəşəri dəyərlərin əsasmda qurulan demokratik bir cəmiyyət olacaq. Bunun üçün bizim həm elmimiz, həm mədəniyyətimiz, həm tarixi ənənələrimiz, həm dini mənbəyimiz olan islam dini - hamısı birlikdə çox böyük əsas yaradır. Vəzifəmiz bundan ibarətdir ki, bunlardan səmərəli istifadə edək» (yenə orada, səh. 10-11).

Bu müdrik, ağıllı, eyni zamanda təsirli, hər bir Azərbaycan vətəndaşında özü barədə qürur doğuracaq fikirlərin, dünən, bu gün və gələcək haqqında əlaqəli, assosiativ mülahizələrin kəsəri bir də ondadır ki, Gəncə hadisələri, respublikada baş vermiş hərcmərclik, dövlət böhranı və s. barədəki söhbətdən sonra deyilir - güclü təzad yaradılır: həm keçmişlə (yəni böyük adət-ənənələrlə) bu gün arasında, həm bu günlə gələcək (yəni qurulacağı real olan müstəqil demokratik dövlətçilik) arasında, həm də (və fikrimizcə, H.Əliyevin böyük natiqlik, incə düşüncə məharəti özünü ən çox bunda göstərir) bu günlə bu gün arasında... Belə ki, Azərbaycanın bugünkü elmi, intellektual, sosial-mədəni, mənəvi potensiah ölkənin mövcud acınacaqlı vəziyyəti ilə, böyük idrak, düşüncə, sağlam ağıl, zəka xəzinəsi baş alıb gedən idraksızlıq, düşüncəsizlik, xəstə «ağıl», yüngülxasiyyətliliklə və s. müqayisə edilir, nəticə etibarilə, ölkəni bu günə salan başsız «başçılar»ın obrazı, onların səriştəsizliyinin mahiyyəti açılır.

H.Əliyev bu barədə fikrini söylədikdən sonra yenidən Gəncə hadisələrinə qayıdır, lakin bu dəfə məsələnin başqa bir tərəfini - etnik münasibətlər, respublikada yaşayan müxtəlif millət və

xalqlar arasında tarixən müəyyənləşmiş kifayət qədər səmimi əlaqələrin pozulması faktı üzərində dayanır... Emosional, lakin eyni zamanda olduqca realist bir şərh verib birmənalı şəkildə nəticələr çıxarır - Azərbaycanda yaşayan, hər hansı millətdən, xalqdan, etnosdan olan insanın Azərbaycan vətəndaşı olduğunu qeyd edir:

«Azərbaycanda gərginlik bir tək Qarabağ problemi ilə, yəni Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar olan səbəblərdən deyil. İndi Gəncə hadisələri baş verdi. Təəssüf ki, gərginliyi yaradan səbəblərdən biri də Azərbaycanda uzun illər bir yerdə yaşayan millətlər, etnik qruplar arasındakı münasibətlərin bir qədər pozulmasıdır. Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır. Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bu məfhumları rəhbər tuta bilsək və bunu əməli surətdə həyata keçirə bilsək, Azərbaycan Respublikasında olan bütün xalqların, millətlərin tam birləşməsini təmin edə bilərik. Bu bizim əsas vəzifələrimizdən biridir. Güman edirəm ki, biz buna nail olacağıq» (yenə orada, səh. 11).

Uzun illər Azərbaycan Respublikasına başçılıq etmiş, Azərbaycan xalqının, Azərbaycan Respublikasının inkişafında (ən müxtəlif sahələrdə) böyük xidmətləri olmuş, demək olar ki, tarixi rol oynamış görkəmli şəxsiyyətin ikinci dəfə müstəqil Azərbaycanın rəhbərliyinə (əslində yeni demokratik dövlət quruculuğuna başçılıq etməyə) gəlmə ərəfəsində söylədiyi bu nitqdə sintaksis hər üç zamanı əhatə edir:

1) az aktiv olan (əsasən örnək kimi götürülən) keçmiş zaman;

2) təzadlı xarakter daşıyan-potensial ilə mövcud vəziyyətin, hakimiyyətdə iddialarla imkanların uyğun gəlmədiyi, böyük hərc-mərcliklə səciyyələnən indiki zaman;

3) natiqin hər cəhətdən uğurlu olacağını sübut etdiyi və hər bir Azərbaycan vətəndaşının (bütövlükdə millətin, milli demokratik dövlətin) taleyini müəyyən edəcək gələcək zaman.

Azərbaycanm dünyada əlahiddə bir hadisə olmadığını, fəal xarici siyasət yeritməli olduğunu nəzərə alan natiq həmin məsələyə keçir:

«Xarici siyasət sahəsində keçən bir il müddətində çox iş görülüb. Ancaq görüləsi işlər daha da çoxdur. Güman edirəm ki, Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə, bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır...» (yenə orada, səh. 11).

Və natiq «artıq ümumdünya miqyasına çıxmış» Azərbaycan Respublikasının xarici siyasət strategiyasını lakonik bir şəkildə şərh etdikdən sonra yenidən (üçüncü dəfə) ölkənin daxilindəki vəziyyətə - Gəncə probleminə qayıdır, lakin bu dəfə daha açıq danışır, qiyamçıları Vətənin gələcək taleyi naminə silahı yerə qoymağa çağırır:

«Ancaq bunların hamısından ümdə indi Gəncədə baş vermiş hadisələri, bununla əmələ gəlmiş gərginliyi aradan götürməkdən ibarətdir. Mən burada - Milli Məclisin iclasında, bu tribunadan üzümü bütün Azərbaycan vətəndaşlarına tuturam, bizim qardaşlarımıza, bacılarımıza, övladlarımıza tuturam və müraciət edirəm və bildirirəm ki, bizim respublika indi ağır vəziyyətdədir. Bizim ən böyük çətinliyimiz, bir də deyirəm, işğal olunan torpaqlarımızı geri qaytarıb Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin etməkdən ibarətdir. Ona görə bütün daxili iğtişaşlar, daxili didişmələr kənara qoyulmalıdır. Mən müraciət edirəm bütün Azərbaycan xalqına, mən Gəncə əhalisinə, Azərbaycan Respublikasının deputatı Surət Hüseynova müraciət edirəm, onun silahdaşlarına müraciət edirəm və onların hamısını müdrikliyə, insani münasibətlərə dəvət edirəm. Bizim respublikamızın indi buna çox ehtiyacı var və onlar da bilməlidir, bütün xalq da bilməlidir ki, indi biz hamımız bir olmalıyıq. Azərbaycanın bu faciəli dövründə biz böyük fəlakət qarşısındayıq. Bu dövrdə bütün qüvvələr birləşməlidir, bütün

siyasi partiyalar, bütün siyasi qurumlar, bütün siyasi və ya ictimai təşkilatlar, bütün insanlar hamısı birləşməlidir. Hamı kin-küdurəti kənara qoymalıdır, hamımız birləşib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmalıyıq. Güman edirəm ki, Gəncə əhalisi, Gəncənin ətrafındakı rayonlarda yaşayan insanlar mənim bu səsimi eşidəcəklər, buna səs verəcəklər. Surət Hüseynov mənim bu səsimi eşidəcək, özünü müdrik aparacaq və biz bu bəladan tamamilə qurtara biləcəyik. Mən Sizin hamınızı da bu sahədə fəaliyyət göstərməyə, birləşməyə dəvət edirəm. Mən rica edirəm, kiçik hissiyyatı kənara qoymaq lazımdır, xırda dedi-qodunu kənara qoymaq lazımdır, bunların vaxtı gələr. Kimin kiminlə nə haqq-hesabı var, sonra edər. İndi bunun vaxtı deyil» (yenə orada, səh. 12).

Bu müraciətdə emosionallıq, böyük hiss- həyəcan da var, müdriklik, təmkin də; romantiklik də var, mövcud reallıqdan çıxış etmək də; diplomatiklik də var, millət, xalq (və milli dövlətçilik) qarşısında qeyri-adi məsuliyyət də... Və Milli Məclisin iclasındakı bu çıxışın şahidi olanlar natiqin həmin sözləri necə həyəcanla, ağrı ilə dediyini yəqin ki, yaxşı xatırlayırlar. Təkrar edilən (üzümü bütün Azərbaycan vətəndaşlarına tuturam, bizim qardaşlarımıza, bacılarımıza, övladlarımıza tuturam və müraciət edirəm və bildirirəm; daxili iğtişaşlar, daxili didişmələr kənara qoyulmalıdır; mən müraciət edirəm bütün Azərbaycan xalqına, mən Gəncə əhalisinə, Azərbaycan Respublikasının deputatı Surət Hüseynova müraciət edirəm, onun silahdaşlarına müraciət edirəm; bütün qüvvələr birləşməlidir, bütün siyasi partiyalar, bütün siyasi qurumlar, bütün siyasi və ictimai təşkilatlar, bütün insanlar hamısı birləşməlidir; mən rica edirəm, kiçik hissiyyatı kənara qoymaq lazımdır, xırda dedi- qodunu kənara qoymaq lazımdır...), birnəfəsə deyilən sözlərin, ifadələrin, cümlələrin və gərgin intonasiyanın arxasındakı böyük hərflə yazılan Məsuliyyəti hiss etməmək mümkündürmü?..

H.Əliyev ana dilində sadəcə danışmır, sadəcə fıkrini, emosiyasını ifadə etmir, onu dinləyən həssas adam dərhal görür ki, o, ana dili ilə yaşayır, bu dildən mənəvi güc, qüvvə alır,

M.Füzuli demişkən, «sözə can verir» («Ver sözə ehya ki!..»), onu (sözü) yoxdan var edir. Ən adi, məişət məzmunlu sözlər, ifadələr belə onun nitqində böyük siyasi-ictimai mətləblərin şərhinə yönəlir:

«Bununla əlaqədar olaraq bir məsələyə də toxunmaq istəyirəm. Bəzi dairələrdə mənim haqqımda belə söhbətlər gedir ki, Heydər Əliyev əgər yenidən Azərbaycanda bir vəzifəyə gələrsə, kimdənsə qisas alacaq. Kimsə vaxtilə onun əleyhinə olub, yaxud kimsə ona pis münasibət göstəribsə, ona qarşı pis münasibət göstərəcək. Mən sizin qarşınızda tam məsuliyyətlə deyirəm və bütün Azərbaycan xalqına elan edirəm ki, ümumiyyətlə, mənim təbiətimdə qisasçılıq hissiyyatı yoxdur. Bunu sadəcə olaraq ayrı-ayrı adamlar süni surətdə yaradıblar və görsənir ki, bir mənə ləkə vurmaq üçün yox, ümumiyyətlə, bizi parçalamaq üçün. Sizə söz verirəm ki, heç vaxt qisasçılıq hissiyyatına qapdmayacağam. Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam. Mən özümü o hisslərin səviyyəsinə heç vaxt salmamışam və salmayacağam. Ona görə yox ki, siz mənə indi etimad göstərdiniz, mən belə bir vəzifəyə gəldim. Yox. Mən sadəcə bir vətəndaş kimi də heç vaxt, heç kəslə ədavət aparmaq, qisas almaq, yaxud da ki, kiməsə pislik etmək istəməmişəm və istəməyəcəyəm. Ancaq vəzifə çərçivəsində, şübhəsiz ki, biz hamımız qanuna riayət etməliyik, qanunun aliliyini təmin etməliyik və bu yolda, şübhəsiz ki, mən öz əqidəmdən dönməyəcəyəm» (yenə orada, səh. 12-13).

Natiq sözünü bu cür qurtarır:

«Güman edirəm ki, Ali Sovetlə, Azərbaycan prezidenti Əbülfəz Elçibəylə birlikdə, hamımız birlikdə biz bu vəziyyətdən çıxa biləcəyik. Sizin hamınızı bu yolda birliyə dəvət edirəm» (yenə orada, səh. 13).

Əslində, natiqin çıxışı burada bitir, lakin o, müxalifət nümayəndələrindən birinin «Heydər bəy,... Sizin Ali Sovetin sədri olmağınız vəziyyətdən çıxmaq üçün bizə... mən bir millət vəkili kimi mənə və mənim yoldaşlarıma, bütünlükdə Azərbaycan

xalqına qarant verə bilərsiniz, yoxsa yox?» sualına (əlavə edək ki, istər məzmun, istərsə də qrammatik quruluşuna görə nöqsanlı suala) cavab verməli olur. Həmin cavab sual verən millət vəkilinin (daha doğrusu, bu sualda maraqlı olan, Respublikanı fəlakətə gətirib çıxarmış bütöv bir səriştəsiz «rəhbərlər» dəstəsinin) ittihamına çevrilir. Görkəmli siyasi- ictimai xadim, böyük dövlət adamı mənasız sual qarşısında əsəbini gizlədə bilmir, hiddətlənir, məsuliyyətsizliyə öz kəskin etirazını bildirir, lakin cavabının sonunda yenidən təmkinini bərpa edə bilir və xalqın müdrikliyinə, böyük potensialına əsaslanaraq bir daha çıxışının son (və mühüm) müddəasına qayıdır:

«...Mən qeyd etdim, bir də bildirmək istəyirəm ki, Gəncədə vəziyyət həddindən artıq gərgindir. Bu məsələlərin həll olunması böyük səylər tələb edir. Ona görə də mən indi Gəncədəki vəziyyət haqqında, apardığım danışıqların məzmunu haqqında məlumat verməyi məsləhət görmürəm. Mən Gəncədən qayıdan kimi dərhal Azərbaycan prezidenti Əbülfəz Elçibəyin yanında olmuşam, bir neçə saat bütün məlumatları Əbülfəz Elçibəyə vermişəm. Əgər mən bu işə, bir də qeyd edirəm, öz vicdanımın tələbi ilə və ən çox Azərbaycan Respublikasının əhalisinin cürbəcür təbəqələrinin nümayəndələrinin təkidi və tələbi ilə, Azərbaycan prezidenti Əbülfəz Elçibəyin xahişi ilə cəlb olunmuşamsa, demək mən burda, bu işlərin həll olunması üçün bütün imkanlarımdan istifadə edəcəyəm. Bu barədə heç kəsin şübhəsi olmasın. Burada bu məsələnin müzakirəsində cürbəcür sözlər deyib, bu məsələnin ayrı-ayrı istiqamətlərə yönəldilməsi məndə çox ciddi narazılıq doğurur. Mən Naxçıvandan bura özüm gəlməmişəm. Məni bura dəvət eləyiblər, məndən dəfələrlə İsa Qəmbər, Pənah Hüseynov və Azərbaycanın prezidenti Əbülfəz Elçibəy xahiş eləyiblər ki, gəlim burda bir vəzifə tutum, bərabər bu məsələlərin həll olunmasında iştirak edim. Neçə gündür ki, mənimlə danışıqlar gedir. Mən bu vəzifələrdən imtina etmişəm. Bu gün də imtina edirəm. Ona görə də mən hiddətlənirəm ki, bəzi adamlar, on gündür ki, Azərbaycan bərbad vəziyyətdədir, barmaq-barmağa vurmayıblar, Azərbaycandan kənarda gəzirlər, kabinetlərdə

cürbəcür işlərlə məşğul olurlar, indi də başlayıblar işarə verməyə ki, kimsə kreslo tutmaq istəyir. Mən heç bir kreslo tutmaq istəmirəm, heç bir vəzifə tutmaq istəmirəm. 1991-ci ilin fevral ayında bu salonda, bu tribunadan çıxış edərkən demişdim: «Mən Azərbaycana xalqımla bir yerdə olmaq və xalqımın bu ağır günündə ona kömək olmaq üçün respublikaya qayıtmışam». Onda məni qəbul etmədilər. Ondan sonra da dəfələrlə demişəm. Mən heç bir vəzifə tutmaq iddiasında deyiləm. Bu gün də deyirəm. Bu dəqiqə burdan çıxıb gedə bilərəm. Ancaq bəzi adamların heç bir iş görmədən zalda oturub bu ağır vəziyyətdə məsələni mürəkkəbləşdirməsi məni hiddətləndirir. Mən heç kəsə heç bir qarantiya vermirəm, mən özümü peyğəmbər hesab etmirəm. Fəqət bu ağır vəziyyətdən çıxmaq üçün, vətəndaş kimi, Ali Sovetin deputatı kimi, Ali Sovetin sədrinin müavini kimi, əgər etimad göstərsəniz, baxmayaraq ki, mən bunu istəmirəm, Ali Sovetin sədri kimi fəaliyyət göstərməyə hazıram. Mən bu yola ancaq xalqın ağır vəziyyətdən çıxmasında müəyyən fəaliyyət göstərmək üçün gedirəm, başqa məqsədim yoxdur. Burda danışan adamların bəziləri ancaq məqsəd üçün bura gəliblər. Ona görə də mən heç kəsə heç bir qarantiya vermirəm. Ancaq hesab edirəm ki, Azərbaycan xalqı müdrik xalqdır. Millətimizdə böyük potensial var, hamını birləşdirib, bu vəziyyətdən çıxmaq olar» (yenə orada, səh. 13-14).

Göründüyü kimi, natiq dərin məntiqi, gözəl nitqi ilə həm mövcud vəziyyəti şərh edir, həm də yeganə çıxış yolunu göstərir.

***

Heydər Əliyevin dövlətin dili ilə bağlı müzakirələrdə söylədikləri sözlər məhz söz olaraq qalmadı, o, Azərbaycan dilinin bütün sahələrdə yayılmasına çalışaraq ciddi işlər gördü. Başlıcası isə Azərbaycan dili dövlət səviyyəsində milli- mədəni mənliyin, etnik-siyasi, mənəvi-ideoloji müstəqilliyin şərtinə, göstəricisinə çevrildi.

Ana dilini bu günə qədər öyrənə bilməyən, danışanda çətinlik çəkən yüksək vəzifəli adamları həmişə tənqid edən, onların buraxdığı dil-üslub xətalarını düzəldən Azərbaycan Prezidenti, bunu bir dilçi olaraq məmnunluq hissi ilə qeyd edirik ki, həm Azərbaycan dilinə, həm də Azərbaycan dilçilik elminə böyük hörmət gətirir. 1996-cı ilin iyulunda respublika Nazirlər Kabinetinin geniş iclasında gedən aşağıdakı dialoq bu baxımdan maraq doğurmaya bilməz:

QÜDRƏT QULİYEV: -...Biz Azərbaycanda geniş mənbələri olan mineral suları da artıq idxal etməyə başlamışıq. Təkcə 1995-1996-cı illərdə Azərbaycana 8 milyon dollarlıqdan çox mineral sular ixrac olunmuşdur.

HEYDƏR ƏLİYEV: - Haradan ixrac olunub?

QÜDRƏT QULİYEV: - Müxtəlif ölkələrdən.

HEYDƏR ƏLİYEV: - Bilim haradan? Bizdə mineral sular Naxçıvandadır da, başqa haradadır?

QÜDRƏT QULİYEV: - Mineral su zavodlarımız işləmir. Onlar fiziki və mənəvi cəhətdən köhnəlib. Bir neçə milyon dollar həcmində yardıma ehtiyacları var ki, Azərbaycan mineral suları daxili ehtiyaclarını ödəyə bilsin...

HEYDƏR ƏLİYEV: - Sən deyirsən ki, 8 milyon dollarlıq mineral su ixrac olunub.

QÜDRƏT QULİYEV: - Bəli, gətirilib.

HEYDƏR ƏLİYEV: - Onda sən qarışdırma idxalla ixracı. Sən ixrac deyirsən, mən də deyirəm haradan götürüb ixrac eləmisən?

QÜDRƏT QULİYEV: - Səhv etdim, Heydər Əliyeviç.

HEYDƏR ƏLİYEV: - Danışığa bir fikir ver də. Əgər azərbaycanca deyə bilmirsən, rusca de, eksport, import. Bu Azərbaycan sözlərinə, hələ ki, öyrənə bilməmisiniz. Amma ixrac - eksport deməkdir, idxal - import... («Azərbaycan» qəzeti, 27 iyul 1996-cı il).

Ana dilini gözəl bilən, onun lüğət tərkibinə, qrammatik quruluşuna, üslubi imkanlarına dərindən bələd olan Azərbaycan Prezidentinin müxtəlif vəzifəli şəxslərin, ziyalıların nitqində

açıq-aşkar səhvlərə (yuxarıdakı halda olduğu kimi), üslubi qüsurlara bu cür tənqidi yanaşması, birinci növbədə, ana dilinə - Azərbaycan dilinə məhəbbətdən irəli gəlirsə, ikinci növbədə, danışan şəxsin məsuliyyətsizliyinə, məntiqsizliyinə, fıkrini düzgün, dəqiq, səlis ifadə etməməsinə etirazın nəticəsidir. Əgər vəzifəli şəxs, ümumən ziyalı öz fıkrini lazımi səviyyədə ifadə etmirsə, işdə nə qədər bacarıqlı da olsa, bu (fikrini lazımi səviyyədə ifadə etməmək), onun hörmətinə, nüfuzuna hər halda xələl gətirir...

H.Əliyevin nitqi (burada söhbət onun həm azərbaycanca, həm də rusca nitqindən gedir) öz mükəmməlliyi, səmimiliyi, zənginliyi ilə dünyanın ən böyük siyasi xadimlərinin, ən nəhəng natiqlərinin nitqi ilə müqayisə oluna bilər desək, qətiyyən səhv etmərik... Lakin çox təəssüf ki, bu günə qədər dilçi-üslubşünaslarımız görkəmli natiqin nitq təcrübəsi barədə nəinki ciddi tədqiqat işi aparmamış, hətta müəyyən mülahizələr belə söyləməmişlər, halbuki ictimai-siyasi natiqliyin çox görkəmli nümayəndəsinin danışıq-nitq təcrübəsi həm elmi ümumiləşdirmələrə imkan verir, həm də böyük bir məktəb kimi diqqəti cəlb edir.

Allah Azərbaycan Prezidentinə görkəmli natiqlər üçün xarakterik olan üç mühüm əlamətin üçünü də vermişdir:

a) hündürboy, qədd-qamət, əzəmət - ümumiyyətlə xarici gözəllik, görkəm;

b) gur, təsirli, yapışıqlı səs;

c) möhkəm məntiq.

Bunların heç birini heç bir natiq sonradan qazana bilməz, bunlar insana ancaq Allahın mərhəməti ilə verilir - natiqlik üçün tələb olunan qalan şeylər isə insanın özündən, qazandığı təcrübədən, keçdiyi məktəbdən asıhdır... H.Əliyevin keçdiyi böyük ictimai-siyasi təcrübə məktəbi, yüksək mənəvi-mədəni və ideoloji hazırlıq, xalqla, cəmiyyətlə, insanlarla daimi əlaqə, ünsiyyət, idarəçilik istedadı, rəhbərlik məharəti və s. onun bir natiq kimi bu sənətin Parnasına qalxmasına imkan vermişdir.

H.Əliyevin natiqlik fəaliyyəti-üslubu üzərində uzun müddət apardığımız müşahidələrin nəticəsi olaraq, görkəmli natiqin

danışıq-nitq sənətkarhğının bir sıra xarakterik xüsusiyyətlərini nəzərdən keçirək:

1. Hansı mövzuda məruzə və ya çıxış edirsə, yaxud söhbət-fikir mübadiləsi aparırsa, fərqi yoxdur, H.Əliyevin həmişə mövzuya dərindən, yüksək professional səviyyədə bələd olduğu üzə çıxır. Konstitusiya komissiyasının iclasından tutmuş yazıçılar, sənət adamları ilə görüşlərə qədər ən müxtəlif yığıncaqlarda Azərbaycan rəhbəri özünü həmişə olduqca sərbəst, olduqca hazırlıqlı və olduqca peşəkarcasına aparır. Fikrimizcə, H.Əliyev hər hansı mövzuda məruzə, çıxış, yaxud söhbətə daim hazır olur dedikdə, həmin hazırlığın aşağıdakı məqamları fərqləndirilməlidir:

a) əvvəlcədən qazanılmış təcrübə;

b) məruzə, çıxış, yaxud söhbət ərəfəsində mütəxəssislərlə məsləhətləşmə - bilavasitə hazırlıq.

Azərbaycan rəhbərinin uzun illər ərzində gərgin mübarizələrdə qazanılmış təcrübəsi ona ən müxtəlif təşkilati işlərdə olduğu kimi natiqlik sahəsində də çox kömək edir. Müxtəlif xarakterli insanlarla, müxtəlif əhval-ruhiyyəli auditoriyalarla təmas, cəmiyyətin idarəsi sahəsində ardıcıl çalışma H.Əliyev üçün həmin istiqamətlərdə fəaliyyət göstərməyin başlıca prinsiplərini müəyyənləşdirmiş, əsas qaydalarını vermişdir. Ona görə də mütəfəkkir natiq cəmiyyətin hər bir təbəqəsi, zümrəsi ilə öz dilində danışa, alimlə alim kimi, təsərrüfat işçisi ilə təsərrüfat işçisi kimi, incəsənət adamı ilə incəsənət adamı kimi və s. fikir mübadiləsi edə, səriştəli bir şəkildə məsləhətləşmə, bu və ya digər mövzuda tam professional keyfıyyətdə polemika apara bilir... Və H.Əliyev məruzəyə, çıxışa, söhbətə və s. bilavasitə hazırlaşır, öyrənir deyəndə, burada söhbət ondan gedir ki, detallar dəqiqləşdirilir, yeniliklər nəzərdən keçirilir, fıkir müxtəliflikləri aydınlaşdırılır və sistemli, ardıcıl, stabil mövqe müəyyənləşdirilir.

... H.Əliyevin sədrliyi ilə keçən Nazirlər Kabinetinin geniş iclası (1996-cı ilin iyulu) bir daha göstərdi ki, Azərbaycan Prezidentinə nəinki hərtərəfli çıxış, yaxud məruzə üçün tələb olunan külli miqdarda faktlar məlumdur, hətta müxtəlif sahələr

üzrə məruzə və ya çıxışlarda öz əksini tapmış konkret faktlar, materiallar, məlumatlar və s. ilə əlaqədar onların müəllifləri ilə mübahisə etmək, düzəliş vermək iqtidarındadır. Məsələn:

NATİQ ƏLİYEV: - ... Vəsaitimiz çatmayıbdır. Yoxdur bu vəsait, ona görə ki, yalnız, tutaq ki, «Günəşli» yatağını bərpa etmək üçün, orada həm neft-qaz hasilatını saxlamaq üçün, yatağın təzyiqini saxlamaq üçün, orada neft-qaz sisteminə keçmək üçün, platforma tikmək, onun üstündən yeni quyu qazmaq üçün 500 milyon dollar lazımdır.

HEYDƏR ƏLİYEV: - Sən bilirsən ki, bunlar real deyil.

NATİQ ƏLİYEV: - Bəli, bunlar real deyil.

HEYDƏR ƏLİYEV: - Real olmayan şeyi niyə deyirsən? - Bu, birinci. İkincisi, indi «Günəşli» yatağının bir hissəsi istifadə olunur, neft müqaviləsi üzrə bu yatağı biz konsorsiuma vermişik, bu, gələcəkdə olacaqdır. İndi bunu burada deməyin nə əhəmiyyəti var? Bununla sən istəyirsən baş qarışdırasan?

NATİQ ƏLİYEV: - Xeyr. Mən üzr istəyirəm dönə-dönə, Heydər Əliyeviç ...

Heydər Əliyev: - O tədbirlərdən danış, hansılar ki, ... imkan daxilindədir, hansılar ki, mümkündür. Yoxsa, neft sənayesində o qədər işlər var ki, - əgər onları özümüz görə bilsəydik nə üçün bu müqavilələri bağlayırdıq? nə üçün xarici neft şirkətlərini buraya dəvət edirdik? Ona görə sən məsələni məsələyə qarışdırma. Sən o məsələlər ətrafında danış ki, onlar sizin daxili imkanlarınız içərisindədir, siz onları edə bilərsiniz...» («Azərbaycan» qəzeti, 30 iyul 1996-cı il).

Göründüyü kimi, H.Əliyev burada çıxış zamanı fakt-lardan sui-istifadə edilməsinə, məntiqin dolaşdırılmasına etiraz edir.

Azərbaycan Prezidenti, artıq qeyd olunduğu kimi, yalnız iqtisadi-təsərrüfat məsələləri ilə bağlı deyil, mədəniyyət, ədə-biyyat məsələlərinə dair müşavirə və ya görüşlərdəki çıxışlarında da, hər şeydən əvvəl, haqqında söhbət gedən məsələdən tamamilə xəbərdar bir şəxs kimi diqqəti cəlb edir. Məsələn, Məhəmməd Füzulinin yubileyi üzrə dövlət komissiyasının 1996-cı il 23 iyul

tarixində keçirilmiş növbəti iclasında çıxışı natiqin ümumi hazırlığını əks etdirən faktlar və məlumatlarla zəngin idi. Həm də bütün bunları o, konspektsiz, heç bir yazılı qeydə baxmadan söyləyirdi:

«Keçmişə nəzər salsaq, «Leyli və Məcnun» mövzusu Şərq aləminə məxsus olan mövzudur. Ancaq bu mövzu Azərbaycanın dahi şəxsiyyətlərinin yaradıcılığı nəticəsində əsərlərdə öz əksini tapıb. Nizami də, Füzuli də «Leyli və Məcnun» yazıb. Arif Məlikov doğru dedi, hesab edirəm ki, bəşər tarixində, Şərq aləminin tarixində, İslam aləminin tarixində «Leyli və Məcnun» mövzusunda məhz Məhəmməd Füzulinin poeması əsasında dahi bəstəkar Üzeyir Hacıbəyov tərəfindən opera yazılıbdır. Biz bəzən bunu tariximizdə adi bir hadisə hesab edirik. Ancaq bu, adi hadisə deyildir. Birincisi, ona görə ki, ümumiyyətlə, Şərq aləmində Üzeyir Hacıbəyovdan əvvəl opera yazan olmayıb. Bu operam yaradan Üzeyir Hacıbəyovdur. Ola bilərdi ki, o, bu operanı hər hansı başqa bir mövzu üzərində yazsın. Üzeyir Hacıbəyov bu operanı məhz Füzulinin poeması əsasında yazıb. Bilirsiniz, Füzulinin Üzeyir Hacıbəyovla bağlanması, 500 il bundan əvvəl yaşamış Füzulinin 100 il bundan əvvəl yaşamış Üzeyir Hacıbəyovla Şərq aləminə xas olmayan opera sənəti əsasında bağlanması tarixi bir hadisədir. Bu, xalqımızın incəsənətdə, mədəniyyətdə, musiqidə nə qədər yüksəklərə qalxdığını göstərir. Biz bununla fəxr edirik və fəxr etməliyik. Yenə də deyirəm, bunu adi hadisə kimi qəbul etmək lazım deyil. Bu, qeyri-adi bir hadisədir. Ancaq bizim sonrakı bəstəkarlarımız gərək Üzeyir Hacıbəyovun yolu ilə gedəydilər, «Leyli və Məcnun» mövzusunda bir balet yazaydılar. Qara Qarayevin «Leyli və Məcnun» simfonik əsəri çox dəyərli bir əsərdir. Mən onu dəfələrlə dinləmişəm. Yadımdadır, biz Qara Qarayevin 60 illik yubileyini qeyd edəndə həm Moskvada, həm də Bakıda məhz bu əsəri ifa etdilər. Ancaq bu mövzuda balet yazmaq lazımdır. Arif Məlikov «Məhəbbət əfsanəsi» adlı çox gözəl bir əsər yaradıb. Bu əsər dünyanın ən böyük teatrlarında tamaşaya qoyulub və bu gün də qoyulur. Ancaq gərək bir başqa bəstəkarımız da «Leyli və

Məcnun» baleti yaradaydı. Bunu Arif Məlikovun özü də edə bilərdi. Çünki onun yaratdığı birinci balet çox uğurlar qazanıb, bir çox teatrlarda bu gün də uğurla gedir» (25 iyul 1996-cı il).

H.Əliyev nə qədər zəngin məlumata malik olsa da, onun çıxışlarında aydın məntiq həlledicidir. O, faktın əlində aciz qalan, ümumiləşdirmə bacarmayan natiqlərdən deyil. H.Əliyevin təfəkkürünə induksiya ilə deduksiyanın eyni səviyyə və intensivliyi xasdır: o, ümumi qaydaya görə xüsusi vəziyyəti, halı nə cür ustalıqla səciyyələndirirsə, xüsusilərin məcmusu kimi ümumini də o qədər çevikliklə müəyyənləşdirib xarakterizə edir.

Faktlara, hadisələrə, ümumi prinsiplərə dərindən bələdliyin nəticəsidir (bunun məhz bu cür olduğunu Nazirlər Kabinetinin geniş iclası bir daha göstərdi) ki, H.Əliyevi, müxtəlif faktları necə gəldi sadalamaqla, yerli-yersiz, guya ümumiləşdirmələr aparmaqla, söz oynatmaqla əsas mətləbdən yayındırmaq, onda məsələnin mahiyyəti barədə yanlış təsəvvür yaratmaq mümkün deyil. O, məntiqlə danışdığı kimi, məntiqlə dinləməyi, müxtəlif faktlardan, məlumatlardan ağıllı istifadə olunmasını tələb etməyi də bacarır... Məsələn:

FİKRƏT YUSİFOV: - ...Güzəştlərin digər növü, yəni əhalinin aztəminatlı təbəqələri üçün verilən güzəştlər də (hal-hazırda respublikada 1620026 nəfər bu güzəştlərdən istifadə edir) büdcə vəsaitlərinin itirilməsinə səbəb olur, çünki bu güzəştlərin dəqiq uçotunu aparmaq son dərəcə çətindir. Təqribi hesablamalara görə bu il ərzində bu güzəştlər hesabına müxtəlif təşkilatların (su kəməri, kanalizasiya, istilik, enerji, mənzil istismarı, nəqliyyat, rabitə və sairə) itirdiyi vəsaitin məbləği 94,6 milyard manat təşkil edir. Belə güzəştlər üzərində qeyd edilən təşkilatların təsərrüfat fəaliyyətinin nəticələrini düzgün proqnozlaşdırmaq mümkün olmur. Daha doğrusu, onlar öz fəaliyyətlərinin son nəticələri üçün maraqlı olmurlar. Təklif olunur ki, belə güzəştlər ünvanlı şəkildə əhalinin sosial cəhətdən az müdafiə olunmuş təbəqələrinin əmək haqqına, pensiyalarına əlavə edilsin, yəni onların əmək haqqı və pensiyalarının artırılmasına yönəldilsin.

HEYDƏR ƏLİYEV: - Bu, yeni məsələ deyil axı. Bu məsələ bir neçə dəfə qalxıb və bu fikirlər söylənilibdir. Ancaq bilmirəm nə üçün bu məsələnin həll olunması üçün indiyə qədər əməli addım atılmır. Belə görüşlərdə danışıhr, bu güzəştlərin maliyyə sahəmizə zərər gətirdiyi bildirilir. Ancaq nə etmək lazımdır? Bunun da öz təklifləri var. İndi siz onu da dediniz. Bəs nə üçün həyata keçirilmir - mən bunu bilmirəm.

FİKRƏT YUSİFOV: - Möhtərəm Prezident, bu təkliflər işlənib hazırlanıb, təqdim olunubdur. Nazirlər Kabinetində bir neçə dəfə baxılıbdır.

HEYDƏR ƏLİYEV: - Buna neçə dəfə baxmaq lazımdır? Sadə bir təklifdir də. Mən belə başa düşürəm ki, bu güzəştlərdən istifadə eləyən şəxslər onların əvəzinə kompensasiya alacaqlar. Elədir, mən düz başa düşürəm?

FİKRƏT YUSİFOV: - Elədir.

HEYDƏR ƏLİYEV: - Bu, sadə bir şeydir.

Neçə dəfə müzakirə olunub, neçə dəfə baxılıb, neçə dəfə təqdim olunub. Bu qədər süründürməçilik, bu qədər uzunçuluq olmaz axı! Bu bürokratizm, süründürməçilik bizim ölkəmizi geri salır. Mən bu sözləri iki il bundan qabaq da, bir il bundan qabaq da eşitmişəm. İndi, ola bilər, sabah da deyəcəksiniz ki, bu məsələ həll olunmamış qalıb.

FİKRƏT YUSİFOV: - Tamamilə doğru iradlardır, cənab Prezident.

HEYDƏR ƏLİYEV: - Yaxşı, buyurun.

(«Azərbaycan» qəzeti, 23 iyul 1996-cı il).

II. H.Əliyevin nitqləri auditoriyanın marağına, səviyyəsinə, dərketmə imkanına müvafiq gəlir - auditoriya ilə natiq arasında, demək olar ki, hər dəqiqə sıx psixoloji kontakt olur. Bunu aşağıdakı amillər təmin edir:

- çıxışın bütünlüklə auditoriyanı bilavasitə maraqlandıran faktlar, hadisələr, konkret məlumat və materiallar üzərində qurulması;
- çıxışda həmin auditoriya üçün əhəmiyyətli mülahizələrin irəli sürülməsi;

- natiqin ümumən Azərbaycan cəmiyyətini narahat edən ən aktual məsələlərə, problemlərə toxunması, mövcud mülahizələrə analitik bir aydınlıq gətirməsi;
- auditoriya ilə polemikaya, fıkir mübadiləsinə, əgər buna ehtiyac varsa, girilməsi və onun marağının nəzərə alınması;
- auditoriyanın anlayacağı sözlər, ifadələr, cümlələr işlədilməsi və s.

H.Əliyev nə qədər zəngin, mürəkkəb, dərin intellektual təfəkkür sahibi olsa da, heç bir çıxışında, məruzəsində, nitqində, yaxud replikasında Azərbaycan cəmiyyətinin sıravi üzvünün başa düşməyəcəyi, xüsusi şərh tələb edən fikirlər söyləmir, həmişə məzmunluluğu saxlamaqla maksimum sadə bir dillə - sadə sözlər, ifadələr, konstruksiyalarla danışır ki, bu da istənilən auditoriya ilə ən yüksək səviyyədə kontakta girməyə imkan verir... İkinci tərəfdən, H.Əliyev əzəmətli duruşu, iti baxışları, fıkrinin dəqiq çatmasına kömək edən təsirli səsi ilə auditoriyanın diqqətini dərhal özünə çəkir, əlinin bəzən asta, bəzən sərt rəddedici hərəkəti ilə həmin auditoriyanı mahir bir dirijor kimi, hətta idarə edir - onu dinləyənlər özlərindən asılı olmayaraq həyəcanlanır, sözlərinə, mülahizələrinə reaksiya vermək həddində olurlar ki, bu da hər hansı natiq üçün böyük hünərdir.

Böyük mütəfəkkir yalnız ən mürəkkəb məsələlər barəsində sadə, anlaşıqlı danışmaqla deyil, məsələn, tamamilə texniki məzmunlu məsələlərdən çox humanitar, cəmiyyətin hər bir üzvü üçün həyati əhəmiyyətli bir məsələ kimi bəhs etməklə də hamının diqqətini həmin məsələ üzərində düşünməyə cəlb edə bilir. Məsələn, H.Əliyevin aşağıdakı sözlərini nəzərdən keçirək:

«Mən bildirmək istəyirəm ki, 1970-1980-ci illərdə Azərbaycanda yaradılmış elektrik energetika kompleksi olmasaydı, biz indi çox ağır vəziyyətdə olardıq. Biz o kompleksi yaratmışdıq. Mingəçevirdə tikilmiş elektrik stansiyaları nə qədər vəsaitə başa gəlibdir, biz onları nə qədər çətinliklə layihələşdirmişik, gətirmişik, tikdirmişik - onu bu işlə məşğul olan adamlar bilirlər. Yaxud da ki, Şəmkir su-elektrik stansiyası, başqa elektrik stansiyaları. Bunlar olmasaydı, əlbəttə ki, indi yaşamaq mümkün

olmayacaqdı! Bilirsiniz, bəziləri hesab edirlər ki, müstəqillik əldə etmək adi bir sözdür - bayrağı qaldırdıq ki, bizim müstəqil bayrağımız var, üç-dörd kəlmə də qışqırdıq və bununla da müstəqillik qazanıldı. Müstəqilliyin əsasını təşkil edən o küçədə deyilən şüarlar yox, qəzetlərdə yazdan boş-boş sözlər yox, bunlardır. Hər bir ölkənin yaşaması üçün onun enerji kompleksi, o cümlədən elektrik enerjisi kompleksi ən əsas komplekslərdən biridir.

Bunu vaxtı ilə biz yaratmışıq. Yaratmışıq xalqımız üçün, millətimiz üçün, müstəqil Azərbaycanın bu günü üçün. Bunu bəziləri anlamalıdırlar.

Ancaq eyni zamanda, əlbəttə ki, əgər bunlar təzələnmirsə, təmir olunmursa və onlara vaxtlı- vaxtında lazımi xidmət göstərilmirsə, həmin o kompleks artıq qocalır və köhnəlir. Məhz ona görə də biz Avropa Bankının imkanlarından istifadə edib Yenikənd su-elektrik stansiyasının tikilməsi haqqında layihəni qəbul etmişik.

Hesab edirəm ki, bizim iqtisadi kompleksimizdə elektrik enerjisi kompleksi əsas yer tutur. Bu barədə mənim verdiyim tapşırıqlar, təəssüf ki, indiyə qədər yerinə yetirilməyib. Həm kompleksin başçısı İmanovun bu məsələlərdə sakit mövqeyi - hərdənbir gəlib deyir, hesab edir ki, qurtardı getdi, - həm də Nazirlər Kabinetinin bu işə çox laqeyd yanaşması iqtisadiy-yatımızın gələcəyinə böyük zərbələr vurur. Bununla heç də razılaşmaq olmaz. Ona görə də mən bu gün bu məsələni çox vacib bir məsələ kimi qoyuram və Nazirlər Kabinetindən tələb edirəm ki, elektrik enerjisi kompleksi ilə birlikdə, qısa müddətdə bütün imkanlarımızı hesablayıb, araşdırıb, bu barədə konkret proqram müəyyən edib təqdim etsin.

Ancaq bu, mənim birinci göstərişim deyil. 1995-ci ilin may aymda mən Nazirlər Kabinetinin bax, belə geniş iclasında bu göstərişi bir dəfə vermişəm. İndi 1996-cı ilin iyul ayıdır. Göstəriş indiyə qədər yerinə yetirilməyib. Bizim bədbəxtliyimiz, bəlamız bundan ibarətdir» («Azərbaycan» qəzeti, 31 iyul 1996-cı il).

Burada söhbət elektrik-energetika kompleksindəki vəziyyətdən gedir - belə düşünmək olar ki, bu, ancaq həmin sahəyə rəhbərlik edənlər üçün maraqlıdır, əslində isə Respublika Prezidenti bunu ümumən cəmiyyətin üzərində düşünməli olduğu məsələ kimi təqdim edir. Və ümumiləşdirərək ona gətirib çıxarır ki, biz «Müstəqillik! Müstəqillik!...» deməklə, bayraq qaldırmaqla, qəzetlərdə boş-boş sözlər yazmaqla müstəqil ola bilmərik, çünki həmin müstəqillik hissləri bizi yeni iqtisadi komplekslər yaratmaq hələ bir yana qalsın, heç mövcud olanları qorumağa da səfərbər etmir. Bu isə, həqiqətən, texniki-energetik deyil, ictimai-mənəvi məsələdir...

Eyni zamanda yuxarıda nümunə verdiyimiz parçanın dili də öz-özlüyündə maraq doğurur. Belə ki, H.Əliyev diqqəti məsələyə cəlb etmək üçün vəziyyəti quru rəqəmlər, texniki hesabat xarakterli mülahizələrlə deyil, olduqca səmimi (natiq həm özündə, həm də dinləyicilərdə narazılıq, qəzəb doğursa belə) sözlərlə təsvir - şərh edir: «bu işlə məşğul olan adamlar bilirlər», «yaratmışıq xalqımız üçün, millətimiz üçün, müstəqil Azərbaycanın bu günü üçün», «həmin kompleks artıq qocalır», «bizim bədbəxtliyimiz, bəlamız bundan ibarətdir» və s.

Nəhayət, onu da qeyd etmək lazımdır ki, hər hansı auditoriya olursa olsun, H.Əliyevə yalnız böyük bir natiq kimi, hətta yalnız Azərbaycanın Prezidenti kimi deyil, çox ağır şəraitlərdə Azərbaycanı dirçəltmiş, ayaq üstə qoymuş, onun iqtisadiyyatını, mədəniyyətini, nüfuzunu yüksəltmiş, millətin ən mürəkkəb problemlərini həll etmiş xilaskar, xalqın inanılmış rəhbəri kimi qulaq asır. Auditoriyada H.Əliyevin dilindən çıxan hər bir sözdə Azərbaycanın düşdüyü ağır şəraitdən xilas etməyin yollarını axtarır, ona sadəcə olaraq söz kimi deyil, proqram kimi baxır.

Azərbaycan Prezidentinin on illər boyu qazandığı böyük nüfuzu nəinki onun tərəfdarları, hətta əleyhdarları da dönə-dönə etiraf etmişlər. Həmin nüfuzun arxasında isə H.Əliyevin on illər boyu xalq üçün, millət üçün gördüyü böyük işlər dayanır... Və ona qulaq asan hər bir auditoriya H.Əliyevin sözünün nə demək olduğunu yaxşı başa düşür.

III. H.Əliyev, bir qayda olaraq, xalq arasında deyildiyi kimi, «özündən danışır» - onun nitqində yazı dilinin yorucu təsiri yoxdur, zəngin improvizasiya imkanlarına malik şifahi danışığın canlı təzahürü diqqəti yayınmağa qoymur.

Şifahilik, fıkrin bilavasitə ifadəsi, situasiyanın, məqamın nəzərə alınması, aktiv polemika, fıkir mübadiləsinə meyillilik H.Əliyevin natiqlik üslubunun əsas əlamətləridir.

H.Əliyevin natiqlik üslubundakı şifahilik, yazıdan ümumiyyətlə imtina etmək, fikrimizcə, aşağıdakılarla şərtlənir;

- haqqında danışmalı, yaxud məruzə eləməli olduğu problemə və ya problemlərə dərindən bələdlilik (bu bir həqiqətdir ki, vaxtilə partiya, dövlət və ictimai təşkilatların bir sıra rəhbərləri o qədər də bələd olmadıqları məsələlərdən ya tamamilə sxematik bir şəkildə danışır, ya da əvvəlcədən başqalarınm hazırladıqları mətni, demək olar ki, mexaniki şəkildə oxuyurdular, lakin H.Əliyev elə o zamanlar da özünəməxsus analitik təfəkkürdən, natiqlik istedadından gələn ehtirasla bu işə çox ciddi şəkildə yanaşırdı);
- güclü ümumiləşdirmə qabiliyyəti, dərin məntiq, analitik təfəkkür;
- hadisələrə, proseslərə, cari gedişat vaxtında reaksiyavermə istedadı;
- auditoriya ilə, cəmiyyətlə ünsiyyətə girmə, məsləhətləşmə, mürəkkəb problemləri kollegial surətdə həlletmə bacarığı;
- ana dilinin lüğət tərkibinə, sintaktik ifadə imkanlarına, stilistik potensiyasına dərindən bələdlilik və s.

H.Əliyev 70-ci illərdə də şifahi danışığa üstünlük verirdi, lakin o dövrün qayda-qanunu elə idi ki, məsələn, kommunist partiyasının qurultaylarında, yaxud Ali Sovetin sessiyalarında, adətən, yazılı məruzə tələb olunurdu (daha doğrusu, buna praktik olaraq ehtiyac vardı). Azərbaycan Prezidenti seçiləndən sonra isə H.Əliyevin, demək olar, bütün çıxışları şifahi şəkildə edilir ki, bu da onun nitqinin tipologiyasını müəyyənləşdirir. Yazılı nitqdən fərqli olaraq şifahi nitq istər-istəməz ən müxtəlif psixoloji, situativ və s. səbəblərlə əlaqədar olaraq güclü natiqin dilini

improvizasiyalarla zənginləşdirir. Müasir dövrdə isə natiqlik sənəti stabilliyə, normativliyə deyil, improvizasiyaya, gözlənilməz fikirlər, mülahizələr söyləməyə daha çox meyillidir.

H.Əliyev əzəmətli görkəmi, mənalı sifəti, gur, məzmunlu səsi ilə şifahi danışığındakı məntiqi, emosiyanı bir qədər də gücləndirir və dinləyicilərdə, onların ağlında, hisslərində dərin iz qoyur - eyni zamanda şifahi nitq (lakin burada söhbət yüksək səviyyəli, zəngin məntiqli danışıqdan gedir) hər hansı natiqi auditoriya üçün daha anlaşıqlı, daha çox dərk olunan edir.

Azərbaycan Prezidentinin şifahi nitqə üstünlük verib yazılı məruzə və ya çıxışlardan, demək olar ki, imtina eləməsi bir çox cəhətdən əlamətdardır. Həmin cəhətlərdən biri ondan ibarətdir ki, Prezident özünün əvvəlcədən müəyyənləşmiş mövqeyini, fikir və mülahizələrini bildirmək, söyləməklə yanaşı özünə qədər söylənmiş mülahizələrə münasibətini də bildirmək üçün geniş imkana malik olur. Bu isə hazırda, müxtəlif fikirlərin meydana çıxdığı, mövqelərin qarşı- qarşıya dayandığı, demokratiya ilə hərcmərclik arasındakı fərqin çox hallarda pozulduğu bir dövrdə xüsusilə vacibdir.

Heydər Əliyev zəmanəyə uyğun üslub seçə bilir...

M.Füzulinin 500 illik yubileyini keçirən dövlət komissiyasının iclasında H.Əliyev (komissiyanın sədri kimi) çıxışına bu cür başladı:

«Güman edirəm, hamınız razılaşarsınız ki, bu gün komissiyanın iclası görülmüş işlərə yekun vuracaqdır. İclas həm də Füzulini qəlbimizdə, eləcə də xalqın qəlbində yenidən canlandırır. Son illər, xüsusən 1994-cü ildə Füzulinin 500 illiyi ilə əlaqədar yubiley komissiyası yaradıldıqdan sonra çox iş görülübdür. 94-cü, 95-ci və 96-cı illərdə keçirilən yubiley tədbirləri sadəcə olaraq bir yubiley günü, yaxud ayı və ya yubiley ili ilə bağlı mərasimlər deyildi, onlar Füzuli yaradıcılığının geniş bir çərçivədə təbliğ olunmasına şərait yaradırdı.

Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır. Bizim xalqımız, xüsusən gənc nəsil, yeni həyata qədəm qoyanlar Füzulini nə qədər oxusalar, dərk etsələr, onun yaradıcılığı ilə

yaxından tanış olsalar, Füzuli şəxsiyyətinin böyüklüyünü hiss etsələr, adamlarımız bir o qədər saf mənəviyyat istiqamətində yaşayacaq və həyatlarını da bu ruhda quracaqlar. Çünki Füzulinin həyatı da, bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir.

Buna görə də təxminən bu üç ildə görülən işlər həyatımızda, xüsusən ictimai-siyasi, mədəni həyatımızda çox əhəmiyyətlidir, onların böyük təsiri var və bundan sonra da olacaqdır. Hesab edirəm ki, komissiyanın gördüyü işlər Azərbaycan xalqının, millətinin, vətəndaşlarının mənəvi tərbiyəsi üçün, mənəvi cəhətdən yüksəlməsi üçün çox mühümdür.

Tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən qiymətdir - bu, lazımdır, özü də mütləq lazımdır. Digər tərəfdən isə, belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda bu yubileylər xalqın, millətin daha da yüksəlməsinə kömək edir.

Burada çıxış edənlər dedilər ki, Füzulinin həyatı çox ağır keçib, bəxti gətirməyib. Bilirsinizmi, bir insanın həyatının ağır və məşəqqətli keçməsi, əlbəttə, qeyri-adi bir şey deyildir. Amma buna böyük tarixi nöqteyi- nəzərdən baxsaq, görərik ki, bu, kiçik bir şeydir. Əsas və mühüm məsələ Füzulinin yaradıcılığı və onun qoyub getdiyi irsdir. Onun necə yaşaması, həyatının necə keçməsi o qədər də vacib deyildir. Vacib olan budur ki, o, necə bir irs qoyub gedib və 500 ildən sonra biz bu irsdən nə qədər bəhrələnir və faydalanırıq.

Bir daha qeyd edirəm, bu yubileylərin keçirilməsində məqsəd həmin şəxslərin özlərinin yada salınmasından çox, xalqın elminin, mədəniyyətinin, mənəviyyatının zənginliyini nümayiş etdirməkdir və indiki nəslə, gələcək nəsillərə onlardan daha faydalı istifadə etmək üçün imkan yaratmaqdır. Biz Füzuli ilə fəxr edirik. Məsələn, biz millətimizdən danışarkən deyirik ki, 500 il bundan öncə yaşamış azərbaycanlı Füzuli dünya mədəniyyəti xəzinəsinə öz böyük töhfələrini veribdir. Ona görə də biz yubileyi elə keçirməliyik ki, bu tədbir təkcə hər bir azərbaycanlıda deyil,

Türkiyədə də, İranda da, İraqda da, Moskvada da, Dərbənddə də, bir sözlə, hər yerdə böyük iftixar hissi doğursun. Məhz Füzulinin yaradıcılığı və əsərləri ilə göstəririk ki, xalqımız hansı zənginliyə, hansı mədəniyyətə, hansı mənəviyyata, hansı elmə malikdir.

Ona görə də təkcə Füzulinin deyil, həm də Azərbaycanın digər böyük və tarixi şəxsiyyətlərinin yubileylərinin keçirilməsi ümumxalq tədbirləridir. Mən həmin məsələlərə daim bu mövqedən yanaşmışam və əvvəllər də, indi də belə yubileyləri keçirərkən həmişə çalışmışam ki, onlar yüksək səviyyədə olsun. Çünki bu eyni zamanda xalqımızı yüksəldir» («Azərbaycan» qəzeti, 25 iyul, 1996-cı il).

H.Əliyev eyni zamanda Az.TV ilə translyasiya olunan bu çıxışında həm müxtəlif fikirlərə (yubileyi necə keçirmək barədəki bir-birindən fərqli təkliflərə) yekun vurdu, həm də yubileyin Azərbaycan və beynəlxalq aləmdəki mövqeyimiz üçün əhəmiyyətli olduğunu sübut etdi.

Son zamanlar keçirilən müşavirələrin üslubu da tələb edir ki, Azərbaycan Prezidenti öz çıxışını (həm müşavirələrin açılışında, həm də sonunda) yazılı şəkildə deyil, şifahi şəkildə etsin - əvvəlcədən çıxışlara istiqamət vermək, müşavirənin gedişində natiqləri bu və ya digər məsələ barədə məlumat verməyə, yaxud fikir- mövqe bildirməyə yönəltmək, nəhayət, müxtəlif mülahizələri ümumiləşdirmək, müşavirəyə yekun vurmaq üçün məhz bu tələb olunur...

IV. Ardıcıllıq, məntiqilik və sistemlilik ...

H.Əliyevin nitqini klassik natiqliyin bu keyfiyyətləri səciyyələndirir.

Zahirən burada paradoks özünü göstərir... H.Əliyev şifahi nitqə üstünlük verir, şifahi nitq isə müəyyən qədər sərbəstdir, yəni burada, məsələn, ardıcıllıq pozula bilər, məntiq tam yox, ümumən də gözlənə bilər, sistemlilikdə müəyyən şərtilik ola bilər... Lakin H.Əliyevin nitq praktikasında, natiqlik təcrübəsində vəziyyət belə deyil - sadaladığımız kateqoriyalar klassik səliqə ilə gözlənilir.

Əlbəttə, ardıcıllığın harada məntiqiliyə, yaxud məntiqiliyin harada sistemliliyə keçdiyini dəqiq müəyyənləşdirmək çətindir, hətta ola bilsin ki, mümkün deyil, lakin bunlar, heç şübhəsiz, müstəqil, biri digərindən fərqlənən anlayış - kateqoriyalar, prinsiplərdir.

Ardıcıllıq natiqin bəhs etdiyi məsələlərin biri digərinin davamı olmasını nəzərdə tutur (ya xronoloji, ya səbəb-nəticə, ya iddia-imkan və s. baxımdan), məntiqilik həmin ardıcıllığın «metodologiyası», sistemlilik isə nəticəsidir.

Təfəkkürü bəsit, məntiqi dolaşıq adamlar nitqdə yuxarıdakı prinsipləri gözləyə bilməzlər - böyük natiqlər isə, birinci növbədə, dildə deyil, təfəkkürdə - məntiqdə güclüdürlər ki, bu da, nəticə etibarilə, onların dilində, nitqində təzahür edir (lakin biz nədənsə «o, gözəl düşünür, gözəl mühakimə yürüdür»dən çox «o, gözəl danışır» deyirik - bəlkə də, ona görə ki, biz düşüncəni, mühakiməni deyil, danışığı «görürük»; müqayisə et: «gör necə danışır!») ...H.Əliyevin iti ağlı, güclü məntiqi, çıxışının həcmindən asılı olmayaraq, ona (çıxışın mətninə) əvvəldən axıra qədər ciddi nəzarət edə bilir. Biz burada mütəfəkkir natiqin onlarla, hətta yüzlərlə müxtəlif məruzə, nitq, çıxış və söhbətlərindən nümunə gətirə bilərik ki, onların hər birində ardıcıllıq, məntiqilik və sistemlilik mükəmməl bir şəkildə gözlənilir.

Məsələn, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il iyulun 18-19-da keçirilən geniş iclasında Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin yekun nitqi aşağıdakı şəkildə müfəssəl izahatla başlandı:

«Müzakirələrə yekun vurmaq vaxtı gəlib çatıbdır. Dünən və bu gün biz respublikamızın həyatı üçün çox böyük əhəmiyyəti olan məsələləri ətraflı müzakirə etdik. Məsələlərin müzakirəsinin gedişi, çıxışlar və nəhayət, bu gün müzakirə sona çatarkən yaranmış təəssürat onu göstərir ki, biz çox dəyərli və əhəmiyyətli iş görmüşük. Bildiyimiz kimi, bu müzakirələr respublikamızda iqtisadiyyatın vəziyyəti ilə bağlı mövcud olan zərurətdən meydana çıxmışdır.

İyun ayının 28-də mən Nazirlər Kabinetinin rəhbərliyi ilə görüşərkən iqtisadiyyatda olan vəziyyət və bəzi problemlər haqqında, eyni zamanda Nazirlər Kabinetinin işi ilə əlaqədar narazılığımı və narahatçılığımı, xüsusən bu il yanvar ayının 8-də Nazirlər Kabinetinin geniş iclasında qəbul olunmuş iki qərarın həyata keçirilməsi ilə əlaqədar buraxılan səhvlər, yəni bu məsələlərin, bu qərarların həyata keçirilməməsi haqqmda öz fıkrimi bildirdim. Mən hiss etdim ki, belə bir geniş, ətraflı müzakirə keçirməyə ehtiyac var və qərar qəbul olundu ki, iyul ayının 18-də Nazirlər Kabinetinin geniş iclası keçirilsin, bu iclasa da prezident özü rəhbərlik etsin.

Mən dünən müzakirələrə başlayarkən bildirdim ki, Nazirlər Kabinetinin işində təşkilati nöqteyi-nəzərdən çatışmazlıqlar çoxdur. Əgər onlar olmasaydı, Nazirlər Kabinetinin işi ardıcıl, davamlı olaraq, planlı şəkildə həyata keçirilsəydi bəlkə mənim bu məsələlərə bu qədər müdaxilə etməyimə ehtiyac olmazdı. Çünki Nazirlər Kabinetinin çox böyük səlahiyyəti var və o, həmin səlahiyyətlər çərçivəsində iqtisadiyyata, sosial sahəyə və həyatımızın bütün sahələrinə aid olan məsələləri araşdırıb müzakirə etmək hüququna malikdir və bu səlahiyyətlərindən istifadə etməlidir. Ancaq təəssüflər olsun ki, Nazirlər Kabinetində iş bu cür təşkil edilməyibdir. Ona görə də qəbul olunmuş bir çox qərarların, o cümlədən bu ilin yanvar ayında qəbul edilmiş iki qərarın icrası da lazımi səviyyədə olmamışdır. Məhz bunlara görə iyul ayının 18-də belə müzakirənin başlanmasına ehtiyac vardı. Ancaq indi, müzakirə sona çatarkən hesab edirəm ki, mən iyun ayının 28-də bu müzakirə haqqında, Nazirlər Kabinetinin geniş iclası haqqında qərarı qəbul edərkən bəlkə də heç təsəvvür etmirdim ki, müzakirə belə ətraflı, prinsipial olacaqdır və eyni zamanda bu müzakirə bizim üçün çox şeyləri açacaqdır. Ona görə də mən hesab edirəm ki, biz səmərəli iş görmüşük və bu müzakirə işdə, bizim gələcək işlərimizdə, xüsusən buraya toplaşanların və onların rəhbərliyi altında işləyən orqanların, təşkilatların əməli fəaliyyətində öz əksini tapmalıdır» («Azərbaycan» qəzeti, 24 iyul 1996-cı il).

...H.Əliyev məhz ardıcıllığı öz nitqində klassik normativlərə uyğun bir şəkildə gözlədiyinə görə bəzən dinləyiciyə (əlbəttə, qeyri- professionala) elə gələ bilər ki, natiq həddindən artıq təfsilata varır, yəni hər şeyi deməyə meyil edir. Əslində isə, ardıcıllıqdan irəli gələn bu cür müfəssəllik dövlətçilik təfəkkürünü, rəsmi ideologiyanı (eyni zamanda dövlətçilik əxlaqını, mənəviyyatını) aşılamaq üçün çox vacibdir. Və unutmaq olmaz ki, H.Əliyev ictimai-siyasi (ideoloji) natiq kimi çıxış edir. Bu sahədə isə, etiraf edək ki, Azərbaycan dilinin dövlətçilik - dövlətə xidmət etmək təcrübəsi məhdud - qısa müddətli olduğu üçün bu baxımdan hələ lazımi səviyyədə inkişaf etməmiş, mükəmməl sintaktik dönümlər, strukturlar, leksik-semantik, frazeoloji vasitələr və s. tam formalaşmamışdır.

H.Əliyevin nitqindəki ardıcıllığa, məntiqiliyə və sistemliliyə onun bütün məruzələrindən, çıxışlarından və s. nümunələr gətirmək mümkündür. Lakin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il iyulun 18-19-da keçirilən geniş iclasındakı yekun nitqi bu baxımdan klassik nümunə sayıla bilər. Ona görə ki:

birincisi, burada külli miqdarda faktlar araşdırılır;

ikincisi, iqtisadi, təsərrüfat həyatının ən müxtəlif sahələri üzrə təhlil aparılır;

üçüncüsü, güclü sistemləşdirmə-ümumiləşdirmə verilir...

Yekun nitqindəki ardıcıllığa, güclü məntiqə, sistem-ümumiləşdirməyə, fikrimizcə, aşağıdakı parça nümunə ola bilər:

«...Biz iki gün müddətində respublikamızın həyatının çox mühüm bir sahəsini - sosial-iqtisadi sahəni, demək olar ki, ətraflı təhlil etdik. Burada həm indiki vəziyyətə, 1996-cı ilin birinci yarısının yekunlarına, həm də keçən illərə - 1994-95-ci illərə, hətta ondan əvvəlki illərə də nəzər saldıq. Hesab edirəm ki, iqtisadiyyatımızın vəziyyəti və onun qarşısında duran problemlər bu iki gün müddətində həm bizim üçün, həm də bizi canlı yayım vasitəsilə dinləyən Azərbaycan vətəndaşları üçün daha da aydın oldu. Bizim işimizdə bir prinsip həmişə əsas olmalıdır: biz hər bir məsələni obyektiv qiymətləndirməli, obyektiv araşdırmalı,

obyektiv təhlil etməliyik. Güman edirəm ki, dünən və bugünkü kimi belə bir obyektiv təhlil əldə olunub. Şübhəsiz ki, biz hər məsələnin dərindən, daha ətraflı təhlil olunması səviyyəsinə qalxa bilmədik və bu da bu müddətdə mümkün deyildi. Ancaq hər halda respublikanın sosial-iqtisadi həyatının son illərdəki vəziyyəti və xüsusən 1993- 94-95-ci illərdə və 1996-cı ilin birinci yarısında olan vəziyyəti, mövcud olan problemlər və eyni zamanda nöqsanlar, çatışmazlıqlar və bizi narahat edən başqa məsələlər müzakirə olundu. Hesab edirəm ki, müzakirə belə ümumi bir təsəvvür yaratmaq üçün əsas verir.

Biz bu gün işimizi qiymətləndirərkən və nöqsanlarımızı çox ciddi tənqid edərkən geriyə də baxmalıyıq və qeyd etdiyim kimi, hər bir şeyə obyektiv qiymət verməliyik. Respublikamız, ölkəmiz bir çox obyektiv səbəblərdən son illərdə, demək olar ki, 1988-ci ildən sosial-iqtisadi sahədə get-gedə tənəzzülə uğrayıb və bunun nəticəsində iqtisadi, sosial böhran mövcuddur. Bunların obyektiv səbəbləri var və o barədə dünən də, bu gün də danışılıb, deyilib. Ancaq eyni zamanda özümüzün işimizdən asılı olan səbəblər də var. Biz respublikamızın sosial-iqtisadi vəziyyətinin ağır halda olduğunu daim qeyd edərək, eyni zamanda atılan addımları da, görülən işləri də, müsbət nəticələri də, bəzən ümumi işdə xırda da olsa, müsbət halları da görməliyik və qeyd etməliyik.

1993-cü ili xatırlamaq lazımdır. Üç il bundan qabaq, 1993-cü ilin iyun-iyul aylarında Azərbaycan nə vəziyyətdə idi? Azərbaycan böyük təhlükə qarşısında idi, fəlakət burulğanında boğulurdu. Azərbaycan artıq parçalanırdı. Azərbaycanda dövlət böhranı baş vermişdi. Bunlar hamısı bir gündə meydana çıxan şey deyildi. Bunlar 1993-cü ildən əvvəl, o illərdə Azərbaycanda gedən sosial- iqtisadi və ictimai-siyasi proseslərin məntiqi nəticəsi idi. Respublika o illərdə o qədər ağır bir vəziyyətə düşmüşdü ki, həm Ermənistanın hərbi təcavüzü, həm də ki, daxildə gedən ictimai-siyasi proseslər, xaricdən Azərbaycana göstərilən cürbəcür təsirlər ölkəmizdə çox gərgin bir vəziyyət yaratmışdı. Belə bir vəziyyətdə iqtisadiyyat haqqında düşünmək, şübhəsiz ki, bəlkə də çox çətin idi. Bir tərəfdən müharibə gedirdi

və Azərbaycanın daxilində gedən bu çəkişmələr, hakimiyyət mübarizəsi, Azərbaycanı parçalamağa cəhd edən qüvvələrin hərəkətləri nəticəsində, təəssüf olsun ki, müharibə də bizim üçün uğursuz gedirdi. İkinci tərəfdən isə içəridə qarmaqarışıqlıq var idi.

Ona görə də 3 il müddətində Azərbaycanın belə ağır vəziyyətdən, fəlakətli bir vəziyyətdən bugünkü vəziyyətə gəlib çıxması, mən hesab edirəm ki, böyük nailiyyətdir, xalqımızın nailiyyətidir, bizim müstəqil Azərbaycan Respublikasının, dövlətinin nailiyyətidir. Bu, dövlət işləri ilə məşğul olan bütün şəxslərin, orqanların nailiyyətidir» («Azərbaycan» qəzeti, 24 iyul 1996-cı il).

V. H.Əliyev auditoriya ilə bilavasitə kontakta girir, sual verir, cavab alır, yerdən verilən replikaları diqqətdən qaçırmır, bir növ, auditoriya ilə fikir mübadiləsi edərək, müəyyən məsələləri daha konkret, daha obyektiv və daha real - həyati bir şəkildə şərh edib araşdırır. Auditoriya ilə bilavasitə təmas H.Əliyevin nitqini sadəcə məsləhətləşməyə çevirmir, əksinə, bununla o, fikrin ideyasını, geniş mənada mövqeyini ictimaiyyətə effektli çatdırmaq üsulu əldə edir. Məsələn:

«...Bilirsiniz ki, mən hələ özəlləşdirmə haqqında, torpağın xüsusi mülkiyyətə verilməsi haqqında, torpaq islahatı haqqında qanunlar qəbul olunmamış, onların hazırlıq dövründə bir neçə müşavirədə göstəriş verdim ki, Naxçıvanda keçirilən eksperimentin nəticəsi əsasında Azərbaycanda kolxozlarda, sovxozlarda olan mal-qaranın əksəriyyətini çalışan kəndlilər alsınlar. Çox yerlərdə alıblar. Abbasov, elədir, yoxsa yox?

ABBAS ABBASOV: - Bəli.

HEYDƏR ƏLİYEV: - Alıblar. İndi Azərbaycanda, Bakıda ət problemi yoxdur. Amma siz də Bakıda yaşamısınız, mən də Bakıda yaşamışam. Mənim özüm burada işlədiyim vaxtlarda da - 70-ci illərin axırlarında və 80-ci ilbrin əvvəllərində biz talonla ət satırdıq. Yadınızdan çıxıb? Yağ, ət talonla idi, çünki özümüz ət istehsal edə bilmirdik. Bizə ət Rusiyadan, Ukraynadan dotasiya ilə gəlməli idi, onu da hər il ixtisara salırdılar, ona görə də talona

keçdik. Indi talon da yoxdur, Azərbaycanda, Bakıda - hər yerdə ət var, elədir, yoxsa yox? Mən düz demirəm?

YERDƏN SƏS: - Elədir.

HEYDƏR ƏLİYEV: - Doğrudurmu?

YERDƏN SƏS: - Bəli, bəli.

HEYDƏR ƏLİYEV: - Hər yerdə ət var, problem götürülübdür. Qiymət də başqa yerlərə nisbətən ucuzdur. Neçəyədir ətin kiloqramı?

YERDƏN SƏS: - 7-10 min manat.

HEYDƏR ƏLİYEV: - 7-10 min manat. Amma bilirsiniz, Moskvada ətin kiloqramı neçəyədir? Bilən var, yoxsa yox?

YERDƏN SƏS: - 25-28 min rubl.

HEYDƏR ƏLİYEV: - Moskvada 25-28 min rubldur, burada 7-10 min manat. Şübhəsiz ki, bu müqayisələri aparanda - düzgün başa düşün - mən heç də hesab etmirəm ki, bizdə başqa yerlərdən yaxşıdır. Sadəcə, olan vəziyyəti obyektiv təhlil etmək üçün deyirəm. İkinci tərəfdən, mən bunu həmin görülən işlərin müsbət nəticəsi kimi deyirəm ki, əgər bunlar olmasaydı, bu tədbirlər həyata keçirilməsəydi, kəndli bu torpağın xüsusi mülkiyyətə verilməsini, kolxozların, sovxozların ləğv olunmasını psixoloji cəhətdən dərk edə bilməsəydi, bəlkə də bizim qanunumuzu da Rusiyada qəbul olunan qanun kimi - biri qəbul edərdi, biri qəbul etməzdi, bir hissəsi qəbul edərdi, bir hissəsi qəbul etməzdi. Yenə də deyirəm, iki gün bundan qabaq orada deyirlər ki, biz gərək ya referendum keçirək, ya ayrı-ayrı regionların xüsusiyyətinə uyğun olaraq bu islahatı həyata keçirək.

Biz belə bir qanunu qəbul etmişik. Bu, böyük bir nailiyyətdir. Hesab edirəm ki, bu qanunun həyata keçirilməsi çox yaxşı nəticələr verəcəkdir. Bu günlərdə bu qanunun həyata keçirilməsi ilə əlaqədar mən fərman imzalayacağam, artıq bu fərman hazırdır və lazımi əməli tədbirləri görmək üçün hər kəsin vəzifəsi orada müəyyən olunacaqdır...» («Azərbaycan» qəzeti, 24 iyul 1996-cı il).

İctimai-siyasi natiqlikdə auditoriya ilə bilavasitə kontakta girmək xüsusilə vacibdir, çünki ancaq bu yolla natiq öz fıkrinin dinləyicilərə çatdığına, onlarda müəyyən ideya, ən azı emosiya

yaratdığına əmin ola bilər. Müşahidələr göstərir ki, H.Əliyev, əsasən aşağıdakı hallarda auditoriyaya müraciət edir:

a) bu və ya digər faktı, məlumatı dəqiqləşdirmək üçün;

b) auditoriyanın diqqətini bu və ya digər məsələyə daha çox cəlb etmək üçün;

c) bu və ya digər fikrə, mülahizəyə ya bütövlükdə auditoriyanın, ya da ayrı-ayrı şəxslərin münasibətini müəyyənləşdirmək üçün və s.

Bunların hamısı auditoriya ilə təmas baxımından təcrübəli natiq üçün zəruri reaksiyalardır ki, hər birinin öz mənası, funksiyası mövcuddur. Və qeyd edək ki, yazılı məruzə, yaxud çıxışlarda natiqlik sənətinin bu ənənəvi priyomundan istifadə etmək çətindir. H.Əliyevin şifahi nitqə üstünlük verən bir natiq kimi ondan uğurla faydalanması tamamilə təbiidir. Düşüncə - nitqin şifahiliyi, improvizasiya imkanı, istər- istəməz, haqqında bəhs etdiyi mövzunu yaxşı bilən natiqi auditoriya ilə polemikaya çəkir. Eyni zamanda H.Əliyev yalnız natiq-ideoloq deyildir, həm də onun çıxışları, apardığı müşavirə- müzakirələr bu gün millətin taleyində böyük rol oynayacaq tarixi qərarlar qəbul etməyə yönəlmişdir, ona görə də Azərbaycan Prezidentinin səlahiyyətli auditoriya, yaxud şəxslərlə polemikası həm də müəyyən fəaliyyət proqramı - məsləhət xarakteri daşıyır ki, bu gün bu cür konkret proqram-məsləhətə çox böyük ehtiyac vardır. Məsələn:

HEYDƏR ƏLİYEV: -...Mən hesab edirəm ki, daha bu mövzu ətrafında danışmağa ehtiyac yoxdur. Deyilənlər yetərlidir, bəsdir. Sadəcə olaraq, Nazirlər Kabineti də, bütün nazirliklər də, bütün müəssisələr də, təşkilatlar da və o cümlədən Xarici İqtisadi Əlaqələr Nazirliyi də bu barədə deyilən mövqeni tutmalıdır və bundan sonra məsələləri bir il keçəndən sonra gəlib təhlil etməməlidirlər. Hər ay bu məsələ təhlil olunmalıdır və məlumat verilməlidir ki, xarici ticarət, idxal- ixrac əməliyyatları nə cür gedir və ondan biz nə səmərə götürməliyik. Bu rəqəmlər araşdırılmalıdır. Çünki Gömrük Komitəsinin sədri dedi ki, 220 milyon dollarlıq mal barterlə göndərilib, Azərbaycana gələn isə, sən nə qədər dedin?

KAMALƏDDİN HEYDƏROV: - 43 milyon dollar.

HEYDƏR ƏLİYEV: - 43 milyon dollarlıq mal gəlib. Onda mən Nazirlər Kabinetinə tapşırıram, - araşdırın görək, bəs bunun 180 milyon dollara qədəri haradadır? Haradadır bu 180 milyon? Həmin o «Qrima» şirkətinə də 10 milyon dollarlıq mal gedibdir, amma 5 milyon dollarlıq avadanlıq gəlibdir. Bəs qalanı haradadır? Bilirsiniz, bu çox narahatedici bir rəqəmdir. Mən güman edirəm ki, əgər bu, gömrükdən keçibsə, burada səhv ola bilməz. Doğrudur, Fuad Quliyev buna təəccübləndi və dedi ki, ola bilməz. Sən belə dedin də?

FUAD QULİYEV: - Bəli, bu, həddindən artıq çoxdur.

HEYDƏR ƏLİYEV: - Həddindən artıq çoxdur, şübhə doğuran nədir, rəqəmdir?

FUAD QULİYEV: - Şübhəsiz...

HEYDƏR ƏLİYEV: - Şübhə doğurursa, dəqiqləşdirin. O, bu rəqəmi havadan götürməyib ki, hə?

FUAD QULİYEV: - O, havadan götürməyib, ancaq onun borcudur bu pulları qaytarsın. Qaytarmırlarsa, sənədləri versin prokurorluğa. Özünü qəhrəman kimi göstərir.

HEYDƏR ƏLİYEV: - Sən nə demək istəyirsən?

ELDAR HƏSƏNOV (baş prokuror): - Dediyi rəqəm ümumi rəqəmdir. Sizin dediyiniz dövlət müəssisələrinin rəqəmləridir.

HEYDƏR ƏLİYEV: - Bəli, bəli, bəli. Məni maraqlandıran dövlətdir, dövlət əmlakıdır. Ona görə də hesab edirəm ki, əgər kimdəsə şübhə varsa, bunu araşdırmaq lazımdır. Ancaq bu siqnal çox narahatedici siqnaldır. Əgər özəl sektor barter ilə malı göndərirsə, onun əvəzinə mal almırsa, deməli, valyuta gedir, orada qalır, bizə qayıtmır, elədirmi?

FUAD QULİYEV: - Yox, qaytarmır, o da düzdür.

HEYDƏR ƏLİYEV: - O da yaramaz.

FUAD QULİYEV: - Əlbəttə, Düzdür.

HEYDƏR ƏLİYEV: - O, bizim deyil, amma bizim iqtisadiyyatımıza zərbədir. Ona görə biz onu da kənara qoya bilmərik. Onunla məşğul olmaq lazımdır...» («Azərbaycan» qəzeti, 24 iyul 1996-cı il).

Azərbaycan Prezidenti yalnız məruzə, yaxud çıxışlarında auditoriya ilə aktiv kontakta girməklə qalmır, həm də sədrlik etdiyi müşavirə- müzakirələrdə çıxış edən natiqlərlə bu və ya digər məsələ ətrafında polemika aparmağa, həmin məsələni axıra qədər aydınlaşdırmağa böyük ehtiyac duyur. Bunun aşağıdakı səbəblərini göstərmək mümkündür:

a) natiqi əsas məsələ - mətləb üzərinə gətirmək, onun izaha, şərhə ehtiyacı olmayan məsələlər üzərində geniş dayanmasının (vaxt aparmasının, yaxud auditoriyanın diqqətini mətləbdən yayındırmasının) qarşısını almaq;

b) natiqin qeyri-dəqiq faktlar, məlumatlar əsasında danışmasına, saxtakarlıq etməsinə, yaxud səhv mülahizələr söyləməsinə imkan verməmək;

c) açar-suallarla natiqin nə demək istədiyini, bu və ya digər məsələyə münasibətdə hansı mövqedə dayandığını auditoriya üçün daha dərindən aşkarlamaq və s.

H.Əliyevin çıxış edən natiqlə polemikası, bəzən silsilə sual-cavablar auditoriyaya çox zəngin, məqsədyönlü, sistemli informasiya verir. Məsələn:

TOFİQ ƏZİZOV: - ...Respublikada özəlləşdirmə prosesinin həyata keçirilməsinin vəziyyəti Nazirlər Kabinetində mütəmadi olaraq müzakirə edilsin. Əlaqədar nazirlik, komitə, şirkət və konsern rəhbərlərinin Dövlət Əmlak Komitəsi ilə birlikdə özəlləşdirmənin həyata keçirilməsi barədə gördükləri iş haqqında hər ay hesabatları dinlənilsin.

HEYDƏR ƏLİYEV: - Bunu bizə niyə deyirsiniz? Axı, bu sizin işinizdir? Mən başa düşmürəm, siz burada bizim qarşımızda vəzifə qoyursunuz? Bunu vaxtında niyə etməmisiniz? Bu, ilk növbədə sizin işinizdir. Bundan başqa, biz Dövlət Əmlak Komitəsindən əlavə komissiya yaratmışıq və baş nazirin birinci müavini Rəsizadə həmin komissiyanın sədridir. Onunla müzakirə edin. Siz burada bizim qarşımızda vəzifə qoyursunuz - baxılsın, müzakirə edilsin... Niyə belə-belə şeylərlə bizim vaxtımızı alırsınız? Əgər sizin baxılası təklifləriniz varsa, buyurun. Davam edin.

TOFİQ ƏZİZOV: - Respublikada iqtisadi islahatların aparılması, 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının qəbul olunması bilavasitə hörmətli Prezidentimizin rəhbərliyi və şəxsi əməyi ilə bağlıdır. Komitənin kollektivi bu vacib işin məsuliyyətini dərindən dərk edərək hörmətli Prezidentimizə bu istiqamətdə apardığımız işin vəziyyəti haqqında müntəzəm hesabat verməyi məqsədəuyğun sayır, onun məsləhət və tövsiyələrini fəaliyyətimizdə icra və rəhbərlik üçün qəbul etməyi arzu edir. Diqqətinizə görə çox sağ olun.

HEYDƏR ƏLİYEV: - Amma bir şey aydın olmadı: vauçerlər nə vaxt hazır olacaq, onlar nə vaxt paylanacaq? Siz bu barədə bir az dəqiq məlumat verin.

TOFİQ ƏZİZOV: - Hörmətli Prezident, sizin 25 mart tarixli fərmanınızla qarşımıza qoyulan vəzifə ilə avqust-sentyabr aylarında...

HEYDƏR ƏLİYEV: - Mən qoyulan vəzifəni demirəm, fərmanı mən bilirəm. Siz konkret deyin, bu nə vaxt olacaq?

TOFİQ ƏZİZOV: - Avqust ayının ilk günlərində birinci hissəsi, yəni 4 milyon çek İngiltərədən göndəriləcək.

HEYDƏR ƏLİYEV: - Necə yəni 4 milyon? Nəyə görə 4 milyon?

TOFİQ ƏZİZOV: - Birinci hissəsi avqustun 1- 5-də. Biz onlarla bir yerdə vaxtını planlaşdırmışıq. Plana uyğun olaraq avqustun 1-5-də birinci hissəsi göndəriləcək. Bu, 4 milyondur. İkinci hissəsi isə avqustun 15-nə kimi Bakıda olmalıdır.

HEYDƏR ƏLİYEV: - Bəs, onun paylanması?

TOFİQ ƏZİZOV: - Bütün rayonlarda 3 nüsxədən ibarət siyahılar hazırdır. Onun bir nüsxəsi Dövlət Əmlak Komitəsində, bir nüsxəsi icra hakimiyyətində, biri də bizim şöbələrdədir. Avqust-sentyabr ayları ərzində biz özəlləşdirmə paylarını əhaliyə paylamalıyıq» («Azərbaycan» qəzeti, 20 iyul 1996-cı il).

... Azərbaycan Prezidentinin sədrliyi ilə keçirilən müşavirələrdə gedən söhbətə onun fəal müdaxiləsi həmin müşavirələrin

a) ideoloji-intellektual səviyyəsini yüksəldir;

b) praktikliyini, düzgün və perspektivli qərarlar qəbul etməsini təmin edir;

c) güclü dövlətçilik düşüncəsi təbliğ etməsinə səbəb olur.

Müxtəlif natiqlərin çıxış etdiyi, onlarla mülahizələrin irəli sürüldüyü, ayrı-ayrı fikirlərin cövlan etdiyi müşavirə-müzakirəni H.Əliyev çevik təfəkkürü, dərin məntiqi, sistemli düşüncəsi ilə vahid, bütöv bir «orqanizm»ə, «əsər»ə çevirə bilir. Onun sədrliyi ilə keçirilən hər bir yığıncaq ardıcıl müzakirə aparır, dəqiq, reallığı əks etdirən qərarlara gəlir ki, burada H.Əliyev dühası, onun natiqlik məharəti çox böyük rol oynayır.

VI. H.Əliyev konkret məsələlər üzərində düşünə-düşünə danışmağı, danışa-danışa nəticə çıxarmağı və müdrik ümumiləşdirmələr verməyi xoşlayır - şifahi nitqin sonsuz improvizasiya imkanını onun qədər məntiqli bir şəkildə idarə edən natiqə çox az-az hallarda təsadüf olunur.

Yuxarıda qeyd etdik ki, H.Əliyev bu və ya digər məsələnin müzakirəsi zamanı həm konkretdən ümumiyə (induksiya), həm də ümumidən konkretə (deduksiya) çox böyük ustalıqla keçir və Azərbaycan Prezidentinin çıxışları, hər şeydən əvvəl, konkretlə ümuminin dialektikasını əks etdirməklə, natiqin yüksək mücərrədləşdirmə qabiliyyətini göstərir. Məsələn, bir neçə dəqiqədə H.Əliyev Azərbaycanm bugünkü vəziyyətini aşağıdakı kimi olduqca mükəmməl bir şəkildə xarakterizə edir:

«...Bugünkü vəziyyət ondan ibarətdir ki, artıq respublikamızda ictimai-siyasi sabitlik yaranıbdır. İki ildir ki, müharibə yoxdur. Doğrudur, biz bunu böyük nailiyyət hesab edə bilmərik. Çünki respublikamıza qarşı edilmiş bu təcavüz aradan götürülməyibdir, torpaqlarımızın 20 faizi işğal altındadır və işğal olunmuş torpaqlardan didərgin düşmüş 1 milyondan artıq vətəndaşımız çox ağır vəziyyətdədir, əksəriyyəti çadırlarda yaşayır. Elə iki il bundan öncə də vəziyyət belə idi - torpaqlar da işğal olunmuşdu, qaçqınlar da var idi, vəziyyət də ağır idi. Ancaq eyni zamanda döyüşlər gedirdi, hər gün şəhidlər gəlirdi, hər gün qan tökülürdü. İki ildir ki, müharibə getmir. Əgər iki il bundan öncə biz müharibəni - Ermənistanla gedən müharibəni saxlaya bildik-

sə, Azərbaycanın daxilində olan ayrı- ayrı silahlı dəstələrin, silahlı qüvvələrin, terrorçu qrupların, təxribatçı qrupların Azərbaycan dövlətçiliyinə etdiyi xəyanətləri, demək olar ki, ancaq 1995-ci ilin ortasından başlayaraq dayandıra bildik. Əgər 1994-cü ilin may ayında biz atəşi dayandıra bildiksə, Ermənistanla Azərbaycan arasında atəşi dayandırdıqsa, daxildə gedən, yenə də deyirəm, daxili müharibəni, terrorçuların, qeyri- qanuni dəstələrin, siyasi müxalifətin yaxud da ki, hərbi müxalifətin, cürbəcür yaramaz ünsürlərin Azərbaycan dövlətçiliyinə qarşı yönəltdikləri hərəkətlərin qarşısını yalnız 1995-ci ilin ortalarında ala bildik və sabitlik yarada bildik» («Azərbaycan» qəzeti, 24 iyul 1996-cı il).

Müşahidələr göstərir ki, H.Əliyevin nitq təcrübəsində əqli nəticə çıxarmağın ən geniş istifadə olunan üsullarından biri də müqayisədir. Onun müqayisələri həm konkret faktlar üzərində, həm də ümumi vəziyyət, ictimai-siyasi, iqtisadi panoram üzərində qurulur... Bunların hamısı natiq- mütəfəkkirin, natiq-ideoloqun tutduğu ictimai- siyasi mövqeyin təsdiqinə və təbliğinə xidmət edir. Və eyni zamanda, xüsusi qeyd etmək lazımdır ki, H.Əliyevin apardığı müqayisələr ardıcıl, sistemli və biri digərində təsdiq olunan müqayisələrdir:

«...Təsəvvür edin, 1993-cü ildə Azərbaycan, Bakı fövqəladə vəziyyət şəraitində idi, heç şəhərə çıxmaq mümkün deyildi. 1994-cü ildə fövqəladə vəziyyət yox idi. Onu biz artıq sentyabr ayında götürdük. Ancaq 1994-cü ildə də vəziyyət o qədər gərgin idi ki, insanların bir çoxu qorxurdu. Çünki cürbəcür qruplar, cürbəcür dəstələr hələ mövcud idi, onların bir qismi bizim yüksək səviyyəli dövlət orqanlarında işləyirdi: baş nazir vəzifəsindən tutmuş, milli təhlükəsizlik naziri, kənd təsərrüfatı naziri vəzifələrində, başqa nazirliklərdə, yerlərdə işləyirdilər. Bunların hamısı, şübhəsiz ki, respublikamızda sosial-iqtisadi problemlərimizin həll edilməsini, bu məqsədlə lazımi qərarların qəbul olunmasını və onların həyata keçirilməsini ləngidirdi. Ancaq bütün bunlara baxmayaraq biz elə 1993-cü ildə də həmin bu strategiya ilə, bu strateji prinsiplərlə işimizə başlamışıq. Yəni əgər biz

sosial-iqtisadi problemləri bu gün müzakirə ediriksə, onları ictimai-siyasi problemlərdən heç vaxt ayırmaq olmaz. Əgər respublikada ictimai- siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz.

İqtisadiyyatda olan problemləri həll etmək üçün, yenə də deyirəm, biz hələ 1994-cü ildə müstəqil Azərbaycan dövlətinin bütün sahələrdə, o cümlədən iqtisadiyyat sahəsində, sosial sahədə strateji xəttini müəyyən etmişdik. Xatirinizdədir, mən respublikanın prezidenti seçiləndən sonra andiçmə mərasimində Azərbaycanın müstəqil dövlət kimi, müstəqil respublika kimi siyasi-iqtisadi proqramı haqqında öz fikirlərimi söylədim və dedim ki, Azərbaycanda hüquqi, demokratik, sivilizasiyalı dövlət qurulur, demokratik proseslər gedir və gedəcəkdir, demokratik cəmiyyət yaranır, Azərbaycanda siyasi plüralizm, insan azadlığı, insanlar üçün bütün azadlıqlar bərqərar olur. Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya üçün addımlar atacaqdır, öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirəcəkdir. Azərbaycanda sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı, sahibkarlıq prinsipləri yaranacaq, bərqərar olacaq və inkişaf edəcəkdir.

Bunlar 1993-cü ildə elan olunubdur və o vaxtdan indiyə qədər Azərbaycanda Dövlət tərəfindən ardıcıl surətdə həyata keçirilir. Bu baxımdan mən hesab edirəm ki, bizim iqtisadiyyat sahəsində əldə etdiyimiz nailiyyətlər Azərbaycanın ictimai-siyasi sahədə əldə etdiyi nailiyyətlərlə və beynəlxalq aləmdə apardığı siyasətlə və gördüyü tədbirlərlə sıx bağlıdır. Biz müstəqil bir dövlət kimi, dünyadan təcrid olunmuş vəziyyətdə yaşaya bilmərik. Müstəqil dövlət bütün dünya dövlətləri ilə iqtisadi əlaqələr qurmalıdır, siyasi əlaqələr qurmalıdır, bütün əlaqələri qurmalıdır. Hesab edirəm ki, bu müddətdə biz bu əlaqələri lazımi» səviyyədə qurub yarada bilmişik...» («Azərbaycan qəzeti, 24 iyul 1996-cı il).

...H.Əliyevin təfəkkürü ilə dili (nitqi) arasında, əgər belə demək mümkünsə, bilavasitə əlaqə vardır - o, düşüncəsini bütün dəqiqliyi, səlisliyi ilə nitqində təqdim edə bilir; idrak dərinliyi, təfəkkür zənginliyi H.Əliyevin dilini həm güclü intellektual, həm

də emosional bir dil səviyyəsinə yüksəldir. Və biz deyəndə ki, «Heydər Əliyev düşünə-düşünə danışmaqla yanaşı, danışa- danışa düşünür», onu nəzərdə tuturuq ki, dinləyici (auditoriya) öz qarşısında danışan H.Əliyevdən çox, düşünən, mühakimə yürüdən, həyəcanlanan və beləliklə də dinləyicilərdə böyük təsir buraxan H.Əliyevi görür... Məsələn, Ağdamın işğal edilməsinin üçüncü ildönümü ilə əlaqədar rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdəki giriş sözünə Azərbaycan Prezidenti bu cür başladı:

«Hörmətli ağdamlılar, bacılar və qardaşlar!

Bu gün sizinlə, yəni Ağdam rayonunun və respublikamızın müxtəlif bölgələrində məskunlaşmış ağdamlıların nümayəndələri ilə görüşümdən çox məmnunam. Mən sizi buraya dəvət etmişəm. Ağdam rayonunun bugünkü həyatı, ağdamlıların vəziyyəti və problemləri haqqında sizinlə birlikdə söhbət aparmaq məqsədindəyəm.

Ağdam Azərbaycanın böyük rayonlarından biridir. Ağdam şəhəri Azərbaycanın qədim və çox böyük tarixə malik şəhərlərindən biridir. Respublikamızın həyatında Ağdam rayonu həm iqtisadi, elmi potensialına, həm də insanlarının fədakarlığına görə həmişə çox mühüm rol oynamışdır. Ağdam rayonundan olan bir çox şəxslər ölkəmizin həyatının bir sıra sahələrində səmərəli fəaliyyət göstərmişlər. Rayonun özündə yaşayanlar Azərbaycanın gözəl guşəsi olan Ağdamda qurub-yaratmaqla məşğul olmuşlar.

1988-ci ildə Ermənistanın Azərbaycana hərbi təcavüzünün, bu münaqişənin ilk qığılcımını Ağdamda hiss etmişlər. Bunlar ilk dəfə özünü Ağdamda, Dağlıq Qarabağın sərhədində büruzə vermişdir. Ağdam rayonu o vaxtdan indiyədək Ermənistanın hərbi təcavüzünə qarşı aparılan mübarizədə ön cərgədə olmuşdur. Ağdam vuruşmuşdur, döyüşmüşdür, böyük itkilər vermişdir.

Təəssüflər olsun ki, Ermənistanın silahlı qüvvələrinin gücü və eyni zamanda Ağdamın müdafiəsində buraxılan səhvlər və bəzi səbəblər nəticəsində rayonun ərazisinin bir hissəsi işğal edilmişdir. O cümlədən, üç il bundan əvvəl Ağdam şəhəri də Er-

mənistanın silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Ancaq bunlar nə ağdamlıların, nə də bütün xalqımızın torpaqlarımızı müdafiə etmək uğrunda mübarizəsini heç vaxt zəiflədə bilməmiş və dayandıra da bilməyəcəkdir. Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunmuş Ağdam rayonu ərazilərinin və bütün torpaqlarımızın azad edilməsi qarşımızda duran əsas vəzifədir, məqsəddir. Xalqımız, dövlətimiz bu məqsədi, bu vəzifəni birlikdə şərəflə yerinə yetirəcək və biz buna nail olacağıq.

Ağdam rayonunun sakinləri, qəhrəman insanları Ermənistanın təcavüzünə qarşı vuruşaraq böyük itkilər, şəhidlər vermişlər. Yenə də deyirəm, ürəyimizi incidən, sarsıdan odur ki, Ağdam şəhəri və rayonun bir hissəsi işğal edilmişdir. İşğal olunmuş şəhərdən və rayonun bir hissəsindən didərgin düşən ağdamlılar respublikanın müxtəlif yerlərində məskunlaşmışlar və onların bir çoxu ağır vəziyyətdə yaşayır. Bunlar hamısı bizi həm narahat edir, həm də fəaliyyətimizin diqqət mərkəzindədir. Buna görə də mən bu gün sizinlə, yəni Ağdam rayonuna mənsub olan əhalinin nümayəndələri ilə bu görüşü keçirməyi lazım bilmişəm və həm özüm, həm də dövlət, ictimaiyyət üçün bunu çox əhəmiyyətli hesab edirəm...» («Azərbaycan» qəzeti, 3 avqust 1996-cı il).

VII. H.Əliyevin nitqində təmkinlə emosiya biri digərini periodik əvəz edir. Bu isə o deməkdir ki, natiq hisslərini, daha doğrusu, haqqında bəhs etdiyi məsələyə emosional münasibətini gizlətmir: H.Əliyev həmişə açıq danışır, münasibətini dolayı deyil, olduqca müstəqim şəkildə bildirir. ...Müşahidələr göstərir ki, Azərbaycan Prezidentinin bu və ya digər məsələ ilə əlaqədar olaraq «diplomatik gediş» etməyə, bir şey deyib başqa şey fikirləşməyə ehtiyacı olmamışdır və onun sözünü müxtəlif mənalara yozmaq, həmin sözdən bir-birinə əks fikirlər çıxarmaq imkanı yoxdur.

H.Əliyev dostla dost, düşmənlə düşmən kimi danışmağı bacarır - onun böyük, kamil şəxsiyyəti nitqinin emotiv spektrlənməsini müəyyən edən amillərdən biri, bəlkə də birincisidir. Onun şəxsiyyəti həmişə millətlə, xalqla üz-üzə dayanır və o, həmişə siyasətin, diplomatiyanın deyil, millətin, xalqın dilində da-

nışır. heç də təsadüfi deyil ki, H.Əliyevə «böyük diplomat» adından çox «böyük demokrat», «böyük siyasətçi» adından çox «böyük rəhbər» adı uyğun gəlir.

...Millətin düşmənləri, Azərbaycan dövlətçiliyinin antipodları ilə heç cür, barışmaq bir yana qalsın, «diplomatik mükalimələrə» girməyi özünə sığışdırmayan Azərbaycan Prezidenti həmişə öz sözünü demiş, qəzəbini, nifrətini, emosiyasını gizlətməmişdir. Xalqın məhəbbətinə isə qat-qat artıq məhəbbətlə cavab verməkdən çəkinməmişdir.

H.Əliyev nitqinin emotiv intonasiyası çox zəngindir, lakin qısa müddət ərzində Azərbaycana «rəhbərlik etmiş» bəzi «başçı»lardan fərqli olaraq, həmin emotiv zənginliyi böyük ağıl, məntiq, idrak idarə edir. H.Əliyevin nitqində intellektual təməli olmayan emosiya, demək olar ki, yoxdur. Məsələn, böyük emosiya ilə deyilən aşağıdakı sözlər, eyni zamanda böyük intellektin məhsuludur:

«... Mən hamını xəbərdar edirəm, hər bir vəzifəli şəxsdən tələb edirəm. Vəzifə alan kimi gərək buna bir dənə xüsusi «Mersedes» maşını ayrılsın. Bilirsiniz, mən etiraz etmirəm ki, bizim rəhbər vəzifəli şəxslərin yaxşı avtomaşınları olsun. Amma nəyin hesabına, nəyə görə? Əgər buna imkanımız varsa, əgər biz bu ac adamları yedirtmişiksə, əgər bu qaçqınları təmin etmişiksə, başqa işlərimizi görmüşüksə, gəlin bunu da edək. Ancaq bir tərəfdə insanlar ac, o biri tərəfdə insanlar gedib restoranda dollar atırlar rəqs edənlərin başına. Belə hallar da var. Bizim bu rəhbər vəzifəli şəxslərin bəziləri hesab edirlər ki, o, xüsusi maşında gəzməlidir, xüsusi yemək yeməlidir, onun ailəsi xüsusi bir şəraitdə yaşamalıdır. Bilirsiniz, bizim hamımız bir cür yaşamalıyıq. Kim ki, sonra özəl iş görəcəkdir, şəxsi sərvətini qanuni yolla əldə edəcəkdir, - o getsin, elə yaşasın. Amma bizim hamımız bir cür yaşamalıyıq. Ona görə də mən bu sözləri çox ürək ağrısı ilə deyirəm.

Bilirsiniz, bu sözləri mən 27 il bundan öncə ilk dəfə Azərbaycana rəhbər seçilərkən birinci məruzəmdə demişəm. O illər ki, mən repressiya altında idim, hər yerdən təcrid

olunmuşdum, - 1987-ci ildən sonra, ta 1993-cü ildə bura gələnə qədər - mən yenə də bu sözlərlə yaşamışam, bu sözləri demişəm və bu gün də deyirəm. Bu, adi söz deyil, bu, mənim daxili mənəviyyatımdır. Mən istərdim ki, hər bir şəxs öz mənəviyyatını hər şeydən üstün tutsun. Qeyri-qanuni toplanılan sərvət, mal - bunlar heç vaxt insanlara, yenə də deyirəm, şöhrət gətirməyib.

Xahiş edirəm, mənim bu tələblərimdən hər kəs özü üçün nəticə çıxarsın. Hesab edirəm ki, iki gün davam edən bizim bu gərgin işimiz çox əhəmiyyətlidir və öz nəticəsini verməlidir. Əmin olduğumu bildirmək istəyirəm ki, bütün bu müzakirələrdən hər kəs ölçü, nəticə çıxaracaqdır və biz hamımız bir yerdə əl-ələ verib Azərbaycan Respublikasının qarşısında duran problemləri birlikdə həll edəcəyik» («Azərbaycan» qəzeti, 24 iyul 1996-cı il).

...Məlum olduğu kimi, Azərbaycan dili, məsələn, ingilis dilindən fərqli olaraq, emosional dil sayılır və təbii ki, bu, Azərbaycan xalqının fıtrətən emosional xalq olmasından irəli gəlir, ona görə də bu dildə danışan hər natiq dilimizin həmin enerjisindən istifadə edə bilməlidir.

H.Əliyevin nitqində emosional məqamların meydana çıxması, fıkrimizcə, aşağıdakı şərtlərdən irəli gəlir:

1) natiqin bir azərbaycanlı - şərqli olaraq xarakterindəki emosionallıq təzahürlərindən;

2) H.Əliyevin şəxsi-fərdi psixologiyasından (qeyd edək ki, görkəmli ictimai-siyasi xadim daim Azərbaycan cəmiyyətində gedən ən dramatik proseslərin mərkəzində olmağa çalışmış, özünü dünyanın ən fəal xadimlərindən biri kimi göstərmişdir);

3) dövrün, zamanın mürəkkəbliyi, ictimai- siyasi hadisələrin əsəbləri daim gərgin saxlaması, gözlənilməz halların meydana çıxması və s.-dən.

Bütün bunlar H.Əliyevin məruzə, nitq və çıxışlarına müəyyən gərginlik, emosionallıq gətirir, onun danışığının intonasiyasına əhəmiyyətli şəkildə təsir edir. Lakin Azərbaycanın rəhbəri eyni zamanda həmin emosionallığı, yuxarıda qeyd olunduğu kimi, böyük intellektinin nəzarətində saxlaya, dərhal təmkinini bərpa edə bilir... Ona görə ki:

1) H.Əliyev böyük ictimai-siyasi, dövlətçilik və ümumən idarəçilik, rəhbərlik təcrübəsi olan, uzun illərin müxtəlif mübarizələrində mətinləşmiş, mükəmməl bir şəxsiyyətdir - onun ən müxtəlif sahələrdəki təcrübəsi imkan vermir ki, danışığı bütünlüklə müsbət, yaxud mənfı emosiyalar üzərində qurulsun;

2) H.Əliyev analitik təfəkkürü olan görkəmli ictimai-siyasi xadim-ideoloqdur, odur ki, emosiyaları nə qədər güclü olsa da, təfəkküründəki analitizm onların baş alıb getməsinə imkan vermir;

3) H.Əliyevin mənsub olduğu və rəhbərlik etdiyi xalqın gələcəyi, bu sahədə görəcəkləri işlər barədə aydın proqram-ideyası, böyük məqsədləri vardır və hər hansı səviyyədə emosiya doğuran hadisələr, hallar, vəziyyətlər və s. böyük şəxsiyyəti ideoloji məramından ayıra bilmir və bu, özünəməxsus şəkildə onun nitqində də təzahür edir.

...Müşahidələr və görkəmli üslubşünasların qeydləri göstərir ki, emosional olmayan, natiqin hiss-həyəcanlarını əks etdirməyən, onun subyektini göz önündə canlandırmayan nitq auditoriyaya lazımi səviyyədə təsir edə bilməz, çünki dinləyən hər bir şəxs həmişə yalnız çılpaq informasiyanı qəbul etməklə kifayətlənmir, onun danışana inanması üçün güclü məntiqlə yanaşı, emosiya da lazımdır. Və hətta bir sıra hallarda ən güclü kommunikasiya rolunu məhz emosiya oynayır.

H.Əliyevin bir natiq kimi emosiyası onun səsində, mimikasında, əlinin hərəkətlərində və dilinin sintaksisində təzahür edir. Məsələn:

«... Şübhəsiz ki, burada keçmiş Sovetlər İttifaqı rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz münasibəti də nəzərə alınmalıdır. Ancaq belə bir ədalətsiz münasibəti müşahidə edənlər gərək ona müvafiq də lazımi işlər görəydilər və Azərbaycanın, xalqın, millətin, Azərbaycan Respublikasının etibarlı müdafiəsini təmin edə biləydilər. Bunlar, təəssüf ki, olmamışdır.

Bunu mən ona görə deyirəm ki, bizim xalqımız aciz xalq deyil. Ağdamlılar da, bütün Qarabağ bölgəsində yaşayanlar da, - əgər belə bir söz işlətsək, - qarabağlılar da, Azərbaycanın bütün

başqa bölgələrində olan azərbaycanlılar da aciz xalq deyil. Xalqımız əsrlər boyu sınaqlardan çıxıb və öz torpağını, öz mənliyini qoruyub indiyə qədər saxlaya bilibdir. Ona görə də xalq, o cümlədən Ağdam əhalisi, Ağdam camaatı da Ağdamı da qoruya bilərdi, Şuşanı da qoruya bilərdi, Laçını da qoruya bilərdi, başqa bölgələri də qoruya bilərdi. Sadəcə, bu məsələlər bir tərəfdən lazımi səviyyədə təşkil olunmayıbdır, lazımi hazırlıq işləri görülməyibdir, ikinci tərəfdən də - bu fikir dəfələrlə deyilibdir - Azərbaycanın daxilində olan cürbəcür qüvvələr, Vətən-millət haqqında düşünmək əvəzinə yalnız və yalnız özləri, öz şəxsi mənafeləri haqqında düşünmüşlər. Buna görə də 1988-ci ildə Azərbaycana qarşı yönəldilmiş təcavüzün qarşısı alınmayıb və bu, get-gedə genişlənib, get-gedə dərinləşib.

1990-cı ildə Azərbaycanın başına böyük faciələr gəlibdir. Respublikaya böyük qoşun dəstələri yeridilərək Azərbaycanın milli mənliyini sındırmağa çalışıblar. Ondan sonra gedən proseslər də, təəssüf ki, Azərbaycanın içində birliyi təmin etməyibdir və bütün bunların nəticəsində də Azərbaycan Respublikasının ərazisinin 20 faizi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bunların içərisində Ağdam rayonunun bir qismi, çox hissəsi, o cümlədən Ağdam şəhəri də işğal olunubdur.

Xalqımız döyüşüb, vuruşub, qurbanlar verib, şəhidlər veribdir. Burada qeyd edildi ki, Ağdam rayonunun sakinlərindən 6 minə qədər insan həlak olubdur. Ancaq Azərbaycana, o cümlədən Ağdam rayonuna vurulan zərbələr bununla tamamlanmır. Ağdam kimi böyük şəhər viran olunubdur, dağılıbdır. Ağdamın ərazisində, bütün Qarabağ ərazisində olan tarixi abidələrimiz, bizim tariximizin həkk olunduğu daşlar, dağlar, obalar, meşələr - hamısı zəhərlənibdir, dağıdılıbdır. Ağdam şəhəri böyük bir şəhərdir. Orada insanlar on illərlə, yüz illərlə özlərinə yaşayış yerləri yaradıblar, evlər tikiblər. Bunların hamısı dağıdılıbdır və insanların nəsillərdən-nəsillərə keçən varı-yoxu, varidatı məhv olubdur, əldən gedibdir. Bütün bunlar bizim xalqımıza, o cümlədən Ağdam rayonunun əhalisinə vurulan zərbələrdir...» («Azərbaycan» qəzeti, 7 avqust 1996-cı il).

Sözlərin, ifadələrin, sintaktik konstruksiyaların təkrarı, güclü emosiya ifadə edən modal sözlərin («şübhəsiz ki», «gərək», «təəssüf ki» və s.) işlənməsi, emosiyanı daha da gücləndirməkdən ötrü sinonim söz və ifadələrdən (məsələn, «xalqımız döyüşüb», «vuruşub», «qurbanlar verib», «şəhidlər veribdir») istifadə olunması və s. yuxarıda nümunə gətirilən mətnin (ümumən H.Əliyevin nitqinin) emotiv funksiyasını təmin edir.

VIII. H.Əliyevin nitqində fikir simmetriyası bütün dəqiqliyi ilə gözlənilir - bu o deməkdir ki, natiq nitqini (ola bilsin ki, təbii gəlişi ilə, yaxud müəyyən təcrübənin nəticəsi olaraq, yaxud da düşünərək) vahid bir mətn-konstruksiya kimi tutur. Haqqında söhbət gedən simmetriya o qədər stabil, davamlıdır ki, görkəmli natiqin hər bir nitqinin həndəsi modelini təqdim etmək mümkündür. Və son illərin təxminən 25 nitq mətni üzərində (biz, nisbətən irihəcmli nitq mətnlərini aldıq) apardığımız müşahidələr, təhlillər göstərdi ki, H.Əliyev öz nitqində əsasən aşağıdakı tipdə fikir simmetriyaları nümayiş etdirir:

İ z a h a t:

I. Əvvəl ümumi giriş verilir, sonra ustalıqla həmin girişdən mətləbə keçilir (əsas diqqət mətləbin şərhinə verilir), daha sonra isə təxminən girişdə deyilənlərin analitik «təkrarı» olan nəticə gəlir.

II. Bu və ya digər məsələnin dərhal şərhinə başlanır və həmin şərh müəyyən səviyyəyə qədər gedir. Sonra natiq bu səviyyəni saxlamaqla bir qədər «geri çəkilir» və fikrini yekunlaşdırmaq istiqamətində yenidən irəli gedib kifayət qədər konkret (və istisnasız!) nəticə çıxarır.

III. Nitqdə bir neçə məsələ-mətləbdən bəhs edilir - biri lazımi səviyyəyə qədər şərh edilib sonra o birinə keçilir. Burada simmetriyanı müəyyən edən odur ki, həmin məsələ-mətləblərin hamısı eyni məntiq-metodologiya əsasında araşdırılır (uzun düz xətt onu göstərir).

IV. Ümumnormativ şərh verilir, sonra məsələ- mətləb bütün dramatizmi, mürəkkəbliyi ilə araşdırılır, «yuxarı»dan və

«aşağı»dan təhlil olunur, daha sonra yenidən ümumnormativ şərhlə yekunlaşdırılır.

V. Məsələ-mətləbin şərhində pozitiv məqamlarla neqativ məqamlar növbələşir - şərh elə bir məntiq-metodologiya ilə aparılır ki, eyni dərəcədə həm pozitiv, həm də neqativ məqamları dəyərləndirə bilir.

Əlbəttə, bu sxemlər öz-özlüyündə H.Əliyev nitqinin bütün təfəkkür-düşüncə zənginliyini əks etdirmək iqtidarında deyil, ancaq rəngarəngliyi barədə müəyyən təsəvvür yaradır.

Və fikir simmetriyası görkəmli natiqin ümumən bu və ya digər çıxışına aid olduğu kimi, bu və ya digər çıxışın ayrılıqda götürülmüş bir parçasına da aid ola bilər. Məsələn:

«... Bilirsiniz, mən bütün həyatım boyu rüşvətxorluqla, vəzifədən sui-istifadə ilə mübarizə aparmışam. Doğrudur, bunlara görə mən çox əziyyətlər də çəkmişəm. 1987-ci ildə mən vəzifədən istefaya gedərkən, məni bu yüksək vəzifədən kənarlaşdırarkən məhz həmin o rüşvətxorlar, həmin o korrupsiyaya qurşanmış adamlar cürbəcür böhtanların nəticəsində mənim haqqımda müxtəlif fikirlər yaratmağa çalışdılar. Şübhəsiz ki, erməni millətçiləri bir tərəfdən və həmin o rüşvətxorlar, - hansılar ki, mən burada vaxtilə cəzalandırdım, - onlar, bəli, onlar mənim haqqımda nə qədər böhtançı anonim məktublar göndərirdilər! Onların bəzilərini burada Vəzirovun, Mütəllibovun vaxtında televiziyaya çıxardırdılar. «Heydər Əliyev vaxtının qurbanları» kimi, «qəhrəman» kimi meydana çıxarmaq istəyirdilər. Bilirsiniz, rüşvətxoru, oğrunu qəhrəman etmək öz xalqına xəyanət etməkdir. Əgər sən rüşvətxorla mübarizə apara bilmirsənsə, heç olmasa rüşvətxora yardım da etmə!

Yenə deyirəm, mən həyatım boyu bu hallarla mübarizə etmişəm. Bu gün də mübarizə edirəm və həyatımın sonuna qədər mübarizə edəcəyəm. Bilin, bu, təkcə mənim istəyim deyil, bu, cəmiyyətin istəyidir. Cəmiyyət bunu tələb edir, insanlar bunu tələb edir. Bu hallar - korrupsiya, rüşvətxorluq, vəzifədən sui-istifadə bizim mənəviyyatımıza zidd olan hallardır. İnsanları

bizdən, nə təhər deyərlər, incidir və heç kəs bu hallara haqq qazandıra bilməz.

Ona görə də mən bu gün bu təşkilati qərarları qəbul edərək, eyni zamanda hamını xəbərdar edirəm, hamını. Heç kəs burada özünə müstəsna bir yer tuta bilməz. Hamı qanun qarşısında cavabdehdir. Heç kəs hesab etməsin ki, onun üçün xüsusi bir status olmalıdır, yaxud, onun hansısa xidmətləri var və o, nə istəsə edə bilər...» («Azərbaycan» qəzeti, 24 iyul 1996-cı il).

Burada simmetriya daha da aşkarlanmış, «fikir konstruksiyası»ndan nitq konstruksiyasına qədər gəlmişdir. Müqayisə edək:

a) «bilirsiniz, mən bütün həyatım boyu rüşvətxorluqla, vəzifədən sui-istifadə ilə mübarizə aparmışam...»

b) «yenə deyirəm, mən həyatım boyu bu hallarla mübarizə etmişəm. Bu gün də mübarizə edirəm və həyatımın sonuna qədər mübarizə edəcəyəm...»

c) «ona görə də mən bu gün bu təşkilati qərarları qəbul edərək eyni zamanda hamını xəbərdar edirəm...»

IX. Fikri qüvvətləndirmək üçün söz, ifadə, cümlə təkrarlarına meyil H.Əliyevin nitqini səciyyələndirən əlamətdir. Ümumiyyətlə, müşahidələr göstərir ki, görkəmli natiq əsasən aşağıdakı hallarda təkrarlara müraciət edir:

1) bu və ya digər sözü, ifadəni, yaxud cümləni (daha doğrusu, həmin vahidlərdə əks olunmuş məfhumu, mühakiməni) vurğulamaqla fikri auditoriyanın diqqətinə daha yaxşı çatdırmaq üçün;

2) hiss-həyəcanı, danışığın emosiyasını artırmaq, diqqəti bu və ya digər məsələyə daha çox cəlb etmək üçün;

3) ifadə olunan fikrin, eləcə də deyilən sözün şüurlarda möhkəmlənməsi, yaddaşa çevrilməsi və fəaliyyət üçün rəhbər-təlimat səviyyəsinə qalxması məqsədi ilə.

Yuxarıda qeyd etdiyimiz hallar bir növ subyektiv səciyyə daşıyır və H.Əliyevin natiqlik təcrübəsi, nitq söylədiyi zaman əhval-ruhiyyəsi və s. ilə əlaqədardır. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, təkrarlara meyil Azərbaycan dilinin öz təbiəti üçün də xarakterikdir: dilimizdə həm sözlər, ifadələr, cümlələr,

həm sintaktik konstruksiya-modellər, həm də səslər (elə buna görə də ahəng qanunu mövcuddur) təkrar olunur. H.Əliyev kimi böyük natiqlər dilimizin həmin imkanından uğurla istifadə edirlər:

«...Respublikamızda yaranmış sənaye potensialı Azərbaycanın müstəqil yaşaması üçün yaxşı əsas verir. Əgər bunlar olmasaydı, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra çox ağır və çətin vəziyyətdə qalardı. İndi isə biz neft müqavilələri ilə, - «Əsrin müqaviləsi» - 1995-ci ildə imzalanmış neft müqaviləsi ilə Azərbaycan xalqının 30-40 illik gələcəyi üçün çox gözəl bir iqtisadi əsas yaratmışıq. Yəni biz bu müqavilələri bu gün üçün yox, sabah üçün yox, hətta 5 il üçün yox, 10-15-20 il bundan sonra Azərbaycan Respublikasının müstəqil yaşaması üçün və Azərbaycan vətəndaşlarının rifah halının lazımi səviyyədə olması üçün imzalamışıq. Mən əminəm ki, bunlar öz nəticəsini verəcək və Azərbaycanın gələcək nəsilləri bizim gördüyümüz işləri layiqincə qiymətləndirəcəklər.

Bu neflt müqavilələrinin imzalanması təkcə neft şirkətləri ilə, yaxud onların mənsub olduqları ölkələrlə iqtisadi əlaqələrimizin inkişaf etməsi demək deyildir. Bu neft müqavilələrinin imzalanması bir çox başqa böyük şirkətlərin də Azərbaycana gəlməsinə səbəb olmuşdur. Bir tərəfdən ona görə ki, o şirkətlər həmin bu neft müqavilələrinin həyata keçirilməsi üçün yaranmış konsorsiumlarla müştərək işlər görürlər, ona görə gəlirlər. İkinci tərəfdən isə bu müqavilələrin imzalanması, böyük neft şirkətlərinin Azərbaycana böyük miqdarda kapital qoyması faktı, demək, başqa şirkətlərə də anladır ki, bəli, Azərbaycana kapital qoymaq olar, Azərbaycanda gəlib iş görmək olar. Geniş mənada, geniş miqyasda bunların mənası bundan ibarətdir.

Neft şirkətləri yenə də gəlirlər Azərbaycana. Bizə yeni-yeni şirkətlər gəlir. Mənə xəbər verdilər ki, Amerikanın ən böyük neft şirkəti olan «Eksson» şirkətinin prezidenti yenə də gəlib, sabah mənimlə görüşmək istəyir. Onların burada yeni təklifləri var, mən söz vermişəm, sabah onu saat 2-də qəbul edəcəyəm. Bir neçə gün bundan qabaq Amerikanın ən böyük şirkətlərindən biri olan

«Şevron» şirkətinin prezidenti gəlmişdi, mən onu qəbul etdim. Onlar Qazaxıstanda çox böyük işlər görürlər, Rusiyada işlər görürlər. İndi Azərbaycanda da iş görmək istəyirlər və bir neçə çox əhəmiyyətli təklifləri var. Amerikanın böyük «Mobil» şirkətinin prezidenti gəlmişdi, o da müəyyən təkliflər irəli sürmüşdü. Bu təkliflərə də biz baxmışıq, müsbət münasibət bildirmişik. Fransanın «Elf Akiten» şirkəti bizim imzaladığımız son müqavilədə yer alıbdır, ancaq əlavə işlər görmək istəyir, əlavə təklifləri var. Rusiyanm «LUKoyl» şirkəti bizim bütün müqavilələrin üzvüdür, amma eyni zamanda əlavə işlər görmək istəyir, təklifləri var...» («Azərbaycan» qəzeti, 24 iyul 1996-cı il).

Yuxarıdakı mətnin üzvi tərkib hissəsi kimi çıxış edən təkrarların çoxluğu kontekstdə o qədər də bilinmir, həqiqətən çox olduğunu bilməkdən ötrü həmin təkrarları kontekstdən kənara çıxaraq:

1) müqavilələri ilə - müqaviləsi - müqaviləsi - müqaviləsi - müqavilələri;

2) bu gün üçün yox - sabah üçün yox - 5 il üçün yox - 10-15-20 il bundan sonra...üçün -... olması üçün;

3) ilə -... lə;

4) bu neft müqavilələrinin imzalanması - bu neft müqavilələrinin imzalanması;

5) bir tərəfdən - ikinci tərəfdən;

6) böyük neft şirkətlərinin - böyük miqdarda;

7) Azərbaycana kapital qoymaq olar - Azərbaycanda gəlib iş görmək olar;

8) geniş mənada - geniş miqyasda;

9) gəlib - gəlirlər - gəlir - yenə də gəlib - gəlmişdi;

10) çox böyük işlər görürlər - işlər görürlər - iş görmək istəyirlər və s. və i.a.

Yaxud:

«...Bir həqiqəti də bildirmək lazımdır. Ermənistanla Azərbaycan qonşu ölkələrdir. Mən dəfələrlə Ermənistanın rəhbərlərinə, xüsusən Ermənistanın prezidenti ilə vaxtaşırı görüşərkən ona deyirəm və dünyanın başqa dövlətlərinin başçılarına da

deyirəm - heç kəs düşünməsin ki, Ermənistanla Azərbaycan arasında daim düşmənçilik münasibətləri olmalıdır. Belə ola bilməz ki, qonşu ölkələr daim düşmən olsunlar. Avropada nə qədər ölkələr bir-biri ilə müharibə aparıblar. İkinci dünya müharibəsi. Sovetlər İttifaqı ilə, Rusiya ilə Almaniya arasında müharibə bir onlarda yox, başqa ölkələrdə də nə qədər böyük faciələrə gətirib çıxardı. İndi Almaniya ilə Rusiya arasında yaxın dostluq, əməkdaşlıq əlaqələri var. Bu, təbiidir. Avropanın başqa ölkələrini götürün. Fransa ilə İngiltərəni götürün. Fransa ilə Almaniyanı götürün, başqa ölkələri götürün. İllərlə, on illərlə müharibə aparıblar, yüz il müharibə aparıblar. Ancaq yenə də sülhlə qurtarıblar və sülh şəraitində də yaşayırlar. Mən bunu bu gün həm sizin üçün deyirəm, həm bizim ictimaiyyət üçün deyirəm, həm də bir daha Ermənistan üçün deyirəm ki, daim düşmənçilik ola bilməz. Bir-biri ilə həmsərhəd olan ölkələr, qonşu olan ölkələr daim ziddiyyətli vəziyyətdə yaşaya bilməzlər. Hər bir müharibənin, hər bir düşmənçiliyin sonu sülh olacaqdır, sonu barışıq olacaqdır. Keçmişdə də - burada bu gün deyildi, - hadisələr olmuşdur, sonra xalqlar barışmışdır, əlaqələr normallaşmışdır. Mən hesab edirəm ki, belə də olacaqdır. Belə də olacaqdır! Bizə nə qədər böyük zərbələr dəyibsə də, nə qədər böyük itkilərimiz olubsa da, biz müstəqil dövlət kimi ətrafımızda olan ölkələrin hamısı ilə sülh şəraitində yaşamalıyıq. Sülh münasibətləri, qarşılıqlı faydalı münasibətlər, əməkdaşlıq münasibətləri şəraitində yaşamalıyıq. Və bu günlər də gəlib çatacaqdır...» («Azərbaycan» qəzeti, 7 avqust 1996-cı il).

H.Əliyev nitqində təkrarların çoxluğu bir tərəfdən onun nitqinin əvvəlcədən yazılmaması, şifahi nitq olması ilə bağlıdırsa, digər tərəfdən, sözdən-dildən səmərəli istifadə etməsi, hər kəlməni, hər bir ifadəni, cümləni xüsusi məna yükü ilə işlətməsi ilə əlaqədardır. Üçüncü tərəfdən, H.Əliyev bu və ya digər məsələ üzərində təkidlə durur, həmin məsələ həll edilənə qədər daim nəzarətdə saxlayır, tez-tez ona qayıtmağı lazım bilir... Ona görə də görkəmli xadim-natiqin dilində «mən demişəm, yenə də

deyirəm», «bir daha deyirəm ki...», «bir də təkrar edirəm» və s. tipli ifadələrə az müraciət edilmir. Məsələn, aşağıda olduğu kimi:

«...Mən çox kəskin dedim, amma hesab edirəm ki, çox ədalətli dedim. Bu gün bir də təkrar edirəm. Dünən nazirlərin çıxışı zamanı da mən demişdim. Bunu hər bir nazirlik özü hazırlayıb öz tərkibində keçirməli idi. Nazirlər Kabinetinin aparatı özü keçirməli idi, İqtisadiyyat Nazirliyi özü keçirməli idi və şübhəsiz ki, respublikanın iqtisadiyyatının idarə edilməsi haqqında təkliflər verməli idi. Bu təkliflər verilməyibdir. Verilən təklifləri mən iclasdan qabaq, iki gün öncə dinlədim. Hesab edirəm ki, Nazirlər Kabinetinin bu barədə təklifləri də hələ mükəmməl deyil. Beləliklə, 6 ay bu məsələləngidilib və 6 ay keçəndən sonra da mükəmməl bir təklif verilməyib.

Mən bunu dünən dedim, bir daha qeyd etmək istəyirəm. Burada söhbət mexaniki olaraq müəyyən miqdarda ştatların, strukturların ixtisarından getmir. Söhbət ondan gedir ki, idarəetmə strukturu bu gün və gələcəkdə iqtisadiyyatda gedən bu proseslərin tələblərinə uyğun olmalıdır. Keçmişdə də struktur dəyişiklikləri aparılıbdır. İxtisar olubdur, yaxud bir nazirlik o birisi ilə birləşdirilibdir, ya biri o birindən ayrılıbdır, yaxud onun daxilində olan bir-iki idarə və ya şöbə ixtisara düşübdür, yaxud da deyiblər ki, ümumiyyətlə, dövlət aparatında çox adam var, göstəriş verilib filan vaxta qədər 5 faiz, ya 10 faiz ixtisar olunsun. Bunlar keçmişdə olan şeylərdir, bunlar mexaniki xarakter daşıyıb. İqtisadiyyatın idarə edilməsinin indiki təkmilləşdirilməsi həmin o tədbirlərdən köklü şəkildə fərqlənir. Yenə də deyirəm, burada dərk etmək lazımdır ki, söhbət iqtisadiyyatın idarə edilməsi sisteminin bazar iqtisadiyyatına və bu gün, gələcəkdə iqtisadiyyatda gedən dəyişikliklərin tələblərinə uyğunlaşdırmaqdan ibarətdir...» («Azərbaycan» qəzeti, 24 iyul 1996-cı il).

Söz, ifadə, cümlə təkrarlarına meyil H.Əliyevin nəinki bilavasitə çıxışlarında, hətta replikalarında da özünü çox sıx-sıx göstərir:

«...Bilirsiniz, birincisi, mənim bu işdən xəbərim yoxdur. Sən deyirsən, sizin icazənizlə. Mənim bu işdən xəbərim yoxdur.

İkincisi, biz barteri qadağan eləmişik. Barter haqqında ola bilər müstəsna qərar qəbul olunsun. Amma bu, min dollarlıq barter deyil axı. Əgər siz 10 milyonluq dolları barter eləyirsinizsə, bir oturub ölçün-biçin, icazə alın, mən bilmirəm, kim icazə verib və bilmirəm Nazirlər Kabinetinin komissiyası buna icazə verəndə niyə heç olmasa bir daha mənə də məlumat verməyib, məndən də soruşmayıblar? Nə üçün? Mən bilmirəm» («Azərbaycan» qəzeti, 30 iyul 1996-cı il).

Əlbəttə, təkrar, linqvostilistik bir fiqur-vasitə olmaqla, ictimai-siyasi natiqlikdə o qədər də az istifadə edilmir, bununla belə, H.Əliyevin nitqində həmin fiqur-vasitənin stilistik funksiyaları daha geniş və rəngarəngdir: burada təkrar, əsasən iki istiqamətdə çoxsaylı məna-məzmun nüanslarına malikdir:

a) məntiqi istiqamət;

b) psixoloji istiqamət.

Görkəmli natiqin dilində işlənən bir sıra təkrarlar isə həm məntiqi, həm də psixoloji funksiya daşıyır (məntiqi istiqamətli təkrarlar isə daha çox fellərdə özünü göstərir) ki, bu da H.Əliyevin ictimai-siyasi intellekti ilə emosiyasının bu və ya digər fikrin ifadəsində sıx qarşılıqlı əlaqədə olduğunu, nitqlərində ağılla hissin üzvi vəhdətini göstərir.

Təkrarlara meyil H.Əliyev dilinin həm güclü əqli-idraki səviyyəsini, həm də bununla yanaşı olaraq ekspressivliyini təmin edən, müəllifin natiqlik üslubunu səciyyələndirən vasitələrdən biri kimi diqqəti cəlb edir.

X. H.Əliyev xalq danışıq dilindən gələn ifadələri, konstruksiyaları ustalıqla işlədir. Bunun aşağıdakı ekstralinqvistik səbəbləri vardır:

a) böyük ictimai-siyasi xadim on illər boyu, övladı olduğu xalqın mənəviyyatını, dilini, etnoqrafıyasını dərindən öyrənmiş, bu sahədə zəngin bilik-məlumata malik olmuşdur;

b) H.Əliyev bu və ya digər məsələ barədə danışarkən həmişə çalışır ki, Azərbaycan cəmiyyətinin bütün təbəqələri onu başa düşsün, dediyi sözün praktik nəticələri olsun;

c) görkəmli natiq bilir ki, bəzən bu və ya digər fikri, mülahizəni xalq sözü ədəbi-normatik sözdən daha güclü, daha dəqiq bir şəkildə ifadə edir və ona görə də təhtəlşüur bir şəkildə həmin ifadəni – xalq sözünü işlədir.

...Əlbəttə, ictimai-siyasi natiqlik, ictimai- siyasi münasibətlər, dövlətçilik və s.-lə əlaqədar terminologiyanın, rəsmi sintaksisin dildə fəal işləkliyini tələb edir və H.Əliyevin nitqi üçün də bu prinsip aparıcıdır. Yəni burada (ictimai-siyasi natiqlikdə) xalq dilindən gələn sözlərə, ifadələrə çox az-az yer verilir. Lakin H.Əliyevin dili üzərində apardığımız müşahidələr göstərir ki, həmin sözlər, ifadələr az-az işlənsə də, yerinə düşür və görkəmli natiqin nitqinə canlılıq, ifadəlilik, təbiilik gətirir, onun (nitqin) rəsmiliyini zədələmədən məzmunca demokratikləşməsinə, xəlqiləşməsinə, ictimailəşməsinə səbəb olur:

I. «...Hər bir şəxs müstəqil Azərbaycan Respublikasında dövlət orqanında bir yüksək vəzifəyə layiq görülürsə, onun borcu o vəzifəni layiqincə yerinə yetirməkdən və göstərilən etimadı doğrultmaqdan ibarətdir. Yenə deyirəm, mən çox təəssüf edirəm ki, bəzi adamlar yüksək vəzifəyə təyin olunandan 6 ay, bir il sonra dəyişilirlər. Onların həyat tərzində də, duruşunda-oturuşunda da, geyimində də bir də görürsən ki, cürbəcür xoşagəlməz dəyişikliklər əmələ gəlir, cürbəcür iddialara düşürlər, cürbəcür ambisiyalarla yaşamağa başlayırlar. Hesab edirlər ki, ona verilən bu vəzifə azdır, bir az da bundan çox olmalıdır. Ancaq fikirləşmirlər ki, axı bu etimadı doğrultmaq üçün sən nə etdin?

Bizim hər birimiz - mən bunu özüm üçün də hesab edirəm, - daim xalqımız qarşısında borcluyuq. Əgər xalq, dövlət bizim hər birimizə bu etimadı göstəribsə və biz bu salonda yığışıb, Azərbaycan Respublikasının, Azərbaycan xalqının ən mühüm məsələlərini müzakirə ediriksə, demək, biz anlamalıyıq ki, xalqın qarşısında bizim nə qədər borcumuz var. Mən hesab edirəm ki, ömrümün sonuna qədər bu borcdan çıxa bilməyəcəyəm. Amma bəziləri hesab edirlər ki, bilirsiniz, hələ xalq ona borcludur, o, xalqa borclu deyil. Vəzifədən sui-istifadə etmək halları, rüşvətxorluq, korrupsiya, - bu, bizim cəmiyyətimizin ən böyük bəlasıdır.

Təəssüflər olsun ki, bu hallar azalmaq əvəzinə respublikada daha da yayılır ...» («Azərbaycan» qəzeti, 24 iyul 1996-cı il).

2. «...Sən burada deyirsən ki, xeyriyyəçilik məsələsini qadağan elədiniz. İndiyə qədər niyə verirdiniz? Siz padşahsınız, nəsiniz? İki il müddətində milyon yarım dollar ayrı-ayrı yerlərə xeyriyyəçilik eləmisiniz. Nə ixtiyarınız var?.. Əgər babanızın buruğu var idisə, gedib orada neft çıxarmısınızsa, onda nə cür istəyirsiniz istifadə eləyə bilərsiniz. Amma bu, dövlətindir...» («Azərbaycan» qəzeti, 30 iyul 1996-cı il).

Birinci mətndə «cürbəcür», «duruşunda- oturuşunda», «bu vəzifə azdır», «bir az da bundan çox olmalıdır», «borcluyuq, xalqın qarşısında bizim nə qədər borcumuz var», «ömrümün sonuna qədər bu borcdan çıxa bilməyəcəyəm», «hələ xalq ona borcludur, o xalqa borclu deyil», ikinci mətndə «siz padşahsınız, nəsiniz», «babanızın buruğu var idisə» və s. kimi bilavasitə xalq dilindən gələn sözlər, ifadələr özünü göstərir ki, bunların da təsir gücü, auditoriyada oyatdığı emosiya çox böyükdür.

Eyni zamanda, H.Əliyevin dilində xalq danışıq dilinin (dialekt səviyyəsində) fonoqrammatik təsiri, azacıq da olsa, mövcuddur - buraya «bilmənəm», «demənəm», «qəbul etmənəm» və s. fel formalarının işlədilməsini aid etmək olar ki, bunlar stilistik fakt kimi yox, normativ olaraq diqqəti cəlb edir və şübhəsiz, Naxçıvan dialektinin təsiridir.

XI. H.Əliyev ən professional auditoriya üçün danışanda da geniş mənada götürülən ümumi ictimai tələbatı nəzərə alır: - birincisi, ona görə ki, görkəmli ictimai-siyasi xadimin, yaxud ölkə Prezidentinin nitqi yalnız bu və ya digər auditoriyada dinlənilməklə qalmır, televiziya, radio ilə verilir, qəzetlərdə çap edilir və geniş xalq kütlələrinə çatdırılır; ikincisi, H.Əliyev hər hansı auditoriyada danışırsa-danışsın mütləq elə problemlərə toxunur ki, bu barədə ümumən Azərbaycan cəmiyyətinin xəbərdar olmasına ehtiyac duyulur; nəhayət, üçüncüsü, Prezident təkcə bu və ya digər təbəqənin deyil, bütün ölkənin başçısı olduğuna görə onun hər hansı mövzuda çıxışı bütövlükdə həmin ölkənin ictimaiyyətinə ünvanlanmalıdır.

Bununla belə qeyd etmək lazımdır ki, H.Əliyevin ictimai-siyasi fəaliyyətini xarakterizə edən obyektivlik, aşkarlıq, cəmiyyətdə hər bir şəxsə onun layiq olduğu qiyməti verməsi cəhdi və s. imkan yaradır ki, o, (Azərbaycan Prezidenti) həmişə xalqın qarşısında alnıaçıq dayana bilsin, heç nədən çəkinmədən mənsub olduğu xalqla ünsiyyətə girə bilsin, istənilən mövzuda söhbət edə bilsin. Əlbəttə, bu ancaq natiqlik məharəti ilə bağlı bir hal deyil, H.Əliyevin böyük şəxsiyyəti, rəhbərlik-idarəçilik üsulu ilə əlaqədar məsələdir ki, nəticə etibarilə nitqlərinin, çıxışlarının məzmununa da öz təsirini göstərir:

«...Amerikanın prezidenti cənab Bill Klintona mən məktub yazdım və Azərbaycan tərəfinin fikrini çox ciddi olaraq bildirdim ki, əgər bu belə olarsa, biz ümumiyyətlə, Amerikanın hər hansı humanitar təşkilatının Azərbaycana yardımından imtina edəcəyik. Cavab almışam ki, Amerika hökuməti və şəxsən prezident çalışır ki, bu Porter əlavəsi qəbul olunmasın. Nəhayət, bir həftə bundan öncə senat Porter əlavəsini qəbul etməyibdir. Amma eyni zamanda senatla konqres arasında bir uzlaşdırma komissiyası yaradıblar, indi iki gündür biz gecə saat 2-yə, 3-ə qədər Vaşinqtonla əlaqə saxlayırıq ki, görək o uzlaşdırma komissiyası nəyə gətirib çıxarıbdır. Dünən gecə saat 2-də mənə dedilər ki, hələ bir nəticə yoxdur.

Görürsünüz, bu işlər, - bunu geniş yaymaq bəlkə də lazım deyil, indi mən bunu sizə qısa deyirəm, - bu tədbirlər, bu cəhdlər sizə məlum deyil. Amma nə qədər mürəkkəb məsələlər var. Ermənilərin, Ermənistanın həm Amerika Birləşmiş Ştatlarında, həm Avropada, başqa ölkələrdə diasporu o qədər güclüdür ki, dövlət orqanlarına, dövlət başçılarına, hökumət başçılarına, cürbəcür təşkilatlara o qədər təsir edirlər ki, bunun qarşısında durmaq üçün və onların hərəkətlərini dəf etmək üçün son dərəcə inandırıcı siyasət aparmaq lazımdır və inandırmaq lazımdır ki, Azərbaycana qarşı belə ədalətsizlik var.

Bunlar hamısı məsələnin sülh yolu ilə həll olunması ilə əlaqədar Azərbaycanın apardığı işlərin, o proseslərin bir hissəsidir. Bunu sizə çatdıraraq, mən bildirmək istəyirəm ki,

bunlar üçün nə qədər vaxt sərf olunur. Vaxtdan başqa nə qədər fikir, ağıl, zəka da sərf eləmək lazımdır. Onu deyə bilərəm ki, son illər bizim apardığımız bu tədbirlər nəticəsində dünyanın böyük ölkələrində, beynəlxalq təşkilatlarında Azərbaycanın haqq işi qəbul olunur, yəni Azərbaycana qarşı ədalətsizlik artıq etiraf olunur. Azərbaycanın haqqı artıq etiraf olunur. Və bizim Amerikada heç bir diasporumuz olmadığı halda, Ermənistanın Amerikada bir milyondan artıq ermənisi var, onların da əksəriyyəti zəngin adamlardır və bütün sahələrə təsir eləyirlər, - belə olduğu halda biz orada, Amerika Birləşmiş Ştatlarının parlamentində bərabər səviyyədə mübarizə aparıb, öz hüquqlarımızı qoruya biliriksə, bunun özü bizim işlərimizdə, siyasətimizdə nə qədər böyük nailiyyətdir.

Amma iş burasındadır ki, bu məsələlərlə 1988- ci ildən əvvəldən də məşğul olmaq lazım idi. 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı təcavüz təhlükəsi yaranan zaman bu məsələlərlə məşğul olmaq lazım idi, bunların qarşısı alınmalı idi. Bilirsiniz, bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır. Amma təəssüf ki, həmin illərdə bu işlər görülməyibdir, indi isə məsələ dərinləşib, mürəkkəbləşib və biz bunu çətin yollarla gedərək həll etməyə çalışırıq. Və əminəm ki, biz bu məsələni sülh yolu ilə həll edəcəyik...» («Azərbaycan» qəzeti, 7 avqust 1996-cı il).

Əslində, kifayət qədər professional (diplomatik) bir mövzuda bu qədər sadə, aydın, hamı üçün anlaşıqlı bir dildə danışılması, birinci növbədə, məsələnin mahiyyətinə dərindən bələd olmaqdan irəli gəlirsə, heç şübhəsiz, ikinci növbədə, məhz güclü natiqlik məharətinin nəticəsidir. Azərbaycan Prezidenti, prinsip etibarilə, haqqında söhbət gedən mövzunun geniş yayılmasına ehtiyac olmadığını vurğulayıb deyir: «Görürsünüz, bu işlər, - bunu geniş yaymaq bəlkə də lazım deyil, indi mən bunu sizə qısa deyirəm, - bu tədbirlər, bu cəhdlər sizə məlum deyil. Amma nə qədər mürəkkəb məsələlər var... Bunu sizə çatdıraraq, mən bildirmək istəyirəm ki, bunlar üçün nə qədər vaxt sərf olunur...» Bununla da auditoriya dövlət-prezident fəaliyyətinin əsasən «pərdə arxasında qalan» bütöv

bir sahəsi ilə tanış olur və cəmiyyətdə inam yaranır ki, dövlət-prezident xalqın taleyi ilə əlaqədar ən müxtəlif məsələləri onlu-onsuz həll etməyə çalışır.

Azərbaycan cəmiyyəti müasir vəziyyət, qarşıya çıxan problemlər, onların həlli yolları barədə əsas informasiyanı məhz Prezidentin nitqlərindən, çıxışlarından, söhbətlərindən alır:

birincisi, ona görə ki, xalq bu və ya digər sözə yox, bu gün daha çox Prezidentə inanır, onun fikri, mülahizəsi ilə hesablaşır;

ikincisi, H.Əliyev idarəçilik-dövlətçilik sahəsində qazandığı böyük təcrübə nəticəsində xalq arasında elə bir nüfuza nail olmuşdur ki, onun bu baxımdan alternativi yoxdur;

üçüncüsü, H.Əliyev iti fəhmi, güclü idrakı, geniş dünyagörüşü ilə ən mürəkkəb məsələlərdən baş çıxara, heç kimlə müqayisə olunmayan şəkildə analitik şərh verə bilir;

dördüncüsü, nitqinin zəngin ifadə imkanları, ən mürəkkəb məsələlərdən olduqca anlaşıqlı bir şəkildə bəhs etməsi, danışığının məntiqi ilə auditoriyanı inandırır.

Və ümumiyyətlə, H.Əliyevin Azərbaycan xalqının böyük rəhbəri, inandığı xadimi olmasında onun natiqlik məharəti az qala ictimai-siyasi fəaliyyəti qədər böyük rol oynamaqdadır.

XII. H.Əliyev istənilən çıxışında, yaxud apardığı müşavirələrdə əvvəlcədən nəzərdə tutulmuş məqsədə, mətləbə axıracan sadiq qalır. Bu o deməkdir ki, Azərbaycan Prezidenti uzun illərin təcrübəsində müəyyənləşmiş inamı, əqidəsi, rəhbərlik «metodologiyası» ilə çıxış edir, gündə bir neçə dəfə məramını, məqsədini dəyişmək (80-ci illərin sonu - 90-cı illərin əvvəllərinin bir sıra dövlət «xadim»ləri kimi) ona yaddır.

İstər dil məsələsinə həsr olunmuş müzakirələrdə, istər Nazirlər Kabinetindəki geniş müşavirədə, istərsə də digər müzakirə-müşavirələrdə H.Əliyev məsələnin əsl mahiyyətini, hansı qərara gəlmək lazım olduğunu, müzakirələrin təxminən nə şəkildə gedib nə ilə nəticələnəcəyini, heç şübhəsiz, əvvəlcədən bilirdi (onun güclü məntiqi, böyük idarəçilik təcrübəsi buna imkan verir), ancaq müəyyən detalları dəqiqləşdirməyə ehtiyac ola bilərdi ki, bu cür detallar hər hansı ümumi məsələ ətrafında həmişə mövcuddur.

Lakin yalnız H.Əliyev kimi böyük mütəfəkkir- metodoloqlar əsas məsələni - mətləbi detallardan ayırmağı, həmin əsas məsələ-mətləb üzərində düşünməyi bacarırlar.

Ümumiyyətlə, hər bir natiq - istər qüdrətli, istər orta səviyyəli, istərsə də zəif olsun - öz nitqində aşağıdakı üç aktı nümayiş etdirir:

a) informasiya;
b) məntiq; c) emosiya.

Qüdrətli natiqlərdə bunların üçü də bu və ya digər məqsədə, mərama xidmət edir və onların (yuxarıda sadalanan aktların) hamısı bu baxımdan nümunəvi bir şəkildə əlaqələnir, yəni informasiyasız məntiq və emosiya nə dərəcədə mənasızdırsa, müəyyən məntiqə və emosiyaya əsaslanmadan verilən informasiya da o qədər məqsədsiz və əhəmiyyətsizdir.

H.Əliyev nitqi bu və ya digər məram-məqsədə ona görə xidmət edə bilir ki:

hər şeydən əvvəl, onun idrakında, təfəkküründə müəyyənləşmiş, inama çevrilmiş ideya bütün nitqi, yaxud apardığı fikir mübadiləsi boyu heç vaxt unudulmur, ikinci plana keçirilmir;

ikincisi, əlavə məsələlər, detallar ortaya çıxdıqda onların şərhi məhz əsas məsələyə - mətləbə nə dərəcədə, hansı səviyyədə dəxli olub-olmadığına görə verilir;

üçüncüsü, natiqin bütün məntiqi əsas məsələ- mətləb üzərində cəmləşir, bütün emosiyası, intonasiyası da auditoriyanın diqqətini həmişə mətləbə yönəldir.

Müqayisə üçün Azərbaycan Prezidentinin müxtəlif illərdə eyni mövzu ilə bağlı çıxışlarını (bir daha xatırladırıq ki, bunlar şifahi çıxışlardır) nəzərdən keçirsək məlum olar ki, həmin çıxışlarda əsas qayə dəyişməmiş qalır, dəyişən zaman, ortaya çıxan yeni problemlər, cari şəraitdir. Sonuncular mütəfəkkir-natiqin şərh metodologiyasını, idrak- təhlil sistemini dəyişməsə də, müəyyən məsələlərə baxış taktikasını dəyişir. Əsas fərq isə özünü onda göstərir ki, 1993-1995-ci illərdə H.Əliyevin nitqlərində çağırış-romantika üstünlük təşkil edirdisə, son zamanlar analitik təhlil aparıcı mövqeyə çıxmışdır.

XIII. H.Əliyevin nitqi bu günün informasiyası əsasında qurulur - burada informasiya müasirliyi özünü aşağıdakı baxımlardan göstərir:

a) H.Əliyevin nitqi öz-özlüyündə ən müasir informasiyanı əks etdirir;

b) cəmiyyətin-auditoriyanın bugünkü informativ marağına cavab verir;

c) sabah üçün informativ perspektiv verir. «H.Əliyevin nitqi öz-özlüyündə ən müasir informasiyanı əks etdirir» dedikdə biz onu nəzərdə tuturuq ki:

1) respublikanın - ölkənin ictimai, siyasi, iqtisadi həyatında baş verən bütün hadisələr, xüsusilə son hadisələr Azərbaycan Prezidentinin müvafiq mövzulardakı məruzə və ya çıxışlarında qeyd olunur;

2) xüsusilə əhəmiyyətli hadisələr barədə H.ƏIiyev ya bilavasitə bu məsələ ilə əlaqədar, yaxud uyğun məruzə və ya çıxışlarında dərhal məlumat-şərh verir;

3) aşkarlıq prinsipinə müvafiq olaraq, ölkə Prezidenti dövlət əhəmiyyətli, xüsusilə beynəlxalq məzmunlu hadisələr, görüşlər və s, eləcə də ölkənin - respublikanın ümumi sosial-siyasi vəziyyəti barədə geniş ictimaiyyət üçün nəzərdə tutulmuş, demək olar ki, bütün çıxışlarının giriş hissəsində zəruri məlumat verir;

4) konkret mövzu ilə əlaqədar olaraq, H.Əliyevin çıxışı nəinki son günün, hətta son saatın, son dəqiqənin məlumatı kimi maraq doğurur;

5) auditoriyada əlaqədar şəxslərlə polemika - sual-cavab apararaq ən son informasiyanın verilməsinə xüsusi diqqət yetirir.

«H.Əliyevin nitqi cəmiyyətin - auditoriyanın bugünkü informativ marağına cavab verir» dedikdə isə aşağıdakılar nəzərdə tutulur:

1) H.Əliyevin məruzə və ya çıxışları 60-cı illərin sonu - 70-ci illərin əvvəllərindən etibarən belə bir təsəvvür formalaşdırmışdır ki, xalq - cəmiyyət son və dəqiq informasiyanı ancaq ondan gözləyir;

2) Prezidentin nitqlərində əks olunan informasiya çılpaq şəkildə deyil, müvafiq fəal təhlil kontekstində verilir;

3) bu və ya digər informasiyanın verilməsində H.Əliyev bu və ya digər təbəqənin, qrupun, yaxud mücərrəd şəkildə dövlətin yox, bütünlükdə Azərbaycan cəmiyyətinin marağından, mövqeyindən çıxış edir.

Nəhayət, «H.Əliyevin nitqi sabah üçün informativ perspektiv verir» o deməkdir ki, cəmiyyətin, dövlətin sabahkı normal fəaliyyəti həmin informasiyasız, bir qayda olaraq, mümkün deyil.

Müşahidələr göstərir ki, bu günün informasiyası ilə silahlanmayan natiq, artıq qeyd olunduğu kimi, nə qədər böyük məntiqə, emosiyaya, nitq məharətinə malik olsa da, nəticə etibarilə, auditoriyanı, xüsusilə müasir dövrümüzün kifayət qədər məlumatlı auditoriyasını təmin edə bilməz. Ümumiyyətlə, bütün dünyada gedən informasiya mübadiləsi, daha doğrusu, müharibəsi ideoloji sahədə çalışanları, siyasət adamlarını daim ayıq-sayıq olmağa məcbur edir. Gündəlik informasiyaya yiyələnməyən ideoloq tanımadığı ormanda dolaşan səyyaha bənzəyir.

H.Əliyev həm bir ideoloq, həm də bir natiq kimi zəngin informasiyaya əsaslanır, həmin informasiya ilə silahlanaraq mənsub olduğu xalqın, rəhbərlik etdiyi dövlətin mənafeyini ardıcıl şəkildə müdafiə edir. Və hər hansı informasiya görkəmli natiq-ideoloqun əlində onun mövqeyini müəyyən edən ideyaya çevrilir. Adi-sıravi təfəkkürün müqayisə oluna bilmədiyi fakt-informasiyalar çox zaman H.Əliyev üçün tamamilə müqayisə olunub, bu və ya digər mürəkkəb məsələnin həllinə, yaxud fikir-nəticənin alınmasına xidmət edə bilir.

Azərbaycan Prezidentinin apardığı müşavirə-müzakirələrdə iştirak edənlər, yaxud həmin müşavirə-müzakirələri televiziyada və radioda dinləyənlər, mətbuatda oxuyanlar bilirlər ki, H.Əliyevin informasiyası o qədər zəngin olur ki, nəticədə nəinki hər hansı natiqin, hətta bu və ya digər sahəyə rəhbərlik edən mütəxəssisin (nazirin, komitə sədrinin, idarə-müəssisə rəhbərinin və s.) verdiyi məlumatlarda nəyin doğru, nəyin yalan, nəyin isə qeyri-dəqiq olduğunu dərhal müəyyənləşdirir.

XIV. H.Əliyev danışarkən bütün varlığı, düşüncəsi, emosiyası və daxili inamı ilə danışır. Qeyd etmək lazımdır ki, bu qeyri-adi xüsusiyyət ancaq dünyanın görkəmli natiq-mütəfəkkirlərinə xas olmuşdur... Həqiqətən, bu və ya digər fikrin, ideyanın auditoriyaya səmərəli surətdə çatdırılması üçün natiq yalnız məntiqi, informasiyası ilə kifayətlənsə, dinləyiciləri yora bilər, ona görə də natiqdə güclü emosiya, dediklərinin ürəkdən gəlməsi, xalq arasında söyləndiyi kimi, «dediklərinə özünün inanması» tələb olunur.

Bunun üçün bir şərt ondan ibarətdir ki, natiq danışarkən özünün obrazını yaratsın. Məsələn:

«... Bəli, mən bunu dəfələrlə demişdim ki, biz gərək xalqın rəyini öyrənək, biz gərək insanlara anladaq ki, doğrudan da bu yol bizim üçün daha səmərəli yoldur. Gərək insanlar bunu özləri dərk etsinlər, özləri qəbul etsinlər. Zorla, yuxarıdan kiminsə istəyi ilə, - guya hansısa bir adam özünü çox inqilabçı göstərir, - onun rəyi ilə belə şeyləri keçirmək olmaz.

Sizin içərinizdə Azərbaycanın kənd təsərrüfatını bilən adamlar var və kənd adamlarının psixologiyasını da yaxşı bilən adamlar var. Amma yəqin bu fikirlə razı olarsınız ki, mən də bunları yaxşı bilirəm. Bəlkə də bunu Azərbaycanda çoxlarından yaxşı bilirəm. Çünki mən Azərbaycana 14 il rəhbərlik etdiyim zaman kənd təsərrüfatı ilə xüsusilə məşğul olmuşam. Kənd təsərrüfatı çox həssas bir sahədir. Bu, zavod deyil, fabrik deyil, torpaqdır, torpağın üzərində işləyən insandır. Zavodda, fabrikdə işçinin cihazı var, avtomatı var, düyməsi var, filanı var - o, düyməni basır, yaxud da aləti işə salır, iş gedir. Amma torpaq canlı bir məfhumdur. Bitki də canlıdır, heyvanlar da canlıdır. Kənd təsərrüfatında insan canlı bir həyata qovuşur.

Mən bunların hamısını hiss edərək işlədiyim müddətdə kənd təsərrüfatı ilə xüsusi məşğul olmuşam. Mən Azərbaycan kəndinin hər bir incəliyini bilirəm, kəndlinin psixologiyasını bilirəm, torpaqla bağlı olan adamların psixologiyasını bilirəm. Ona görə də mən bu qanunun layihəsini müzakirə edərkən demişdim, bu gün təkrar olaraq deyirəm ki, mən bu müddətdə çalışırdım ki, bizim insanlar, xüsusən kənddə yaşayan insanlar özləri inansınlar, bilsinlər ki, bu yol bizim üçün doğrudan da uğurlu yoldur və bu yolla daha yaxşı nailiyyətlər əldə edə bilərik. Bu yol müstəqil Azərbaycanın gələcəyi üçün yeganə yoldur. Buna da biz nail olduq. Amma buna nail olmaq üçün biz nə qədər işlər gördük...» («Azərbaycan» qəzeti, 24 iyul 1996-cı il).

H.Əliyevin nitqində səslənən «mən bunu dəfələrlə demişəm», «...mən də bunları yaxşı bilirəm. Bəlkə də bunu Azərbaycanda çoxlarından yaxşı bilirəm. Çünki mən Azərbaycana 14 il rəhbərlik etdiyim zaman kənd təsərrüfatı ilə xüsusilə məşğul olmuşam», «Mən Azərbaycan kəndinin hər bir incəliyini bilirəm...» və s. mülahizələr

yalnız informasiya verməklə qalmır, görkəmli ictimai xadimin mükəmməl avtoobrazını təqdim edir.

Yaxud:

«Bilirsiniz, neft dövlətin, millətin, xalqın sərvətidir. Bu heç kəsin şəxsi mülkiyyəti deyil, - nə sənin, nə o birisinin, nə bu birisinin, nə də zavod direktorunun. Ona görə bu, dövlət inhisarındadır. Bu, elə bir məhsuldur ki, dövlət inhisarı altındadır və daim dövlət inhisarında olacaqdır. Yenə də deyirəm, bizim hələ ki, bundan böyük sərvətimiz yoxdur. Amma buna bu qədər səthi münasibət və bəzi hallarda, hesab edirəm ki, qeyri-normal münasibət yaramaz. Kimə satırsınız, nə cür satırsınız, hansı qiymətə satırsınız - bunların hamısı çox ciddi məsələlərdir. Əgər bunu siz pərakəndə edirsinizsə, kim nə cür istəyir satırsa və xüsusən bu barter - niyə bu qədər barterə yol verirsiniz? Biz barteri 1994-cü ildə qadağan eləmişik. Siz imkan vermisiniz zavodlar barter etsin. Ümumiyyətlə, Neft Şirkətinin və onun prezidentinin bu zavodların üzərində bir hüququ var, yoxsa yox? Mən görürəm ki, yoxdur. Ya özünüz buraxmısınız başına, yaxud da onlar sizi saymırlar. Nəyə görə - bilmirəm».

Burada isə natiqin obrazı ilə yanaşı «təhlil olunan» obyektin də obrazı (neqativ məzmunda) yaradılmış, bilavasitə müraciətlərlə həmin obraz barədə tam təsəvvür yaradılmışdır.

XV. H.Əliyevin mimikası, pantomimikası, intonasiyası onun nitqinin və təfəkkürünün emosiyasını görünməmiş bir şəkildə gücləndirir - bir sıra əl-qol hərəkətləri, reaksiyaları mövcuddur ki, onlar görkəmli natiq-ideoloq üçün olduqca xarakterikdir...

* * *

H.Əliyevin nitqinin mükəmməlliyi, zənginliyi özünü həm də işlətdiyi müdrik kəlamlarda - aforizmlərdə göstərir. Professorlar Ş.Əsgərov və S.Xəlilovun hazırlayıb nəşr etdirdikləri «Aforizmlər» kitabçasında (Bakı, 1997) H.Əliyevin həmin müdrik kəlamlarından yalnız bir qismi öz əksini tapsa da, böyük mütəfəkkirin düşüncə-idrak imkanları, həyat təcrübəsinin intəhasızlığı barədə müəyyən təsəvvür yaradır. Kitabçanın «Ön söz» hissəsində deyildiyi kimi, «zəmanəmizin ən görkəmli siyasətçilərindən biri, böyük dövlət xadimi, təşkilatçı və qurucu bir şəxsiyyət kimi tanınan Heydər Əliyevin həm də böyük

fəlsəfi təfəkkür sahibi, ədəbiyyat və sənət bilicisi olması çoxdan məlumdur... Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri, siyasi fəaliyyəti, böyük quruculuq işləri hələ arzu olunan səviyyədə təhlil edilməsə də, hər halda bu barədə çox yazılıb. Lakin onun şəxsiyyətinin mütəfəkkirlik məqamı, fəlsəfi fikirləri, demək olar ki, heç işıqlandırılmamış, indiyədək diqqətdən kənarda qalmışdır» (yenə orada, səh. 3-5).

Azərbaycanın ictimai-siyasi fikir tarixində böyük mövqeyi olan Heydər Əliyevin müdrik kəlamlarının ilkin təhlili əsasında belə bir qənaətə gəlirik ki, o,

1) xalqa, onun yaradıcı gücünə, tarixi roluna yüksək qiymət verir;
2) şəxsiyyətin ictimai-mənəvi keyfiyyətini xalqına göstərdiyi xidmətin səviyyəsi ilə müəyyən edir;
3) mənəvi zənginliyi hər şeydən üstün sayır;
4) tarixin, həyat təcrübəsinin böyük əhəmiyyətə malik olduğuna inanır;
5) azadlıq və istiqlaliyyəti hər bir xalqın, hər bir insanın mənəvi sərvəti hesab edir;
6) sülh, ədalət və mənəvi saflığı cəmiyyətin həyatının əsas atributları sayır;
7) ana dilini yüksək qiymətləndirir və s. və i.a.

H.Əliyevin müdrik fikirləri ictimai-siyasi, mənəvi həyatın ən müxtəlif sahələrinə aid olub Azərbaycan ictima təfəkkürünün zənginləşməsində böyük rol oynayır. Bu fikirlərin hər biri atalar sözü gücündədir, böyük təfəkkür və böyük həyat təcrübəsinin məhsuludur, məhsuldar torpaqlarımız, neftimiz, pambığımız kimi təbii sərvətimizdir:

1. Böyük siyasəti kiçik hisslərlə, xırda mənfəətlərlə bağlamaq olmaz.
2. Tarix həmişə hər şeyi öz yerinə qoyur.
3. Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlaya və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.
4. Heç kim əbədi qalib ola bilməz.

5. Kim ki, öz biliyindən, bacarığından artıq iddialar edir, o həmişə məğlub olur.

6. Rüşvətxoru, oğrunu qəhrəman etmək öz xalqına xəyanət etməkdir.

7. Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.

8. Öz ana dilini bilməyən adamlar şikəst adamlardır.

9. Xalq gərək daim öz kökünü xatırlasın.

10. Tariximiz bizim üçün dərs olmalıdır.

11. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

12. Dil böyük bir aləmdir.

13. Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.

14. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.

15. Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır...

Etiraf etmək lazımdır ki, bu kəlamların hər biri siqlətinə görə böyük bir əsər gücündədir və həmin kəlamları deyən insan xalqının dilinin (ana dilinin!) böyük bilicisi, mənsub olduğu millətin idrak xəzinəsinin sərrafıdır... Heydər Əliyevin adını heç bir tərəddüd etmədən təfəkkür tariximizin böyük dühaları ilə bir sırada çəkmək olar və bu sırada da onun yeri tamamilə orijinal, tamamilə əvəzedilməzdir...

Ümumiyyətlə, Heydər Əliyevin dili ideoloji- fəlsəfi mükəmməlliyi, informativ zənginliyi, emosionallığı ilə bir örnək, onun ictimai-siyasi natiqlik sahəsindəki təcrübəsi, istedadı bütöv və perspektivli bir məktəbdir.

# HAYDAR ALİYEV: DEVLET KURUCULUĞU VE DİL POLİTİKASI

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVƏ HƏSR OLUNMUŞ YUBİLEY MƏQALƏLƏRİ

# HEYDƏR ƏLİYEV İRSİ UĞURLU İSLAHATLARIN LEYTMOTİVİDİR

Tarixin müxtəlif mərhələlərinə nəzər salsaq, milyonların içərisində öz uzaqgörənliyi, qətiyyəti və iradəsi ilə seçilən liderlərin və fenomenal şəxsiyyətlərin baş verən hadisələrə təsir imkanları, bu hadisələrin istiqamətini düzgün məcraya yönəltmək bacarığı səhifə-səhifə göz önündə canlanar.

Tale həm də bəzən xalqları, ölkələri sərt sınaqlara çəkir, üzücü müharibələr, sosial kataklizmlər, tənəzzül və böhran minilliklərin nailiyyətlərini təhlükə altına alır, tarixi tərəqqi məhvə sürüklənir. Belə hallarda cəmiyyət bəşəri bir xilaskarın gəlişinə ehtiyac duyur. Həmin şəxsiyyət öz xilaskarlıq missiyasını yerinə yetirdikdən sonra tarixdə əbədi iz qoyur...

Ümummilli lider Heydər Əliyev də Azərbaycan xalqının tarixinə və taleyinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Böyük öndər Azərbaycanın tərəqqi və inkişaf yolunu bir dövlət olaraq dahiliklə müəyyənləşdirmiş, milli-mənəvi dəyərlərimizin, müstəqil dövlətçiliyimizin konseptual əsaslarını işləyib hazırlamış, ehkamlaşmış köhnə stereotiplər çərçivəsini dağıdaraq milli ruhun, milli ideologiyanın yüksəlişinə təkan vermişdir.

Azərbaycanın müasir siyasi tarixinin və çağdaş həyatının təxminən son 35 ili ulu öndərimiz Heydər Əliyevlə, onun çoxtərəfli və genişmiqyaslı zəngin əməli-nəzəri və siyasi fəaliyyəti ilə bağlı olmuşdur. Bu dövrdə ulu öndərin rəhbərliyi altında Azərbaycan xalqı tarixi baxımdan bir əsrdən digər əsrə, bir ictimai-siyasi quruluşdan digərinə, asılılıqdan müstəqilliyə, bir ideoloji müstəvidən digər ideoloji mühitə qədəm qoymuşdur.

Bu dövrə nəzər salarkən ölkəmizin nə qədər dəyişib inkişaf etdiyini istər-istəməz etiraf etməli olursan. Bu illər ərzində Azərbaycan xalqı, sözün həqiqi mənasında, misilsiz inkişaf yolu keçmişdir. Ən başlıcası, demokratik, müstəqil, dünyəvi və hüquqi Azərbaycan dövləti bərqərar olmuşdur. Bu, xalqımızın həm iqtisadi, həm siyasi, həm də mənəvi sərvətidir. Bu tarixi qələbəni lazımınca qiymətləndirmək, qorumaq, möhkəmlətmək və ona dönməz xarakter vermək Azərbaycan milli ideologiyasının mahiyyət və məzmununu təşkil edir.

Danılmaz faktdır ki, müstəqil Azərbaycan dövlətçiliyinin təməlini qoymuş ümummilli liderimiz Heydər Əliyev həm də müstəqillik ideologiyasının banisi və müəllifidir. Ulu öndərimiz Heydər Əliyev mahir dövlətşünas və rəhbər kimi xalqı üçün nə mümkündürsə onu etmiş və həm də özünün davamçısı və siyasi varisi üçün zəngin ideya irsi və böyük mənəvi-ideoloji varidat qoymuşdur. Bu zəngin nəzəri-siyasi irsin tərkibində milli müstəqillik, müasirlik və azərbaycançılıq ideologiyası mühüm yer tutur. Ulu öndərimiz bu haqda demişdir: **«... Bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində olmağa qoymamışam».**

Ümummilli liderimiz Heydər Əliyevin tarixin ən çətin, məsuliyyətli dövrlərində Azərbaycanın milli mövcudluğunu yaşatmaq kimi ağır yükün altına girən fenomenal şəxsiyyət olduğu danılmazdır. Ulu öndər siyasi və dövlətçilik fəaliyyətinin bütün mərhələlərində vətənə, xalqa, torpağa sonsuz məhəbbət hissi ilə, qurub-yaratmaq arzusu ilə yaşamış, milli ideallara bağlı olmuşdur. Ümummilli lider bütün zəngin və mənalı həyatı boyu həmişə xalqını, vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir.

Hələ Azərbaycana ilk rəhbərliyi dövründə böyük təzyiqlərlə, təqiblərlə üzləşməsinə baxmayaraq, Heydər Əliyev dühası

heç bir çətinlikdən qorxmayaraq xalqda tarixi keçmişi, dili, mədəniyyəti, milli adət-ənənələri haqqında əsaslı təsəvvürlər formalaşdırmağa nail olmuşdur. Heydər Əliyev fenomeninin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi də məhz azərbaycançılıq ideyasının, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması prinsipləri əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi faktlara çevrilməsidir.

Tarixi təcrübə ulu öndərimiz Heydər Əliyevin böyük uzaqgörənliklə söylədiyi bu fikirləri bir daha təsdiq etdi ki, **«hüquqi cəhətdən müstəqil olmaqla real müstəqillik arasında çox böyük məsafə və olduqca ciddi maneələr var»**. Elan olunmuş dövlət müstəqilliyini qorumaq, möhkəmləndirmək və ona dönməz, əbədi xarakter vermək üçün olduqca böyük işlər görülməlidir. Təəssüf ki, suverenliyin siyasi-iqtisadi, mənəvi-psixoloji, hərbi-hüquqi, ictimai-siyasi təməli qoyulan ilk illərdə Azərbaycanda hakimiyyət naşı əllərə düşdü, çox böyük imkanlardan istifadə edilmədi. Halbuki İttifaqın dağılması ərəfəsində bir çox mütəxəssislərin apardığı təhlillər göstərirdi ki, keçmiş SSRİ-də cəmi bir neçə respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri də məhz Azərbaycan idi. Hələ sovet dövründə, ulu öndərimiz Heydər Əliyevin rəhbər olduğu dövrdə respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaranmışdı. Çox təəssüf ki, dövlət müstəqilliyinin ilk dövrlərində Azərbaycana rəhbərlik edən şəxslər dünyanın çox sürətlə dəyişən siyasi mənzərəsini nəzərə almağa qadir deyildilər. Ulu öndərimiz Heydər Əliyevin sonralar qeyd etdiyi kimi, mövcud geosiyasi vəziyyət yeni strategiyanın formalaşmasını tələb edirdi.

1992-ci ildə hakimiyyətə normal siyasi mübarizə nəticəsində yox, güc yolu ilə gələn AXC-Müsavat təmsilçiləri artıq 1993-cü ilin əvvəllərində xalqın etimadını tamamilə itirdiklərini görürdülər. Sivil dünyada belədir ki, xalqın etibarını itirdiyini və ölkəni idarə edə bilmədiyini görən iqtidar vəziyyətin

böhranlı həddə çatmasını gözləmədən istefa verir. Amma təəssüflər olsun ki, həmin şəxslər hakimiyyətdən sivil yolla getmək üçün özlərində siyasi iradə və mədəniyyət tapmaqda da aciz idilər. Yenicə müstəqil olmuş ölkə isə dərin xaos, anarxiya, hakimiyyətsizlik ucbatından parçalanmaq, suverenliyini itirmək üzrə idi.

Nəhayət, 1993-cü ilin iyun hadisələri artıq uzun müddət idi ki, xalqın israrla dövlət idarəçiliyinə çağırdığı ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə dönüşünü intensivləşdirdi. Məhz belə bir taleyüklü məqamda xalq unikal siyasi və şəxsi keyfiyyətləri ilə bütün azərbaycanlıların hər zaman qürur mənbəyi olmuş Heydər Əliyevi hakimiyyətə çağıraraq ölkəyə rəhbərliyi ona həvalə etdi. 1993-cü il prezident seçkiləri ərəfəsində Milli Məclisin Sədri kimi həm də Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən ulu öndərimiz Heydər Əliyev öz proqramını belə bəyan etdi: **«Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan Respublikası demokratiya yolu ilə getməlidir, heç vaxt totalitar sistemə, kommunist rejiminə qayıtmamalıdır. Azərbaycan Respublikasında siyasi plüralizm hökm sürməlidir. İnsan, söz, din, dil azadlığı - bunların hamısı bərqərar edilməlidir. İnsan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biri, dövlət orqanlarının, hüquq-mühafizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır. Dövlətin hüquqları da qorunmalıdır. Biz iqtisadiyyatda köklü islahatlar aparıb bazar iqtisadiyyatına keçməliyik. Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir, Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir, Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq, bu yolla da gedəcəyik. Bu yol xalq yoludur».**

Amma onilliklər boyu formalaşmış bir sistemdən demokratik, bazar iqtisadiyyatına əsaslanan cəmiyyətə keçid yolunda

mürəkkəb problemlərlə üzləşəcəyimiz də ulu öndərimiz Heydər Əliyevə məlum idi. Xüsusən 1991-1993-cü illərdə ölkədə davam edən hakimiyyət çəkişmələri, iqtisadi potensialın məqsədyönlu şəkildə dağıdılması vəziyyəti bütün sahələrdə bir qədər də gərginləşdirmişdi. Ancaq irəliyə doğru getmək üçün çətinilklərlə dolu yalnız bir yol var idi və Heydər Əliyev bu yolun bütün məsuliyyətini üzərinə götürdü. 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müstəqil respublikamızın Prezidenti seçildi. Bu, xalqın mütəşəkkilliklə iştirak etdiyi və özünün yeganə namizədinə yekdilliklə səs verdiyi ilk demokratik seçkilər idi.

Xalqın çağırışına əməl edən Böyük azərbaycanlı hakimiyyətə gələn kimi ilk növbədə qanunsuz silahlı dəstələrin fəaliyyətinə son qoydu, separatçıları yerində oturtdu, daxildə asayişi bərpa etdi. Beləliklə, Azərbaycan parçalanıb dağılmaq və müstəqilliyini itirmək təhlükəsindən qurtuldu. Qısa bir müddət ərzində ölkədəki böhran vəziyyəti aradan qaldırıldı, vətəndaş müharibəsinin qarşısı alındı, cəbhədə atəşkəsə nail olundu.

Böyük dövlətlərin geosiyasi mübarizə meydanı sayılan bir respublikada bunlara nail olmaq asan deyildi. Çoxları Azərbaycanda siyasi sabitliyin yaradılacağına inamını itirmişdi. Lakin ümummilli liderimizin simasında hakimiyyətə inam yarandı, cəmiyyət başa düşdü ki, o, taleyin ümidinə buraxılmamışdır, onu bütün çətinliklərdən qurtarıb inamla gələcəyə aparan müdrik rəhbəri vardır. Qarşıda duran ən mühüm vəzifələrdən biri müstəqil Azərbaycan Respublikasının dövrün tələblərinə uyğun dövlət və idarəetmə strukturlarını yaratmaq idi və ulu öndərimiz Heydər Əliyev bu vəzifəni də özünəməxsus ustalıqla həll etdi. Ölkəmizdə hüquqi islahatların həyata keçirilməsi üçün, hər şeydən əvvəl, yeni konsepsiya işlənib hazırlanmalı idi ki, bu konsepsiya azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinə və bununla da insan hüquqları və azadlıqlarının müdafiəsinə təminat yaratsın.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişi ilə ölkə həm də xaosdan, dövlətçiliyini itirmək təhlükəsindən xilas oldu. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Heydər Əliyev özünün siyasi yenilməzliyi və qətiyyəti ilə Azərbaycan dövlətçiliyini ağır faciələrdən xilas edə bildi. 1995-ci ildə qəbul olunmuş konstitusiya ilə Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi müəyyənləşdirdi. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına geniş imkanlar açdı. Beləliklə, Azərbaycanın beynəlxalq arenada özünəlayiq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində qlobal işlərə start verildi.

Ümummilli liderimiz Heydər Əliyevin dövlətçiliyimiz qarşısındakı ən böyük xidmətlərindən biri də müstəqil Azərbaycanın uğurlu neft strategiyasını hazırlayaraq həyata keçirməsidir. Bu strategiyanın reallaşdırılması nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz geostrateji mövqeyini möhkəmləndirə bildi, qlobal məkanda gedən proseslərin istiqamətverici subyektinə çevrilməyə şans qazandı.

Regional layihələrə və beynəlxalq müqavilələrə qoşulan Azərbaycan özünün geopolitik mövqeyinə, təbii ehtiyatlarına, iqtisadi potensialına güvənərək bir çox dövlətlərlə və beynəlxalq qurumlarla əməkdaşlıq zəminində böyük «İpək yolu» nun bərpası, Şərq-Qərb nəqliyyat dəhlizinin yaradılması, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması layihələrini ardıcıl həyata keçirir.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkə daxilində möhkəm təməllərə əsaslanan siyasi sabitliyin bərqərar olunması, qanunçuluğun gücləndirilməsi, xarici sərmayələrə dövlət təminatının verilməsi və digər zəruri addımlar isə Azərbaycanın

yeni neft strategiyasının işlənib hazırlanmasına və həyata keçirilməsinə zəmin formalaşdırdı. Uzun sürən danışıqlardan sonra 1994-cü ilin 20 sentyabrında Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə çağdaş tariximizə «Əsrin müqaviləsi» adı altında daxil olan neft kontraktının təntənəli imzalanma mərasimi keçirildi. Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət olmaqla yanaşı, Xəzər dənizində beynəlxalq əməkdaşlığın da bünövrəsini qoydu.

Ümummilli liderimiz Heydər Əliyevin dövlət quruculuğu fəaliyyətinin bütün mərhələləri və anları həm də Azərbaycan milli ideologiyasının yaranması, formalaşması, təbliği və təşviqi anları olmuşdur. O, gördüyü hər bir işi ideoloji cəhətdən əsaslandırmağı, onun fəlsəfi, elmi, siyasi mahiyyətini olduqca yığcam və məntiqi arqumentlərlə şərh etməyi dahiyanə bir ustalıqla bacarırdı.

Milli təhlükəsizliyin təmin edilməsinə nail olmaq, onun daxili və xarici parametrlərini dəqiq müəyyənləşdirmək və onları uzlaşdırmaq Heydər Əliyev təliminin təməl prinsiplərindən biridir. Dünyəvi qloballaşma və modernləşmə prosesinin geniş vüsət aldığı bir dövrdə ümumi bəşəri inkişaf dinamikasından kənarda qalmaq olmazdı. Hindistanın görkəmli dövlət xadimi C.Nehrunun yazdığı kimi: «**Bizim idealımız və məqsədimiz tarixi meyillərə zidd gedə bilməz».** Dünyadan təcrid olunmaq milli təhlükəsizliyə zəmanət vermir. Odur ki, indiki dövrün qeyri-adiliyi və ondan irəli gələn tələblərlə hesablaşmaq lazım gəlirdi.

Ulu öndərimiz Heydər Əliyev müstəqilliyimizin, Azərbaycan dövlətçiliyinin təhlükə mənbələrini və ona qarşı mübarizə metodlarını müasirləri arasında daha aydın görürdü. Heydər Əliyev bütün fəaliyyəti boyu ideoloji mübarizə cəbhəsində bir anlıq fasiləyə, istirahətə yol vermədən daim döyüş və müdafiə mövqeyində sərvaxt dayanmışdı. Naşı adamlara elə gəlir ki, əgər düşmənin odlu silahları atəş açmırsa, deməli, onlar

artıq susmuşdu. Xeyr, ideoloji cəbhənin döyüşçüləri gözə görünməsə də, onların təxribatçı silahı heç vaxt susmur. Əksinə, müstəqilliyimizi möhkəmləndirmək uğrunda xalqımızın hər bir uğuru düşməni daha da quduzlaşdırır, onları yeni-yeni ağlagəlməz vasitələrə əl atmağa sövq edir. Mürtəce dairələrin müstəqil Azərbaycanın nəinki yanacaq resurslarında, hətta onun ən adi nemətlərində belə maraqları var. Odur ki, ulu öndərimiz təkrar-təkrar deyirdi: **"Dövlət - dövlətçiliyi qorumalıdır!"**

Ulu öndərimiz Heydər Əliyevin bütün fəaliyyətinin başlıca qayəsini məhz bu ideya təşkil edir. Ölkənin hər bir vətəndaşı müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi üçün şəxsi məsuliyyət daşıyır. Bunun üçün ilk növbədə hər kəsdən milli həmrəylik tələb olunur. Ulu öndərin tövsiyəsi belə idi: **«Azərbaycan xalqının gücü bir yerə toplanmalıdır, hamı bir hədəfə vurmalıdır...».** Təsadüfü deyil ki, Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olub və ulu öndərimiz haqlı olaraq deyirdi: **«Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnərək hər bir insanın inkişafının təmin olunması deməkdir. Hesab edirəm ki, qurultay bu sahədə, azərbaycançılıq ideyasının həyata keçirilməsi sahəsi üçün, dünya azərbaycanlılarının həmrəyliyinin genişləndirilməsi və inkişaf etdirilməsi üçün çox mühüm tarixi bir mərhələdir».** Təsadüfü deyil ki, Dünya azərbaycanlılarının I qurultayındada ulu öndərimiz Heydər Əliyev ona məxsus müstəqillik, müasirlik və azərbaycançılıq ideologiyasının konturlarını bir daha dəqiqləşdirdi. **«Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır»** fikrini söylədi və açıq bəyan etdi ki, **«bizim hamımızı birləş-**

**dirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır».**

Dahi liderimiz bütün sahələrdə davamlı islahatların əsasını qoymaqla yanaşı insan hüquq və azadlıqlarına da böyük önəm verirdi. Təsadüfü dyeil ki, ulu öndərimiz Heydər Əliyevin hakimiyyəti illərində insan hüquqları və azadlıqlarının təmini məqsədilə həyata keçirdiyi hüquqi islahatların ən mühümü məhz yaşamaq hüququnun təmin edilməsi oldu. Ali insanpərvərlik prinsiplərini rəhbər tutan ümummilli liderimizin ilk qərarlarından biri məhz ölüm cəzasının tətbiqinə moratorium qoyulması oldu. Daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırıldı və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası ləğv edildi. Bu tarixi addım insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan rəhbərimizin gələcək nəsillərə misilsiz töhfəsi oldu və bütün dünyaya göstərdi ki, Azərbaycan hüquqi, demokratik dövlət quruculuğu yolunda inamla irəliləyir. Ulu öndərimizin bu münasibətlə 1998-ci il 3 fevral tarixli müraciətində deyilirdi: **«Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm».**

Ulu öndərimiz Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində 1995-ci ildən etibarən verilmiş əfv və amnistiya aktları ilə minlərlə məhkum azadlıqdan məhrumetmə yerlərindən buraxılaraq öz ailələrinə qovuşmuşdur. Cəmiyyətin inkişafı, insan hüquqları və azadlıqlarının təmin edilməsi üçün tamamilə yeni hüquq və məhkəmə sisteminin qurulması zəruri idi. Buna görə də dahi şəxsiyyətin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası hazırlanmış və 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edilmişdir.

Konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquqlarının təmin edilməsi, ölkəmizin Avropa Şurasına inteqrasiyasını sürətləndirmək məqsədilə ulu öndərimiz tərəfindən bir

sıra mühüm fərman və sərəncamlar imzalandı, hüquqi islahatların həyata keçirilməsi üçün «Azərbaycan Respublikası Prezidentinin yanında hüquqi islahat komissiyasının yaradılması haqqında» sərəncam verildi. Həmin komissiya «Konstitusiya Məhkəməsi haqqında», «Məhkəmələr və hakimlər haqqında» qanunlar hazırladı. Beləliklə, ölkəmizdə məhkəmə-hüquq sistemində köklü islahatların aparılmasına imkan açıldı.

Ulu öndərimizin 2002-ci il 22 iyun tarixli fərmanı ilə Konstitusiyada dəyişikliklər edilməsi üçün referendum təyin olundu. Fərmanda göstərilirdi ki, respublikamızın «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyasına qoşulması, ölkəmizdə məhkəmə islahatlarının həyata keçirilməsi, seçki sisteminin təkmilləşdirilməsi və digər hallarla əlaqədar yeni müddəaların Azərbaycan Respublikası Konstitusiyasında əks etdirilməsi zəruridir. Referendumun nəticələrinə müvafiq olaraq Konstitusiyaya edilən düzəlişlər insan hüquqları və azadlıqlarının qorunmasını daha da gücləndirdi, vətəndaşlara məhkəmələrə, ombudsmana, Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verdi, ölkənin seçki sistemini daha da təkmilləşdirdi. Sözsüz ki, bütün bunlar ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu böyük isldahatlardır.

Lakin bu illər ərzində əldə olunan uğurlarla yanaşı, Azərbaycan cəmiyyətini narahat edən əsas məsələlərdən biri də məhz hakimiyyət sükanının yenidən təsadüfi şəxslərin, meydan eyforiyasından ayıla bilməyən diletantların əlinə düşməsi qorxusu olmuşdur. Ötən illərin acı reallıqları yaddaşlarda neqativ assosiasiya doğuraraq cəmiyyətin hər bir üzvünün vətəndaşlıq məsuliyyətini artıran, onun ulu öndərimiz Heydər Əliyev siyasi kursuna səmimi inamını təmin edən başlıca amil kimi çıxış etmişdir. Təhtəlşüurda baş qaldıran bu stereotiplər xalqın mövcud siyasi kursun davamlılığının təmin edilməsi naminə ortaya möhkəm siyasi iradə qoymasını da zərurətə çevirmişdir. Bu belə də olmuş, xalqımızın nəzər nöqtəsi birmənalı olaraq cənab İlham Əliyev fenomeninin üzərində dayanmışdır. Cənab İlham Əliyev

cəmiyyətdə tərəqqi və inkişafa xidmət edən proqressiv islahatlar kursunu davam etdirmək əzmində olan lider kimi qəbul olunmuşdur. 2003-cü ildə səhhətində yaranmış problemlər üzündən prezident seçkilərində iştirak edə bilməyən ümummilli liderimiz Heydər Əliyev də cənab İlham Əliyevi özünün siyasi varisi elan edərkən məhz ictimai rəyə, ümumxalq münasibətinə əsaslanmışdır. Ulu öndərimiz Azərbaycan xalqına 2003-cü il 1 oktyabr tarixli müraciətində cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirmiş, bir çox işlərin onun tərəfindən uğurla başa çatdırılacağına dərin inamını ifadə etmişdir: **«Üzümü Sizə-həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm».**

Son 5-6 ilin gerçəklikləri əminliklə söyləməyə əsas verir ki, cənab İlham Əliyev xalqın ona bəslədiyi ümidləri doğrultmuş, cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışmaqla, xalqın maraq və mənafelərinə cavab verən çevik, qətiyyətli qərarlar qəbul etmişdir. Böyük uğurlara imza ataraq özünü ciddi siyasətçi kimi təsdiqləmiş, yüksək intellekti, işgüzarlığı, təvazökarlığı, savadı, səmimiliyi, mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş cənab İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifəni inamla

icra etmişdir. Ötən illər ərzindəki fəaliyyəti dövlət başçısının verdiyi bütün vədlərin əməli fəaliyyətə və praqmatizmə söykəndiyini, respublikanın gerçək potensialı ilə uzlaşdığını tamamilə təsdiqləmişdir. İlk növbədə bəlli olmuşdur ki, cənab İlham Əliyev hökumətin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir. **«Əsl siyasət konkret, real iş görməkdən ibarətdir»** - tezisini irəli sürmüş Azərbaycan Prezidenti bu siyasəti hər bir ölkə vətəndaşının həyatında gerçəkliyə çevirmək üçün ciddi siyasi iradə, qətiyyət və əzmkarlıq nümayiş etdirmişdir.

Həm 2003-cü ilin 15 oktyabr, həm də 2008-ci il 15 oktyabr seçkilərinin nəticələri təsdiqlədi ki, Azərbaycan xalqı ümummilli liderin siyasi kursuna sadiqdir və bu kursun dövlətçiliyin təhlükəsiz şəraitdə inkişafına imkan verən yeganə strateji seçim olduğunu bütün varlığı ilə qəbul edir. Hər iki seçkidə Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyevin inamlı qələbəsi göstərdi ki, Azərbaycan cəmiyyəti ölkədə həyata keçirilən siyasətə alternativ görmür. Hələ 2003-cü ildə **"Mən bütün azərbaycanlıların Prezidenti olacağam"**- deyən cənab İlham Əliyev qısa müddətdə ona bəslənilən etimadı tam doğrultmuş, hər bir vətəndaşın marağına cavab verən ədalətli qərarlar qəbul etməyə qadir olduğunu göstərmişdir. Güclü, mobil və yüksək iş qabiliyyətli komanda yaratmağa nail olan dövlət başçısı sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində, ilk növbədə milli iqtisadiyyatda infrastruktur dəyişikliklərinə nail olmağın, kəmiyyət dəyişikliklərini keyfiyyət müstəvisinə keçirməyin zəruriliyini ortaya qoymuşdur. Ölkə rəhbəri imzaladığı fərman və sərəncamlarla, qəbul etdiyi qərarlarla ölkəmizin dinamik yüksəlişini təmin etmişdir.

Bu gün Azərbaycanın sosial-iqtisadi sahələrdə qazandığı uğurlar dövlət başçısının ötən müddətdə qəbul etdiyi fundamental qərarların, dövlət proqramlarının müstəsna əhəmiyyətini aşkara

çıxarır. Ölkə rəhbəri hər addımında milli maraq və mənafeləri prioritet hesab edir. Heç də təsadüfi deyil ki, qazanılan nailiyyətlər nüfuzlu beynəlxalq maliyyə qurumları tərəfindən də təsdiq edilir. Bunun nəticəsidir ki, «Moodys» Beynəlxalq Reytinq Agentliyi tərəfindən Azərbaycanın reytinqinin bir pillə artaraq Ba1 səviyyəsinə çatdığı, yəni artıq investisiya kateqoriyasının astanasında olduğu bəyan edilmişdir. Sözsüz ki, bütün bunlar ulu öndərin ideyalarının, arzu və istəklərinin tamamilə reallaşacağından, Azərbaycanın qüdrətli bir dövlət kimi beynəlxalq arenada özünə möhkəm yer tutacağından soraq verir. Cənab İlham Əliyevin Azərbaycan Prezidenti kimi fəaliyyətinin təhlili həm də göstərir ki, bu müddətdə istiqamətləri ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar dövlətçilik və milli maraqların təmini üçün uğurla davam etdirilmiş, zəruri hallarda məhz onun təşəbbüsü ilə dövrün tələblərinə uyğun olaraq keyfiyyət dəyişikliklərini özündə əxz etmişdir.

Hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində Heydər Əliyev siyasi kursunu davam etdirəcəyini bəyan edən cənab İlham Əliyev çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində böyük uğurlara imza atmaqla ulu öndərin siyasi varisi, onun güclü dövlətçilik, sosial-iqtisadi inkişaf kimi missiyalarının, azərbaycançılıq ideologiyasının layiqli daşıyıcısı olduğunu təsdiq edib. Bütün bunlarla yanaşı bir sıra keyfiyyətlər - qətiyyətlilik, prinsipiallıq, zamanında sözünü demək, radikal tədbirlər görmək bacarığı dövlətin inkişafının, müxtəlif sferalarda qazanılan uğurları şərtləndirən əsas amillərdir. Heydər Əliyev kimi zəngin dövlətçilik və idarəçilik təcrübəsi olan siyasət dühasından bu cür keyfiyyətləri mənimsəyən Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi Azərbaycan dövlətçiliyinin daha da qüdrətlənməsinin, ölkənin inkişafının leytmotivini təşkil edir. Bu baxımdan şərəfli bir missiyanı çiyinləri üzərinə götürən cənab İlham Əliyev özünün yüksək keyfiyyətləri, dövlət

idarəçiliyi, bacarığı sayəsində bu müddət ərzində siyasi varisliyə alternativsiz lider olduğunu təsdiqləyib.

Heydər Əliyev siyasi xəttinin davam etdirilməsinin parlaq nəticələri göz qabağındadır. Son illərin bütün siyasi və sosial-iqtisadi yekunları təsdiqləyir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin xalqa verdiyi vədlər sırf əməli fəaliyyətə söykənərək real həyata vəsiqə almışdır. Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətinin diqqəti çəkən əsas tərəflərindən biri və başlıcası ulu öndərimiz Heydər Əliyev tərəfindən yaradılmış ictimai-siyasi sabitliyin qorunub saxlanması və möhkəmləndirilməsidir. Təcrübədən göründüyü kimi, ictimai-siyasi sabitlik hər bir ölkənin inkişafının başlıca şərtidir. Azərbaycanın sosial-iqtisadi sferada qazandığı nailiyyətlər ictimai-siyasi sabitliyin möhkəm və əbədi olduğunu təsdiq edir.

Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu istiqamətində əsas prinsipləri təsbit edən Azərbaycan eyni zamanda iqtisadiyyatın inkişafında da misli görünməmiş uğurlara imza atmaqdadır. Cənab İlham Əliyevin fəaliyyəti dövründə Azərbaycanda iqtisadi və sosial sahələrdə köklü islahatların davam etdirilməsi, dövlət proqramlarının icrası, Azərbaycanın iqtisadi cəhətdən qüdrətini şərtləndirən iri enerji layihələrinin - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin işə düşməsi daha böyük uğurlardan xəbər verir. Ümumi daxili məhsulun 35 faizə qədər artması, 2003-cü ildə 1,5 milyard dollar olan Dövlət büdcəsinin artıq 16 milyard dolları ötməsi bu müddətdə Azərbaycanın dinamik sosial-iqtisadi inkişafının, qarşıya qoyulmuş məqsədlərə çatmasının göstəricisidir.

Bu illər ərzində həm də Azərbaycanın xarici siyasət kursu da milli maraqlar çərçivəsində bir sıra keyfiyyət dəyişiklikləri edilməklə uğurla həyata keçirilib. Dövlətimizin başçısının xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, özünün nümayiş etdirdiyi peşəkar siyasi məharət, milli məqsədlər naminə dünyanın ən nüfuzlu tribunalarından diplomatik bacarıqla istifadəsi Azərbaycan dövlətçiliyi və nüfuzu baxımından mühüm

əhəmiyyət kəsb etmişdir. Bu müddətdə Azərbaycan qonşu və uzaq dövlətlərlə mehriban dostluq və beynəlxalq hüquq normalarından irəli gələn şərtlər çərçivəsində münasibətlərini xeyli gücləndirib. Avratlantik məkana inteqrasiya istiqamətində mühüm nailiyyətlər qazanan, Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti proqramında uğurla iştirak edən ölkəmizin Şərq dövlətləri ilə də münasibətlərində yeni-yeni səhifələr açılıb. Əvvəllər münasibətlərimiz ümumiyyətlə mövcud olmayan və ya sadəcə diplomatik əməkdaşlığımız olan ölkələrlə hərtərəfli əlaqələr qurulmuş, münasibətlər daha da dərinləşdirilmişdir.

Beləliklə, əsası ulu öndərimiz, əbədiyaşar liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanda siyasi və iqtisadi islahatların keçirilməsi hesabına qazanılan böyük uğurlar parlaq və fərəhlidir. Biz bu gün fəxr edə bilərik ki, biz ümummilli liderimiz Heydər Əliyevin qurduğu müstəqil, demokratik və azad bir ölkənin vətəndaşlarıyıq!!!

***Heydər Əliyev ideyaları XXI əsrdə - Azərbaycanın inkişaf yolu (H.Əliyevin 86 illiyinə həsr olunmuş məqalələr məcmuəsi). Bakı, "Azərbaycan" nəşriyyatı, 2009***

## HEYDƏR ƏLİYEV VƏ SOSİAL-İQTİSADİ İNKİŞAFIN MODELİ

Dünyada Azərbaycanın iqtisadi inkişaf modelinin ən sürətli inkişaf modeli olduğunu etiraf edirlər. Çünki müasir dünyada iqtisadi inkişaf tempinə görə Azərbaycan ən öndə gedən ölkədir. Xarici iqtisadi ekspertlər "Azərbaycan modeli", "Azərbaycanda iqtisadi möcüzə" kimi terminlərdən tez-tez istifadə edirlər. Xüsusən də qlobal maliyyə-iqtisadi böhranın Azərbaycan iqtisadiyyatına təsir edə bilməməsi iqtisadçıların diqqətini Azərbaycana yönəltmişdir.

Bu gün biz əminliklə deyə bilərik ki, Azərbaycanda iqtisadi inkişafın milli modeli yaradılmışdır. Bu model özü-özlüyündə yaranmamışdır. Hamımızın yaxşı bildiyi kimi, bu modelin yaradılmasında Ulu öndər Heydər Əliyevin böyük dühası, sarsılmaz iradəsi, müdrikliyi, təvazökarlıq və idarəçilik istedadı dayanır. Ulu öndər Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdanda ölkənin iqtisadiyyatı tənəzzül etmiş, baş verən bir sıra sosial-iqtisadi və siyasi hadisələrin təsiri altında dağılmaqda idi.

Bu dövrdə bütöv ölkə üzrə dərin sosial-iqtisadi və siyasi böhranlar baş vermişdir. Hər il orta hesabla ÜDM-in həcmi 15,6%, sənaye istehsalı 21%, kənd təsərrüfatı istehsalı 11,8%, əhaliyə göstərilən pulu xidmətlər 40%, iqtisadiyyata ümumi kapital qoyuluşu isə 25,9% azalmışdır. Bunlara paralel olaraq qiymətlər də kəskin şəkildə artmış, hətta 1600%-lik hiper-inflyasiya səviyyəsinə çatmışdır. Bu dövrdə iqtisadiyyatın dağıdılmasına səbəb olan bir sıra hadisələr baş vermişdir ki, bunların da başında Azərbaycan Respublikasının cəlb edildiyi Dağlıq Qarabağ müharibəsi dayanır. Bu müharibə nəticəsində əvvəllər kənd təsərrüfatı məhsullarının 35-40%-nin istehsal olunduğu 17000 kv.km torpaq sahəsi işğal olunmuş, 900 yaşayış məntəqəsi,

7000 sənaye və kənd təsərrüfatı obyekti, 700 təhsil, 665 səhiyyə ocağı, 800 km avtomobil yolu, 160 körpü, 23000 km su və 15000 km elektrik xətti dağıdılmış, NMR, Ağstafa, Tovuz, Ağcabədi, Gədəbəy və Tərtər rayonunun sərhədyanı yaşayış məntəqələrindən 100.000-dək vətəndaşımız təhlükəsizlik baxımındın öz yaşayış yerlərini tərk etmiş, ümumilikdə ölkə iqtisadiyyatına 22 mlrd. ABŞ dolları məbləğində ziyan dəymişdir. Bununla yanaşı 250 min soydaşımız Ermənistandan qovularaq Azərbaycana pənah gətirmiş, Dağlıq Qarabağdan 60.000 və digər işğal olunmuş rayonlardan 600.000 olmaqla 660.000 vətəndaşımız məcburi köçkünə çevrilmişdir. 1990-cı ildə Orta Asiyadan Azərbaycana pənah gətirən 50.000 axıska türkünü də bura əlavə etsək, deyə bilərik ki, ölkəmiz kəskin demoqrafik böhran şəraitinə düşmüşdür.

Hələ müstəqilliyin ilk illərindən Azərbaycanın inkişaf istiqaməti, hansı yolu tutması böyük mübahisələrə yol açmışdı. Heç kəs ortaq nəticəyə, ortaq müstəviyə gələ bilmirdi. Biri «Qərb modeli»ni, biri «Şərq modeli»ni, biri «Amerika modeli»ni, biri isə «Avropa modeli»ni təklif edir və müdafiə edirdi. Mübahisələr və müqayisələrə baş qarışmışdı, vaxt ötür, konkret nəticəyə gəlinmirdi, heç bir əməli addım və islahat həyata keçirilmirdi.

Halbuki hələ 1991-ci ildən Azərbaycan Respublikasında demokratik dövlət quruculuğu ilə yanaşı, sərbəst bazar iqtisadiyyatına əsaslanan müstəqil milli iqtisadiyyatın formalaşdırılması obyektiv zərurətə çevrilmişdi. Dövlət və hökumətin qarşısında duran ictimai-siyasi və sosial-iqtisadi sistemin transformasiyası kimi həyati mühüm vəzifələr hakimiyyət, kreslo uğrunda gedən davaların arasında yaddan çıxmışdı. Siyasi və iqtisadi xaos və tənəzzül getdikcə dərinləşməkdə idi.

1993-cü ildən etibarən Azərbaycan Respublikasının mərhum Prezidenti, Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır ilkin şərtlərə baxmayaraq, 1995-ci ildən başlayaraq ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox mühüm nailiyyətlər əldə olunmuşdur. Ən böyük

nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaranmışdır.

1995-ci ildən başlayaraq tətbiq olunan stabilləşdirmə, özəlləşdirmə, torpaq islahatı, özəl sahibkarlığın inkişaf etdirilməsi proqramları və bunlara uyğunlaşdırılmış büdcə-vergi, pul-kredit siyasətləri nəticəsində 1996-cı ildən başlayaraq iqtisadiyyat geriləmə relsindən çıxmışdır. Belə ki, bu mərhələdə hər il orta hesabla ÜDM 8,4%, sənaye istehsalı 2,6%, kənd təsərrüfatı istehsalı 5,3%, əhaliyə pullu xidmətlər 9,5%, iqtisadiyyata kapital qoyuluşları **18% artım** göstərmişdir. Buna paralel olaraq inflyasiya 1600%-dən 2-3%-ə, büdcə kəsiri isə 10%-dən 1-2%-ə, MB-nin uçot stavkaları isə 270%-dən 7%-ə endirilmişdir. Ümumilikdə iqtisadiyyata 14 mlrd. ABŞ dollarından çox investisiya qoyulmuşdur ki, bunun da 10,5 mlrd. dolları xarici investisiyadır. Bu dövrdə insan inkişafının vəziyyəti sahəsində də müəyyən irəliləyişlərin olduğu BMT-nin İnsan İnkişafı Haqqında Hesabatlarında öz əksini tapmışdır. Bu dəyişikliklər nəticəsində artıq 1996-cı ildə dərin iqtisadi böhran keçirən ölkədə makroiqtisadi sabitliyə nail olunmuş, növbəti 1997-ci ildən başlayaraq isə dinamik iqtisadi inkişafı təmin etmək mümkün olmuşdur. Belə ki, 1996-cı ildə ÜDM-in artım sürəti 1,3%, 1997-ci ildə 5,8%, 1998-2004-ci illərdə isə orta hesabla 10% təşkil etmişdir.

1995-ci ildən etibarən ölkədə aparılan ardıcıl və sistemli iqtisadi islahatların ən mühüm istiqamətlərindən birini də dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılması təşkil etmişdir. Artıq torpaq və aqrar islahatları institusional baxımdan faktiki olaraq başa çatmışdır. 1350 min hektardan çox torpaq sahəsi əvəzsiz olaraq kəndlilərə paylanmış, kolxoz və sovxozların yerində fermer təsərrüfatları yaradılmışdır. Hazırda kənd təsərrüfatı məhsulunun 99,0%-i özəl bölmədə istehsal olunur. bu proses ölkədə mühüm sosial-siyasi dəyişikliklərlə yanaşı, kənd təsərrüfatı sahələrinin

iqtisadi səmərəliliyinin yüksəlməsinə də təkan vermişdir. Son illərdə bir sıra ərzaq məhsulları (məsələn, ət və süd məhsulları, kartof və soğan və s.) idxalının xeyli dərəcədə azalması buna bariz sübutdur.

Azərbaycanda iqtisadi siyasətin həyata keçirilmə taktikasının fərqləndirici xüsusiyyətlərini göstərilən istiqamətlərin hər biri üzrə fəaliyyətin paralel şəkildə həyata keçirilən əlaqələndirilmiş proqramlar üzrə aparılması; qeyri-standart, lakin iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan, gələcəyə hesablanan və cəsarətli qərarların qəbul olunması; sosialyönümlülüyün gözlənilməsi; milli mentalitetin nəzərə alınması və mütərəqqi dünya təcrübəsinə arxalanması təşkil edir.

Təqdirəlayiq haldır ki, iqtisadi inkişafın ikinci mərhələsində Azərbaycan Respublikasında qeyd edilən modelin gerçəkləşməsinin rəsmi bazası kimi bir çox irimiqyaslı siyasət sənədləri (konsepsiya, strategiya və proqramlar) qəbul olunmuş («Azərbaycanda Kiçik və Orta Sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000-ci illər)», «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)», «Azərbaycan Respublikasında maşınqayırma sənayesinin inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)», «Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı (2002-2006-cı illər)», «Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası», «Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı», «Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər), «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər)», («Azərbaycan Respublikasının məşğulluq strategiyası (2006-2015-ci illər)və s.) və bir çoxları da hazırlıq mərhələsindədir («Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Prqoramı», «Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafı Dövlət Prqoramı», «Azərbaycan Respublikasının aqrar-sənaye kompleksinin inkişaf strategiyası» və s.).

Bu gün Azərbaycan sosial-iqtisadi inkişafın yeni mərhələsinə qədəm qoyub. Azərbaycan hökuməti sosial-iqtisadi inkişafla bağlı qarşısına qoyduğu əsas məqsədlərə nail olub. Bu günə qədər bütövlükdə müxtəlif sahələrdə 100-dən artıq Dövlət Proqramı qəbul olunaraq həyata keçirilib, bəziləri hələ də həyata keçirilməkdədir. Azərbaycanda yaradılan biznes mühiti ölkəyə qoyulan sərmayələrin həcmini artırıb. Ölkənin iqtisadi yüksəkliyinə şərait yaradan valyuta ehtiyatları yığılıb. 2009-cu ilin sonuna bu ehtiyatların miqdarı 20 milyard dollara çatıb ki, bu da dövlətin xarici borcunda 6 dəfə çoxdur.

Beynəlxalq standartlara cavab verən qanunvericilik bazasının yaradılması sayəsində iqtisadi inkişafın sürətlənməsi baş verib. Əhalinin həyat səviyyəsini səciyyələndirən göstəricilərdən biri də əhalinin gəlirləridir. 2004-2009-ci illərdə Azərbaycanda ÜDM 2,8 dəfə artıb, adambaşına düşən gəlir 4874 ABŞ dollarına qalxıb. ÜDM-in 57,4 faizi sənaye sahələrində, 5,8 faizi kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında, 7,6 faizi tikinti kompleksində, 6,0 faizi ticarət və pullu xidmət sahəsində, 5,1 faizi nəqliyyatda, 1,9 faizi rabitədə, 9,1 faizi digər xidmətlər və sosial sahələrdə yaradılmış, 7,1 faizi isə məhsul və idxala xalis vergilərin payına düşmüşdür.

Bu müddətdə əhalinin sosial müdafiəsinə yönəldilən büdcə vəsaitlərinin həcmi 4,8 dəfə artıb.

2008-ci ilin sentyabrından minimum əmək haqqının və pensiyanın minimum məbləğinin həddi 75 manata çatdırılmışdır.

Orta əməkhaqqı 3 dəfə, əhalinin gəlirləri 3,4 dəfə, minimum pensiya məbləği 3,8 dəfə, minimum əməkhaqqı 6,3 dəfə artıb. Son beş ildə ölkədə yoxsulluq həddi 4,1 dəfə azalıb. Bütün bunlarla yanaşı son 6 ildə 840 min yeni iş yeri açılıb.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən 2004-cü il 11 fevral tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" nəticəsində yeni iş yerlərinin və müəssisələrin yaradılması, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının, sahibkarlıq mühitinin daha da

yaxşılaşdırılması, ölkəyə investisiya qoyuluşlarının artırılması sahəsində xeyli işlər görülmüş, nəticədə əhalinin məşğulluq səviyyəsinin artırılmasına və yoxsulluğun azaldılmasına ən əsası isə qeyri-neft sektorunun davamlı inkişafına nail olunmuşdur.

Dövlət Proqramının qəbulundan ötən müddət ərzində regionlarda infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatının yaxşılaşdırılması, səhiyyə və təhsil müəssisələrinin tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirilmiş, bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilmişdir. Bu müddət ərzində regionların inkişafında mühüm rolu olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası, şimal-cənub və şərq-qərb nəqliyyat dəhlizlərinin yaradılması kimi mühüm layihələr başa çatdırılmış, Bakı-Tbilisi-Qars dəmir yolunun inşasına başlanmış və beləliklə Azərbaycan regionun mühüm iqtisadi güc mərkəzinə çevrilmişdir.

Elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması məqsədilə 7-si regionlarda olmaqla, 9 müxtəlif tipli elektrik stansiyasının tikintisi başa çatdırılmış, Şirvan şəhərində, Dəvəçi, Quba və Füzuli rayonlarında yeni elektrik stansiyaların tikintisi isə davam etdirilir. Təbii qazla təchizatın yaxşılaşdırılması sahəsində görülmüş işlərin nəticəsi olaraq 13 illik fasilədən sonra Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi bərpa olunmuş, Lerik, Yardımlı rayonları və Füzuli rayonu Horadiz şəhəri ilk dəfə, Ağcabədi, Beyləqan rayonları, Ağdam rayonunun Quzanlı qəsəbəsi və s. rayonlar təbii qazla təmin edilmişdir.

Ölkənin dinamik sosial-iqtisadi inkişafı dayanıqlı infrastrukturun, o cümlədən etibarlı nəqliyyat sisteminin inkişafını zəruri etmişdir. Belə ki, Naxçıvan, Gəncə, Zaqatala və Lənkəran hava limanları, Quba-İspik-Xınalıq, Masallı-Yardımlı, Gəncə-Daşkəsən-Xoşbulaq, Gəncə-Qazax, Hacıqabul-Kürdəmir, Biləsuvar-İran İslam Respublikasının dövlət sərhədi avtomobil yolları yenidən qurularaq istismara verilmişdir. Lənkəranda yeni dəniz limanının tikintisi davam etdirilir.

Ötən müddət ərzində su və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi məqsədilə dövlət investisiya xərcləri hesabına, eyni zamanda beynəlxalq maliyyə təşkilatlarını cəlb etməklə müvafiq layihələr, o cümlədən Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisi, Gəncə və Şəki şəhərlərinin, Ağdaş və Göyçay şəhərlərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması, kiçik şəhərlərin su təchizatı sisteminin yenidən qurulması ilə bağlı işlər uğurla davam etdirilmişdir. Oğuz-Qəbələ-Bakı su kəməri istifadəyə verildikdən sonra Oğuz və Qəbələ ərazisindəki yeraltı su mənbələri hesabına Bakı şəhərinə saniyədə 5 kub metr həcmində su nəql ediləcək və əhali yüksək keyfiyyətli su ilə təmin olunacaqdır. Taxtakörpü su anbarının inşası nəticəsində Bakı və Sumqayıt şəhərlərinin, ümumilikdə Abşeron yarımadasının içməli su, suvarma suyu və texniki su təminatı 2 dəfə yaxşılaşacaqdır.

Eyni zamanda, Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan, Lənkəran, Aran, Gəncə-Qazax və Yuxarı Qarabağ iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə olaraq 17 sərəncam imzalanmışdır.

Regionların sosial-iqtisadi inkişafı ilə yanaşı, Bakı şəhərinin ətraf qəsəbələrini abadlaşdırmaq, onların resurslarından daha səmərəli istifadəni təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 fevral tarixli 1338 nömrəli Sərəncamı ilə "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı" təsdiq olunmuşdur. Bu Proqramda hər bir qəsəbə üzrə müxtəlif sahələri əhatə edən konkret tədbirlər müəyyən edilmişdir.

Hər iki proqramda nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi nəticəsində ölkədə qeyri-neft sektorunun davamlı inkişafı, yeni müəssisələrin və iş yerlərinin yaradılması, regionlarda, eləcə də ölkə paytaxtında kommunal xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəldilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, əhalinin

məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması sahəsində əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur.

Odur ki, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", eləcə də "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı" çərçivəsində başlanmış işlərin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanmışdır.

Qeyd edək ki, «Nəqliyyat ölkənin qan damarıdır» şüarı iqtisadi inkişafın hər mərhələsində aktual olmuşdur. Hazırda dünyada nəqliyyatın bütün növlərini intensiv inkişaf meyli müşahidə olunur. Respublikamızda ölkədaxili nəqliyyat əlaqələrinin inkişafı ilə yanaşı dövlətlər, uzaq regionlar, kontinentlərarası əlaqələr daha sürətlə inkişaf edir. İqtisadi gücündən asılı olmayaraq hər bir dövlət yaxşı başa düşür ki, dünya iqtisadiyyatına qovuşmaq ahəngdar fəaliyyət göstərən nəqliyyat sektoruna malik olmadan qeyri-mümkündür. Hər bir xalqın tarixində elə hadisələr olur ki, onların düzgün qiymətləndirilməsi və həlli əbədi inkişafın güclü amilinə çevrilir. Qədim İpək yolunun bərpası məqsədi ilə iri miqyaslı TRASESA proqramının icrası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin reallaşması müstəqil Azərbaycanın iqtisadi həyatında geniş miqyaslı və əhəmiyyətli hadisələrdəndir. Çünki Azərbaycan bu dəhlizin mərkəzində yerləşir və iki qitəni birləşdirən bir nöqtədir. Bu dəhlizin iqtisadi-siyasi potensialı, gücü o qədər miqyaslıdır ki, o, Azərbaycan üçün daimi kapital, siyasi mövqe, sabit artım, daimi beynəlxalq iqtisadi münasibətlərdə aktiv inkişafdır.

Azərbaycan sosial-iqtisadi inkişafı sürətini saxlayır. Bu prosesdə ölkə rəhbərliyinin həyata keçirdiyi bölgələrin intensiv konsepsiyası bütün gücü ilə işləməkdədir. Azərbaycanın bölgələri artıq sürətlə yeniləşir, əhalinin həyat səviyyəsi artır. İş adamları ilə söhbətlər göstərir ki, onları artıq ilk növbədə kənd təsərrüfatı məhsullarının istehsalı maraqlandırır. Kənd təsərrü-

fatına maraq və həvəs o dərəcədə artıb ki, indi iş adamları arasında rəqabət daha da geniş miqyas alıb. Onlar bölgələrdə təsərrüfat açmaq üçün ciddi cəhdlər edirlər. demək olar ki, ölkənin bütün bölgələrində bu sahədə sürətli yeniləşmələr baş verir. Həmin yeniləşmələrin nəticəsi odur ki, ölkədə məhsul bolluğu ilbəil artır. İş adamlarının dediyinə görə, yaxın illərdə Azərbaycan çox bol və ucuzluq olan bir ölkəyə çevriləcək. Diqqət çəkəni odur ki, kənd təsərrüfatına sahib adamların qarşısına heç bir maneə çıxmır. Onlar azad rəqabət şəraitində işlərini görürlər. İndi bu proses bölgələrdə daha çox insanı işlə təmin etmək imkanı yaratmışdır. Həmin tendensiyanın daha da artacağı gözlənilir.

Həmçinin son illər Azərbaycanda yoxsulluğun azaldılması, sosial-iqtisadi rifahın yüksəldilməsi, regional və sahəvi inkişafın təmin edilməsi istiqamətində həyata keçirilmiş və keçirilən iqtisadi islahatların, tədbirlərin davamlı olaraq ölkədə əhalinin həyat səviyyəsi ilbəil yüksəlir, iqtisadiyyatın regional və sahəvi kəsimdə inkişafı reallaşır.

Azərbaycanın daxili sosial-iqtisadi inkişaf tempinin yüksək səviyyədə qalması və onun bütün sahələri əhatə etməsi, yeniləşmələr konsepsiyasının tam əsaslı işlənməsini təsdiq edir. Bundan sonra həmin konsepsiyanın yeni mərhələsinin həyata keçirilməsinə başlanması üçün bütün lazımi təməl prinsipləri hazırdır. Növbəti mərhələdə ölkənin sosial-iqtisadi inkişafı əhalinin həyat səviyyəsinin daha sürətlə yüksəlməsinə birbaşa xidmət edəcək. Bunun üçün dövlətin strateji konsepsiyalara sahib olduğuna əminlik vardır. Deməli, Azərbaycanda bütün sahələrdə kompleks inkişafı təmin edəcək proqramlar bundan sonra da işlənəcək. Bu proqramlarda Azərbaycanın inkişafının intellektual modeli əsas yer tutmalıdır.

Görülən işlər sosial-iqtisadi inkişafda böyük irəliləyişlərin bəhrəsi olmaqla bərabər, adamların təfəkkür, düşüncə və psixologiyalarında da müəyyən dəyişikliklərin yaranmasına səbəb olur. İnsanların həyata və cəmiyyətə olan baxışları xeyli dəyişib, torpağa bağlılıq hissləri daha da artıb. Bunun da

nəticəsidir ki, min bir əziyyətlə yaradılanlar, tikilənlər, qurulanlar əvvəlki dövrlərdə olduğu kimi, dağıdılmır, əksinə, onlara sahiblik hissi yarandığından göz bəbəyi kimi qorunub saxlanılır.

Yeni mərhələnin əsas hədəfi, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlığını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi iqtisadi-siyasət sənədlərində bu hədəfin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmişdir. Bunlara ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması, o cümlədən qeyri-neft sektorunun inkişaf etdirilməsi (neftdən asılı olmayan güclü Azərbaycan iqtisadiyyatının formalaşdırılması) hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması və onların inkişafının tarazlaşdırılması, çoxlu sayda yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılması kimi vəzifələri aid etmək olar.

Söz yox ki, qarşıda duran bu vəzifələr də böyük müvəffəqiyyətlə yerinə yetiriləcəkdir.

Azərbaycanda xalqı iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real gücə və nüfuza malik, sivil, dünyada cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan, müstəqil dövləti quruculuğu prosesində böyük əməyi olan, ölkənin inkişafı ilə bağlı real və fundamental konsepsiyaya malik iqtidar mövcuddur.

***Heydər Əliyev və inkişafın Azərbaycan modeli (Heydər Əliyevin 87 illiyinə həsr olunmuş məqalələr məcmuəsi). Bakı, "Azərbaycan" nəşriyyatı, 2010***

## HEYDƏR ƏLİYEV SİYASİ İRSİ: DÖVLƏTÇİLİKDƏ UĞURLU SİYASİ VARİSLİK ƏNƏNƏSİ

*«Sizi əmin edirəm ki, İlham Əliyev, bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firəvanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm».*

***Heydər Əliyev***

Tale bəzən xalqları, ölkələri sərt sınaqlara çəkir, üzücü müharibələr, sosial kataklizmlər, tənəzzül və böhran minilliklərin nailiyyətlərini təhlükə altına alır, tarixi tərəqqi məhvə sürüklənir. Belə hallarda cəmiyyət bəşəri bir xilaskarın gəlişinə ehtiyac duyur. Həmin şəxsiyyət öz xilaskarlıq missiyasını yerinə yetirdikdən sonra tarixdə əbədi iz qoyur...

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının tarixinə və taleyinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. O, Azərbaycanın tərəqqi və inkişaf yolunu dahiliklə müəyyənləşdirmiş, milli-mənəvi dəyərlərimizin, müstəqil dövlətçiliyimizin konseptual əsaslarını işləyib hazırlamış, milli ruhun, milli ideologiyanın yüksəlişinə təkan vermişdir.

Böyük tarixi şəxsiyyətin həyat yolu, yaratdığı ənənələr, miras qoyduğu dəyərlər dövlətçilik tariximizin bir hissəsidir. Təkcə ötən əsrin sonuncu onilliyində ulu öndərimizin keçdiyi həyat yolunu vərəqləmək kifayətdir ki, bu böyük insanın öz xalqı və ölkəsi üçün nələr etdiyinə bir daha şahidlik eədəsən.

Təkcə yada salmaq kifayətdir ki, ulu öndər Heydər Əliyevin başçılıq etdiyi qurtuluş savaşının Naxçıvan dövründə Böyük Vətənimiz-Azərbaycan qan içərisində çapalayırdı. Cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər, vəzifə xətrinə müqəddəs torpaqlarımızın düşmənə təslim edilməsi adi hal almışdı. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərc-mərclik baş alıb gedirdi. Yurdun hər yerində silahlı quldur dəstələri hökmranlıq edirdilər. Məmləkəti idarə edənlərin başı sovet hakimiyyəti illərində toplanmış xalq əmlakının talan edilməsinə qarışmışdı. Faktiki olaraq dövlət yox idi. Ölkə milli fəlakət həddinə çatmışdı. İdarəçilik sükanı sahibsiz qalmışdı. Azərbaycan vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Cəbhə düşmənin üzünə açıq idi. Vətən torpaqları hərraca qoyulmuşdu. Xalq ümidsizlik və təlaş içərisində idi. Sabaha inam qalmamışdı. Ən təhlükəli cəhət isə bu idi ki, Azərbaycanın xaricdəki yağı düşmənləri daxildəki satqınlarla birləşmişdilər.

Tarixi düşmənlərimizin Azərbaycanı Qafqazın siyasi xəritəsindən silib atmaq planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. Bu fəlakət anında müdrik xalqımız düzgün qərar qəbul edərək dünyanın böyük siyasət adamını-Azərbaycanın yeganə ümid çırağını- Heydər Əliyevi hakimiyyətə gətirdi. **1993-cü ilin iyun** günlərində Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Naxçıvandan başlanmış qurtuluş mücadiləsi özünün yeni-həlledici mərhələsinə qədəm qoydu-bütöv və böyük Azərbaycanın qurtuluşu başlandı. Lakin bu olduqca mürəkkəb və çətin bir tarixi dövr idi.

Əslində **1993-cü il** Azərbaycanın dövlət müstəqilliyi tarixində ən mürəkkəb və həlledici il idi. Həmin ilin ilk aylarında

Dağlıq Qarabağda və onun ətrafında gedən döyüşlər nəticəsində böyük itkilər verən Azərbaycan ordusu vahid komandanlığın olmaması ucbatından geri çəkildi. Martın sonunda isə Kəlbəcərə ermənilərin hücumu başladı. Hərbi baxımdan böyük əhəmiyyət kəsb edən bu bölgənin müdafiəsi haqlı suallar doğururdu. Ölkə həyatının bütün sahələrini bürümüş özbaşınalıq artıq orduya da sirayət etmişdi. Bu dövrdə ölkədə baş alıb gedən anarxiya, xaos, kəskin ictimai narazılıqlar kulminasiya nöqtəsinə çatdı. Artıq o dövrdə hakimiyyətdə olanlar baş verən prosesləri idarə etmək iqtidarında olmadıqlarını özləri də etiraf edirdilər. O dövrkü iqtidar tərəfindən ölkə daxilindəki real etnik-siyasi durum nəzərə alınmadan qəbul olunmuş qərarlar, cılız və heç bir əsası olmayan bayağı çağırışlar ölkəni etnik qarşıdurma və xaricdən müdaxilə həddinə gətirib çatdırdı.

Yaranmış vəziyyət radikal dəyişikliklər tələb edirdi. Artıq Vətənin başı üstünü qara buludlar almışdı. Azərbaycan vəziyyətdən çıxış üçün ya son qurtuluş savaşına atılaraq taleyin ona nəsib etdiyi ən böyük neməti-dövlət müstəqilliyini qoruyub saxlamaq iqtidarında olduğunu sübut etməli, ya da siyasi varlıq kimi dünya xəritəsindən silinmək kimi acı aqibətlə razılaşmalı olacaqdı. Bu dövrdə bütün ölkə vətəndaşlarının nəzəri Azərbaycanın dövlət müstəqilliyi üçün böyük xidmətlər göstərmiş Naxçıvana yönəlmişdi. Hamı xilas yolunu Azərbaycanın bu bölgəsinə rəhbərlik edən Heydər Əliyevin ölkədə yenidən siyasi hakimiyyətə qayıdışında görürdü.

Bu dövrdə resrublikada separatçılıq meyilləri tüğyan edirdi. Bunun nəticəsi kimi Azərbaycan yeni ərazi itkilərinə məruz qalırdı. Hadisələri düzgün qiymətləndirə bilməyən o zamankı iqtidar əhali arasında günbəgün öz nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxarmaqda çətinlik çəkirdi. Belə bir vaxtda ölkə rəhbərliyinin naşılığı ucbatından Gəncədə qardaş qanı töküldü. Lakin xalqın ağır günündə ilk mərdanə sözü Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvanın Ali Məclisi dedi. Hadisənin ertəsi günü-**1993-cü il iyunun 5-də** Naxçıvanın

deputatları Gəncə hadisələri barədə çox tutarlı, kəskin və obyektiv bir bəyanat verdilər.

Ulu öndər Heydər Əliyevin özü həmin dövrü belə xatırlayırdı: **"1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".**

Dövlətçiliyimizin müqəddəratının həll olunduğu belə bir məqamda ulu öndər Heydər Əliyevin Bakıya gəlişi respublika əhalisində böyük ümidlər yaratdı. Bu çətin vəziyyətdən ölkəni ancaq Heydər Əliyev dühasının xilas edəcəyinə hamı qəlbən inanırdı. **1993-cü il iyunun 13-də** Heydər Əliyev vəziyyətlə yerində tanış olmaq üçün Gəncə şəhərinə gəldi, döyüş meydanına çevrilmiş hərbi hissələrin ərazisini gəzdi. Bu mahir siyasətçinin şəhərə gəlişi əhalidə gələcəyə böyük inam yaratdı. Şəhər sakinləri, hərbi qulluqçularla görüşüb söhbət etdi. Bu günün fövqündən baxanda o dövrdə baş verən mürəkkəb siyasi proseslər fonunda iqtidardakıların savadsızlığı ucbatından ölkədə yaranmış gərgin şəraitdə tarixin bu acı imtahanı labüd idi. Separatçılıq meyilləri, ölkəyə axın-axın gələn dini ekstremistlər, irticaçı siyasi təşkilatlar öz bəd əməlləri ilə düşmən dəyirmanına su tökür, ölkəmizin ərazi bütövlüyünə sarsıdıcı zərbələr vururdular. Torpaqlarımızın dalbadal işğalı, qaçqın və köçkün axını, müxtəlif kəşfiyyat orqanlarının təxribat əməlləri əhalini yormuş, təngə gətirmişdi.

**1993-cü il iyunun 15-də** Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi

isə respublika həyatında mühüm bir tarixi hadisə oldu. Bu siyasi qayıdış sözün həqiqi mənasında Azərbaycanı azərbaycanlılara, milləti özünə qaytardı.

Bu parlaq dühanın xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, ötən əsrin əvvəllərində mövcud olmuş Xalq Cümhuriyyətinin aqibətindən qurtuldu. Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi, qətiyyəti və dövlətçilik istedadı sayəsində Azərbaycan tezliklə təlatümlərdən, sarsıntılardan uğurla çıxaraq gələcəyə inamla baxan bir dövlətə çevrildi. Bu, sözün həqiqi mənasında, milli qurtuluşumuzun zəfər yürüşü idi. Heç də təsadüfi deyildir ki, sonralar müstəqil Azərbaycanın Parlamenti Vətənin böyük oğlunun ölkə rəhbərliyinə qayıdışı gününü Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etdi.

Beləliklə, ulu öndər Heydər Əliyevin Azərbaycana ikinci rəhbərlik dövrü başlandı. **1993-cü ilin iyununda** başlanmış bu dövr mahiyyətcə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi uğrunda mübarizə və yeni, müstəqil Azərbaycanın qurulması dövrüdür. Bu dövrdə Heydər Əliyev doğma xalqının önündə gedərək Azərbaycanı tarixin ən qanlı burulğanından çıxara bildi. Vətənin qurtuluş savaşına başçılıq etdi və Azərbaycan tarixinə qurtuluş mübarizəsinin qalibi kimi daxil oldu. Azərbaycan dövlətçiliyini - siyasi varlığımızı yox olmaq təhlükəsindən xilas etdi və tariximizdə, həm də, Azərbaycan dövlətçiliyinin xilaskarı kimi çox şərəfli bir ad qazandı. Bu şanlı missiyanı Heydər Əliyev son dərəcə çətin, mürəkkəb və ziddiyyətli tarixi şəraitdə yerinə yetirdi. Məhz o zaman-**1993-cü ilin iyun** günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş başlandı.

Müdrik siyasətçi vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici düşmənlərin və onların daxildəki əlaltılarının Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxdı. Dövlətimizin, xalqımızın tarixi

müqəddəratının idarəçilik sükanı təcrübəli və müdrik siyasi xadimin əlinə keçdi.

Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra öz xalqı üçün, doğma Vətəni üçün nələri etdi? Və yaxud **1993-cü ilin 15 iyunu** nə üçün xalqımızın tarixinə Qurtuluş Günü kimi daxil oldu? Görülən işlərin hamısını sadalamaq mümkün olmasa da, gəlin, heç olmasa, onların ən mühümlərini sıraya düzək. Ən başlıcası-azadlıq, müstəqillik həm ayrıca hər bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər ağır məsələdir. Ümummilli lider Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidməti budur ki, o, ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, xalqımızı parçalanıb yox olmaq təhlükəsindən qurtardı. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir, qurtuluş deməkdir!

Ulu öndər Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycan dövlətçiliyi **1994-cü ilin oktyabr** və **1995-ci ilin mart** qəsdləri zamanı da ağır sınaqlardan uğurla çıxdı. Ulu öndərimiz Heydər Əliyev andına sadiq qalan, dar ayaqda Vətənin müstəqilliyi, xalqın azadlığı naminə hətta həyatını təhlükə qarşısında qoymağa hazır rəhbər olduğunu nümayiş etdirdi. Ümummilli liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. Azərbaycan qanlı burulğanlardan çıxdı. Ölkədə sabitlik və əmin-amanlıq yarandı. Ölkədə sabitlik yaratmaqla Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi: **Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır!..**

Ulu öndər Heydər Əliyev xalqı, yurdu milli-mənəvi parçalanmadan, iflasa uğramaqdan xilas etdi. Bununla vətənçilik, xalqımızın adı və dili, qüdrətimizin və vahidliyimizin əsası olan

islam - türk birliyi bərpa olundu, reallaşmaqda olan etnik toqquşmalar ehtimalı aradan qaldırıldı.

Ümummilli liderimiz Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin çözülməsində həlledici sözünü deyə bilən nadir siyasətçilərdən idi. Onun fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdir.

Ulu öndər Heydər Əliyev fəaliyyəti və əməlləri ilə bütöv bir siyasət məktəbinin qurucusu oldu, onun sayəsində müasir dünyanın politoloji leksikonuna **«Heydər Əliyev siyasəti»** kəlamı daxil oldu. Bu, tarazlı, bütün cəhətləri ölçülüb-biçilmiş və ən əsası, dövlətin təməl maraqlarını, onun perspektivini, cəmiyyətin bütün təbəqələrinin mənafelərini ehtiva edən, cəmiyyətdə ahəngdarlıq yaradan siyasətdir.

Tarixi təcrübənin təhlili zəminində etiraf etməliyik ki, varislik prinsipindən kənarda hər hansı bir ideyanın və ya ideyalar sisteminin xalqa xidmət etməsini təmin etmək qeyri - mümkündür. Eynilə o da şübhə doğurmur ki, varislik ideyası ayrılmaz şəkildə şəxsiyyət amili ilə bağlıdır. Özü-özlüyündə varislik ideyası cəmiyyət üçün nə qədər əhəmiyyətlidirsə, onun şəxsiyyət müəyyənliyi də o qədər vacib və diqqətiçəkəndir. Qeyd etmək yerinə düşər ki, ulu öndər Heydər Əliyev siyasətinin varisliyi probleminə Azərbaycanda həmişə həm ideya, həm də konkret varis kontekstində yanaşılmışdır. İctimai fikirdə problemin sistem halında qavranılması onun taleyüklü məsələlər kateqoriyasına aid edilməsi ilə izah oluna bilər. Vaxtilə Heydər Əliyev şəxsiyyəti Azərbaycanın perspektiv inkişafının həlledici amili sayıldığı kimi, Heydər Əliyev ideyalarının varisi məsələsi də mövcud inkişafın davamlılığının təmin edilməsi baxımından o qədər əhəmiyyətli hesab olunub.

Həmin konteksdən bu gün ən fərəhlisi odur ki, Prezident İlham Əliyev böyük öndərdən təhvil aldığı dövləti onun ideya və arzularına sadiq qalaraq, inkişaf etdirmək əzmindədir və bu yolda Azərbaycan xalqına, ondan aldığı etimada güvənir. **«Əmin ola**

**bilərsiniz ki, mən Heydər Əliyevin başladığı bütün işləri axıra çatdıracağam».** Bu bəyanatın müəllifi kimi cənab İlham Əliyev prezidentliyinin ilk günündən etibarən vədini əməli fəaliyyəti ilə gerçəkləşdirməkdədir.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı ən böyük xidməti həm də ondan ibarətdir ki, ulu öndərimiz müəllifi olduğu milli dövlətçiliyimizin davamlılığını təmin etmiş, Azərbaycanın gələcək uğurlarına təminat yaradan siyasi kursun varisliyinin əsaslarını yaratmışdır.

Bütün xalqların həyatında dövlətin varislik tarixi ciddi əhəmiyyətə malikdir. Tarixin konkret məqamında ümummilli lider Heydər Əliyev siyasi kursunun davam etdirilməsinin labüdlüyünü şərtləndirən amillər isə heç şübhəsiz ki, bu kursun bütünlüklə Azərbaycanın dövlətçilik maraqlarının həyata kecirilməsinə yönəlməsindən ibarət idi. Ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirmiş olduğu siyasi kursun, milli dövlətçilik konsepsiyasının varisliyinin təmin olunması zərurəti zamanın tələbi, xalqın sosial sifarişi kimi gündəmə gəlirdi. Heydər Əliyev siyasi kursunun və idarəçilik sisteminin imtina cəmiyyətimizdə baş verə biləcək mümkün təlatümlərə, ağır faciələrə səbəb ola bilərdi və artıq Azərbaycan xalqı ulu öndərimizin siyasi hakimiyyətdən kənarda olduğu **80-cı illərin sonu**, **90-cı illərin əvvəllərində** bunu yaşamışdır. Ona görə də Azərbaycan xalqı ümummilli liderinin müəyyənləşdirdiyi siyasi kursun varisliyinin təmin olunmasında israrlı idi.

Ulu öndərimizin müəllifi olduğu milli dövlətçilik konsepsiyasının davam etdirə biləcək siyasi və dövlət xadim kimi ictimai rəyi birmənalı olaraq cənab İlham Əliyev fenomeni üzərində qərar tutdu. Cənab İlham Əliyevin Heydər Əliyev siyasi kursuna dair baxışlar sisteminin institutlaşmış xarakter daşıması, bu baxışların taktiki, strateji və perspektiv rakursunda ulu öndərin dövlətçilik konsepsiyasının ehtiva etdiyi prioritetlərin dayanması, ən əsası isə tarixi şəxsiyyətin siyasət məktəbində formalaşmış, peşəkar diplomat, müasir lider imicinə və yüksək intelektə malik cənab cənab İlham Əliyevin ənənəyə sadiqliyinin təkcə nəzəri

müstəvidə deyil, həm də əməli fəaliyyətdə sistemli olaraq öz təsdiqini tapması ona cəlbedicilik qazandıran başlıca cəhətlərdən idi.

Müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin başladığı böyük işlər həyata keçirdiyi iqtisadi, sosial, hüquqi və siyasi islahatları taleyüklü məsələləri, planları, gənc dövlətimizin milli maraqlarına xidmət edən daxili və xarici siyasəti ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirilir. Cənab İlham Əliyev dövlət başçısı kimi fəaliyyətinin ilk günlərindən respublikanın müxtəlif regionlarında seçkiqabağı görüşlərində verdiyi vədlərinə əməl edərək, ölkə iqtisadiyyatının daha sürətlə inkişaf etdirilməsi və əhalinin maddi rifah halının yaxşılaşdırılması istiqamətində çox mühüm tədbirlər həyata keçirmişdir.

Ən mühümü isə odur ki, ulu öndərimiz Heydər Əliyevin siyasi varisi təkcə mükəmməl idarəçilik sistemini və zəngin siyasi irsi deyil, həm də Azərbaycan xalqının mütləq əksəriyyətinin ümummilli lider Heydər Əliyevə olan yüksək etimad və dəstəyini də təhvil alıb. Ümummilli liderin Heydər Əliyevin nəhəng seçici elektoratı onun siyasi varisinin liderliyini qəbul etdi və **15 oktyabr 2003-cü ildə** İlham Əliyevə səs verdi və **15 oktyabr 2008-ci ildə** bu siyasətə sədaqətini növbəti dəfə təsdiqlədi.

Ulu öndər Heydər Əliyevin **1993-cü ildə** Azərbaycanı o vaxtkı iqtidardan hansı vəziyyətdə təhvil aldığını, bu illər ərzində Azərbaycan dövlətçiliyinin hansı sınaqlardan çıxdığını, möhkəmləndiyini yaxşı bilən, Heydər Əliyevin dövlətçilik xəttinin real, əməli nəticələrini bilavasitə görən, bu siyasətin ayrılıqda hər bir vətəndaşa və ümumilikdə bütün xalqa firavanlıq, sabitlik və təhlükəsizlik təmin etdiyini gözəl dərk edən yüz minlərlə seçici bu yolun davam etdirilməsini istədi. Cənab İlham Əliyev də öz növbəsində Azərbaycan xalqına güvənir, bu xalqın dəstəyinə inanır və onun etimadını doğruldacağına söz verir, bu istiqamətdə ardıcıl siyasət yürüdür.

Nəticədə bu gün Azərbaycan yalnız Qafqazda deyil, bütövlükdə post-sovet məkanında ən sabit, ən dinamik so-

sial-iqtisadi inkişafa malik, öz iqtisadi qüdrətini gündən-günə artıran bir dövlətdir. Azərbaycan yerləşdiyi geopolitik məkanın prioritet ölkəsidir. Bu nailiyyət qısa bir zamanda qazanılıb. Ona görə də **"insan zəkasının təntənəsi"** kəlməsi məndə həmişə müasir Azərbaycanın təsəvvürünü yaradır.

Görkəmli dövlət xadimi və siyasi lider kimi cənab İlham Əliyevi hansı xüsusiyyətlər səciyyələndirir? Bu məsələ uzun illərdir ki, politoloq və ekspertlərin diqqət mərkəzindədir və yanaşmalar olduqca birmənalı və dəqiqdir: İlham Əliyev dünyada **XXI əsrin** meydana çıxardığı siyasi liderlərin və dövlət başçılarının ən görkəmliləri sırasındadır.

Doğrudan da, cənab İlham Əliyev dövlətə rəhbərlik etməyin şərəfini də, məsuliyyətini də özünün gündəlik əməli fəaliyyətində uğurla birləşdirir. O, müstəqil Azərbaycan dövlətini həm mükəmməl şəkildə idarə edir, həm də istənilən mötəbər məqamda böyük ləyaqətlə təmsil etmək vəzifəsini yüksək səviyyədə gerçəkləşdirir. Bunun nəticəsidir ki, Azərbaycan Respublikasında köklü, davamlı dövlətçilik ənənələrinin qorunub saxlanılması şərti ilə dövlət strukturu böyük sürətlə Avropa standartlarına uyğunlaşdırılır, ölkəmizdə dövlətin idarə olunmasının ən müasir forma və metodları uğurla tətbiq olunur. Ölkəmizdə demokratik cəmiyyətin, bazar münasibətlərinə əsaslanan iqtisadi siyasətin bərqərar olması proseslərinə ciddi fikir verilir. Ölkənin iqtisadiyyatında özəl sektorun üstünlük qazanması, neft gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də cənab İlham Əliyevin siyasətinin əsasında dayanır. Azərbaycanda informasiya cəmiyyətinin formalaşdırılması, ən yeni texnologiyaların meydanının genişləndirilməsi də Prezident İlham Əliyevin önə çəkdiyi zəruri sahələrdəndir.

Cənab İlham Əliyev artıq dünyada qəbul olunmuş görkəmli siyasi liderdir. Bir çox dövlət başçıları yalnız ölkəyə rəhbərlik vəzifəsini yerinə yetirməklə kifayətlənməli olurlar. Onların bir çoxunun ampulası praktik rəhbərlikdən başqa daha heç nəyi əhatə edə, yaxud əks etdirə bilmir. Prezident İlham

Əliyev isə kamil dövlət xadimi olmaqla bir sırada həm də geniş, qlobal dünyagörüşə, analitik təhlil bacarığına, praqmatik baxışlara malik olan mükəmməl siyasi xadimdir. O, mövcud siyasi reallıqları inkişafda olan ictimai proseslərlə böyük məharətlə uzlaşdırmağı bacarır. Siyasi gerçəklikləri dərindən, ətraflı və sistemli şəkildə dəyərləndirəndə də, yaxın və uzaq gələcəkdən söz açanda da, o nikbin və realist görünür. Nikbinlik, gerçəklik, müdriklik, dərin analitik düşüncə, aydın və yetkin məntiqi təfəkkür onun siyasi portretinin təməl prinsipləridir.

O, özünün siyasi rakursunda da həyatidir, realdır, gerçəkçidir. Dünya ictimaiyyəti də, Azərbaycan xalqı da artıq çoxdandır ki, Prezident İlham Əliyevi böyük siyasətçi, yaxud siyasi idarəetməni həyati proseslərlə bütün incəliklərinə qədər uzlaşdırmaq vəzifələrini məharətlə gerçəkləşdirən kamil siyasi xadim kimi qəbul edir. Ona bir siyasətçi kimi Cənubi Qafqaz və ya ümumiyyətlə, Qafqaz müstəvisində yanaşma mövcud siyasi reallığı qətiyyən ifadə etmir. Görkəmli siyasi lider kimi Prezident İlham Əliyev postsovet məkanının sədlərini və miqyasını çoxdan aşmışdır. Hələ Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinə başçılıq edəndə yeni təfəkkür sahibi kimi parlaq çıxışlar edib, bəyanatlar verdiyi illərdə o, Avropa evi səviyyəsində düşünmək potensialına malik bir siyasətçi kimi dərk olunmuşdu.

Prezident İlham Əliyev böyük siyasətdə milli təfəkkürlə bəşəri düşüncəni birləşdirən, real gerçəkliklə qlobal baxışları uzlaşdıran görkəmli siyasi liderdir. Buna görədir ki, cənab İlham Əliyevin siyasi baxışları dərin nəzəri səviyyəsi, aydın məntiqi, fəlsəfi çəkisi ilə səciyyələnir. Prezident İlham Əliyevin müxtəlif məqamlardakı nitqləri zamanı müdrikliklə ifadə etdiyi yetkin siyasi tezislər dərin mənalı aforizmlər kimi səslənir. Böyük siyasətdə aforizm səviyyəsində düşünmək və özünü ifadə etmək yalnız və yalnız təcrübəli, uzun yol keçmiş, böyük məktəblər yaratmış siyasətçilərə nəsib ola bilir.

Prezident İlham Əliyev əsl siyasətçiyə məxsus olan belə uca məqamı hələ cavan yaşında ikən fəth etmək vəzifəsinin

öhdəsindən bacarıqla gəlmişdir. Cənab İlham Əliyevin siyasi aforizmlərinin böyük siyasətin ibrətamiz dərsləri səviyyəsində ümumiləşməsi onun yetkin, kamil siyasətçi obrazını müəyyən edir. Prezident İlham Əliyevin siyasi fəaliyyətinin ana xətlərini azərbaycançılıq, millətlərarası münaqişələrin həlli məsələləri, neft siyasəti, enerji təhlükəsizliyi, bəşəriyyətin taleyində çoxaspektli dialoqun rolu, tolerantlıq fəlsəfəsi, dövlətçilikdə xalq faktorunun üstün mövqeyi və sair kimi aktual, xüsusi çəkiyə malik problemlər təşkil edir. Bu məsələlərin hər birinin şərhində və təqdimində Prezident İlham Əliyev ustad müəllim kimi yüksək professionallıq nümayiş etdirir. Milli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması cənab İlham Əliyev siyasətinin təməl prinsipidir. Prezident İlham Əliyevin siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın inkişafı naminə aparılan qlobal işlərdə tamamlanır. Azərbaycançılıq bu böyük və müdrik siyasətin cövhərini təşkil edir.

Cənab İlham Əliyev **XXI əsrdə** müstəqil Azərbaycanın yeni siyasətini müəyyən edən, yeni istiqamətlər açan, yol göstərən görkəmli siyasi liderdir. Bacarıqlı dövlət başçısında bu tip yüksək siyasətçi məharətinin olması dövlətin inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada yeni tarixi epoxada məhz cənab İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır. Burada ciddi və mühüm bir nüans da vardır. Böyük və professional bir siyasətçinin dövlət başçısı kimi uğurlu fəaliyyəti təkcə ölkənin və xalqın deyil, elə siyasətin də xeyrinədir.

Çünki kamil, yetkin, lokal mənada da, qlobal səviyyədə də faydalı, gərəkli olan böyük siyasət özünüifadə, yaxud özünütəsdiq baxımından real platsdarm, münasib meydan tapa bilməyəndə bəzən mücərrəd, utopik, yaxud havadan asılı olan nəzəri-ideoloji təlim olaraq qalır. Ancaq böyük siyasətçi üçün siyasi fəaliyyət dövlətçilik işinin daşıyıcısına çevriləndə daim

yeniləşir, təkmilləşir, aşkarlanır, zənginləşir və inkişaf edir. Prezident İlham Əliyevin siyasəti də həm Azərbaycan məkanında, həm də beynəlxalq müstəvidə konkret məsələlərin, aktual problemlərin həllinə istiqamətləndirilmiş siyasi fəaliyyət kimi mütəmadi olaraq yeniləşir, zənginləşir və inkişaf edir. Ölkə başçımızın siyasi mövqeyi onun ölkəni irəli aparmaq, cəmiyyəti inkişaf etdirmək yollarındakı siyasi iradəsinin real təzahürüdür. Bu mənada inkişafda olan Azərbaycan və beynəlxalq miqyasda ölkə ilə əlaqədar aparılan gündəlik və ardıcıl iş, əldə olunan zəngin təcrübə tükənməz ideya mənbəyi kimi cənab İlham Əliyev siyasətinin aktuallığını və müasirliyini təmin edir. Beləliklə, dövlət də, cənab İlham Əliyevin siyasəti də ölkəmizlə birlikdə, həmahəng şəkildə daimi inkişafdadır.

Prezident İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin milli dövlətçilik təliminin, sınaqlardan çıxmış siyasi kursunun layiqli davamçısıdır. Ulu öndər Heydər Əliyev siyasi kursu - Azərbaycan dövlətinin ümummilli inkişaf strategiyasının nəzəri-ideoloji əsasını təşkil edir. Heydər Əliyev təlimi - ölkəmizin və xalqımızın dirçəliş və tərəqqi yolunun kompasıdır. Heydər Əliyev fəlsəfəsi Azərbaycan idealının özünütəsdiqinin dialektikasından ibarətdir. Heydər Əliyev yolu-Azərbaycan dövlətinin və xalqının əbədiyyət yoludur. Ulu öndərimiz Heydər Əliyev siyasi kursunu bütün fəlsəfəsi ilə, görünən, bilinən və görünməyən cəhətləri ilə birlikdə mənimsəyib özündə cəmləşdirməklə cənab İlham Əliyevlə müqayisə edilə biləcək ikinci bir siyasi şəxsiyyət göstərmək mümkün deyildir. Həyatının, mövqeyinin ən müxtəlif məqamlarında ulu öndərimiz Heydər Əliyevin çoxcəhətli fəaliyyətini yaxından izləmək, yaşantılarını dərindən duymaq, siyasi gedişlərinin mahiyyətini öyrənmək baxımından bu böyük şöhrətə malik olan mötəbər ailənin üzvü kimi cənab İlham Əliyevin imkanları hamıdan - hətta ən yaxın məsləkdaşlarından da çox olmuşdur. Həm keçmiş sovet rejimi mərhələsində, həm də müstəqillik dövründə Prezident İlham Əliyev həmişə görkəmli

dövlət xadimi Heydər Əliyevin böyük siyasətinin əhatəsində olan bir şəxsiyyət kimi mühüm dövlətçilik məktəbi keçmişdir.

Yeni Azərbaycanın yeni mərhələdəki yeni həyatı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir. Respublikamızda paytaxtımız Bakı ilə yanaşı, Azərbaycan regionlarının böyük sürətlə və hərtərəfli şəkildə inkişaf etdirilməsi hərəkatının başında Prezident İlham Əliyev dayanır. Bu mənada o, yeni Azərbaycan adlı möhtəşəm əsərin yaradıcısıdır.

Beləliklə, Prezident İlham Əliyev - ümummilli lider Heydər Əliyev məktəbi əsasında yetişib formalaşan yetkin, təcrübəli, görkəmli dövlət xadimidir. Cənab İlham Əliyev - analitik düşüncə sahibi kimi dərin məntiqə və aydın təfəkkürə malik olan, siyasi reallıqları nəzəriyyə ilə vəhdətdə ifadə edən mükəmməl siyasi xadimdir. O, **XXI əsrin** yeni tipli siyasi lideridir. Dünyanın yeni reallıqları, beynəlxalq aləmdə gedən müasir proseslər zəminində yeni Azərbaycanın maraqlarını və mənafeyini ifadə etməkdə cənab İlham Əliyev zəngin təcrübəyə, dönməz siyasi iradəyə malikdir.

Prezident İlham Əliyev - yeni mərhələdə Azərbaycan ölkəsinin və cəmiyyətimizin müasirləşdirilməsinin baş memarıdır. Cənab İlham Əliyev-yeni siyasi təfəkkürə və yeni, yaradıcı yanaşmaya malik novator dövlət xadimidir. Xalq amili, milli mənafe, ölkə maraqları Prezident İlham Əliyev üçün müqəddəs meyarlardır. Cənab İlham Əliyev - yaxın və uzaq gələcəyi, bütün reallıqları incəliklərinə qədər görən və məharətlə proqnozlaşdırmağı bacaran dövlət xadimidir. Ölkəmizin və xalqımızın bundan sonrakı mərhələdə cənab İlham Əliyev kimi geniş formada, böyük maştabda düşünən, xalqına və dövlətinə ürəkdən bağlı olan, yüksək səviyyəli və enerjili dövlət xadiminə ciddi ehtiyacı vardır.

Milli dövlətçilik təfəkkürünə bağlı olan cənab İlham Əliyev əsrlərin süzgəcindən keçərək günümüzə gəlib çatmış mənəvi-əxlaqi sərvətlərimizə pozitiv anlamda mühafizəkarlıq prizmasından yanaşır. Bu mənada, millilik İlham Əliyevin siyasi düşüncəsinin, təfəkkürünün əsas mənbəyidir. Onun öz xalqının

ruhuna uyğun, eləcə də Avropa və Qərb təmayüllü siyasəti Azərbaycanın əbədi və əzəli milli maraqlarından qaynaqlanır. İlham Əliyevin müasir azərbaycanlı təfəkküründə Vətən və xalq təəssübkeşliyi, Şərqin pozitiv ənənəçilik meyilləri, türk mənəvi-əxlaqi dəyərləri, habelə Qərb və Avropa təmayülləri sintez təşkil edir. İlham Əliyev klassik siyasətdən **XXI yüzilliyin** modern siyasətinə uğurlu keçid formulunu ilk dəfə, özü də müvəffəqiyyətlə sınaqdan çıxaran siyasətçi obrazını yaradaraq siyasətdə, diplomatiyada eyni dərəcədə mühafizəkar, ənənəçi və yenilikçi, liberal olmaqla mötədil dəyərləri uzlaşdırmağı bacarır. Bütün bu vacib keyfiyyətlər isə Azərbaycanın yeganə nicat ünvanına çevrilmiş Heydər Əliyev siyasi kursunun məhz cənab İlham Əliyevin rəhbərliyi altında davam etdirilməsini sosial sifarişə çevirmişdir.

Respublikada ictimai-siyasi sabitlik əleyhinə yönəlmiş xarici və daxili təzahürlərin qətiyyətlə aradan qaldırılması dövlət başçısının xalqın dəstəyinə arxalanan, dövlətçiliyin müdafiəsi üçün zəruri keyfiyyətlərə malik lider olduğunu sübuta yetirmişdir. **2003-cü ilin 15 oktyabr** seçkilərindən ötən **8 il** dünya şöhrətli siyasətçi və dövlət xadimi ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin yüksəlişi, öz hədəflərinə yetişməsi üçün zərrə-zərrə formalaşdırdığı böyük potensialın bütün əzəməti ilə reallığa çevrildiyi möhtəşəm bir dövrdür.

Bu mənada Azərbaycan xalqının **8 il** öncə inanıb öz taleyini etibar etdiyi cənab İlham Əliyev ümummilli liderimizin siyasi irsinin təkcə ən layiqli varisi deyil, həm də bu zəngin dövlətçilik irsində müəyyən olunmuş böyük amalları həyat gerçəkliyinə çevirən qüdrətli siyasi fenomendir. Dövlət başçısının yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaratmışdır.

Müasir qloballaşma dövründə dövlətlərin demokratiklik əmsalı sosial-iqtisadi inkişaf göstəriciləri ilə yanaşı, həm də siyasi hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında

götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir. Xalqdan mandat almış hakimiyyət fəaliyyəti ilə daim ictimai etimadı doğrultmağa, hər bir vətəndaşın mənafeyinə hesablanan siyasi-hüquqi və sosial-iqtisadi islahatlar kursu həyata keçirməyə çalışır. Bu prinsip ulu öndərimiz Heydər Əliyevin dövlətçilik irsini inamla davam etdirən və daha da möhkəmləndirən Prezident İlham Əliyevin fəaliyyətinin başlıca qayəsini təşkil edir.

**2003-cü ilin 31 oktyabrında** keçirilmiş andiçmə mərasimində hakimiyyəti xalqa xidmət vasitəsi saydığını bəyan etmiş dövlət başçısı verdiyi vədləri əməli işi ilə doğrultmaq üçün əzmlə çalışmış, hər bir addımında vətəndaşların mənafeyini əsas götürmüşdür. Dövlət idarəçiliyinə yeni ruh və müasirlik çalarları gətirmiş Prezident İlham Əliyev hökumətin müntəzəm olaraq xalq qarşısında hesabat verməsini sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərin mühüm şərti hesab etməklə yanaşı, bu mütərəqqi ənənəni son **18 ildə** müstəqil Azərbaycanın davamlı, dönməz inkişaf yoluna çevrilmiş demokratikləşmə və vətəndaş cəmiyyəti quruculuğu prosesinin keyfiyyətcə yeni mərhələsi kimi dəyərləndirir.

Prezident İlham Əliyev liberal dəyərləri üstün tutan bir sıra beynəlxalq siyasi dairələrin «daha çox demokratiya, daha az dövlət» çağırışlarına cavab olaraq Azərbaycanın yerləşdiyi coğrafi-siyasi regionda, həmçinin ictimai inkişafın mövcud pilləsində dövlətçilik prinsipinin dominantlıq qazanması zərurətini ustalıqla əsaslandırmağı bacarmışdır. Şübhəsiz, dövlət olmadan vətəndaşların demokratik hüquq və azadlıqlarını həyata keçirmək mümkün deyildir, lakin başqa tərəfdən insanların hüquq və azadlıqlarını qoruya bilmədikləri dövlət də son nəticədə cəmiyyətin inkişafı üçün buxov və əngəl rolunu oynamağa məhkumdur. Dövlət başçısı bu iki siyasi ideyanın eyni dərəcədə düzgün olduğunu qəbul etmiş, onlar arasında uğurlu harmoniya yaratmışdır. Bunun nəticəsi olaraq nə dövlət vətəndaşların, nə də vətəndaşların hüquq və azadlıqları dövlətçilik təmayülünün labüd inkişafına xələl gətirmir. Məhz bu amil cənab İlham Əliyevin

milli xüsusiyyətləri nəzərə almaqla irəli sürdüyü demokratik və hüquqi dövlət ideyasının başlıca xəttini təşkil edir.

**"Azərbaycanda siyasi islahatlar çox cəsarətlə aparılır. Bu da bizim prinsipial və düşünülmüş seçimimizdir. İqtisadi islahatlar və siyasi islahatlar ölkəmizin inkişafı üçün çox möhkəm zəmin yaradır. Biz bu iki amili bərabər, paralel şəkildə həyata keçiririk və gözəl zəmin əsasında güclü dövlət quruculuğu prosesi gedir. Bu zəmin əsasında Azərbaycanda güclü sosial siyasət aparılır"-** deyən cənab İlham Əliyev hesab edir ki, cəmiyyət həyatındakı fundamental dəyişikliklər hüquqi-siyasi islahatların dərinləşdirilməsini, inkişaf etmiş Qərb dövlətlərinin mütərəqqi demokratik ənənələrinin mənimsənilməsinə xidmət edən fəal siyasətin həyata keçirilməsini aktual məsələ kimi önə çıxarır. Respublikamızın aktiv inkişaf fazasına daxil olduğu indiki mərhələdə demokratik normaların ictimai şüurda möhkəmlənməsinə və qəbul edilməsinə daha yaxşı imkanlar yaranmışdır.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bildirmişdir ki, müasir dövrdə hər bir xalqın, dövlətin gələcək taleyini təkcə onun malik olduğu zəngin təbii sərvətlər deyil, həm də elmi-mədəni və intellektual imkanları, bütün bunların da fövqündə dayanan insan kapitalı müəyyənləşdirir. Funksional imkanları elm və təhsilin ictimai həyatın ən müxtəlif sahələrində tətbiqi yolu ilə gerçəkləşdirilən bu əvəzsiz kapital hazırkı mərhələdə fərd və ictimai toplumların, geniş mənada, xalqların gələcək inkişafının, yaşayış səviyyəsinin, habelə qazandığı nailiyyətlərin mühüm rəhni kimi çıxış edir. Müstəqil Azərbaycan dövləti də qloballaşan dünyanın bərabərhüquqlu subyekti kimi öz inkişafını, sadəcə, təbii sərvətlərin gətirdiyi dividendlərə bağlamır və mövcud resurslarını sırf insan faktorunun prioritetə çevrilməsi yönümündə qurur.

Ümummilli liderin müəllifi olduğu zəngin idarəçilik fəlsəfəsinə yeni, parlaq səhifələr yazan İlham Əliyev prezident kimi fəaliyyət göstərdiyi ötən beş ildə ölkəmizdə sosial-iqtisadi yüksəlişə, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu pro-

sesinə layiqli töhfələr vermişdir. Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini daha da möhkəmləndirmiş, Cənubi Qafqazın lider ölkəsinə çevrilmiş, demokratik islahatların ardıcıllığını, dönməzliyini təmin etməklə fərqlənmişdir.

Vaxtilə ümummilli liderin **«Mən ona özümə inandığım kimi inanıram»** sözlərinin həyatda necə reallaşdığı indi İlham Əliyevə dərindən inanan və etimad göstərən hər bir azərbaycanlının gözü qabağındadır.

Prezident İlham Əliyev atdığı hər bir addımla, etdiyi düşünülmüş gedişlərlə ümummilli liderimizin xalqımıza əbədilik ərməğan etdiyi müstəqil Azərbaycana şərəfli xidmət etməyin və Heydər Əliyev siyasi kursuna sədaqətin əsl nümunəsini nümayiş etdirir. Sınaqlardan çıxmış siyasi kursa dərin sadiqliyin, böyük əməllərdə təcəssüm edən Vətən, dövlət, xalq sevgisinin İlham Əliyev modeli millətimiz üçün alternativsiz inkişaf yoludur.

***Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası (Heydər Əliyevin 88 illiyinə həsr olunmuş məqalələr məcmuəsi). Bakı, "Azərbaycan" nəşriyyatı, 2011***

## HEYDƏR ƏLİYEV İRSİ MİLLİ İNKİŞAF KONSEPSİYASIDIR

Hər bir xalqın taleyini müəyyən ziddiyyətli və mürəkkəb mərhələdə tarixi seçimin məzmunu şərtləndirir. Məhz bu mərhələdə meydana çıxan fenomenal liderlər xalqın əsrlər boyu formalaşan və müasir ümumbəşəri dəyərlərlə çuğlaşan siyasi dünyagörüşü əsasında özlərinin mükəmməl dövlətçilik konsepsiyasını ortaya qoyur, siyasi varislik ənənələri formalaşdırırlar.

Xalqımızın ötən əsrdə yetişdirdiyi ən böyük şəxsiyyət olan Ümummilli liderimiz Heydər Əliyev siyasi və dövlətçilik fəaliyyətinin bütün mərhələlərində vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli ideallara bağlı olmuşdur. Ümummilli liderimiz bütün zəngin və mənalı həyatı boyu daim xalqını, vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, təbiətin bəxş etdiyi bir çox fitri keyfiyyətlər sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir.

Heydər Əliyev dühası milli tarix üçün böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi tutmuş, özünün siyasi bacarığı sayəsində Azərbaycanı vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi böhrandan xilas etmiş, xalqının qəlbində sabaha inam hissi yaratmağı bacarmışdır.

Müstəqil Azərbaycanın keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Ümummilli lider Heydər Əliyevin göstərdiyi qətiyyət və əzmkarlıq bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Ümummilli lider Heydər Əliyevin Azərbaycanla, xalqımızla bağlı arzuları bitib-tükənməz idi, vətənə, xalqa

olan məhəbbəti hədsiz-hüdudsuz idi. O, dünya miqyasında əbədiyyətəcən davam edəcək ümumxalq məhəbbəti, sevgisi qazanmış nadir siyasətçilərdən, dövlət xadimlərindəndir.

Ümummilli lider, Azərbaycan dövlətinin banisi Heydər Əliyev çağdaş dünyanın siyasi tarixində iz qoyub getmiş, bu tarixə öz adını əbədi həkk etmiş böyük insandır. Qədim yunan filosofları o kəsləri dahi hesab edirdilər ki, o, heç kəsin görə bilmədiklərini görə bilsin. Heydər Əliyev məhz belə dahilərdən idi. Tarixi proseslərin dəfələrlə sınaqdan çıxardığı dəyişilməz bir postulat var-ölkələrin və xalqların tarixini adətən öz xalqı ilə mənən-fikrən bir olan böyük şəxsiyyətlər yaradırlar. Bu böyük şəxsiyyət təkcə son illərdə-Azərbaycanın müstəqillik dövründə göstərdiyi fəaliyyətə görə tarixdə əbədi yaşayacaqdır. Ümummilli liderimiz bütövlükdə siyasi səhnəyə daxil olduğu illərdən - gənclik dövründən başlayaraq özünü böyük şəxsiyyət kimi sübuta yetirmiş, qurucu insan, mahir idarəçi və düşüncə sahibi olduğunu göstərmişdir.

Ümummilli lider Heydər Əliyev hər şeydən əvvəl tarixi şəxsiyyətdir. Tarixi şəxsiyyətlərin yetişməsində isə təbii ki, mühit, hadisə və proseslər öz sözünü deyir. Lakin bu hadisə və proseslərin mərkəzində dayanan ən əsas amil yenə də şəxsiyyətlərin özüdür. Bu prosesdə onlar təkcə cəmiyyətin ab-havasını dəyişmirlər, bu prosesdə fərd olaraq özləri də müəyyən dəyişikliklərdən, inkişafdan keçirlər. Kəskin dəyişikliklərlə bir-birini çox sürətlə əvəz edən ardıcıl situasiyalar onların qarşısında yeni vasitələr, proseslərə yeni yanaşma üslublarının tapılması məsələsini aktuallaşdırır. Bu təbəddülatlarda dəyişməyən yeganə həqiqət şəxsiyyətlərin gerçək simasıdır.

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin təməlini hələ 1969-cu ildə respublikaya birinci rəhbərlik dövründən qoymağa başlamışdır. Sovet imperiyasının tərkibində olduğu müddətdə respublikada milli hərbi kadrların hazırlığı məqsədilə hərbi məktəblərin açılması, ölkəmiz üçün zəruri sahələr üzrə peşəkar mütəxəssislərin hazırlanması üçün

keçmiş SSRİ-nin ali məktəblərinə tələbələrin göndərilməsi, Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbiti məhz ulu öndərimizin adı ilə bağlıdır. Ölkənin iqtisadi potensialından səmərəli istifadə üçün qurulan yüzlərlə zavod, fabrik və emal sexləri, bu dövrdə formalaşdırılan müstəqil energetika sistemi, vətəndaşlarımızın ixtiyarına verilən yeni mənzillər, təhsil, səhiyyə, mədəniyyət obyektləri, milli intellektin inkişafı, milli mədəni dəyərlərimizin qorunub saxlanması və yüksəlişi də ulu öndərimizin mənsub olduğu xalqa xoş töhfələridir.

Heydər Əliyev irsinin zənginliyi və öyrənilməsi baxımından 1993-cü ildən sonrakı dövr daha böyük aktuallıq kəsb edir. Çünki Azərbaycanın müstəqillik illərini əhatə edən bu dövrün fakt və reallıqları Heydər Əliyev fenomenini bütün əzəməti ilə göz önündə canlandırır. Azərbaycan millətinin və dövlətciliyinin müqəddəratının tarixi sınaq məqamında xalq Heydər Əliyevi təkidlə ölkə rəhbərliyinə gətirdi. Heydər Əliyev hər şeydən əvvəl ölkədə ictimai-siyasi sabitliyin yaradılması istiqamətində çox gərgin iş apardı. Azərbaycanda qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edildi. Dövlət çevrilişlərinin qarşısı alındı, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu prosesi geniş vüsət aldı. 1994-cü il noyabrın 4-də Heydər Əliyevin ordu quruculuğu ilə bağlı televiziya ilə xalqa müraciəti respublika ictimaiyyətində çox böyük əks-səda doğurdu. Heydər Əliyev şəxsiyyətinə olan böyük inam sayəsində minlərlə valideyn öz övladını könüllü olaraq Vətənin müdafiəsinə göndərdi. Azərbaycan ordusu qısa bir vaxtda böyüdü, qüdrətləndi, ölkəmizin müdafiə potensialı artdı. Bütün bu proseslərin məntiqi nəticəsi kimi işğalçı Ermənistan dövləti Milli Ordumuzun gücü qarşısında məğlubiyyətin labüdlüyünü hiss edərək 1994-cü ilin

mayında cəbhə bölgəsində atəşkəsin əldə olunmasına dair sazişə imza atdı.

Mövcud reallıqlar o dövrdə əldə olunmuş atəşkəsin respublikamız üçün həlledici əhəmiyyətini yenidən qiymətləndirir. Atəşkəs sazişinin imzalanması ilk növbədə bir neçə taleyüklü problemlə üz-üzə dayanmış respublikamızın xaosdan, anarxiyadan qurtulmasına, Azərbaycanın dövlətçilik əsaslarının formalaşdırılmasına, ölkədə demokratikləşmə prosesinin əsasının qoyulmasına şərait yaratmış oldu. 1995-ci ilin 12 noyabrında müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbuluna paralel olaraq Azərbaycanda demokratik seçki ənənələri formalaşdırıldı. Azad, ədalətli, şəffaf şəraitdə keçən seçkilərdə Azərbaycan Respublikasının Milli Məclisi formalaşdırıldı. Ölkədə demokratik parlamentarizm təcrübəsinin əsası qoyuldu. Yeni qanunların qəbulu hesabına müstəqil dövlətimizin fəaliyyəti üçün hüquqi baza yaradıldı. Beynəlxalq aləmə inteqrasiya yolu tutan, demokratik dəyərlərə sadiqliyini bütün dünyaya bəyan edən Azərbaycan dövlətinin beynəlxalq əlaqələri genişləndi. Artıq beynəlxalq aləmdə Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu faktını etiraf etməyə, Azərbaycan həqiqətlərinə diqqət kəsilməyə, Azərbaycanın mövqeyi ilə hesablaşmağa, ölkəmizin nüfuzlu beynəlxalq qurumların fəaliyyətində iştirakına böyük maraq göstərməyə başladılar. Əgər əvvəlki dövrlərdə Azərbaycanın Avropa Şurasına qəbul edilməsində müəyyən süni əngəllər yaradılırdısa, Heydər Əliyevin bu sahədə apardığı gərgin və səmərəli iş öz bəhrəsini verdi. 2001-ci ildən Azərbaycan bu quruma üzv olaraq Avropa dövlətləri sırasında öz layiqli yerini tutdu və ölkəmiz bununla Avropa evinin tam hüquqlu, etibarlı sakininə çevrilmiş oldu.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirərək həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanın milli maraqlarını tam təmin etməklə ölkəmizi xarici qüvvələrin münaqişə meydanından maraqların uzlaşdığı geopolitik məkana çevirmişdir. Ulu öndərimizin ölkə rəhbərliyinə

gəlişindən sonra ilk növbədə yaxın qonşularımız, Rusiya Federasiyası və İran İslam Respublikası ilə diplomatik əlaqələrdə özünü göstərən gərginlik aradan qaldırıldı. Sonrakı illərdə isə dünyanın inkişaf etmiş bütün dövlətləri ilə diplomatik əlaqələr yaradıldı və əməkdaşlıq haqqında respublikamızın maraqlarına cavab verən ikitərəfli sazişlərə imza atıldı. Bu gün Azərbaycan Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in, Avropa Şurasının, Parlamentlərarası İttifaqın, Avroatlantika Tərəfdaşlıq Şurasının, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, İqtisadi Əməkdaşlıq Təşkilatının, GUAM-ın və digər nüfuzlu beynəlxalq təşkilatların bərabərhüquqlu üzvüdür.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə xarici siyasətimizdə Dağlıq Qarabağ münaqişəçinin aradan qaldırılması istiqamətində də çox gərgin iş aparılmış, əhəmiyyətli nəticələr əldə edilmişdir. Ən böyük nəticə kimi Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə qarşı hərbi təcavüzü beynəlxalq təşkilatlar tərəfindən dəfələrlə pislənmiş, bu barədə bir sıra qərarlar qəbul edilmişdir. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə və BMT baş katibinin altı bəyanatında Azərbaycanın işğal edilmiş bütün ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılması, qaçqın və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması tələb edilmişdir. 1994-cü ildə ATƏT-in Budapeşt zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsini tez bir zamanda aradan qaldırmaq məqsədilə ATƏT-in sülhü qoruyan çoxmillətli qüvvələrini yaratmaqla əlaqədar qərar qəbul edilmişdir. Budapeşt zirvə görüşündən sonra Minsk qrupu çərçivəsində danışıqlar prosesi intensivləşmiş, həmçinin, Azərbaycan və Ermənistan prezidentlərinin səlahiyyətli nümayəndələri səviyyəsində Ermənistanla birbaşa ikitərəfli danışıqlar kanalı yaradılmış, hərbi əsirlərin və girovların azad edilməsi mümkün olmuşdur. Lüksemburqda Ermənistan Respublikası və Azərbaycan Respublikası prezidentlərinin verdikləri birgə bəyanat münaqişənin

aradan qaldırılması istiqamətində mühüm addımlardan biri kimi nəzərdən keçirilə bilər. Həmin bəyanat, əslində, tərəflərin silahlı münaqişəyə beynəlxalq prinsiplər və normalar əsasında son qoymaq əzmini nümayiş etdirən ilk birgə Ermənistan-Azərbaycan sənədi sayıla bilər. Ulu öndərimizin gərgin diplomatik səyləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü, Dağlıq Qarabağa Azərbaycan Respublikasının daxilində xüsusi statusun verilməsi, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmasının təhlükəsizliyinin təmin olunmasını nəzərdə tutan, Azərbaycanın mövqeyini əks etdirən üç prinsipin 1996-cı ilin dekabr ayında 53 dövlət tərəfindən təsdiqlənməsi, xalqımız üçün mühüm tarixi əhəmiyyətə malik Lissabon sənədinin qəbulu da münaqişənin həlli prosesində Azərbaycanın milli maraqlarını təmin edən diplomatik uğurlardandır. Lissabon zirvə toplantısında qazanılmış uğur bu gün öz bəhrəsini verməkdədir. Beynəlxalq təşkilatların qəbul etdikləri bir çox qətnamələrdə və sənədlərdə Dağlıq Qarabağın Azərbaycana mənsub olması faktı öz təsdiqini tapmış, Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatın qəbul etdiyi sənədlərdə Ermənistan işğalçı dövlət kimi göstərilmişdir.

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanda həm də hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, hakimiyyət bölgüsü və demokratik təsisatların yaranması prosesinin müəllifidir. 1999-cu ilin dekabrında Azərbaycanda yerli özünüidarəni həyata kecirən bələdiyyə təsisatı yaradılmış, beynəlxalq tələblərə cavab verən seçkilər keçirilərək, ölkədə 2667 bələdiyyəyə 21 min nəfərdən cox üzv secilmişdir. Bələdiyyələrə dövlət qayğısı daim Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Onun müstəqil respublikamıza rəhbərliyi dövründə Azərbaycanda dövlət idarəcilik sistemi tamamilə yenidən qurulmuş, dövlət xərclərinin idarə olunması, audit sisteminin tətbiqi, hüquqi və məhkəmə sisteminin təkmilləşdirilməsi ilə əlaqədar islahatlar prosesi uğurla həyata keçirilmişdir. Ölkənin idarəetmə sisteminə siyasi mədəniyyət elementləri gəlmiş, icra

hakimiyyəti orqanlarının işinin dinamikliyi, digər dövlət orqanları ilə qarşılıqlı fəaliyyəti təmin olunmuşdur.

Azərbaycanda həyata keçirilən iqtisadi islahatları dərinləşdirmək və milli iqtisadiyyatımızı daha da inkişaf etdirmək məqsədilə dövlət idarəçilik sistemində islahatlar uğurla başa çatdırılmışdır. İlk növbədə Nazirlər Kabinetinin səlahiyyət və funksiyaları bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmış, ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, özəl sektorun inkişafı üçün mühüm addımlar atılmış, sahibkarlıq fəaliyyəti üçün münbit şərait yaradılmışdır. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə həyata keçirilən mütərəqqi islahatların mühüm bir qismi də məhkəmə-hüquq sisteminin payına düşür. Son illər ərzində bu sistemdə də əsaslı islahatlar aparılmışdır. Artıq ölkəmizdə Konstitusiya Məhkəməsi və üçpilləli məhkəmə sisteminin fəaliyyət göstərməsi ötən dövr ərzində demokratik inkişaf yolunda əldə etdiyimiz ən ciddi nailiyyətlərdən biridir.

Dünya iqtisadi sisteminə inteqrasiya və Azərbaycanın digər ölkələrlə hərtərəfli əməkdaşlığı Heydər Əliyevin iqtisadi strategiyasının əsas istiqamətlərindən birini təşkil edir. Bu mənada ulu öndərimizin belə bir müdrik kəlamı siyasi fəlsəfə üçün daim öz dəyərini qoruyacaqdır. Ulu öndərimiz bildirirdi ki, ölkələrin iqtisadi sahədə bir-birləri ilə düzgün qurulmuş ikitərəfli əməkdaşlığı, bir tərəfdən bu əlaqələrdə iştirak edən hər bir dövlət üçün mənfəətdirsə, digər tərəfdən, iqtisadi inteqrasiya bütövlükdə dünya iqtisadiyyatının inkişafının yeganə yoludur. Heydər Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının sürətlə, dinamik inkişafı dünya iqtisadi sisteminə inteqrasiyanın təminatına çevrilmişdir. Uzun illər ərzində xalqın əlindən alınan halal sərvətlərimiz xalqın mənafeyinin təminatına yönəlmiş, həyata keçirilən uğurlu neft strategiyası hesabına Azərbaycan dünyanın inkişaf etmiş super dövlətləri-ABŞ, Fransa, Almaniya, İngiltərə, Yaponiya, Cin, Rusiya və digər ölkələrlə iqtisadi və siyasi cəhətdən möhkəm əlaqələr yaratmışdır. 1994-cü ildə dünyanın iri

neft şirkətləri ilə qurulmuş müştərək işimiz-"Əsrin müqaviləsi" Azərbaycanı bütün dünya üçün ən önəmli mərkəzə çevirmiş, bu hadisə Azərbaycanda ictimai-siyasi sabitliyin qorunmasına, müstəqilliyimizin əbədiliyinə, respublikamızda demokratik proseslərin inkişafına əsas yaradan amilləri daha da möhkəmləndirmiş, ümummilli liderimizin irəli sürdüyü ideya əsasında "Əsrin boru kəməri" və yaxud "Üç dəniz əfsanəsi kimi" tarixə düşmüş Bakı-Tbilisi-Ceyhan boru kəməri dünyanın siyasi mənzərəsini dəyişmişdir.

Müstəqil Azərbaycanın iqtisadi yüksəlişinə, onun əhalisinin güzəranının yaxşılaşdırılmasına və sosial problemlərinin həllinə güclü təkan verən amillərdən ən başlıcası məhz Heydər Əliyevin böyük bacarıq və uzaqgörənliklə həyata kecirdiyi iqtisadi islahatlardır. Respublikada aparılan ardıcıl və sistemli iqtisadi islahatların mühüm nəticələrindən biri də dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı ücün əlverişli şəraitin yaradılması yolu ilə iqtisadiyyatın inkişaf etdirilməsi və əhalinin rifahının yüksəldilməsi olmuşdur. Heydər Əliyevin rəhbərliyi ilə dönmədən və ardıcıl şəkildə həyata kecirilən islahatlar nəticəsində Azərbaycanda müasir, sivil, azad iqtisadi sistemin əsası qoyulmuş, bunun sayəsində ölkə sənayesinə xarici investisiya qoyuluşu xeyli artmış, inşaat işlərinin həcmi və səviyyəsi yüksəlmiş, infrastruktur dəyişikliklərinin miqyası nəzərə çarpacaq dərəcədə genişlənmişdir.

Həyata kecirilən siyasət çox qısa bir zamanda iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. 1996-cı ildən etibarən ölkəmizdə inflyasiyanın səviyyəsi sabit qalmış, dövlət büdcəsi bir neçə dəfə artmış, əmək haqlarının, pensiya və müavinətlərin artırılması, əhalinin sosail müdafiəsi istiqamətində aparılan ardıcıl siyasət ölkədə həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsini təmin etmişdir. Təkcə bir faktı diqqətə çatdıraq ki, Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərlik dövründə ölkəmizdə orta aylıq əmək haqqı və pensiyaların məbləği 6 dəfədən də çox artmışdır.

Heydər Əliyevin vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsi üçün çox əhəmiyyətli olan azərbaycançılıq ideyasının, milli birlik meyllərinin daha da dərinləşdirilməsi sahəsində gördüyü işlər olmuşdur. Ümummilli lider Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli fərmanı, dahi şairimiz Məhəmməd Füzulinin 500, "Dədə Qorqud" eposunun 1300 illiyinin dünya miqyasında təntənə ilə qeyd edilməsi, "Azərbaycanda dövlət dili haqqında" Azərbaycan Respublikası qanunun qəbulu, ümummilli liderimizin ölkəmizdə elmin-təhsilin inkişafına yaratmış olduğu şərait, onun elm, mədəniyyət, incəsənət xadimlərinə yüksək diqqət və qayğısı bunun ifadəsidir. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayının kecirilməsi, ümummilli lider Heydər Əliyevin fərmanı ilə "Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin" yaradılması da milli həmrəyliyə və yekdilliyə nail olmaq amalının Azərbaycanın dövlət siyasətinin tərkib hissəsinə cevrildiyini nümayiş etdirmiş, həyata keçirilən bütün bu kimi tədbirlər həm sayına, həm də milli-mənəvi, intellektual potensialına görə dünyanın böyük millətləri ilə bir sırada dayanan xalqımızın mütəşəkkil qüvvə kimi formalaşmasına güclü təkan vermişdir.

Qədim Hindistanda belə bir məsəl xeyli məşhurdur: "Ənənə əgər davam edərsə, ənənəyə cevrilir". Azərbaycanda müstəqil dövlətçilik ənənələrini formalaşdıran, müstəqil Azərbaycan dövlətini qurub-yaradan Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı ən böyük xidməti də elə bundan ibarətdir, ki, ulu öndərimiz müəllifi olduğu ənənələrin davamlılığını da təmin etmiş, ümummilli liderin dərin zəkası hesabına Azərbaycanın gələcək uğurlarına təminat yaradan siyasi kursun varisliyi qorunmuşdur.

Bütün xalqların həyatında dövlətin varislik tarixi ciddi əhəmiyyətə malikdir. Tarixin konkret məqamında ümummilli

lider Heydər Əliyev siyasi kursunun davam etdirilməsinin labüdlüyünü şərtləndirən amillər isə heç şübhəsiz ki, bu kursun bütünlüklə Azərbaycanın dövlətçilik maraqlarının həyata kecirilməsinə yönəlməsindən ibarət idi. Belə bir zamanda ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirmiş olduğu siyasi kursun, o dahi dövlət xadiminin müəyyənləşdirdiyi milli dövlətçilik konsepsiyasının varisliyinin təmin olunması zərurəti həmin konsepsiyanın uğurlarını öz həyatında yaşayan və ulu öndərimizin cismani yoxluğu zamanı kursu həyata keçirə biləcək liderin yoxluğu səbəbindən bu xəttin yarıda qırılması ehtimalını çox düzgün dəyərləndirən Azərbaycan ictimaiyyətinin sosial sifariş kimi ortaya çıxmışdır.

Üstünlüyü, obyektiv xarakteri və alternativsizliyi Heydər Əliyev hakimiyyətdə olduğu illər ərzində dəfələrlə öz təsdiqini tapan bu konsepsiyanın tətbiqi, Azərbaycanın dövlətçilik əsaslarının daha da möhkəmləndirilməsi, bütün zamanlarda müstəqilliyimizin əbədiliyi, Azərbaycan dövlətinin yüksəlişi deməkdir. Heydər Əliyev siyasi kursunun dövlət idarəçiliyi sistemi üçün öz əhəmiyyətini itirəcəyi əks təqdirdə cəmiyyətimizdə baş verə biləcək mümkün təlatümləri, ağır faciələri isə Azərbaycan xalqı ulu öndərimizin siyasi hakimiyyətdən kənarda olduğu 90-cı illərin əvvəllərində artıq bir dəfə yaşamışdır. Ona görə də Azərbaycan vətəndaşları Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun varisliyinin təmin olunması zərurətindən çıxış edirdilər.

Məsələlərə 90-cı illərin hadisə və prosesləri konteksindən yanaşanda xalq müdrikliyinin ümumi ifadəsi kimi təzahür edən bu zərurət tamamilə təbii görünür. Heydər Əliyevin bir neçə illik gərgin zəhmət bahasına işlək vəziyyətə gətirdiyi dövlətçilik maşınının sükanı arxasına müstəqilliyimizin ilk illərində olduğu kimi yenidən təsadüfi diletantların keçməməsi, sosial-iqtisadi-siyasi böhranın bir daha təkrarlanmaması üçün xalqdan siyasi iradə tələb olunur və bu siyasi iradə həmişə olduğu kimi bu dəfə də xalqın ən doğru olanın ardınca getməsi, ən doğru olana

tapınması formasında özünü göstərirdi. Ulu öndərimizin müəllifi olduğu milli dövlətçilik konsepsiyasının davam etdirə biləcək qüdrət sahibinin axtarışında olan ictimai rəyin birmənalı olaraq cənab İlham Əliyev fenomeni üzərində qərar tutması isə onun Heydər Əliyev siyasi kursunun müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edə biləcək alternativsiz şəxs olmasından irəli gəlirdi.

Eyni mövqeyə, statusa iddia edən opponentlərindən fərqli olaraq İlham Əliyevin bu siyasi kursa dair baxışlar sisteminin institutlaşmış xarakter daşıması, bu baxışların taktiki, strateji və perspektiv rakursunda Heydər Əliyev siyasi kursunun ehtiva etdiyi prioritetlərin dayanması, ən əsası isə ulu öndərimizin siyasət məktəbində yetişmiş, peşəkar diplomat, şəffaf keçmişə, müasir lider imicinə malik İlham Əliyevin bu konsepsiyaya dair baxışlarının təkcə nəzəri səciyyə daşımadan həm də əməli fəaliyyətdə dəfələrlə öz təsdiqini tapması İlham Əliyev fenomeninə cəlbedicilik qazandıran başlıca cəhətlərdən idi.

Bütün bu keyfiyyətlər cənab İlham Əliyevi həmçinin beynəlxalq maraq obyektinə cevirmiş, onun xarici siyasətin bütün sahələrində, o cümlədən cəmiyyət həyatı üçün son dərəcə mühüm əhəmiyyətə malik bir sıra sahələrdə üzərinə götürdüyü missiyanı uğurla həyata keçirməsi, siyasi proseslərə yanaşma tərzi xüsusilə rasional analitik təfəkkürə dayaqlanan çıxışlarının bir çox məqamları Azərbaycan cəmiyyətində, eləcə də beynəlxalq ictimaiyyətdə böyük maraq doğururdu. Prezident İlham Əliyev 90-cı illərin ortalarından etibarən Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, eləcə də Milli Olimpiya Komitəsinin prezidenti kimi geniş fəaliyyəti ilə yanaşı, Azərbaycanın Avropa Şurasındakı nümayəndə heyətinin rəhbəri statusunda da Azərbaycanın milli maraqlarının təmin olunması ilə bağlı mühüm işlər görmüşdür. Cənab İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan nümayəndə heyəti Dağlıq Qarabağ məsələsinin Avropa Şurasında müzakirəsi zamanı böyük uğurlar əldə etmiş, cənab İlham Əliyev AŞPA-nın

tribunasında bu münaqişəni ümumilikdə Avropanı təhdid edən problem kimi gündəmə gətirmiş, nümayəndə heyətimiz əsir və girovların qaytarılması, Dağlıq Qarabağda narkotik maddələrin yetişdirilməsi və bundan əldə edilən gəlirlərin terrorçuluq fəaliyyətinə yönəldilməsi, Dağlıq Qarabağda tarixi abidələrin, mədəniyyət abidələrinin dağıdılmasına dair Azərbaycan nümayəndə heyəti Avropa Şurasında çoxsaylı sənədlər yaymışdır. Azərbaycan nümayəndə heyətinə rəhbərliyi dövründə AŞPA-nın vitse-prezidenti kimi mühüm posta seçilən cənab İlham Əliyevin ardıcıl səyləri nəticəsində Avropa Şurası Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətini tanıyıb, Ermənistanı işğalçı dövlət kimi qəbul etmişdir. İstər ARDNŞ-in birinci vitse-prezidenti, istər Milli Olimpiya Komitəsinin sədri, istərsə də Milli Məclisin deputatı və Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri kimi cənab İlham Əliyevin müstəqil dövlətimizə qazandırdığı uğurlar onun Azərbaycan və dünya siyasətində özünütəsdiqi idi. Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin ən layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Prezident İlham Əliyev 90-cı illərin sonlarına doğru artıq geopolitik məkanda siyasi-iqtisadi proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi fenomen kimi çıxış edir, bütün bunlarla yanaşı Heydər Əliyev siyasi kursunun layiqli davamçısı statusu onun siyasi portretini zənginləşdirən ştrix kimi nəzərə çarpırdı. Ulu öndərimizin müəyyənləşdirmiş olduğu yeni neft strategiyası çərçivəsində dünyanın transmilli korporasiyaları ilə imzalanmış müqavilələrin Azərbaycanın milli maraqlarına cavab verməsi üçün o bütün səylərini ortaya qoyaraq bu prosesə öz töfhəsini vermiş, eyni zamanda Milli Olimpiya Komitəsinin sədri kimi onun ölkəmizdə idmanın kütləviliyini təmin etmək məqsədilə həyata keçirdiyi müvafiq tədbirlər qısa zaman ərzində öz bəhrəsini vermişdir. Azərbaycan idmançılarının mötəbər yarışlarda qazandıqları qələbələr mütəmadi xarakter almış, olimpiya hərəkatında ölkəmizin fəallığı armış, Azərbaycaın idman ölkəsinə çevrilməsi,

respublikamızın bütün regionlarında olimpiya idman komplekslərinin tikilərək vətəndaşların ixtiyarına verilməsi prosesi geniş vüsət almışdır. Məhz bu və digər amillər xalqımızın 15 oktyabr 2003-cü il seçimində həlledici rol oynamışdır.

Azərbaycanın siyasi rəhbərliyinə gəlişindən sonra ümummilli lider Heydər Əliyevin ilk addımlarından biri cəmiyyətimizdə ictimai-siyasi sabitliyi bərqərar etmək üçün hərbi müxalifəti zərərsizləşdirməkdən, qeyri-qanuni silahlı birləşmələri ləğv etməkdən ibarət olmuşdu. Kifayət qədər çətin, mürəkkəb və ağrılı məqamlarla yadda qalan bu proses gedişində köhnə dövrün eyforiyasından qurtula bilməyib qanunlarla hesablaşmaq istəməyən, dövlətə qarşı silah qaldıran ayrı-ayrı insanlara qarşı sərt addımların atıldığı, dövləti cinayətlərə yol vermiş bu şəxslərin azadlığının yeri gəldikcə məhdudlaşdırıldığı da bir faktdır. Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə cərəyan edən proseslər isə başqa məqamlardan xəbər verdi. Ən azı 2003-cü il 15-16 oktyabr hadisələri zamanı müşahidə etdiyimiz nüanslar, hakimiyyətin zorakı yolla ələ keçirilməsinə yönəlmiş iğtişaş cəhdləri və bu iğtişaşların uğursuz nəticəsi sübut etdi ki, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik real təminatlara söykənir. Hər hansı radikallıq cəmiyyətimiz üçün təhlükə doğura, Azərbaycanın müstəqilliyinə xələl gətirə, demokratik inkişaf proseslərinin qarşısını ala bilməz. Elə buna görə də Prezident İlham Əliyevin dövlətə rəhbərliyinin ilk ayları daha çox humanist çalarlarla yadda qaldı. Vaxtilə dövlətçiliyimizə qarşı cinayətlər törədən və bir neçə illik cəza müddəti dövründə öz səhvini başa düşən insanlar azadlığa buraxıldı. Daxili siyasətdə liberalizm elementləri qabarıq şəkildə nəzərə çarpmağa başladı. Siyasi qüvvələr arasında dialoqa meyl gücləndi. Demokratik inkişaf, vətəndaş cəmiyyəti quruculuğu, milli həmrəyliyin əldə olunması istiqamətində daha ciddi nəticələr əldə olundu.

Mövcud reallıqları operativ və obyektiv şəkildə qiymətləndirməyi bacaran, cəmiyyətin sosial sifarişinə uyğun

praqmatik qərarlar qəbul edən Prezident İlham Əliyevin öz şəxsiyyəti ilə formalaşdırdığı siyasi fenomenin cəmiyyətimizin simpatik göstəricisinə çevrilməsi ilk növbədə təbii-siyasi amillərdən qaynaqlanan reallıqdır. Peşəkar siyasətçi kimi İlham Əliyevin siyasi psixoloji portretinin əsas ştrixlərini təşkil edən komponentlər onun Azərbaycan və dünya siyasi arenası üçün uğurlu sima olduğunu birmənalı şəkildə sübuta yetirir. O öz simasında Qərb standartlarını kübar rəftarın, rasional düşüncə tərzinin, sarsılmaz vətənpərvərliyin praqmatizmin milli mentalitetimizlə uğurlu sintezini yaratmış, bu keyfiyyətləri ilə Azərbaycan siyasətinə yeni nəfəs, siyasi ruh və müasirlik gətirmişdir. Bir sıra politoloqlar haqlı olaraq qeyd edirlər ki, onun siyasətçi kimi formalaşmasına təsir göstərən amillər sırasında siyasi romantizm, psevdovətənpərvərlik, arxaik siyasi elementlər yoxdur. Prezident İlham Əliyevin dövlətə rəhbərliyinin ilk aylarından etibarən Azərbaycanda və ümumilikdə bütün dünyada cərəyan edən proseslərin avanqardına çevrilməsi cəmiyyətin siyasi tələbatlar sisteminin məntiqi sonluğu nəticəsində ortaya çıxan obyektiv bir prosesin yekunudur.

Bütün bunlarla yanaşı, İlham Əliyev fenomenini zəruri ictimai-siyasi hadisəyə çevirən amillər sırasında siyasi prinsiplərə sadiqlik, Heydər Əliyev siyasi kursuna bağlılıq və sədaqət, intellektual imkanlar və siyasi istedad, cəmiyyət üçün açıq siyasətin olması və fəaliyyətin şəffaflığı, tolerantlıq, müsbət şəxsi və siyasi keyfiyyətlər və s. bu kimi məqamlar xüsusilə diqqəti cəlb edir. O, bütün bu xüsusiyyətləri məhz əbədiyaşar liderimiz Heydər Əliyevdən əğz etmişdir.

Ən fərəhlisi odur ki, Prezident İlham Əliyev böyük öndərdən təhvil aldığı dövləti onun ideya və arzularına sadiq qalaraq, inkişaf etdirmək əzmindədir və bu yolda Azərbaycan xalqına, ondan aldığı etimada güvənir. **«Əmin ola bilərsiniz ki, mən Heydər Əliyevin başladığı bütün işləri axıra çatdıracağam».** Bu bəyanatın müəllifi kimi İlham Əliyev prezidentliyinin ilk günündən etibarən vədini əməli fəaliyyəti ilə gerçək-

ləşdirməkdədir. Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı ən böyük xidməti həm də ondadır ki, ulu öndərimiz müəllifi olduğu milli dövlətçiliyimizin davamlılığını təmin etmiş, Azərbaycanın gələcək uğurlarına təminat yaradan siyasi kursun varisliyinin əsaslarını yaratmışdır.

Nəticədə bu gün Azərbaycan yalnız Qafqazda deyil, bütövlükdə postsovet məkanında ən sabit, ən dinamik sosial-iqtisadi inkişafa malik, öz iqtisadi qüdrətini gündən-günə artıran bir dövlətdir. Azərbaycan yerləşdiyi geopolitik məkanın prioritet ölkəsidir. Bu nailiyyət qısa bir zamanda qazanılıb. Ona görə də "insan zəkasının təntənəsi" kəlməsi məndə həmişə müasir Azərbaycanın təsəvvürünü yaradır. Ən böyük tarixi həqiqət məhz budur: Heydər Əliyev siyasi irsi Azərbaycanı dağılan, parçalanan, böyük geopolitik oyunların qurbanına çevrilən, sosial-iqtisadi girdab içərisində batıb qalan ölkədən çiçəklənən, öz iradəsini diqtə edən, iqtisadi inkişaf tempinə görə dünyanın ən qabaqcıl dövlətlərindən birinə çevirmişdir…

***Azərbaycan 2020: İnkişafın yeni hədəfləri (Heydər Əliyevin 89 illiyinə həsr olunmuş məqalələr məcmuəsi). Bakı, "Azərbaycan" nəşriyyatı, 2012***

## İNSANLIĞIN VƏ LİDERLİYİN ZİRVƏSİNDƏ DAYANAN ƏVƏZEDİLMƏZ ŞƏXSİYYƏT - HEYDƏR ƏLİYEV

***İnsanlar var ki, bir müddət ağızlarda dolaşan nəğmələrə bənzəyirlər, az sonra bu nəğmə unudulur. Dahilərin adı isə hər zaman dillərdə olur. O da dahi idi. Və bütün dövrlərin dahisi olaraq qalacaq…***

Bu gün yenə HEYDƏR ƏLİYEV şəxsiyyətindən danışırıq, HEYDƏR ƏLİYEV bənzərsizliyindən söhbət açırıq. Bu siyasət korifeyinin heç vaxt heç bir təbliğ təntənələrinə ehtiyacı olmasa da, biz dönə-dönə ona qayıdacağıq, o səbəbdən ki, özümüzün ona ehtiyacımız var…

HEYDƏR ƏLİYEV…

Müdrikliyi, uzaqgörənliyi, titanik fəaliyyəti ilə dünyanın ən nəhəng, sayseçmə siyasətçiləri ilə bir sırada özünə əbədi yer alan ən böyük AZƏRBAYCANLI. Adı Azərbaycanın, bütövlükdə türk dünyasının tarixinə qızıl hərflərlə yazılmış DAHİ. Belə dahilər, bu cür hərtərəfli düşüncə və dərrakəyə, təfəkkürə malik insanlar isə hər əsrin və hər xalqın bəxtinə düşmür!

Heydər Əliyev böyük uzaqgörənliklə: “Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam… Mənim həyatım həmişə xalqla bir yerdə olub, bu gün də bir yerdədir, sabah da bir yerdə olacaqdır” dedi və xalqımız qarşısında göstərdiyi möhtəşəm xidmətlərinə görə tarixdə əbədi yaşamaq haqqı qazandı. O, sözün əsl mənasında, Vətənin böyük oğlu, liderlər lideri, bənzərsiz dövlət xadimi idi. O, sağlığında Azərbaycan atası olmağı bacardı, bu zirvəyə ucaldı, xalqın sevgisini qazandı. O, müstəqil Azərbaycanın yaradıcısı, qurucusu, dövlətçiliyimizin qarantı oldu. O, respublikamızı hərtərəfli inkişafa, tərəqqiyə çatdırdı,

onun siyasətini, iqtisadiyyatını, elmini, təhsilini, mədəniyyətini dünya standartları səviyyəsinə qaldırdı, 34 illik rəhbərliyi dövründə Vətənimizin ən ağır vaxtlarında, ən çətin məqamlarında belə onu təklənməyə, dağılmağa, parçalanmağa qoymadı. İndi bütün dünyadan səsi eşidilən, sözü eşidilən, ən super dövlətlərin belə hesablaşdığı Azərbaycan bu fenomenal şəxsiyyətin ən parlaq əsəridir.

## Heydər Əliyev və Azərbaycan dili

Xalqımızın böyük lideri, əvəzolunmaz şəxsiyyət, nəhəng siyasətçi Heydər Əlirza oğlu Əliyevin müasiri olmaq səadəti mənə də nəsib olub. Ağlım kəsəndən onun nümunəsi məni ahənrüba kimi özünə çəkib. Bu qüdrətli insanın ömür yolundan çox təsirlənmişəm. Onun ağlı, müdrikliyi, uzaqgörənliyi, fəaliyyəti, bütövlükdə həyatı hər kəs üçün nümunədir. Bu nümunədən görüb-götürməliyik, hər birimiz onun ibrətamiz həyat yolundan öyrənməliyik. Əlbəttə, onun müasiri olub, ondan öyrənməmək qeyri-mümkündür. Ondan öyrənməyin özü böyük xoşbəxtlikdir! Təbii ki, o zirvəyə çatmaq, o zirvəni fəth etmək olduqca çətindir, amma ondan öyrənmək, ondan bəhrələnmək olar…

Mən bu gün fəxrlə deyirəm ki, Heydər Əliyev dövrünün yetirməsiyəm, onun zəmanəsinin övladıyam, onun liderlik məktəbindən dərs almışam. Əslində, o, hər kəlməsi, hər sözü, hər çıxışı, hər hərəkəti ilə insanlara dərs keçirdi. O, bitib-tükənməyən bir xəzinə, bir örnək, Allah tərəfindən Yer üzünə göndərilmiş müqəddəs bir varlıq, xarizmatik bir qüvvə idi. Onun çox zəngin həyatını, ömür yolunu, titanik fəaliyyətini, Azərbaycan və azərbaycanlılar üçün, bütövlükdə türk dünyası üçün gördüyü misilsiz işləri ifadə etməkdə az qala söz də acizdir. Əslində, bunun üçün qalaq-qalaq, cild-cild kitablar yazılmalıdır və mütləq yazılacaqdır.

Mən bir də ona görə xoşbəxtəm ki, hələ sağlığında ikən

xalqımızın ümummilli lideri Heydər Əliyev haqqında kitab yazmışam: “Heydər Əliyev və Azərbaycan dili”. “Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir” deyən Heydər Əliyevə mənəvi borcum məni o kitabı yazmağa vadar etdi, milli mədəniyyətimizin, o sıradan dilimizin inkişafı üçün külüng çalan, onun ictimai statusunun qorunması, dövlət dili kimi işlədilməsi, geniş auditoriyalara yayılması üçün fövqəladə güc, enerji və zəhmət sərf edən ulu öndərimizin natiqlik təcrübəsini ümumiləşdirib yaymaq əsas məqsədim oldu. Kitab kütləvi tirayla Türkiyədə də, İranda da nəşr edildi. Onun ana dilimizə bu qədər yüksək dəyər verməsi, Azərbaycan dövlətçiliyinin qurucusu və memarı olması məni biganə qoymadı. Bu gün ana dilimizin dövlət statuslu dillər arasında olmasına görə biz hamımız məhz Heydər Əliyevə borcluyuq. Amma düşünürəm ki, hələ çox az iş görmüşəm. Biz alimlər bu mahir siyasətçinin, görkəmli dövlət başçısının həyat və fəaliyyətini hələ geniş tədqiq etməliyik, onun haqqında hələ çox ədəbiyyat yazmalıyıq. Bundan əlavə, məncə, həm də bütün müəssisələrdə, təhsil ocaqlarında xalqımızın bu böyük övladının nitqinə, natiqlik məharətinə aid xüsusi məşğələlər keçirilməli, yeniyetmələrə, gənclərə, gələcək nəsillərə bu görkəmli şəxsiyyətin həyat yolu hərtərəfli öyrədilməlidir.

Heç şübhəsiz, millətin simasını səciyyələndirən amillərdən birincisi dildir. Əgər bu gün planetimizdə yaşayan minlərlə millət və etnik qrupun cəmi iki yüzə qədər dövlətin bayrağı altında cəmləşdiyini və rəsmi dövlət dillərinin sayının yetmişi keçmədiyini nəzərə alsaq, onda hər hansı bir millətin dilinin öz dövlətində dövlət dili olmasının əhəmiyyətini dərk etmək o qədər də çətin olmaz. Bu mənada, dilin dövlət statusu qazanması, həqiqətən tarixi hadisə, millətin millət olaraq təsdiq, bəşəri təkamüldə təkanverici qüvvə kimi çıxış etmək şansıdır. Çünki dilin dövlət dili statusuna yüksəlişi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin sübutudur. Ana dilimizin qürur zirvəsinə yüksəlişi yolunda HEYDƏR

ƏLİYEVİN gərgin əməyi və gördüyü iş isə həyatını bu yöndə araşdırmalara sərf edən onlarla alimin fədakarlığına bərabərdir.

Yüksək kübarlıq, ziyalılıq etalonu olan HEYDƏR ƏLİYEV, həm də bənzərsiz natiq idi. O, müdrik, ağıllı qərarları ilə yanaşı, danışığı, nitqilə də bu dilin keşiyində duran bənzərsiz bir insan, böyük mütəfəkkir və alim idi. Öz təfəkkürü və nitqi ilə ağılları fəth edən bu insanın natiqlik məktəbindən öyrənəcəyimiz çox nüanslar var. Mən 1969-cu ildən bu yana onun bütün çıxışlarını ardıcıllıqla, diqqətlə izləmişəm. Bu böyük insanın siyasi məsləkdaşı olduğumdan onunla yaxından təmas, ünsiyyət də mənə qismət olub, bir sıra xarici səfərlərdə onu müşayiət edənlər arasında olmuşam. Və onun nitqinin gözəlliyinə, zənginliyinə, axıcılığına, səlisliyinə, sistemliliyinə, ardıcıllığına, məntiqliliyinə heyran olmuşam, hər dəfə də bu nitqdə yeni-yeni çalarlar tapmışam. HEYDƏR ƏLİYEV hər zaman sırf ədəbi dildə danışır, "sənətlər içərisində ən gözəl sənət" olan natiqlik məharəti ilə də hər kəsi valeh edirdi. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir… Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz" deyən HEYDƏR ƏLİYEV uzun illər Moskvada yaşamasına baxmayaraq, heç vaxt ana dilini unutmadı. O, gözəl nitq mədəniyyəti, danışıq tərzi, habelə səsinin tembri, aydın diksiyası, intonasiyası, hətta üz cizgiləri, mimikası ilə də auditoriyanı ələ alır, onu zənginləşdirir, tərbiyə edirdi. Sanki sənin qarşında dilin bütün incəliklərinə dərindən bələd olan, uzun illər natiqlik, nitq mədəniyyətindən dərs verən mahir bir dilçi alim çıxış edirdi. Onun nitqi mükəmməl, kamil bir nitq idi. Bu nitqdə yeknəsəklik yox idi. Heydər Əliyev saatlarla heç bir qeyd-filana baxmadan, yanılmadan nitq söyləyir və hamını heyrətləndirirdi!

Zəngin biliyə, analitik təfəkkürə malik bu insan tarixçi ilə tarixçi, kimyaçı ilə kimyaçı, musiqiçi ilə musiqiçi, yazıçı ilə yazıçı dilində danışırdı. İti yaddaş və güclü hafizəyə malik HEYDƏR ƏLİYEV nitqlərində bəzən elə yeni məlumatlar

söyləyirdi ki, hətta həmin sənətin biliciləri də məəttəl qalırdılar. Onun saatlarla çıxışı heç vaxt auditoriyanı yormurdu, çünki o, nitq söyləməyin bütün sirlərini ən yüksək səviyyədə bilirdi.

Heydər Əliyevin əzəmətli görkəmi, mənalı sifəti, gur, məzmunlu səsi də danışığındakı məntiqi, emosiyanı gücləndirir və dinləyicilərdə, onların yaddaşında dərin iz qoyurdu.

Bəli, hər bir millətin ana dili onun milli varlığının göstəricisidir və ana dilinə dəyən zərbə də, ilk növbədə, milli varlığa dəyən zərbədir. HEYDƏR ƏLİYEV isə müqəddəs ana dilimizi hər şeydən qorudu.

## Heydər Əliyev:
## müstəqilliyimiz və dövlətçiliyimiz

HEYDƏR ƏLİYEV xalqımızın danılmaz tarixidir.

… 1982-ci il 23 noyabrda o, Siyasi Büroya üzv seçildi, Moskvaya getdi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini oldu, ölkənin ən mühüm sahələrinə rəhbərlik etdi və öz güclü təsir qabiliyyəti ilə inkişafa təkan verdi. Ətrafında belə güclü siyasətçini görüb xoflanan, ona qısqanclıqla yanaşan Qorbaçov hər vəchlə HEYDƏR ƏLİYEVİ hakimiyyətdən uzaqlaşdırmağa çalışdı və buna nail oldu. Bu, ona qarşı ən böyük haqsızlıq idi. Lakin HEYDƏR ƏLİYEV Siyasi Büro tarixində ilk şəxsiyyət idi ki, sovet siyasi maşını onu sındıra, əyə, məhv edə bilmədi. O, Siyasi Bürodan uzaqlaşdırılan yeganə şəxs idi ki, yenidən siyasi olimpə qalxmağı bacardı! Çünki o, artıq çoxdan milyonların sevgisini qazanmışdı.

Qorbaçov 1990-cı il 20 yanvarda təpədən dırnağadək silahlanmış sovet ordusu ilə Bakıda qanlı faciə törətdi. Dəhşətli gecənin səhəri günü xalqımızın böyük övladı HEYDƏR ƏLİYEV özünün və ailəsinin həyatını təhlükə altına qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, mətbuat konfransı keçirərək kütləvi informasiya vasitələri işçilərinə törədilmiş qətliam barədə ətraflı məlumat verdi,

Kommunist Partiyası və Sovet hökumətinin rəhbərlərini ittiham etdi, partiya biletini atdı. Bu, 20 Yanvar faciəsinə verilən ilk qiymət idi.

Bir məqama diqqət yetirək. Əvvəla, o tarixə qədər HEYDƏR ƏLİYEV bir şəxsin çata biləcəyi bütün mümkün zirvələri fəth etmişdi, bir fərdin öz milləti, öz dövləti üçün edə biləcəyi xidmətlərin ən alilərini göstərmişdi, bununla da Azərbaycan tarixində öz əbədiyaşarlıq hüququnu artıq təsdiqləmişdi. Digər tərəfdən o, yaxşı bilirdi ki, bu addımdan sonra Moskvada qalmağı təhlükəlidir. Başqası olsaydı, bəlkə də, belə təhlükəli məqamda bu yüksək mövqeyi ilə kifayətlənər, öz həyatını riskə getməzdi. Bəli, başqası olsaydı! Amma bu, HEYDƏR ƏLİYEV idi! Və o, canından çox sevdiyi xalqı, Vətəni, Azərbaycanın milli dövlətçiliyi naminə bu addımı atdı. Azərbaycanın müstəqilliyi ona hər şeydən əziz idi – hətta həyatından da. Bu, onun mənliyi idi. Sonralar deyəcəkdi: "… Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə mən istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək…" Bəlkə də, elə yüksək mənəviyyat sahibi olduğuna görə də Tanrı bu fövqəlbəşər insanı hər zaman hər bir təhlükədən qorudu. Həm də Azərbaycan üçün, xalqı üçün qorudu!

…İstər mərkəz, istərsə də respublika rəhbərləri tərəfindən təqiblərə məruz qalan Heydər Əliyev ata yurduna – Naxçıvana üz tutdu. Və həmin andan etibarən Azərbaycanın qədirbilən insanlarının diqqəti Naxçıvana yönəldi.

Naxçıvan Ali Məclisinin sədri olarkən Azərbaycanın üçrəngli bayrağını ilk dəfə iclas salonuna məhz HEYDƏR ƏLİYEV gətirdib!

Xalqın böyük sevgisi, tələb və təkidi 1993-cü ildə HEYDƏR ƏLİYEVİ yenidən hakimiyyətə gətirdi.

Bu, BÖYÜK QAYIDIŞ idi. Bu, xalqın ümidlərinin bərpası

idi, onun öz XİLASKARINA qovuşması idi! Bu, Azərbaycanın tarix səhnəsindən həmişəlik silinmək təhlükəsindən QURTULUŞU idi! Bu, "ölüm-qalım" dilemmasının xalqın, millətin, dövlətin xeyrinə həll olunması idi! Bu, azadlıq və dövlətçilik rəmzinə çevrilən real və əfsanəvi liderin: "Müstəqilliyimiz dönməzdir, qətidir və əbədidir" fikrinin təsdiqi idi!

## Heç vaxt silinməyən yaddaş

Bu gün Azərbaycanda hara baxsan, HEYDƏR ƏLİYEVİN izini görərsən. O, sağlığındaykən Azərbaycan üçün nə küləyin, nə yağışın, nə tufanın soldura bilmədiyi elə möhtəşəm abidələr yadigar qoyub ki, onlar HEYDƏR ƏLİYEV haqqında heç vaxt silinməyən yaddaşdır…

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda dövlət quruculuğu, ictimai-siyasi sabitlik təmin edildi, iqtisadi inkişaf, beynəlxalq əlaqələrin gücləndirilməsi istiqamətində davamlı proses başlandı, ölkədə bütün sahələr üzrə köklü islahatlar aparıldı. Bunlardan ən birincisi hüquqi islahatlar idi. SSRİ dağıldıqdan sonra ölkə daxilində yaranmış hərc-mərclikdən əsər-əlamət qalmadı. Müdrik bir rəhbərin aydın təfəkkürü, qəti iradəsi, möhkəm əzmi ilə 1994-cü il oktyabr, 1995-ci il mart dövlət çevrilişlərinin qarşısı məharətlə alındı.

Müstəqillik yolunda inamla addımlayan Azərbaycan qısa zaman kəsiyindən sonra dünyada baş verən demokratikləşmə prosesinin iştirakçısına çevrildi.

HEYDƏR ƏLİYEV 1994-cü ilin may ayında atəşkəs haqqında müqavilə imzalamaqla Azərbaycanı siyasi, iqtisadi və hərbi böhrandan qurtardı, dünyanın Azərbaycana qarşı siyasətini dəyişdi, onun diqqətini Vətənimizə yönəltdi…

O, 1994-cü il sentyabrın 20-də əsasını qoyduğu "Əsrin müqaviləsi" ilə dünyanın neft siyasətini birmənalı şəkildə Xəzər regionuna istiqamətləndirdi. Bu neft strategiyası Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı

ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. HEYDƏR ƏLİYEVİN siyasi uzaqgörənliyinin nəticəsidir ki, indi Azərbaycan dünyanın aparıcı dövlətlərinin iqtisadi maraq meydanına çevrilmişdir.

Bakı-Ceyhan Azərbaycanın yeni neft strategiyasının təməl daşı, iqtisadiyyatımızın ana xəttidir. Mütəxəssislər haqlı olaraq bu layihəni Azərbaycanın taleyində dövlət müstəqilliyi qədər əhəmiyyətli tarixi hadisə hesab edirlər. Azərbaycanın sosial-iqtisadi tərəqqisinə, onun beynəlxalq iqtisadi inteqrasiyasına zəmin yaradan bu misilsiz layihəyə görə nəinki Azərbaycan, hətta bir çox xalqlar HEYDƏR ƏLİYEVƏ minnətdar olacaqlar. Bakı-Tbilisi-Ceyhan Neft Kəmərinin çəkilməsi haqqında müqaviləni bağlamaqla HEYDƏR ƏLİYEV təkcə Azərbaycanın yox, Gürcüstan və Türkiyənin də iqtisadi inkişafına zəmin yaratdı, üstəlik, hərbi təhlükəsizliyi təmin etdi.

Bu kəmərin böyük iqtisadi əhəmiyyətini dərk etdiyindəndir ki, xalqımız ona dahi öndərimizin adını verdi. İndi Bakı-Tbilisi-Ceyhan Neft Kəməri HEYDƏR ƏLİYEVİN adını daşıyır.

HEYDƏR ƏLİYEV təxəyyülünün qlobal siyasətə bu uzaqgörən təsiri bütün Qafqaza aid dünya siyasətinin dəyişməsinə səbəb oldu.

Qədim İpək yolunun bərpası ideyasını qaldırmaq və onun həyata keçirilməsi işini təşkil etmək isə HEYDƏR ƏLİYEV şəxsiyyətinin regional yox, dünyəvi xarakter daşıdığını sübut etdi. Böyük İpək yolu ilə bağlı otuzdan çox dövlətin müasir inkişafında bu yolun müstəsna rolu HEYDƏR ƏLİYEVİN adı ilə bağlıdır.

## Siyasi nüfuz və qüdrətin təzahürü

Mən 1992-ci ildən HEYDƏR ƏLİYEVİN yaradıcısı və qurucusu olduğu Yeni Azərbaycan Partiyasının, YAP İdarə Heyətinin üzvüyəm. Bu partiyanı məhz onun rəhbərinə

inandığıma görə seçmişəm. Çox yaxşı dərk etmişəm ki, belə bir dahinin yaratdığı partiya 5-10 ilin partiyası deyil. Həqiqətən də, tarix sübut etdi ki, siyasət və idarəetmənin böyük ustası, dünya siyasətinin nadir simalarından olan Heydər Əliyevin Yeni Azərbaycan Partiyası dünənin, bu günün və sabahın partiyasıdır.

2007-ci ildə Partiyanın yaradılmasının 15 illiyi münasibəti ilə "YAP dünənin, bu günün, sabahın partiyasıdır" adlı kitab yazdım.

YAP mövcud olduğu 20 il ərzində məhz qüdrətli liderinə görə özünü cəmiyyətə hakimiyyət hərisi olan qruplaşma kimi yox, dövlətçiliyə xidmət edən mükəmməl bir ordu kimi təqdim edə bilib. Bu gün YAP sıralarında altı yüz mindən çox insanın birləşməsi onun liderinin siyasi nüfuz və qüdrətinin təzahürüdür.

Heydər Əliyev elə bir nəhəng siyasətçi idi ki, bircə çağırışına milyonlarla adam səs verirdi. Bu, onun iradəsinin xalqın iradəsinə söykənməsi faktıdır.

## Xeyirxahlığın ali nümunəsi

Heydər Əliyev Azərbaycan rəhbərliyinə gələn kimi qədim milli dəyərlərimizi, ədəbiyyatımızı, mədəniyyətimizi, incəsənətimizi, tariximizi özümüzə qaytarmaq sahəsində də çox ciddi işlər gördü. Dədə Qorqudu, Nizamini, Nəsimini, Xətaini layiq olduğu müdriklik zirvəsinə qaldırdı. Alimlərin, bəstəkarların, sənətkarların yetişməsi üçün lazımi şərait yaratdı.

HEYDƏR ƏLİYEVİN çox böyük xidmətlərindən tək birini yada salmaq istəyirəm. 37-ci il repressiyasının qurbanlarından biri, görkəmli ədibimiz Hüseyn Cavidin Vətənə "dönüşü", yəqin ki, orta yaşlı hər bir azərbaycanlının yaxşı xatirindədir. 45 illik Vətənsizlikdən sonra Hüseyn Cavid məhz HEYDƏR ƏLİYEV böyüklüyü sayəsində Azərbaycana, Vətən torpağına qovuşdu. Bu, xeyirxahlığın ali nümunəsi idi!

1993-cü ildə prezident seçkilərindən sonra HEYDƏR ƏLİYEV Cavid məsələsinə yenidən qayıtdı. O, 1995-ci il iyun

ayında keçirdiyi müşavirədə Cavidin məqbərəsi, ev muzeyi ilə bağlı problemləri həll etdi. 1996-cı il oktyabrın 29-da Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılışı oldu. Mən də həmin tədbirdə iştirak edirdim. Və orada bir daha HEYDƏR ƏLİYEV ucalığının, qədirbilənliyinin şahidi oldum. Həmin gün o, hər kəsdən artıq sevinirdi. Bu misilsiz xidmətinə görə ona minnətdarlıq edənlərə isə sözü bu oldu: "Mən çox məmnunam. Sevinirəm ki, 15 il bundan əvvəl qəbul etdiyim qərar həyata keçir. Mənim arzularım həyata keçir. Mən sizi də, özümü də bu münasibətlə təbrik edirəm".

Bəli, HEYDƏR ƏLİYEV elə hər sahədə misilsiz lider və böyük rəhbər olduğunu bütün bəşəriyyətə öz əməlləri ilə sübut etdi…

## Böyüklük… sadəlik

Heydər Əliyevin elmimizə, təhsilimizə, müəllimlərə və ziyalılara qayğısı da hədsiz idi və bu qayğıdan mənə də pay düşüb. İndi onun: "Mən Yer üzündə müəllimdən başqa yüksək ad tanımıram", "Cəmiyyətimizdə, Azərbaycan ziyalılarının içərisində müəllimlər xüsusi yer tuturlar, onlar hörmətə layiqdirlər və xüsusi qayğı ilə əhatə olunmalıdırlar" kimi çox uca kürsüdən deyilmiş fikirlərini böyük minnətdarlıqla yada salıram. Heydər Əliyevin bu yüksək qiyməti bizi həmin diqqətə layiq olmağa səfərbər edirdi.

Xoşbəxtəm ki, 1994-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinə rektor, 1996-cı ildə HEYDƏR ƏLİYEVİN fərmanı ilə məsul dövlət vəzifəsinə Dövlət Teleradio Verilişləri Şirkətinin sədri vəzifəsinə təyin olunmuşam, o dahi insanın xeyir-duasını almışam. Həmin günü ömrümün ən unudulmaz günü hesab edirəm.

Şübhəsiz, televiziya siyasətinin əsas qayəsini Azərbaycan prezidentinin daxili və xarici siyasət kursunun həyata keçirilməsinə layiqli xidmət təşkil edir.

“Radio və televiziya insanları təsirləndirir, onların təkmilləşməsinə, mənəviyyatca inkişafına kömək edir, dünyaya gözünü açır, onları bütün dünya ilə birləşdirir” deyən Heydər Əliyev mətbuata, radio-televiziyaya yüksək dəyər verirdi, mətbuat işçilərinə böyük hörmətlə yanaşırdı. Jurnalistlərlə çox səmimi münasibət yaratması, sözün həqiqi mənasında, onların dostuna çevrilməsi fakt idi və indi hər kəs bu barədə ürəkdolusu danışır.

Mətbuatdan senzuranın götürülməsi, ona qayğı isə Heydər Əliyevin nə qədər böyük demokrat olduğunu göstərirdi.

Heydər Əliyev efirdə, ekranda elmin, mədəniyyətin nailiyyətlərinin təbliğinə, ictimai rəyə, TV-nin təsiri məsələlərinə, radio, televiziya ilə təbliğata çox böyük əhəmiyyət verirdi. O, radio, televiziya işçilərinin böyük dostu, məsləhətçisi, himayədarı idi. Ötən illər pambıq tarlalarında, əmək müəssisələrində, qızmar günəş altında kənd əməkçiləri, fəhlələrlə görüşləri zamanı hansı mövzuları daha çox işıqlandırmaq, nələrdən daha çox bəhs etmək gərək olduğunu, bir çox hallarda isə hansı janrlarda proqramlar hazırlamağı TV işçilərinə H.Əliyev məsləhət görürdü. Dövlət işlərinin hədsiz çox olmasına baxmayaraq, ölkə başçısı təbliğatın bu növünü daim diqqətdə saxlayır, reportyorların ən adi suallarına belə ətraflı cavablar verirdi. O, TV ilə, radio ilə xalqa çatdırılan informasiyanın miqyasını və təsirliliyini yüksək qiymətləndirərək deyirdi: **«Televiziya bütün informasiya orqanlarından ən kütləvisidir. İndi heç kəs öz həyatını televiziyasız təsəvvür edə bilməz. Yəqin ki, televiziyasız yaşamaq da olmaz. Televiziya Azərbaycan xalqının milli sərvətidir».**

Təbliğatda ardıcıllığa, təhlilə, aydın və dəqiq faktlara əsaslanmağa üstünlük verən, cəmiyyətin inkişafında teleradionun rolunu yüksək qiymətləndirən Heydər Əliyev burada çalışanların yüksək mənəvi əxlaqını, təhsil, peşə savadını, işə, sənətə fanatik sevgi keyfiyyətləri ilə seçilmələrini, ətrafdakılara nümunə olmağı arzulayırdı. Cənab prezident şirkətimizdə olarkən buradakı iş

şəraiti ilə maraqlanır, müasir televiziyanın texniki bazasının möhkəm olmasının vacibliyini, işçilər üçün yaradılan şəraitin, xidmətlərin böyük rol oynadığını bildirirdi. Ən qaynar nöqtələrdən reportajlar hazırlayan jurnalistlərin fədakar əməyindən dönə-dönə söz açan dövlət başçısı şəhid jurnalistlərimizin ailələrinə daha çox qayğı göstərməyi tövsiyə edirdi.

Günün xronikasını yaradan teleradio əməkdaşlarının ən sevimli müsahibi kimi, tanınan Heydər Əliyev bir çox xarici, eləcə də ölkə mətbuat və TV qurumlarının mükafatları ilə təltif olunmuşdur. Ölkədə yaratdığı sabitlik və demokratiyaya görə, mətbuatda söz azadlığına, ölkə iqtisadiyyatında və siyasi kursunda xalqa maksimum səmərəli variantları seçib müəyyənləşdirdiyinə görə, H.Əliyev bir neçə il dalbadal «İlin adamı» fəxri adına layiq görülmüşdür.

Görkəmli lider özəl teleradio şirkətlərinin inkişafına çox diqqət yetirir, «ana» televiziyamıza yeni yaranan efir vasitələrinə hər cür yardım göstərməyi tövsiyə edirdi. Sağlam efir mübadiləsini, xüsusən, informasiya mübadiləsi zamanı birgə işi təqdir edir, bu sahədə intensiv yaradıcılıq əməkdaşlığını vacib sayırdı.

Ulu öndərimizlə bağlı bir incə məqamı da qeyd etmək yerinə düşər. Təbii ki, onun da adi tamaşaçı kimi xoşladığı incəsənət xadimləri, televiziya tamaşaları və s. vardı. Müşahidə etmişdim ki, TV ilə bağlı o öz şəxsi arzularını heç vaxt dilə gətirməz, bu barədə xüsusi göstərişlər verməzdi. Amma rəğbətləndirmə vaxtlarında bu incə məqamı hiss etmək o qədər də çətin deyildi. Həssas televiziya işçiləri bu incə məqamları vaxtında hiss edib, həyata keçirməyə çalışırdılar. Ümumilikdə isə cənab prezidentin demokratik mövqeyindən, sərbəst fəaliyyətə yaratdığı ideal şəraitdən maksimum istifadə edən əməkdaşlarımız radio və televiziyada bütün maraqları əhatə etməyə çalışırdılar. Azərbaycan efir dünyasındakı rəng bolluğu da məhz cənab prezidentin demokratik idarəçilik mövqeyi sayəsində formalaşırdı.

O, rəsmi səfərlər, tədbirlər zamanı da TV işçilərinə daha sərbəst və həyəcansız işləmək imkanı yaradan ən təcrübəli siyasi xadimlərdən idi. «Televizyonçuları» çox zaman partnyoru hesab edən H.Əliyev, onların marağına görə də işini qurmağa etiraz etmirdi. Nəticənin daha uğurlu alınması üçün ən xırda nüansların tənzimlənməsinə imkan yaradır, operatorların əlverişli çəkiliş nöqtəsi seçməsinə, hazırlıq aparmasına çox incəliklə şərait yaradırdı.

Kameranı H.Əliyev kimi hiss edən ikinci dövlət başçısı tapmaq çətindir. Əslində o, kamera nümunəsində qarşısında dayanan milyonlarla xalqı görür, bu cansız TV qurğuya milyonların məsuliyyətini daşıyaraq yanaşırdı. Onun televiziya ilə çıxışlarında bir neçə incə keyfiyyət həmişə özünü büruzə verirdi: inandırıcılıq, səfərbərlik, səmimiyyətlik… Çıxışın yüksək faktlılığı, arqumentliyi baş verən hadisəyə tamaşaçıda inam hissi təbliğ edirdi. Mövzunun hər kəsdən ötrü vacibliyini, cəmiyyət üçün gərəkliliyini ən xırda məsələlərə kimi izah edən prezident TV çıxışlarında çox səmimi təsir bağışlayır… Yaşlı adamlar bu çıxışlarda yetkin siyasətçinin dəmir məntiqinin ifadəsini hiss edirdilərsə, cavanlar, gənclər ata, valideyn dərsləri kimi dinləyir, nümunə götürürdülər. Prezident hər bir televiziya çıxışçısından bu məsuliyyəti tələb etməyi TV əməkdaşlarının borcu sayırdı.

H.Əliyev özünün mötəbər informasiya mənbələrindən biri hesab etdiyi teleradionun yayım dairəsini həmişə geniş, əhatəli görmək istəyirdi. Təkcə müsbət məqamları qabardıb cəmiyyətdə arxayınçılıq yaratmağın sonrakı pis nəticələri barədə bizi sayıq salır, haqlı tənqidə geniş yer ayırmağı ümumi işimizin xeyrinə hesab edirdi. Lakin bununla belə, qərəzli tənqidin doğuracağı acı nəticələrdən ehtiyatlanmağı, hadisənin o biri başında öz taleyini görməyi, sonra qələm çalmağı tövsiyə edirdi. Humanitar yardımları yerlərə çatdırarkən, əziz günlərdə ehtiyacı olanlara yardımlar edərkən çox incə hərəkət etməyi «sağ əlin verdiyini sol əldən gizlətməyi», kimsənin könlünü qırmamağı məsləhət

görürdü. Azərbaycanda hər cür milli-mənəvi dəyərlərin və inancların yayıldığı şəraitdə mənəviyyatla, əxlaq, milli mentalitetlə bağlı proqramlara üstünlük verməyi çox vacib hesab edirdi. Heç nəyi heç kəsə qadağan etməyin mümkün olmadığı demokratik cəmiyyətdə öz mənəvi dəyərlərimizin üstünlüyünü qoruyub saxlamağı əsas şərt sayırdı.

Azərbaycançılıq-türkçülük ideyalarının sistemli təbliği ilə tanınan «Turan», «Azərbaycan dili», «Vətəndaş», «Türk elləri» kimi proqramların türk dünyasında doğurduğu əks-səda ilə bağlı prezidentin razılıq dolu sözlərini dönə-dönə eşidib sevinmişəm. Xüsusən, xalq yaradıcılıq redaksiyasının xətti ilə hazırlanan «Yallı», «Qala», «Karvan», «Buta», «Qobustan» kimi verilişlərin Türkiyə Cümhuriyyətində populyar proqramlar kimi sevildiyi haqda prezidentdən xoş sözlər eşitmək bu sahədəki işlərimizi daha da inkişaf etdirməyə stimul yaradırdı. Təkcə «Dəmir qapı Dərbənd» proqramının yaxın xaricdəki soydaşlarımızın taleyini əks etdirməsi istiqamətində müsbət nəticələri barədə dünya şöhrətli siyasətçidən dəfələrlə razılıq eşitmişəm. Əslində cənab prezidentin ən populyar proqramlar haqqında orijinal fikirləri, tövsiyələri vardır. Müşahidə etmişdim ki, prezidentin maraq göstərdiyi proqramlar sırasında «Səhər»in xüsusi yeri var. Proqramın əlvan politrasını peşəkarcasına təhlil edən ölkə başçısı xüsusən xəbərin təqdimat ritmini, blokdakı düzümünü hər dəfə təqdir edirdi. Hər fəsildə yeniləşən tərtibatı ilə təzə görünən «Səhər» xoş ovqat proqramı kimi ölkə başçısının da diqqətini cəlb edirdi. Yaradıcı kollektiv bu faktı yeni axtarışlar üçün bir borc hesab etdilər. İstər musiqi seçimində, istərsə də qonaqların planlaşdırılmasında ən ali tamaşaçı zövqü diqqət mərkəzində saxlanılırdı.

Azərbaycan televiziyasının hər bir uğuru prezidentin nəzərindən yayınmırdı. Azərbaycan dili haqqında prezident sərəncamında teleradionun bütövlükdə milli yayıma keçməsi məsələsi də bir vəzifə kimi qarşıya qoyulurdu. Azərbaycan televiziyasında hələ bir neçə il əvvəl yaradılmış «Dublyaj»

redaksiyası sərəncamdan irəli gələn tələblərə əməl etmək üçün yaradıcılıq potensialını qat-qat artırdı. Efirdə yer alan hər növ filmlərin, bədii lentlərin dublyajı – milli dildə təqdimatı ölkə başçısını çox razı salmışdı. Tez bir zamanda zəngin film fondu yaradan kollektivi bu işi davam etdirməyə çağırırdı. Çoxsəsli çevirmə prinsipi ilə hazırlanan dublyaj filmləri həm də orijinala yaxınlığı, səslərin obrazlara uyğun seçilməsi ilə ölkə prezidentinin diqqətini cəlb edirdi. Eşidəndə ki, kiçik bir kollektiv ayda 50-60 film dublyaj edir, ilk dəfə təəccüblənmiş, işin həcmini burada çalışanların fədakarlığı kimi qiymətləndirmişdi. O zaman AzTV-də mindən artıq dublyaj filmi var idi, bunların sayı gündən-günə artır, efirin milli dildə lent ehtiyacını tamamilə ödəyir.

Yadımdadır, bir dəfə Böyük Vətən müharibəsi illərində əsir düşüb İsveçrədə yaşayan azərbaycanlının həsrətini yetirən veriliş təqdim olundu. Ömrün son günlərini yaşayan əlil soydaşımızın göz yaşları içərisində dediyi vətən bayatıları, sən demə, ölkə başçısının diqqətindən yayınmayıb. Sonralar o, mənə belə verilişlərin sayını artırmağı, ümumiyyətlə, xaricdəki azərbaycanlıların taleyi, dövlətin diaspor siyasəti ilə bağlı olan proqramları artırmağı tövsiyə etdi. Azərbaycan televiziyasında «Beynəlxalq proqramlar» redaksiyası yaratmaq ideyası da bu təqdirdən sonra baş verdi. Mən bu barədə cənab prezidentə məruzə edəndə, cəmi iki-üç cümlə ilə redaksiyanın ən ümumi maraqları haqda uzunmüddətli proqramı gözlərim önündə canlandırdı. 1998-ci ildən bəri əsasən diaspor siyasəti ilə məşğul olan redaksiya dünyanın bir çox ölkələrində yaşayan azərbaycanlıların ünvanını müəyyənləşdirib təsirli verilişlər hazırlamışdır. Bu proqramlar həm də bir-birini itirmiş doğmaların görüş ünvanına çevrilməsi, ölkələr, talelər arasında körpü salması ilə diqqəti cəlb edirdi. «Körpü», «Qürbət mənim içimdə», «Sorağınız gəlsin», «Azərbaycan bu gün», «Qonağımız var» və s. verilişlər öz orijinal axtarışları ilə yadda qalır.

Gənclərin cəmiyyətdəki fəallığı ölkə başçısını həmişə

sevindirir, onların təhsildə, idman yarışlarında, istehsalatdakı uğurlarını daim diqqətdə saxlamağı məsləhət görürdü.

### Azərbaycanın işıqlı gələcəyinin təminatı

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyevin xalqın yekdil rəyi ilə prezident seçilməsi qanunauyğunluq idi. Onun seçkilər ərəfəsində xalqla görüşlərində, bəlkə də, yaşına uyğun olmayan müdrikliyi, xalqla səmimiliyi, hədsiz təvazökarlığı, alicənablığı, insanlara təmənnasız münasibəti, xalqına, millətinə, Vətəninə, sələfinə, üstəlik, öz şəxsiyyətinə hörmət və ehtiramı yüksək, ali tərbiyəsindən, zəngin mənəviyyatından, siyasi yetkinliyindən xəbər verirdi. O həm də bu səbəblərdən qalib gəldi.

Bu gün, doğrudan da, Azərbaycan adlı nəhəng bir gəminin sükanı etibarlı əllərdədir. Gəlin, çox uzağa getməyək, elə son vaxtlar onun xarici ölkələrə səfərləri, Avropa Şurası Parlament Assambleyasındakı olduqca uğurlu çıxışı, bu səfərlərdə prezidentimizə göstərilən yüksək ehtiram, onun ən nüfuzlu beynəlxalq mükafatlara layiq görülməsi dünya siyasət arenasında İlham Əliyevin reytinqinin çox yüksək olduğunu təsdiq edir. Bu isə Azərbaycanın işıqlı gələcəyinin təminatı deməkdir.

İndi ölkəmiz nüfuzlu beynəlxalq təşkilatların, demək olar ki, hamısında təmsil olunur. Müstəqillik yolu ilə inamla addımlayan respublikamız dünyada baş verən demokratikləşmə və əməkdaşlıq prosesində yaxından iştirak edən dövlət kimi dünya birliyinin tərkib hissəsinə çevrilmişdir. Demokratiya və müstəqillik ideyalarına sadiq olan İlham Əliyev indi milli mənafelərimizi yüksək səviyyədə qoruyur. Bu gün HEYDƏR ƏLİYEV siyasətinin uğurlu davamını görmək nə qədər xoş və ürəkaçandır!

Ona görə də 2002-ci ildə “Sabaha inamla”, 2007-ci ildə “Uğurlu yolun layiqli davamçısı” adlı (4 dildə) kitablar nəşr etdirdim.

Bəli, İlham Əliyev prezident kimi elə ilk addımlarında

sübut etdi ki, ona inanmaq, ona arxalanmaq, ona güvənmək olar! İnanırıq ki, o, “Bizim yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir” deyən Heydər Əliyevin amallarını uca tutur və uca tutacaqdır.. O, buna qadirdir! Qoy olsun! Bu, həm də bizim arzumuzdur!..

## Həmişə zirvədə…

Ümummilli liderimizin fiziki yoxluğunu hamı kimi mən də böyük ürək ağrısı və yanğı ilə yaşayıram. Çünki o, Azərbaycanın itkisidir, bütün türk dünyasının itkisidir. Amma bu cismani yoxluqdur, o, ölməzdir, bizimlədir, nə qədər ki, Azərbaycan adlı məmləkət var, yenə də var olacaq və hər zaman insanlara doğru yol göstərəcək!

Allah təala Heydər Əliyevi adi insanlardan fərqləndirən bir çox fenomenal xüsusiyyət və bacarıqla mükafatlandırmışdı. Hansı idi bu xüsusiyyətlər? Hər şeydən əvvəl, dərin bilik, yüksək idarəçilik qabiliyyəti, intiusiya, yaddaş, işgüzarlıq. Heydər Əliyev həftələr, aylar, bəlkə də illərlə gündə 15-18, bəzən isə 20 saat işləməyi bacarır, yoruldum demirdi. Onun ətrafındakılar deyə bilməzlər ki, nə vaxtsa biz ümummilli liderimizi səhər işə gələndə yorğun, əzgin görmüşük. O, həmişə işə gümrah gələr, gəncliyində, ahıl və yaşlı vaxtlarında da öz geyimi, səliqəsi ilə hamıya nümunə olardı.

Heydər Əliyev elə bil onlarca ixtisas üzrə ali təhsil almış, universitet bitirmişdi. Elmin elə sahəsi yox idi ki, həmin sahənin ən yüksək ixtisaslı mütəxəssisləri ilə danışanda həmsöhbətlərini heyrətdə qoymasın. Onun Azərbaycan ədəbiyyatını, tarixini, mədəniyyətini, incəsənətini necə dərindən bildiyini televiziya ilə nümayiş etdirilən yığıncaqlarda hamı görüb. Ədəbiyyatımızın, musiqimizin, rəssamlıq, memarlıq sənətinin korifeyləri etiraf

edirlər ki, Heydər Əliyevlə sənət haqqında söhbət etməkdən sözün əsl mənasında ehtiyat edirdilər, çünki o, qəflətən sənətlə bağlı elə incə məqamlara toxunurdu ki, şairi də, yazıçını da, bəstəkarı, rəssamı, heykəltəraşı da heyrətdə qoyurdu.

Unutmayaq ki, yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq hər kəsə qismət olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. HEYDƏR ƏLİYEV misilsiz xidmətlərinə görə hər zaman doğulub-böyüdüyü torpaq üçün, xalqı, milləti üçün, Azərbaycan üçün müqəddəslər müqəddəsi olaraq qalacaq! Bu sevgi onun halal haqqıdır!

İllər keçəcək, əsrlər dəyişəcək, amma bir fakt faktlığında qalacaq: dünyanın Atilla, Atatürk, Vaşinqton, Şarl de Qol, Bismark, Ruzvelt, Çerçill kimi siyasi liderləri sırasına Azərbaycan XX əsrdə HEYDƏR ƏLİYEV kimi dahini bəxş etdi! Bu, xalqımızın xoşbəxtliyidir!

HEYDƏR ƏLİYEV hər zaman zirvədə dayandı və indi də zirvədədir.

***Heydər Əliyev – böyük azərbaycanlı (Heydər Əliyevin 90 illiyinə həsr olunmuş məqalələr məcmuəsi). Bakı, "Azərbaycan" nəşriyyatı, 2013***

## HEYDƏR ƏLİYEVİN MİLLİ DÖVLƏTÇİLİK İDEOLOGİYASI – AZƏRBAYCANÇILIQ

Azərbaycançılıq dövlətçilik konsepsiyamızın əsas prinsiplərindən birini, bəlkə də birincisini təşkil edən milli ideologiyamızın özəyi, onun sivil ideya modeli, Azərbaycan adlı tamın rəsmi qanuni sertifikatıdır. Azərbaycançılıq deyilən ülvi konsepsiya qədim və keşməkeşli tariximiz, milli, mədəni, dini ənənələrimiz üzərində pərvəriş tapanda milli ideyanın milli təkrarsızlığı yaranır. Fərəhlidir ki, biz bu gün inteqrasiya prosesinə qlobal sivilizasiyanın ayrılmaz tərkib hissəsi kimi, öz «mən»imizlə, öz milli mentalitetimizlə, dil və dinimizlə, bütün əxlaqi dəyərlərimizlə, milli özünüdərkimizlə, etnik şüur intibahımızla, xalqın həmrəyliyi şəraitində milli ideyanı milli ideologiyaya çevirməklə, bir sözlə, bəşəriyyət adlı bütövlüyün komponenti kimi daxil oluruq. Çünki etnik şüur da, milli yaddaş da öz cövhərini kənar mənbədən deyil, məhz milli ideologiyadan alır. Milli ideologiya Xalq Cümhuriyyəti dövründə olduğu kimi, bugünkü müstəqillik illərində də Azərbaycan respublikasının milli mənəvi atası fövqündədir. Bir insan ömrü qədər də yaşamağa iqtidarı çatmayan yırtıcı imperiya belə ilk doğuluş məkanı humanitar düşüncəmiz – elm və mədəniyyətimiz, musiqi və poeziyamız, rəssamlıq və heykəltəraşlığımız olan milliliyin sabitliyini qədərincə əlimizdən ala bilmədi. Çünki millilik bizim mənəvi dünyamızın gözəgörünməz, əlçatmaz nöqtələrindədir: beyin hücrələrimizdə, ürək mənzillərimizdə, damarlarımızdan axan qan çaylarımızda. Millilik artdıqca dövlətçiliyin kökləri daha dərinə gedir, o daha möhkəm, daha sarsılmaz olur. Məhz öz milli mənsubiyyətimizi, milli-mənəvi dəyərlərimizi uzaq yüzilliklərin fırtınaları içindən sağ-salamat çıxarıb dövrümüzə zədəsiz çatdırdığımız üçündür ki, bu gün azərbaycançılığımız

daha bəşəri, daha dünyəvidir. Ulu öndərimiz Heydər Əliyevin milli dövlətçilik ideologiyasının əvəzedilməz davamçısı olan Prezident İlham Əliyevin azərbaycanlıların dünya forumu ilə bağlı fərmanlarının, dövlətçilik və mədəniyyət quruculuğu ilə bağlı qərar və sərəncamlarının, ölkənin sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının kökündə azər-baycançılığın cizgiləri, onun etnik, konfensional və mədəni aspektləri, metodoloji-nəzəri, siyasi parametrləri doktrinal səviyyədə özünü göstərməkdədir. Cəmiyyətin milli genefondunun qorunub pozitiv ruhda inkişaf etdirilməsi, xalqın milli irs və özünəməxsusluğunun gələcək nəsillərə olduğu kimi çatdırılması onun milli dövlətçilik konsepsiyasının özəyini təşkil edir. Belə də olmalıdır. Çünki bu cür çətin və ağır missiyanı yalnız mənəvi özünüdərkin sınaqlarından uğurla çıxıb, milli ideyanı tam halda milli şüura çevirmək qüdrətinə malik öndərlər, fenomenal şəxsiyyətlər öz boynuna götürə bilər. Məhz milli irsdən bəhrələnən azərbaycançılıq ideyası cəmiyyətin təkamül prosesində və onun monolitliyində aparıcı qüvvəyə çevrilir. Azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəyliyinə, xalqın vahid bir ideya ətrafında mənəvi birliyinə nail olunmasında İlham Əliyevin xidməti ölçüyəgəlməzdir. Məhz onun fədakarlığı sayəsində milli-mənəvi və bəşəri dəyərlər artıq azərbaycançılıq ideologiyasının özəyini, onun əsas təməl prinsiplərini təşkil etməkdədir. Azərbaycançılıq ümumbəşəri dəyərlərdən yetərincə bəhrələnməklə bərabər öz milli mentallığını, öz milli «mən» çalarlarını qoruyub saxlamaqdır. Bu ideya həm Azərbaycanın sərhədləri daxilində, həm də ölkəmizin hüdudlarından kənarda yaşayan hər bir azərbaycanlı üçün əsas baza mənbəyidir. Bizi uzun yüzilliklər boyu vahid bir əqidə bayrağı altında birləşdirən, ən çətin məqamlarda belə xalqımızın həmrəyliyinin təminatçısına çevrilən məhz azərbaycançılıq ideyası olub. Əgər xalqımız əsl azərbaycançılıq ideyası ilə silahlanmasaydı öz istiqlalına qovuşa bilməz, həyatın bütün sahələrində bu günkü qədər ali zirvələri fəth edə bilməzdi. İlham Əliyevin dediyi kimi, «Azərbaycançılıq fəlsəfəsi bizim mənəvi dayağımızdır. Müstəqil siyasət, milli

maraqlarımızın qorunması, milli ləyaqət, milli qürur, milli və dini tolerantlıq – budur bizim uğurlarımızın əsas şərtləri. Azərbaycanda bütün xalqlar qardaşlıq şəraitində yaşayırlar. Mən çox şadam ki, qısa bir zaman çərçivəsində bizim əsas ideoloji dayaqlarımız daha da möhkəmlənib. Azərbaycanda vətəndaş həmrəyliyi, sabitlik tam bərqərar olub. Bizim siyasətimizin əsas təməl prinsipləri Azərbaycan dövlətinin milli maraqlarının qorunmasıdır. Biz bu işdə böyük uğurlara nail olmuşuq. Bizim bütün siya-sətimiz, bütün siyasi addımlarımız bir məqsəd güdür. Bu da Azərbaycanın və azərbaycançılığın daha da möhkəmlənməsi, güclü iqtisadi potensialın yaradılması, siyasi islahatların dərinləşməsi və Azərbaycan xalqının təhlükəsizlik şəraitində, rifah içində yaşamasıdır». Azərbaycan Avropa Şurasının üzvləri sırasında öz layiqli yerini tutduqdan sonra İlham Əliyevin ölkəmizin nümayəndə heyətinin rəhbəri kimi 43 ölkənin diplomatları qarşısında müqəddəs torpaqlarımızı işğala məruz qoymuş erməni separatizmini və bəzi ermənipərəst dövlətlərin çirkin ikili standartlar siyasətini dəqiq faktlar əsasında ifşa hədəfinə çevirəndə gördük onun vətən və xalq sevgisinin tükənməzliyini, azərbaycançılıq ehtirasının məğlubedilməzliyini.

İlham Əliyevin qeyd etdiyi kimi millətin milliliyini qoruyub saxlayan hər şeydən öncə, onun ilahi sərvəti, milli-mənəvi varlığının əsas bədii-estetik kodu, ilkin fəlsəfi şifrəsi, onun əsas qoruyucusu və xilaskarı olan dilidir. Çünki uzun minilliklər boyu ən qiymətli sənət əsərlərimiz bu dildə yazılıb, mahnılarımız bu dildə səslənib, ayrı-ayrı ölkələr və xalqlarla bütün beynəlxalq diplomatik danışıqlar bu dildə aparılıb. Dil xalqın varlığını təsdiq edən tanrı sənədi, millətin əbədi yaşam pasportudur. Rus dilində təhsil almış, hətta dövlət strukturlarında yüksək vəzifə kürsülərində əyləşmiş adamlar var ki, ölkələr və xalqlar əli qanlı rus imperiyasının caynaqlarından 24 il bundan əvvəl xilas olsalar da onlar həmin imperiya dilinin təsirindən hələ də yaxa qurtara bilməyiblər. Elələri var ki, öz fikirlərini nəinki doğma ana dilində sərbəst ifadə edə bilmir, hətta adi bir ərizəni belə yazmaqda çətinlik çəkirlər. Faciədir. Əlbəttə

belələrinin mənəvi dünyasında əsl azərbaycançılıq konturları axtarmaq o qədər də asan məsələ deyil. İlham Əliyev də rus dilində təhsil alıb. Uzun illər Moskvada, rusların əhatəsində yaşayıb. Ancaq bu gün çıxış edəndə onun nitqlərindəki xəlqilik, ana dilimizin söz imkanlarının bütün qatlarına, çalarlarına zərgər dəqiqliyi ilə bələdçiliyi nəinki adi insanları, hətta dilimizin mükəmməl biliciləri olan şair və yazıçıları, ədəbiyyatşünasları, ömrünü dilimizin təmizliyi uğrunda mübarizəyə sərf etmiş dil tədqiqatçılarını belə heyrətdə qoyur. O, saatlarca davam edən çıxışlarında heç bir yazılı mətnə söykənmir, sinədən danışır. Rəqəmlər toplumu beyin süzgəcindən süzülüb gəlir. Düşünürük: o müdrik şəxsiyyət bu parlaq nitq qabiliyyətini haradan və necə əxz edib? Çünki o, varlığı və genetik yaddaşı əsl azərbaycançılıq akademiyası olan, hələ sovetlər dövründə imperiyanın «ikinci növ» dillər qrupuna daxil etdiyi Azərbaycan dilinin milli konstitusiyamızda dövlət dili kimi qəbul edilməsinə nail olub, onun əbədiyaşarlığını təmin edən, azərbaycançılığı milli ideologiyaya çevirmiş Heydər Əliyev kimi xarizmatik bir liderin, Azərbaycan dövləti adlı nəhəng gəmini qlobal sarsıntılar dəryasının fırtınalarından sağ-salamat çıxarıb, milli özünüdərki sovet ideoloji sisteminin buxovlarından xilas etmiş, bəşəri əməllər kompleksi bu günkü müstəqilliyimizin sarsılmaz sütunları olan fenomen bir dövlət xadiminin ailəsində dünyaya göz açıb. Azərbaycançılıq o dahi şəxsiyyətin iç dünyasından süzülərək öz sevimli övladının, onun damarlarındansa axaraq xalqın, millətin varlığına daxil olmaqdadır.

Məlum olduğu kimi Azərbaycan ədəbi dilinin inkişafında, cəmiyyətin maariflənməsində, elm və mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin təbliğində, ölkədə gedən ictimai-siyasi, iqtisadi və mədəni quruculuq proseslərinin xalqa çatdırılmasında kütləvi informasiya vasitələrimizin, xüsusilə televiziya və radio kanallarının rolu əvəzsizdir. Dövlətimizin maddi sərvəti olan efir tezliklərinin xarici ölkələrə məxsus kanallardan alınaraq milli yayımçılar arasında müsabiqəyə çıxarılması, Azərbaycan televiziya və radio kanalları vasitəsilə

yayımlanan bütün verilişlərin yalnız bir dildə-doğma azərbaycan dilində səsləndirilməsinə start verilməsi, əcnəbi ölkə kinostudiyalarının istehsalı olan bütün bədii və sənədli filmlərin yalnız tərcümə olunduqdan sonra efirə çıxarılması ölkə rəhbərinin milli-mənəvi dəyərlər sistemimizin özəyi olan ana dilimizə misilsiz qayğısının bariz nümunəsidir. Prezident İlham Əliyevin 25 cilddən ibarət Azərbaycan milli ensiklopediyasının hazırlanmasında, həmçinin Azərbaycan və dünya klassiklərinin ən məşhur əsərlərinin latın qrafikalı Azərbaycan əlifbası ilə nəşrini nəzərdə tutan sərəncamlarında, dünyaşöhrətli şair və yazıçılarımızın, bəstəkar və müğənnilərimizin, rəssam və heykəltəraşlarımızın, elm korifeylərimizin xatirəsinin əbədi-ləşdirilməsində, onların əsərlərinin müxtəlif dillərdə nəşrinin təmin edilməsində, bir sözlə milli mədəni düşüncənin inkişafına güclü təkan verməklə xalqımızın necə zəngin soy-kökə malik olduğunu dünya boyu nümayiş etdirmək məharətində axtarmaq gərəkdir o müdrik şəxsiyyətin milli irsimizə, qədim, keşməkeşli tariximizə, zəngin elm və mədəniyyətimizə olan tükənməz qayğısının köklərini, onun əsl azərbaycançılıq ideyasına sadiqliyini.

Uzun əsrlər boyu yalnız ölkəmizin hüdudları daxilində səslənən muğamlarımızın Azərbaycan sərhədlərini aşaraq bütün şərq ölkələri boyu pərvazlanmasına imkan yaradan «Muğam» müsabiqəsinin keçirilməsi də zəngin mədəni irsimizin, milli-mədəni dəyərlərimizin qorunması və azərbaycançılığın dünya miqyasında təbliği baxımından böyük əhəmiyyət kəsb edir. Göründüyü kimi ölkə rəhbərinin strateji siyasətinin kökündə milli mentallığın, milli özünüdərkin və milli «mən»in mahiyyətini qoruyub saxlamaq səyi dayanır.

İlham Əliyev üçün azərbaycançılıq məfkurəsi, onun özəyi olan milli-mənəvi dəyərlər sistemi toxunulmaz bir xəzinədir. Bu xəzinənin əbədiyaşarlığını öz iç dünyasında, öz müqəddəs əməllərində yaşadır o. Əgər bu gün türkçülük, islamçılıq və müasirliyimizin rəmzi, qeyrət və kişiliyimizin simvolu olan üç rəngli bayrağımız BMT-nin, NATO-nun, Avropa Şurasının və digər beynəlxalq təşkilatların iqamətgahları

üzərində əzəmətlə dalğalanırsa, günbəgün gözəlləşən sevimli Bakımız 2009-cu ildə İslam dünyasının paytaxtı elan olunubsa, o, şərqdə qərb sivilizasiyasına, qərbdə isə qədim şərq mədəniyyətinə xas olan ən yüksək mənəvi və mədəni dəyərlər mərkəzi hesab edilirsə, dünya ölkələri arasında beynəlxalq əməkdaşlıq, dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edən qlobal, bəşəri layihələrin həyata keçirilməsinin təşəbbüskarı olan möhtərəm Prezidentimiz Kanadanın türkdilli diasporlarının Torontada keçirilmiş toplantısında öz cahanşümül fəaliyyətinə görə «İlin Adamı» seçilibsə...bütün bu ali dəyərlərin kökündədir əsl azərbaycançılığımız. Milli mədəniyyətimizin digər millətlər arasında təbliği ilə əlaqədar planetimizin müxtəlif ölkələrində Azərbaycan mədəniyyəti və incəsənəti günlərinin keçirilməsi, dünyaşöhrətli sənətkarlarımızın təntənəli yubiley mərasimlərinin təşkili, 31 mart soyqırımı gününün, repressiya və deportasiya faciələrimizin soydaşlarımızın yaşayıb-yaratdıqları ölkələrin əksəriyyətində hər il erməni separatizminə qarşı mübarizə bayrağı altında qeyd olunması, beynəlxalq əlaqələrin möhkəmlənməsinə xidmət edən parlamentlərarası dosluq qruplarının fəaliyyət meydanının günbəgün genişləndirilməsi dövlətçilik dəyərlə-rimizin zirvə modeli sayılan azərbaycançılığın dünyaya inteqrasiyasında müstəsna rol oynayır. Son illər bir sıra dost ölkələrdə görkəmli siyasi xadimlərimizin, elm və mədəniyyət korifeylərimizin xatirə komplekslərinin yaradılması, adlarının küçə və prospektlərdə əbədiləşdirilməsi, onların şərəfinə yaraşıqlı bağ və parklar salınması, əvvəl İçəri şəhərin, 2007-ci ildə isə Qobustan Dövlət Tarixi Bədii Qoruğunun YUNESKO-nun dünya irs siyahısına daxil edilməsi də Azərbaycanın və azərbaycançılığın dünya miqyasında təbliği baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycançılıq ideyası öz tərkibində təkcə azərbaycanlıları deyil, məmləkətimizdə yaşayıb-yaradan bütün etnosları, məzhəbləri, konfessiyaları universal mənəvi məkanda, ruh məhrəmliyi və övqat doğmalığı şəraitində, eyni cazibə məkanında vahid bir yumruq kimi birləşdirir, bütövləşdirir, doğmalaşdırır. Azərbaycanı səmavi

dinlərin dinc və birgəyaşayış məkanı adlandırıb, çoxmillətliliyi ölkəmizin əvəzedilməz sərvəti hesab edən İlham Əliyevin yüksək insanpərvərliyinin nəticəsidir ki, bu gün ölkəmiz müxtəlif dinlərə etiqad edən insanlara öz qoynunda səxavətlə yer verən, onların hər birinin vicdan azadlığının və hüquqlarının himayədarına çevrilən ilahi ruhlu bəşəri bir ana timsalındadır. Bir çox dillərin və dinlərin vahid məkanda, bədii, fəlsəfi, estetik bir ərazidə, ortaq səma altında birliyi təşəkkül tapıb. Etnik mentalitetin beynəlmiləlçiliyə sintezi yaranıb. Millilik bəşərilik səviyyəsinə yüksəlib. Bu belə də olmalıdır. Çünki öz tərkibində təkcə etnosları deyil, hətta məzhəbləri, konfessiyaları vahid bir mənəvi məkanda birləşdirəndə yaranır azərbaycançılığ ideyasının təkrarsızlığı, milliliyi, bəşəriliyi. Dini inancları bütün siyasi proseslərdən uca tutan milli ruhlu bir nəsil yetişdirilməsi, zəngin mənəvi aləmə malik azərbaycanlı obrazının dünyaya tam dolğunluğu ilə tanıdılması üçün bütün bilik və bacarığını sərf edən ölkə rəhbəri dini konfessiyalar arasında heç bir qüvvənin sarsıda bilməyəcəyi məhəbbət və sədaqət körpüləri qurur. Dini mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımıza üzərində yaşadığı torpaq üçün milli sahiblik hissi aşılayır. Onların bütün dövlət orqanlarında təmsilçiliyinə geniş şərait yaradır. Hər bir fərdin problemlərini öz şəxsi problemi qismində görür. Çünki biz həm asiyalı, həm də avropalıyıq. Yəni «avrasiyalı»-yıq. Bu gün Azərbaycan öz içində həm türk, həm də slavyan köklü zümrənin dünyəvi-mənəvi məxrəcdə birləşdiyi, kültürdə və sivilizasiyada bütövləşdiyi bir aləmdir. Qapıları uzun illər kilidlənmiş müqəddəs ibadətgahların, müxtəlif millətlərə məxsus tarixi mədəniyyət abidələrinin, məscid və ziyarətgahların, yəhudi və xristian məbədlərinin bərpası və təmiri, regionda ən böyük senaqoqun, 2006-cı ilin martında Qəbələ rayonunun Nic kəndində Müqəddəs Yelisey adlı qədim alban kilsəsinin yerində Çotari adlı alban Udi kilsəsinin inşası, vaxtilə bolşeviklər tərəfindən dağıdılıb yerlə-yeksan edilmiş rus provoslav kilsə kompleksinin əsaslı surətdə yenidən qurularaq dindarların istifadəsinə verilməsi, Roma katolikos kilsəsinin Bakıdakı nümayəndəliyi üçün inşa

edilən kilsə, ayrı-ayrı dinlərə məxsus ümumtəhsil məktəblərinin fəaliyyəti ölkə rəhbərinin milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına, bütün etnik fərdlərin, dinlərin, etnos və məzhəblərin Azərbaycanın sərhədləri daxilində bir bədən, bir can timsalında birləşib, vətən adlı vahid kökə möhkəm tellərlə bağlılığına verdiyi böyük önəm və diqqətin təzahürləridir. Çünki millət sadəcə fizioloji varlıq deyil, həm də müqəddəs dindir, sağlam mənəviyyatdır, yüksək əxlaqi dəyərlər toplumudur. Gürcü pravoslav kilsəsinin rəhbəri katolikos II İlyanın dediyi kimi, «Bu gün Azərbaycan təkcə dünyaya neft və qaz ixrac edən yox, həm də dini tolerantlıq ixrac edən bir ölkədir». Müxtəlif dini konfessiyalara mənsub olsalar da doğma Azərbaycanımızın ərazi bütövlüyü naminə erməni qəsbkarlarına qarşı döyüşlərdə qəhrəmanlıqla həlak olmuş gənclərin əbədiyyət yuxusuna getdiyi və sonradan Respublika Prezidentinin tapşırığı ilə yenidən bərpa edilmiş Şəhidlər Xiyabanı da təkcə müqəddəs and yerimiz yox, həm də bütün dinlərə hörmət və ehtiramımızın simvoludur. «Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər» mövzusunda beynəlxalq konfransın, «Mətbuatın tolerantlıq və dinlərarası dialoqun gücləndirilməsində rolu», həmçinin «Qafqazda islam mədəniyyəti» adlı millətlərarası konqresin Azərbaycanda keçirilməsi, Bakının öz sıralarında Asiya, Afrika və Avropanın 52 dövlətini birləşdirən, 1 milyarddan çox əhaliyə, böyük mənəvi, siyasi, iqtisadi, elmi və mədəni potensiala malik Beynəlxalq İslam Konfransı Təşkilatının paytaxtı elan olunması məmləkətimizin dünya üçün alternativsiz bir tolerantlıq mənbəyi olmasının təzahürüdür. Ümumiyyətlə, müstəqil Azərbaycan vətəndaşlarının yaşadığı hər gün ölkəmizdə tolerantlığın təntənəsi günüdür.

İlham Əliyev özünü təkcə bu gün üçün yox, hələ doğulmamış sabahlarımız üçün də fəda edən uzaqgörən bir siyasətçidir. Onun bu gün qəbul etdiyi qərarların, verdiyi sərəncamların hər birinin kökündə xalqımızın daha xoşbəxt gələcəyinin cizgiləri aydın görünməkdədir. Dünyanın müxtəlif ölkələri ilə Azərbaycan arasında tələbə mübadiləsinin durmadan

genişləndirilməsi bunun əyani sübutudur. Ölkə rəhbərinin 5 sentyabr 2007-ci il tarixli, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın tələbinə əsasən 2015-ci ilədək 5 min azərbaycanlı gəncin xarici ölkələrdə təhsil almasının dövlət hesabına maliyyələşdirilməsi əsas vəzifə kimi qarşıya qoyulub. Hazırda əcnəbi ölkələrdə 10 minə yaxın azərbaycanlı gənc təhsil alır. Onlar təkcə dünyanın qabaqcıl ölkələrinin elm və texnika sahəsindəki zəngin təcrübəsini mənimsəyib, onları öz beyinlərində Azərbaycana ixrac etməklə kifayətlənməyəcək, həm də erməni faşizminin son iki əsrdə başımıza gətirdiyi ağlasığmaz müsibətlərin, qədim tariximizin, zəngin elm və mədəniyyətimizin, milli adət və ənənələrimizin dünya gəncləri arasında təbliğinin də ən fəal iştirakçıları rolunda çıxış edəcəklər.

İlham Əliyev əfvetmə instutunun işlək mexanizmlər əsasında fəaliyyəti üçün də geniş imkan yaradıb. Son 10 ildə onlarca əfv fərmanı imzalanıb. Bu dünyada analoqu olmayan bir hadisədir. Həmin fərmanlar hesabına minlərlə insanın azadlıqdan məhrumetmə cəzasına xitam verilməsi, cəzalarının çəkilməmiş hissələrinin yarıbayarı azaldılması ölkə rəhbərinin yüksək humanizminə, ali insanpərvərliyinə söykənən, sağlam vətəndaş cəmiyyətinin formalaşması yolunda atılan uğurlu addım kimi dəyərləndirilməlidir. Bu cür strateji siyasi kursun layiqincə davam etdirilməsini dünyanın insan hüquqları sahəsində ixtisaslaşmış nüfuzlu təşkilatları da təqdir etməkdədir.

İnamla demək olar ki, Azərbaycanda heç son 70 ildə belə İlham Əliyevin hakimiyyətdə olduğu 10 ildəki qədər nəhəng idman kompleksləri inşa edilməyib. İdmançılarımız beynəlxalq yarışlardan bu qədər qızıl və gümüş medallarla qayıtmayıblar. Azərbaycançılığımızın rəmzi olan milli bayrağımızın dalğalanma, milli himnimizin səslənmə meridianları bu qədər geniş olmayıb. Bu təkcə qələbə müjdələri deyil, həm də Azərbaycan gəncliyinin öz vətənpərvərliyini, sarsılmazlığını və məğlubedilməzliyini dünyaya diqtəsidir.

Bu gün Azərbaycançılıq təkcə respublikamızın sərhədləri daxilində deyil, vaxtilə müxtəlif ictimai-siyasi münaqişələr üzündən öz doğma ata-baba torpaqlarından didərgin düşüb planetimizin 70 ölkəsində sığınacaq tapmış, əvvəllər pərakəndə dəstələr şəklində yaşasalar da, bu gün vahid diasporlarda birləşmiş 40 milyondan artıq soydaşımız üçün də əsas ideya mənbəinə çevrilib. Ulu öndərimiz Heydər Əliyevin diaspor quruculuğu sahəsindəki cahanşümül fəaliyyətini bu gün uğurla davam etdirən cənab İlham Əliyev hələ 27 iyul 2004-cü il tarixdə ölkəmizin xaricdəki diplomatlarının iştirakı ilə keçirilən ilk geniş tərkibli müşavirədə, həmçinin 2006-cı ilin martında dünya azərbaycanlılarının paytaxtımızda keçirilən II qurultayındakı çıxışlarında ölkəmizin və xalqımızın milli maraqlarının beynəlxalq aləmdə qorunması, Azərbaycan həqiqətlərinin, həmçinin xalqımıza qarşı törədilmiş vəhşi terror və soyqırımı aktları ilə əlaqədar informasiyaların dünya ictimaiyyətinə daha dolğun və obyektiv çatdırılmasının müasir metodlarının işlənib hazırlanması, digər ölkələrin diaspor təşkilatları ilə əməkdaşlıq və dostluq əlaqələrinin gücləndirilməsi baxımından xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm vəzifələr düşdüyünü qeyd etmişdir. Qurultayda xaricdə yaşayan azərbaycanlıların təşkilatlanma prosesinin keyfiyyətcə daha da təkmilləşdirilməsi, onların potensial imkanlarının müstəqil dövlət quruculuğu prosesində qarşıya çıxan problemlərin həlli naminə səfərbər edilib milli birliyə və həmrəyliyə nail olunması üçün Azərbaycan diasporunun yeni fəaliyyət konsepsiyasının hazırlanması barədə qəbul olunan qərar da ölkə rəhbərinin bu sahədə atdığı uğurlu addımlardan biridir. Çünki harada yaşayıb-yaratmasından asılı olmayaraq xalqın öz soy kökünə qırılmaz tellərlə bağlılığından, milli özünüdərkə, öz milli-mənəvi dəyərlərinə, öz «mən»inə tam sahibliyindən yaranır əsl azərbaycançılıq. Ölkə rəhbəri xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını dövlətin başlıca vəzifəsi hesab edir. Hələ 2006-cı ildə Rusiyada miqrantlara qarşı münasibətdə gərgin hallar yaşandığı və orada ticarətlə məşğul olan azərbaycanlıların ağır

problemlərlə üzləşdiyi bir vaxtda İlham Əliyevin həmin problemlərin aradan qaldırılması üçün xüsusi komissiya yaradıb Moskvaya göndərməsi onun diasporumuzun ən etibarlı hamisi olduğunu, hər bir Azərbaycan vətəndaşının taleyinə cavabdehlik missiyası daşıdığını bir daha nümayiş etdirdi. İlham Əliyevin beynəlxalq aləmdəki böyük nüfuzu, onun apardığı məqsədyönlü daxili və xarici siyasət, əcnəbi ölkələrdə yaşayan soydaşlarımızla vaxtaşırı görüşüb onlara faydalı məsləhətlər verməsi uzun qərinələr boyu yad millətlər arasında itib-batmış, hətta az qala öz milli şüur, milli özünüdərk meridianlarından uzaqlaşmaq təhlükəsi qarşısında qalmış doğma qan qardaşlarımızın bir-birlərinə qarşı laqeydlik və biganəlikdən əl çəkib dostluq və qardaşlıq yoluna qədəm qoymalarında, vahid bir ailənin üzvləri kimi birləşib bir-birlərinə arxa, dayaq olmalarında mühüm rol oynayıb. Hətta vaxtilə öz milli «mən»lərilə əks qütblərdə dayanıb, özlərini arasında yaşadıqları xalqa rus, fars, ərəb, yəhudi, gürcü kimi təqdim edən bəzi soydaşlarımız belə bu gün «mən azərbaycanlıyam» deməkdən milli qürur duymaqda, planetimizin ən nəhəng ölkələri arasında böyük nüfuz sahibi olan Azərbaycan kimi bəşəri bir dövlətin övladları olduqlarını dünya boyu bəyan etməkdən mənəvi zövq almaqdadırlar. Sevindirici haldır ki, əcnəbi ölkələrdəki soydaşlarımızın əksəriyyəti aradan neçə-neçə qərinələr keçsə də nəinki öz doğma dillərini, hətta azərbaycançılıq adlı milli irslərini, etnik yaddaş adlı şəxsi mülkiyyətlərini, genetik fondlarını qızıl dəyər kimi çağımızadək zədəsiz qoruyub saxlamaqdadırlar. Bu gün azərbaycanlıların kompakt şəkildə yaşadıqları Amerika, Avropa və Asiya qitələrinin ən nəhəng ölkələrində doğma dilimizdə orta təhsil müəssisələri, ali məktəblərdə müxtəlif fakültələr, milli adət və ənənələrimizin təbliği ilə məşğul olan xüsusi dərnəklər, folklor ansamblları, verilişləri dünyanın bir çox ölkələri boyu yayımlanan televiziya və radio proqramları, müxtəlif mətbu orqanlar fəaliyyət göstərməkdədir. Bu işdə azərbaycançılıq adlı milli mentallığı, milli özünüdərki, milli «mən»in mahiyyətini göz bəbəyi kimi qoruyub saxlamağı öz strateji siyasətinin özəyi hesab

edən İlham Əliyevin öz vətəninə və xalqına möhkəm tellərlə bağlılığına əyani sübutdur. O, təkcə Azərbaycanın hüdudları daxilində yaşayan 9 milyon yurddaşımızın yox, planetimizin 70 ölkəsində nəhəng diasporlarda birləşmiş 50 milyondan artıq soydaşımızın da milli lideri, mənəvi atası timsalındadır. Bu gün onun azərbaycançılıq adlı milli ideologiyamıza sadiqlik rəmzi olan imzası dünyanın bütün nöqtələrindən aydın görünməkdədir.

Azərbaycanla dünya ölkələri arasında əməkdaşlığın daha da qranitləşməsində, bəzən yer kürəsində nəzərə çarpan millətlərarası və dövlətlərarası etimadsızlıq və anlaşılmazlıq kimi xoşagəlməz meyillərin doğurduğu qarşıdurmaların aradan qaldırılmasında, millətlərarası əlaqələrin sosial ədalət prinsipləri əsasında, sağlam zəmində qurulmasında, bəşəriyyət üçün qorxusuz-ürküsüz, dinindən, dilindən, irqi mənsubiyyətindən asılı olmayaraq varlığı bütün Adəm övlad-larının bir-birlərinə məhəbbət və sədaqət üstə köklənmiş sakit bir dünya yaradılmasında mühüm rol oynayacaq birinci və ikinci Beynəlxalq Forumların paytaxtımızda keçirilməsi də Azərbaycan Prezidentinin nümunəvi dəyərlər məkanı olan məmləkətimizin dünyaya təqdimatı, onun təhlükəsiz gələcəyi, dinclik və əmin-amanlığı, daha yüksək tərəqqisi naminə hazırladığı bəşəri bir yol xəritəsi idi.

Azərbaycançılıq təkcə milli ideyanı milli ideologiyaya çevirmək, milli mentallığı, milli özünüdərkin mahiyyətini qoruyub saxlamaqla bitmir. Azərbaycançılıq həm də ölkənin iqtisadi potensialının artması, doğma məmləkətin beynəlxalq aləmdə böyük nüfuz sahibinə çevrilməsi, xalqın səadət və xoşbəxtliyi, dinclik və əminamanlığı naminə çarpışmasıdır. Gəlin bəşəriyyət adlı tamın, bütövlüyün azərbaycançılıq adlı komponenti ömrünün milli cazibə məkanı olan ölkə rəhbərinin hakimiyyət kürsüsündə olduğu yola nəzər salaq. Bu az müddətdə Azərbaycan dünyanın ən güclü iqtisadi və siyasi islahatlar mərkəzinə çevrilib. Həyata keçirilən böyük beynəlxalq infrastruktur layihələr nəticəsində son 9 il ərzində iqtisadiyyatımız 300 faiz artıb. Ölkədə əksəriyyəti daimi olan 900 min

yeni iş yeri açılıb. Yoxsulluq səviyyəsində yaşayanların sayı 49 faizdən 7 faizə enib. İşsizlik problemi, demək olar ki, köklü şəkildə həll edilib. Ölkəmiz öz iqtisadi potensialının artım sürətinə görə dünyada liderlik zirvəsinin sahibinə çevrilib. 2003-cü ildən bəri valyuta ehtiyatımız 1,6 milyard dollardan 30 milyard dollara qalxıb. Ölkədə iqtisa-diyyatın çoxşaxəliliyinə nail olunub.Vaxtilə öz içinə qapanıb qalmış Azərbaycan bu gün dünyanın 135 ölkəsi ilə sıx ticarət əlaqəsi yaradıb. Dünya ölkələrinə ixrac edilən emal məhsullarımızın bir çoxu öz keyfiyyət göstəricilərinə görə beynəlxalq və Avropa sertifikatlarına layiq görülüb. Qlobal iqtisadi böhranın yer kürəsini öz ağuşuna aldığı bir dövrdə Azərbaycan karbohidrogen ehtiyatlarının hasilatı sahəsində qazandığı nailiyyətlərə görə BMT-nin xüsusi mükafatını alıb. Azərbaycan öz-özünü əsas ərzaq məhsulları ilə tam təmin edən nümunəvi bir ölkəyə çevrilib. Dünya Bankının və onun struktur vahidi olan beynəlxalq maliyyə korporasiyasının hesabatına görə bu il Azərbaycan planetimizin 181 ölkəsi arasında bir nömrəli islahatçı ölkə statusu qazanıb. Regionda ən böyük hərbi potensiala malik, ən müasir silahlar və texniki qurğularla təchiz edilmiş qüdrətli, sarsılmaz ordu yaradılıb. Son 9 ildə hərbi xərclər 13 dəfə artırılaraq 163 milyon dollardan 2 milyard 150 milyon dollara çatdırılıb. Bu, bütünlükdə işğalçı Ermənistanın illik büdcəsi qədərdir. 2003-cü ildə ölkədə adambaşına düşən milli gəlirin miqdarı 888 dollar həcmində idisə, indi bu rəqəm 5000 dolları ötüb. 2003-cü ildə dövlət büdcəmiz cəmi 1,3 milyard dollar olduğu halda indi bu rəqəm 20 milyard dollara çatıb. 2005-ci ildən bəri bütün çadır şəhərcikləri ləğv olunub. Respublikamızın müxtəlif bölgələrində hər cür avadanlıqlarla təchiz edilmiş 36 yaraşıqlı qəsəbə salınmış və erməni qəsbkarlarının cinayətkar aksiyaları üzündən öz doğma yurd-yuvalarından didərgin düşmüş on minlərlə soydaşımız yeni evlərə köçürülüb. Azərbaycan bundan sonra özünü və dünya ölkələrini azı yüz il təmin edəcək qədər zəngin qaz ehtiyatına malikdir…

Nailiyyətlərimiz beşdimi, ondumu, yüzdümü deməklə qurtarsın. Danışmaqla bitib tükənməyəcək qədər misilsiz uğurlarımızın içində axtarmaq gərəkdir sarsılmaz iradəyə, fenomen bacarıq və qabiliyyətə, məqsədyönlü iş üslubuna, hadisələri düzgün qiymətləndirmək və proqnozlaşdırmaq dəst-xəttinə malik ölkə rəhbərinin azərbaycançılıq fəlsəfəsinin təzahürlərini, milli dövlətçilik ideologiyası ətrafında monolit həmrəylik şüuru nümayiş etdirən qədirbilən xalqımızın qurub-yaratmaq ehtirasının tükənməzliyini, müstəqilliyimizin sarsılmazlığının, əbədiya-şarlığının ümumbəşəri orbitdə aydın görünən zirvə dəyərlərini.

***Heydər Əliyev və yeni cəmiyyət modeli***
***(Heydər Əliyevin 91 illiyinə həsr olunmuş məqalələr məcmuəsi). Bakı, "Azərbaycan" nəşriyyatı, 2014***

## MÜNDƏRİCAT

**HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİ............. 2**
Bir neçə söz........................................................... 5
Azərbaycan dili məsələləri.................................... 6
Nitq mədəniyyəti və natiqlik məharəti.................. 63

**HAYDAR ALİYEV: DEVLET KURUCULUĞU**
**VE DİL POLİTİKASI ..................................................... 131**
Ön söz .......................................................................... 133
Bağımsız azerbaycan'da devlet kuruculuğu
ve dil politikası.............................................................. 144
Haydar Aliyev ve Azerbaycan dili sorunları ...................... 151
Haydar Aliyev... Zamanımızın Atatürkü ............................ 304
Haydar Aliyev ve Uluslararası Atatürk Barış Ödülü ........... 316
Zeka zirvesi..................................................................... 327
Deha kurtarıcı................................................................... 340
Ebedi kurtuluş yolu .......................................................... 363
Büyük Azerbaycan sevgisi.................................................. 370
Haydar Aliyev: Azerbaycan Televizyon ve radyosu ........... 379
Haydar Aliyev fenomeni.................................................... 407
Haydar Aliyev ve Azerbaycan dili (senaryo)....................... 421
Başarılı yolun değerli devamçısı........................................ 434

**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVƏ HƏSR OLUNMUŞ YUBİLEY MƏQALƏLƏRİ ......................... 449**
Heydər Əliyev irsi uğurlu islahatların leytmotividir............ 450
Heydər Əliyev və sosial-iqtisadi inkişafin modeli............... 465
Heydər Əliyev siyasi irsi: Dövlətçilikdə uğurlu siyasi varislik ənənəsi................................................ 475
Heydər Əliyev irsi milli inkişaf konsepsiyasıdır ................ 493
İnsanlığın və liderliyin zirvəsində dayanan əvəzedilməz şəxsiyyət - Heydər Əliyev.............................................. 508
Heydər Əliyevin milli dövlətçilik ideologiyası – azərbaycançılıq ............................................ 526

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

Çapa imzalanmış **29.06.2014**

Şərti çap vərəqi **33,8.** Sifariş № **48**

Kağız formatı **60x84 1/16.** Tiraj **500**

---

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** ***nurlan1959@gmail.com***

Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.